**AZƏRBAYCAN RESPUBLİKASI
DİNİ QURUMLARLA İŞ ÜZRƏ DÖVLƏT KOMİTƏSİ**

**AZƏRBAYCAN İLAHİYYAT İNSTİTUTU**

# "Milli-mənəvi və mədəni irsimizin təşəkkülündə Şuşa"

**mövzusunda**

**RESPUBLİKA ELMİ KONFRANSININ MATERİALLARI**

**BAKI - 2022**

**Baş redaktor:**
dos. Aqil Şirinov

**Redaktor:**
Rəna Həsrətova

**Tərtibçilər:**
dos. Anar Qafarov
Şahin Ələsgərov
Elnarə Ağaoğlu
Emil İsbatov

**“Milli-mənəvi və mədəni irsimizin təşəkkülündə Şuşa” mövzusunda respublika elmi konfransının materialları**

Bakı, "AVE Print" MMC, 2022, 248 səh.

*Konfrans materiallarında yer alan faktlar və fikirlərə görə yalnız məqalə müəllifləri məsuliyyət daşıyırlar.*

ISBN: 978-9952-545-12-8

©Aİİ, 2022

## MÜNDƏRİCAT

*Ön söz*......................................................................................................5

*Türk dünyasının mədəniyyət paytaxtı Şuşanın İslam sivilizasiyasında yeri*
***i.f.d. Ceyhun Məmmədov*** ......................................................................**7**

*Azərbaycanın şuşalı qadın şair-ədibləri: Xurşidbanu Natəvan və Fatma xanım Kəminə*
***f.f.d., dos. Faiq Ələkbərli*** ....................................................................**20**

*"Difai" partiyasının Qarabağ və Şuşa üzrə "Qarabağ Birlik Məclisi" komitələri və onların fəaliyyəti haqqında*
***t.f.d., dos. Cavid Bağırzadə*** .................................................................**37**

*Mir Möhsün Nəvvab yaradıcılığı Qarabağ ədəbi-mədəni mühiti müstəvisində*
***fil. f.d., dos. Səba Namazova***..................................................................**51**

*Üzeyir Hacıbəyli tənqidçi-maarifçi kimi (Felyetonlar əsasında)*
***f.f.d. Qadir Səfərov***..................................................................................**63**

*Şuşanın dini irsi: məscidləri, dini təhsili, ilahiyyatçıları*
***f.f.d. Aliyə Mürsəlova***..............................................................................**72**

*Yuxarı Gövhər ağa məscidinə məxsus epiqrafik abidələrdəki yazıların tədqiqi*
***f.f.d. Elnur Mustafayev*** ...........................................................................**87**

*Şuşanın böyük tarixi*
***f.f.d.Yeganə Qaraşova*** ..........................................................................**101**

*Molla Pənah Vaqifin Qarabağ sarayı ilə bağlılığı rəvayətlər işığında*
***İradə Yusifova* ........................................................................117**

*Şuşa ədəbi-mədəni mühiti Kamran Məmmədovun tədqiqatlarında*
***Könül Hüseynova* ....................................................................130**

*Şuşa – məkanın poetikası*
***Günel İsgəndərova* ..................................................................147**

*Şuşalı ictimai-siyasi xadimlərin Azərbaycanın inkişaf tarixində rolu*
***Rəhman Abbaszadə* ..................................................................159**

*Azərbaycanın tarixi-mədəni mühitində Şuşa*
***Aysu Əlizadə* ..........................................................................173**

*Şuşa – Azərbaycanın mədəniyyət və incəsənət beşiyi*
***Mehriban Məmmədli* ..................................................................217**

*Şuşanın milli-mənəvi irsimizin təşəkkül və inkişafında rolu*
***Ləman Allahverdiyeva*................................................................235**

## ÖN SÖZ

Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyev 8 noyabr 2020-ci il tarixdə Azərbaycan xalqına Müraciətində Şuşa şəhərinin erməni işğalından azad edilməsi müjdəsini verdiyi zaman dövlətçilik tariximizin Şanlı Zəfər dövrünün mühüm hadisəsinə şahidlik etməklə, sonsuz fəxarət və qürur hissləri yaşamışdıq.

Təsadüfi deyil ki, Zəfər Bayramı məhz Şuşanın azad edildiyi gündə qeyd olunur. Belə ki, Şuşa sevgisi hər bir azərbaycanlının mənəvi varlığının ayrılmaz parçasıdır və şanlı tariximizə Zəfər Günü kimi həkk olunan Şuşa qalibiyyəti xalqımızın qəhrəmanlıq dastanına çevrilməklə, onun yaddaşında daim qürurla xatırlanacaq.

Qarabağın tacı, xalqımız üçün müqəddəs və əziz məkan sayılan, təməli 1752-ci ildə Qarabağ xanı Pənahəli xan tərəfindən qoyulan Şuşa şəhəri Azərbaycan tarixi və mədəniyyətində özünəməxsus əhəmiyyətli yer tutur. Şuşa əbəs yerə "Azərbaycanın mədəniyyət beşiyi" adlandırılmır. Dini-mədəni və tarixi abidələri, sarayları ilə məşhur olan bu torpağın ədəbiyyat, incəsənət, siyasət və digər sahələrdə yetişdirdiyi bir çox ölməz, dahi və nüfuzlu şəxsiyyətlər təkcə Azərbaycanda deyil, dünyada da məşhurdur. Bu qədim diyar Azərbaycanın milli-mənəvi və mədəni irsinin təşəkkül və inkişafına mühüm töhfələr vermişdir. Bu mənada, "Şuşa şəhərinin Azərbaycanın mədəniyyət paytaxtı elan edilməsi haqqında" Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin 7 may 2021-ci il və "Azərbaycan Respublikasında 2022-ci ilin "Şuşa İli" elan edilməsi haqqında" 5 yanvar 2022-ci il tarixli sərəncamları xüsusi əhəmiyyət kəsb edir.

Azərbaycan İlahiyyat İnstitutu ölkə başçısının müvafiq sərəncamlarına uyğun olaraq, 5 may 2022-ci il tarixdə Şuşa şəhərinin 270 illiyinə həsr olunmuş "Milli-mənəvi və mədəni irsimizin təşəkkülündə Şuşa" mövzusunda respublika elmi konfransı təşkil etmişdir. Konfransın keçirilməsində məqsəd şəhərin milli-mənəvi və sosial-mədəni irsinin tarix, siyasət, ədəbiyyat, incəsənət, memarlıq, din və fəlsəfə kimi müxtəlif aspektlərdən araşdırılması, bu istiqamətdə əsas vəzifə elmi tezis və məqalələrin nəşr

olunaraq elmi-ictimai mühitə çatdırılması, həmçinin aparılacaq elmi tədqiqat və müzakirələrə şərait yaradılması, bu layihə çərçivəsində Azərbaycan İlahiyyat İnstitutu ilə Respublikanın digər elmi tədqiqat institut və mərkəzləri arasında əməkdaşlığın genişləndirilməsi olmuşdur.

Sözügedən elmi konfrans "Türk dünyasının mədəniyyət paytaxtı Şuşanın İslam sivilizasiyasında yeri", "Şuşanın dini irsi: məscidləri, dini təhsili, ilahiyyatçıları", "Yuxarı Gövhər ağa məscidinə məxsus epiqrafik abidələrdəki yazıların tədqiqi", "Şuşanın milli-mənəvi irsimizin təşəkkül və inkişafında rolu", "Şuşanın böyük tarixi", "Şuşalı ictimai-siyasi xadimlərin Azərbaycanın inkişaf tarixində rolu", ""Difai" partiyasının Qarabağ və Şuşa üzrə "Qarabağ Birlik Məclisi" komitələri və onların fəaliyyəti haqqında", "Azərbaycanın tarixi-mədəni mühitində Şuşa", "Azərbaycanın mədəniyyət və incəsənət beşiyi", "Şuşa – məkanın poetikası", "Azərbaycanın şuşalı qadın şair-ədibləri: Xurşidbanu Natəvan və Fatma xanım Kəminə", "Mir Möhsün Nəvvab yaradıcılığı Qarabağ ədəbi-mədəni mühiti müstəvisində", "Üzeyir Hacıbəyli tənqidçi maarifçi kimi (Felyetonlar əsasında)", "Molla Pənah Vaqifin Qarabağ sarayı ilə bağlılığı rəvayətlər işığında", "Şuşa ədəbi-mədəni mühiti Kamran Məmmədovun tədqiqatlarında" kimi mövzuları ehtiva etmişdir.

**dos. Aqil Şirinov,**
*Azərbaycan İlahiyyat İnstitutunun rektoru*

# TÜRK DÜNYASININ MƏDƏNİYYƏT PAYTAXTI ŞUŞANIN İSLAM SİVİLİZASİYASINDA YERİ

***i.f.d. Ceyhun Məmmədov,***
*millət vəkili, Azərbaycan İlahiyyat İnstitutunun müəllimi*
ceyhunmammadov@ait.edu.az

## XÜLASƏ

Məqalədə türk dünyasının mədəniyyət paytaxtı Şuşanın İslam mədəniyyətindəki yerindən geniş bəhs olunur. Qeyd olunur ki, 270 illiyi təntənə ilə qeyd edilən Qarabağ xanlığının ərazisi Azərbaycanın ən qədim məskənlərindən biri olmaqla yanaşı, bu diyar xalqımızın özü qədər qədim tarixə və ənənələrə malikdir. Ötən əsrin ikinci yarısından başlayaraq görkəmli arxeoloq M.Hüseynovun başçılığı ilə Azıx mağarasında aparılan arxeoloji qazıntılar nəticəsində Azıx adamının alt çənə sümüyü Azərbaycanın dünyanın ən qədim insan məskənlərindən biri olduğunu təsdiq edir.

Eyni zamanda, Şuşa şəhərinin salınma tarixi barədə elmdə müxtəlif mülahizələrin mövcud olduğu, bir çox elmi ədəbiyyatlarda Şuşa şəhərinin əsasının 1754-cü ildə Qarabağ xanı Pənahəli xan tərəfindən qoyulduğunun qeyd edildiyi vurğulanır. Son 40 il ərzində Azərbaycan alimlərinin apardıqları elmi araşdırmalar nəticəsində Şuşanın ölkəmizin ən qədim şəhərlərindən biri olduğu elmi əsaslarla sübuta yetirilmiş, hətta bu qalanın XIII əsrdə monqollar tərəfindən dağıdıldığı haqqında salnamələrdə məlumat verildiyi bildirilmişdir.

Tarixi Azərbaycan şəhəri olan Şuşa həm də İslam dininə aid abidələrlə zəngin şəhərlərdən biridir. Şuşa və ətraf bölgələr İslam dünyasına həm də bir sıra məşhur alimlər bəxş edib. Bu gün Şuşa özünün yeni inkişaf mərhələsinə qədəm qoyub. Burada tarixi məscidlər yenidən təmir və bərpa olunur.

***Açar sözlər:* t***arix, mədəniyyət, abidə, İslam, paytaxt, bölgə.*

Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə xalqa Müraciəti zamanı Qalib Komandan cənab İlham Əliyev 2022-ci ili "Şuşa ili" elan etdi. Prezident 2022-ci il yanvarın 5-də isə bununla bağlı Sərəncam imzaladı. Bu, cənab İlham Əliyevin atdığı növbəti tarixi addım, zərbə mesajı idi. Yəni bu torpaq mənimdir, onun tarixini mən bilirəm. Bugününü də, gələcəyini də mən təmin edəcəyəm. Qoy bütün dünya bunu bilsin. Beləliklə, 270 il əvvəl Qarabağ xanı Pənahəli xanın əsasını qoyduğu Şuşanın yubileyinin keçirilməsi mühüm tarixi hadisəyə çevrildi.

Bu baxımdan, strateji əhəmiyyətli Şuşanın Azərbaycan tarixində xüsusi yerinin olduğunu vurğulayan Azərbaycan Prezidenti bildirib: "Bu, bizim qədim, tarixi şəhərimizdir. Əsrlər boyu azərbaycanlılar Şuşada yaşayıb, qurub-yaradıblar. Şuşa nəinki Azərbaycanın, bütün Qafqazın incisidir. Ancaq mənfur düşmən Şuşanı işğal altında saxlamaqla bizim mədəni irsimizə böyük zərbə vurdu, tarixi abidələrimizi dağıtdı, məscidlərimizi dağıtdı, təhqir etdi. Biz indi Şuşaya qayıtmışıq. Bütün tarixi abidələrimizi bərpa edəcəyik... O cümlədən Şuşada yerləşən məscidlərimiz əsaslı şəkildə təmir edilməlidir, bərpa olunmalıdır, onların öz siması qaytarılmalıdır".

270 illiyi təntənə ilə qeyd edilən Qarabağ xanlığının ərazisi Azərbaycanın ən qədim məskənlərindən biridir. Bu diyar Azərbaycan xalqının özü qədər qədim tarixə malikdir. Keçən əsrin ikinci yarısından başlayaraq, görkəmli arxeoloq M.Hüseynovun başçılığı ilə Azıx mağarasında aparılan arxeoloji qazıntılar nəticəsində Azıx adamının alt çənə sümüyü Azərbaycanın dünyanın ən qədim insan məskənlərindən biri olduğunu təsdiq edir. 1971, 1973, 1975-ci illərdə Mil-Qarabağ arxeoloji ekspedisiyası Məmmədəli Hüseynovun rəhbərliyi altında Qarabağın ən qədim ərazilərindən biri olan Şuşada da elmi tədqiqat işləri aparılmışdır. Aparılan arxeoloji qazıntılar nəticəsində Şuşa şəhəri yaxınlığında, Cıdır düzünün aşağı hissəsində Paleolit mədəniyyətinə aid qədim insan düşərgəsi aşkar olunmuşdur.

Tədqiqatçılar Şuşa mağara düşərgəsində aparılan arxeoloji qazıntılar zamanı aşkar olunmuş daş məmulatının texniki və tipoloji xüsusiyyətlərinə əsasən onların orta aşel və mustye mədəniyyətləri zamanı hazırlandıqlarını söyləyirlər. Deməli, qədim Şuşa ərazisində olan mağara düşərgəsində ibtidai insanlar 200-250 min il bundan əvvəl məskunlaşmağa başlamış-

lar. Son 50 ildə Azərbaycan alimlərinin Qarabağ, o cümlədən Şuşa ərazisində apardıqları arxeoloji, etnoqrafik, epiqrafik, paleocoğrafi və antropoloji elmi tədqiqatlar ən qədim zamanlardan – yəni Quruçay mədəniyyətindən başlamış Azərbaycan xalqının ulu əcdadlarının bu torpaqlarda yaşadığını, zəngin maddi və mənəvi mədəniyyət yaratdığını sübut edir, tarixi saxtalaşdırmağa cəhd edən ermənilərin iddialarının elmi cəhətdən tamamilə əsassız olduğunu göstərir.

Bir çox mənbələrdə Şuşa mağarasının qabağında və ətraf ərazilərdə antik dövrə aid qala divarlarının qalıqları aşkar olunmuşdur. Bəzi yazılı tarixi mənbələrdə isə Şuşa şəhəri ərazisində qədim insanların yaşamalarına dair məlumatlar vardır.

Qarabağ ərazisində erkən antik dövrdə (e.ə. IV-I yüzillikdə) cəmiyyətin inkişafı, təsərrüfatın və ticarətin yüksəlişi baş vermişdir. Burada iri yaşayış məskənləri və şəhərlər yaranmışdır. Həmin dövrdə ictimai münasibətlər xeyli inkişaf etmişdir.

Yunan-Roma müəllifləri Azərbaycan Albaniyası ərazisində məskunlaşan tayfalar haqqında maraqlı məlumatlar vermişlər. Strabon bildirmişdir ki, Albaniyada 26 tayfa var idi.

Eramızdan əvvəl II yüzillikdə Albaniyanın tərkib hissəsi olan Qarabağın yerli əhalisi türklər idilər. Türklər Cənubi Qafqazın cənub-şərq əyalətlərinin, Kür və Araz çayları arasındakı ərazilərin, həmçinin Qarabağ regionunun yerli əhalisidir.

Bərdə şəhəri yaxınlığında yerləşən Kalankat kəndindən olan alban tarixçisi Musa Kalankatlı “Albaniya tarixi" əsərində Qarabağ ərazisi haqqında da maraqlı məlumatlar vermişdir.

Orta əsr mənbələrində Qarabağ ərazisinin tarixinə dair məlumatlar verilmişdir. Bu mənbələr Orta əsrlərdə yaşamış tarixçi, coğrafiyaşünas, səyyah və şairlərin əsərlərindən ibarətdir. Azərbaycan mütəfəkkirləri Nizami Gəncəvinin, Nəsrəddin Tusinin, Seyid Yəhya Bakuvinin və bir sıra səyyah və coğrafiyaşünasların əsərlərində də Qarabağla bağlı məlumatlar öz əksini tapmışdır.

Azərbaycan ədəbiyyatının möhtəşəm abidəsi olan "Kitabi-Dədə Qorqud" dastanında Qarabağ ərazisi də daxil olmaqla, Göyçə gölü hövzəsinə qədər türk-oğuzların yayılmasına dair məlumat verilmişdir.

Ərəblərin hücumu ərəfəsində Azərbaycanda müxtəlif dini etiqadlar mövcud olmuşdur. Bu, o dövrdə salınmış və zəmanəmizə qədər gəlib-çatmış memarlıq abidələrində də özünü göstərirdi. İslam dininin qəbul edilməsi türk-İslam birliyinin yaranmasına, dövlətçiliyin inkişafına müsbət təsir göstərdi. Türk-İslam mədəniyyəti formalaşdı. Müsəlman memarlığı üslubunda məscidlərin, türbələrin inşasına başlanıldı.

Həmin memarlıq abidələri haqqında bir çox mənbədə məlumat verilsə də, lakin bədnam qonşularımız tərəfindən xeyli hissəsi yerlə-yeksan edilmişdir.

Qarabağ vilayətinin köklü elatlarından olan Otuzikilər, İyirmidördlər, Kəbirli və digər tayfalar vaxtilə Nadir şah tərəfindən Xorasana sürgün edilmişlər. Qarabağın güclü tayfalarından biri olan Otuzikilər Qarabağda otuz iki oymaqda yerləşən tayfaların birləşməsi nəticəsində əmələ gəlmişdi. Bu birləşmə arasında Cavanşir tayfası böyük nüfuza malik idi. Həmin tayfaya aid kəndlərin bir çoxu XVIII yüzilliyin sonlarında Bərdə, Ağdam, Kəlbəcər, Tərtər, Goranboy və indiki Yevlax ərazilərində yerləşirdi. Qarabağ xanlığının yaranmasında bu tayfaların mühüm rolu olmuşdur.

Cavanşirli tayfasından olan Pənahəli xan tərəfindən əsası qoyulan Qarabağ xanlığının mərkəzi əvvəl Bayat, sonra Şahbulaq qalası olmuşdur. Bu zaman Qarabağ xanlığı qüvvətləndi və siyasi baxımdan söz sahibi oldu. Cərəyan edən hadisələr – qanlı feodal ara vuruşmaları göstərdi ki, Şahbulaq qalası möhkəm sığınacaq deyil. Dəniz səviyyəsindən 1300-1600 metr hündürlükdə yerləşən və üç tərəfdən sıldırım qayalarla əhatə olunan dağ yaylası bu tələblərə tam cavab verirdi. Pənahəli xan strateji cəhətdən əlverişli olan Şuşa-Pənahabad qalasını bərpa edib iqamətgahını bura köçürür.

Şuşa şəhərinin salınması barədə tarix elmində müxtəlif mülahizələr mövcuddur. Bir çox elmi ədəbiyyatda Şuşa şəhərinin əsasının 1754-cü ildə Qarabağ xanı Pənahəli xan tərəfindən qoyulduğu qeyd olunur. Son 40 il ərzində Azərbaycan alimlərinin apardıqları elmi araşdırmalar nəticəsində Şuşanın ölkəmizin ən qədim şəhərlərindən biri olması elmi əsaslarla sübuta yetirilmişdir. Hətta bu qalanın XIII əsrdə monqollar tərəfindən dağıdıldığı haqqında da salnamələrdə məlumat verilir.

Tədqiqatçılar müəyyən etmişlər ki, XVIII əsrdən hələ çox əvvəllər də Şuşa şəhəri ətrafında müdafiə qalaları və istehkamlar mövcud olmuşdur.

Pənahəli xan isə ona qədər Şuşa ətrafında mövcud olan bəzi müdafiə qalalarını bərpa etdirmişdir. Qarabağ xanlığı təşkil olunduqdan sonra, Pənahəli xan çox mühüm hərbi strateji əhəmiyyətə malik olan yaşayış məntəqələrinin ətrafına müdafiə divarları çəkdirmiş və həmin yerləri abadlaşdırmışdır.

Qarabağ xanları Pənahəli və İbrahimxəlilin dövrlərində Şuşa şəhəri abadlaşdırılmış və daha möhtəşəm olmuşdur. "Qarabağnamələr"də bu barədə geniş məlumat verilmişdir. Şəhər əhalisi XVIII əsrin ikinci yarısından başlayaraq sürətlə çoxalmış və Şuşa Azərbaycanın mühüm, strateji əhəmiyyətli şəhərlərindən birinə çevrilmişdir. Hələ Pənahəli xanın dövründə şəhərdə böyük tikinti işləri aparılmış, sonra İbrahimxəlil xanın (1763-1806-cı illər) dövründə isə Qarabağ xanlığı daha da güclənmişdir. Xanlığın ərazisində Əsgəran, Ağoğlan qalaları, Şuşa qalasının divarları və s. diqqətəlayiq, strateji əhəmiyyətli qalalar tikilmişdi. Şəhər qısa müddət ərzində xeyli böyümüş, təbii gözəlliyi, hündür binaları və möhtəşəm qala divarları ilə diqqəti cəlb etmişdir.

Şəhərdə 17 məhəllə var idi. Pənahəli xanın hakimiyyəti illərində (1747-1763) şəhərin salınmasının ilkin mərhələsində ən qədim məhəllələr sonralar ərazinin relyefinə uyğun olaraq "Aşağı məhəllə" adlandırılmışdır. Aşağı məhəllə 9 məhəllədən təşkil olunmuşdu: Seyidli, Çöl qala, Çuxur məhəllə, Quyuluq, Dördlər qurdu, Qurdlar, Merdinli, Hacı Yusifli, Culfalar. Şuşanın bir şəhər kimi formalaşmasının ikinci mərhələsi İbrahimxəlil xanın hakimiyyəti illərinə (1763-1806) təsadüf edir. Bu mərhələdə "Yuxarı məhəllə" adlanan ikinci məhəllə formalaşmışdı. Yuxarı məhəllə 8 məhəllədən təşkil olunmuşdur: Saatlı, Mamayı, Köçərli, Xocamircanlı, Ağadədəli, Dəmirçilər, Təzə Məhəllə, Hamamqabağı. Bu məhəllələrin hər birinin məscidi, bulağı və hamamı var idi.

Şuşa Azərbaycanın qədim tarixə malik olan şəhər mədəniyyətinin nadir və təkrarsız incilərindən biridir.

Şuşada "Bazarbaşı" deyilən yerdən Şeytanbazara qədər uzanan üstüörtülü ticarət mərkəzi və şəhərin əsas küçəsi "Rastabazar" adlandırılırdı. Rastabazarın sıra ilə düzülən və daşları bir-birinə qurğuşunla bərkidilən sütunlardan, tağlardan ibarət olan və qalereyanı xatırladan səkiləri başdan-başa örtülü olduğundan, bütün fəsillərdə quru və təmiz qalırdı.

Küçənin ortası ilə nəqliyyat vasitələri hərəkət edirdi. Orta əsr Şərq üslubunda zövqlə tikilən bu bazar həm də şəhərə xüsusi yaraşıq verirdi. Şuşanın ticarət mərkəzinin bənzərsiz görkəmi onun magistralına bitişik iri bazar meydanı ilə tamamlanırdı. Şəhərin "Meydan" deyilən əsas meydanı Rastabazar küçəsi boyunca tikilmiş ibadətgah və ticarət təyinatlı tikililərdən, birmərtəbəli dükanlardan, ikimərtəbəli karvansaradan və qoşaminarəli yaraşıqlı Cümə məscidindən ibarət idi. Bu məlumatlar Qarabağın XVIII yüzilliyə aid tarixi və mədəniyyəti Mirzə Adıgözəl bəyin "Qarabağnamə", Mirzə Camal Qarabağinin "Qarabağ tarixi", Əhməd bəy Cavanşirin "Qarabağ xanlığının 1747-1805-ci illərdə siyasi vəziyyətinə dair", Mir Mehdi Xəzaninin "Kitabi-tarixi-Qarabağ" əsərlərində öz əksini tapmışdır. Bu əsərlər Qarabağ tarixinin öyrənilməsində böyük rol oynayır.

Qarabağ xanlığının mövcudluğu ərzində iqtisadi inkişaf sahəsində əvvəlki dövrlərə nisbətən irəliləyiş hiss olunurdu. Bu irəliləyişin ən mühüm amili əkinçilik mədəniyyətinin yüksəlişi ilə bağlıdır. Salnamələrdə deyilir ki, xanlıq ərazisindəki bütün torpaqlar xanın özü, ağalar, bəylər, rəiyyət və vəqflər üzrə bölünmüşdü. Bu bölgü Qurani-Kərimin məzmunundan irəli gələn şəriət ehkamlarına əsaslanırdı. Başqa xanlıqlarda olduğu kimi, Qarabağ xanlığında da mülki və cinayət işlərinə, əsasən, şəriət qanunları və adət-ənənələr əsasında baxılırdı.

Qarabağda XVIII yüzilliyin II yarısında mədəniyyətin inkişafı geniş vüsət almışdır. Bu zaman memarlıq, şəhərsalma və dekorativ-tətbiqi sənət sahələri inkişaf etmiş, çoxlu daş kitabələr yaranmışdır. Bu türk-İslam mədəniyyəti abidələri qədim tariximizi yaşadan nadir memarlıq nümunələridir. Həmin memarlıq abidələrinin böyük qismini məscidlər təşkil edir. İbadət məqsədilə tikilən məscid "Allahın evi" sayıldığına görə, İslam dinində xüsusi əhəmiyyətə malikdir. Həmin ibadət məkanlarına İslam ümməti həmişə böyük hörmətlə yanaşıb. Məscid binaları həm də mədəniyyət nümunəsi və tarixi abidə kimi dəyərləndirilir.

Qarabağ hakimi İbrahimxəlil xan Cavanşir tərəfindən 1769-cu ildə Şuşada "Meydan" adlanan yerdə ilk Böyük Cümə məscidi tikilib. Dövrün tələblərinə cavab vermədiyinə görə, XIX əsrin 60-cı illərində Gövhər ağa Cavanşirin vəqf üçün ayırdığı mülklərdən əldə edilən gəlir hesabına memar Kərbəlayi Səfixan Qarabağinin layihəsi və nəqqaş Mir Möhsün

Nəvvabın iştirakı ilə məscid əsaslı şəkildə bərpa olunub. Həmin vaxtdan da Cümə məscidi el arasında "Yuxarı Gövhər ağa məscidi" adlanıb. O dövrdə şəhərdə yalnız bir böyük – Cümə məscidi fəaliyyət göstərirdi. İbadət etmək üçün yer azlığından şiə və sünni təriqətlərinin nümayəndələri, xüsusən də şeyxlər və üsulilər arasında tez-tez narazılıq və münaqişələr olurdu. Ona görə də burada ikinci məscidə böyük ehtiyac var idi. Narazılıqları aradan qaldırmaq və dindarların ehtiyaclarını ödəmək üçün Gövhər ağa İbrahimxəlil xan qızı Cavanşir Cümə məscidinin yaxınlığında yeni məscidin bünövrəsini qoyub və onun tikintisi 1834-cü ildə başa çatıb.

Memar Kərbəlayi Səfixan Qarabağinin layihəsi ilə 1883-cü ildə inşa edilən Saatlı məscidi yerləşdiyi məhəllənin adı ilə adlandırılıb. Öz xarici görünüşü ilə tikilinin baş fasadının bağlı şəkildə inşa olunması, əsas girişi qeyri-simmetrik, qadınlar üçün girişin ayrıca götürülməsi, arxa fasadın pəncərəsizliyi və ümumi məscidin təkminarəli olması ilə şəhərdəki digər məscidlərdən tamamilə fərqlənirdi. Bəzi konstruksiya elementləri özündən əvvəl tikilən məscidlərə bənzəyirdi. Buna əsasən interyerdə rast gəlinirdi. Kvadratşəkilli ibadət zalının mərkəzində qoyulmuş dörd ədəd səkkizbucaqlı daş sütun, ikinci mərtəbədə həmin zalın mehrabı ilə üzbəüz olan qadınlar üçün quraşdırılmış şüşəbənd eyvan və sair bu qəbildəndir. XIX əsrdə tikilmiş Hacı Yusifli məscidi daxili və xarici konstruksiya baxımından şəhərin o biri məhəllə məscidləri ilə eynidir. Həmin əsrdə Şuşanın Mamayı məhəlləsində tikilmiş ikimərtəbəli məhəllə məscidi də məhəllənin adı ilə tanınıb. Bunlardan başqa, Şuşada Culfalar, Çölqala, Köçərli (1905-ci ildə erməni-müsəlman davasında tamamilə dağıdılıb), Xoca Mərcanlı, Quyuluq, Malıbəyli (kənd), Merdinli, Seyidli və Təzə məhəllə məscidləri də var idi. Bu məscidlərin yaxınlığında mədrəsələr fəaliyyət göstərirdi. Yuxarıda qeyd edilən bu qoşaminarəli əzəmətli məscidlər Azərbaycanın, eyni zamanda, müsəlman Şərqinin nadir incilərindən idi.

Çar Rusiyası dövründə də bütün Qarabağın inzibati, iqtisadi mərkəzi olmuş, inkişaf etmiş bu şəhərin mənəvi pasportu olan Daşaltı dərəsi, Cıdır düzü, memarlıq inciləri Şuşanı qədim mədəniyyət mərkəzlərindən biri kimi tanıtmışdır. Hər biri əvəzsiz sənət nümunəsi olan Xan, Qaxal mağaraları, Şuşa qalası, Xurşidbanı Natəvanın, artilleriya generalı Meh-

mandarovun, şair-rəssam Mir Möhsün Nəvvabın ev-muzeyləri, İbrahim xanın və onun qızı Qara Böyükxanımın qəsrləri, “Gəncə darvazaları”, Gövhər ağa məscidi, əsas ticarət mərkəzi olan Rastabazar, möhtəşəm qala divarları, memarlıq üslubu ilə inşa olunan digər tikililər şəhərə gələn qonaqları valeh edirdi. Şuşa bənzərsiz memarlıq abidələri ilə yanaşı, dahi sənətkarların, görkəmli ictimai-siyasi xadimlərin, alimlərin xatirəsini əbədiləşdirən abidələrlə də zəngin idi.

Şuşanın necə bir mədəniyyət mərkəzi olmasını, mədəniyyətimizin inkişafına verdiyi töhfələri elə Qarabağ ədəbi məclislərinin fəaliyyəti nümunəsində görə bilərik.

Dünya, eləcə də Şərq mədəniyyətində ədəbi məclislər xüsusi mədəni təsisat, institut kimi qədim dövrlərdən mövcud olmuşdur. Şərqdə, eləcə də Azərbaycanda onlar, əsasən, saraylarda yaradılıb və üzvləri hökmdarların himayəsində olub. Ədəbi məclislər siyasi hakimiyyət əldən getdikdən sonra mədəni hakimiyyəti ələ alan, mədəniyyətin, maarifin, milli ideologiyanın inkişafına təkan verən mərkəzlər funksiyasını yerinə yetirib.

XIX əsr Şuşa ədəbi məclisləri özünün çoxyönlü funksiyası, ədəbiyyata, mədəniyyətə, maarifə verdiyi töhfələri ilə fərqlənir. Mənbələrdə ən çox adı çəkilən Şuşa məclisləri – "Məclisi-üns" və "Məclisi-fəramuşan"dır. Bu məclisləri mədəni təsisat kimi nəzərdən keçirdikdə Qarabağ ədəbi-mədəni mühiti haqqında müəyyən təsəvvür formalaşır. Ədəbi məclislər, ilk növbədə, şeir-sənət məktəbi idi. Burada şeirlər, məsnəvilər yazılır, ədəbi müzakirələr aparılır, şeir normaları öyrədilir, nəzirələrlə ənənələr möhkəmlədilir və gələcək nəsillərə ötürülürdü. İncəsənətin fərqli növlərini əlaqədə təqdim edən Şuşa ədəbi məclisləri həm də rəssamlıq, xəttatlıq fəaliyyətini də mərkəzləşdirən mədəniyyət ocaqları idi.

Azərbaycanın bütün bölgələrində, o cümlədən Şuşada ədəbi məclislər dövrün ziyalılarını bir araya gətirən, mühüm hadisələrin müzakirə olunmasına xidmət edən mərkəz funksiyasını yerinə yetirirdi.

Şuşa ədəbi məclislərində elmin inkişafına yüksək dəyər verilir, şəhərin elm xadimləri ədəbi məclislərlə sıx əlaqə saxlayırdı. "Məclisi-üns”ün təməlləri Şuşanın elm və təhsil mərkəzi kimi tanınan Əbülqasım mədrəsəsində atılmışdı. Şairliyi ilə bərabər, alim kimi də tanınan Nəvvab "Təzkireyi-Nəvvab"da Şuşada yaşayan alimlərə və müəllimlərə də yer ayırmışdır.

Şuşa ədəbi məclislərində ənənəvi didaktik janr olan nəsihətnamə ənənəsi də davam etdirilirdi. "Məclisi-üns"də Növrəs, Mirzə Həsən, "Məclisi-fərmuşan"da Nəvvab nəsihətnamə yazmışdılar.

Şuşa ədəbi məclisləri XIX əsrdə Azərbaycanda mədəni ideologiyaların inkişafında da mühüm rol oynamışdır. İslamçılıq, türkçülük, azərbaycançılıq, müasirləşmə ideologiyalarının mədəni təzahürlərinə aid sənətkarların yaradıcılığından çoxsaylı misallar gətirmək olar.

Sovet dövründə Heydər Əliyevin fəaliyyətinin mühüm əhəmiyyət daşıyan istiqamətlərindən biri məhz Qarabağda milli ruhun oyadılması olmuşdur. Ümummilli Lider Şuşaya zəngin tarixi abidə, Azərbaycan xalqının qəhrəmanlıq rəmzi kimi baxırdı. O, 1970-ci illərdə Şuşa şəhərində Azərbaycan xalqının tarixi abidələrinin qorunmasına xüsusi qayğı göstərilməsi barədə vacib göstəriş vermişdir. Ulu Öndər, eyni zamanda, Şuşada aparılan tikinti-quruculuq işləri ilə də yaxından maraqlanmış, Heydər Əliyevin bilavasitə təşəbbüsü və rəhbərliyi ilə Şuşa şəhərinin inkişaf etdirilməsi məqsədilə 1970-ci illərin ikinci yarısında bir neçə xüsusi qərar qəbul edildi. Həmin il qərarlara uyğun olaraq şəhərin keçmişdə tikilmiş binaları, tarixi abidələri bərpa edildi, yeni çoxmərtəbəli yaşayış binaları, böyük mehmanxana kompleksləri, ayrı-ayrı inzibati binalar tikildi. Tarixi-memarlıq və şəhərsalma abidəsinin yüksək bədii əhəmiyyəti nəzərə alınaraq 1977-ci ildə Şuşa tarixi-memarlıq qoruğuna çevrilmişdi. Bununla yanaşı, Şuşanın statusu qaldırılaraq ümumittifaq səviyyəli kurort şəhərinə çevrildi. Ümummilli Liderin Şuşa məscidinə getməsi bir tərəfdən, onun dini dəyərlərə olan ehtiramının və dərin bağlılığının göstəricisi idisə, digər tərəfdən azərbaycanlı əhalinin milli və dini dəyərlərə sahib çıxmalarının vacibliyinə olan nümunə idi. Ulu Öndər erməni millətçilərinin ona müxtəlif böhtanlar atdığı bir zamanda məscidə getməklə yerli əhaliyə dini inanclarını qorumağı da tövsiyə etmişdi.

1982-ci il iyulun 29-dan avqustun 2-dək Qarabağa bir il içərisində ikinci dəfə səfər edən Heydər Əliyevin bilavasitə iştirakı ilə Şuşada şairə Xurşidbanu Natəvanın abidəsinin açılışı oldu. Bununla yanaşı, Ulu Öndər Üzeyir bəy Hacıbəylinin və Bülbülün Şuşadakı ev-muzeylərindəki eksponatlarla tanış olmuş və onların qorunmasına dair tövsiyələrini də vermişdi. Qeyd etmək lazımdır ki, bir ildə iki dəfə Şuşaya gedərkən ailəsi ilə

birlikdə yanında elm, mədəniyyət və incəsənət adamlarının böyük bir qrupunu da aparmışdı.

"Şərqin konservatoriyası" adlanan bu şəhər Cabbar Qaryağdıoğlu, Qurban Pirimov, Üzeyir Hacıbəyov, Bülbül, Seyid Şuşinski, Xan Şuşinski, Rəşid Behbudov, Niyazi, Fikrət Əmirov, Süleyman Ələskərov kimi incəsənət xadimlərinin vətəni olmuşdur. Dəniz səviyyəsindən 1403 metr hündürlükdə salınan bu şəhər Turşsu mədən suyu ilə də məşhur olmuş, kurort kimi qonaqların ən çox dincəldiyi məkana çevrilmişdir. Xarı bülbülün vətəni sayılan Şuşa bütün gözəlliyi ilə fərqləndiyindən həmişə kimlərinsə göz dikdiyi məkana çevrilib. Təəssüf ki, bu nadir memarlıq inciləri və dahi sənətkarlara qoyulmuş abidələr XX əsrin 90 ci illərində erməni vandalizminin qurbanı oldu. Bununla yanaşı, işğala qədər Şuşada memarlıq abidəsi sayılan 850-dən çox yaşayış binası və 300-dək mədəniyyət və tarixi abidə var idi. Bunların içərisində Son Tunc və ilk Dəmir dövrü abidəsi sayılan Şuşa və Şuşakənd daş qutusu qəbirləri, Daş dövrü abidəsi olan Şuşa mağara düşərgəsi, XVIII əsrə dair Şuşa qalasının divarları, Gəncə qapısı, Pənah xanın sarayı və kitabxanası, İbrahim xanın bürcü və qəsri, Xan sarayı və karvansara, M.P.Vaqifin mədrəsəsi və türbəsi, Yuxarı məscid mədrəsəsi, Hacıqulların malikanəsi, İkimərtəbəli karvansara, Mehmandarovların malikanə kompleksi, Gövhər ağa, Xoca Mərcanlı, Hacı Abbas, Mərdinli, Saatlı, Köçərli məscidləri, Xurşidbanu Natəvanın evi və bulağı, Ə.B.Haqverdiyevin, Q.B.Zakirin, M.M.Nəvvabın, S.S.Axundovun, N.B.Vəzirovun, Y.V.Çəmənzəminlinin evləri, Mamay bəyin evi, məscidi və bulağı, Behbudovların, Fərəməzovların, Zöhrabbəyovun, Bəhmən Mirzənin evləri, Üzeyir bəy Hacıbəylinin, Bülbülün ev-muzeyləri, Xan Şuşinskinin, tarzən Sadıqcanın evləri, Realni məktəbinin binası, Qız məktəbi, Şirin su hamamı, Meydan bulağı, İsa bulağı və s. tarixi mədəniyyət nümunəsi erməni işğalçıları tərəfindən talan edilmiş, dağıdılmış və məhv edilmişdir.

Vətən müharibəsində əldə edilən Zəfər nəticəsində Şuşada həyat yenidən dirçəlməyə başladı. Azərbaycanın mədəniyyət paytaxtı, dilbər guşəmiz Şuşada bərpa işləri uğurla davam etdirilir. Vaqif Poeziya Günləri və "Xarıbülbül" festivalı bərpa olundu. Heydər Əliyev Fondunun təşkilatçılığı ilə 2021-ci il mayın 12-13-də Azərbaycanın mədəniyyət paytaxtı,

Qarabağın tacı olan Şuşa 29 ildən sonra yenidən “Xarıbülbül” musiqi festivalına ev sahibliyi etdi.

Şuşa şəhərinin 2021-ci ildə Azərbaycanın mədəniyyət paytaxtı elan edilməsi, nəinki ölkə vətəndaşlarının, eləcə də bütün türk dövlətlərinin gözlədiyi cəsarətli bir addım idi. Bu həm də Şuşanın Azərbaycan üçün nə qədər qiymətli olduğunun göstəricisi idi.

Hazırda mühüm tarixi-mədəni əhəmiyyəti və xalqımız üçün müstəsna mənəvi dəyərə malik olan Şuşa şəhərində Heydər Əliyev Fondu tərəfindən bir sıra tarixi, mədəni abidələrin bərpası üzrə genişmiqyaslı layihələr həyata keçirilir. Əminik ki, qırx dörd günlük Vətən müharibəsində 28 illik erməni işğalından azad edilən, vaxtilə tarixi-mədəni zənginlikləri ilə dünyada şöhrət qazanmış Şuşa şəhəri “Türk dünyasının mədəniyyət paytaxtı” missiyasını layiqincə yerinə yetirəcək. Türk dünyasının qədim mədəniyyət beşiyi olan Şuşa dirçələcək və dünyaya səs salacaq. Yuxarı Gövhər ağa, Aşağı Gövhər ağa məscidlərinin minarələrindən səslənən azan səsi Şuşanı azadlığına qovuşduran şəhidlərimizin ölməz ruhunu şad edəcək.

## ƏDƏBİYYAT


Azərbaycan arxeologiyası. (2008). 3 cilddə, I cild. Bakı: Şərq-Qərb.

Qəniyev H. (2019). Azərbaycan tarixi. Bakı: Elm və Təhsil.

Qiyasi C. (1991). Nizami dövrü memarlıq abidələri. Bakı: İşıq.

Əlizadə H.İ. (2020). Şuşa şəhərinin tarixi. Bakı: Qanun.

Kalankatlı M. (1993). Albaniya tarixi. Bakı: Elm.

Nəvvab M. (1993). 1905-1906-cı illərdə erməni-müsəlman davası. Bakı: Azərbaycan.

*д.ф.по теологии Джейхун Мамедов*

# МЕСТО ШУШИ-КУЛЬТУРНОЙ СТОЛИЦЫ ТЮРКСКОГО МИРА В ИСЛАМСКОЙ ЦИВИЛИЗАЦИИ

## РЕЗЮМЕ

В статье подробно рассказывается о месте Шуши – культурной столицы тюркского мира в исламской культуре. Этот край Карабахского ханства, торжественно отпраздновавший свое 270-летие, является одной из древнейших земель Азербайджана и имеет такую же древнюю историю и традиции, как и сам азербайджанский народ. Нижняя челюсть Азыхского человека, найденная в результате археологических раскопок, проводимых в Азыхской пещере, начиная со второй половины прошлого века, под руководством выдающегося археолога М.Гусейнова, подтверждает, что Азербайджан является одним из древнейших поселений людей в мире.

В то же время в исторической науке существуют различные взгляды относительно истории основания города Шуша. Во многих научных публикациях отмечается, что основа города Шуша была заложена в 1754 году карабахским ханом – Панахали ханом. Однако научные исследования азербайджанских ученых за последние 40 лет показали, что Шуша является одним из древнейших городов нашей страны, и даже в летописях упоминается разрушение Шушинской крепости монголами в XIII веке.

Шуша также является одним из городов, богатых памятниками исламской культуры. Шуша и прилегающие районы подарили исламскому миру ряд известных ученых. Сегодня Шуша вступила в новый этап своего развития. Здесь ремонтируются и реставрируются исторические мечети. В скором времени Шуша вернет себе исторический облик и станет одним из самых благоустроенных и красивых городов мира.

***Ключевые слова:*** *история, культура, памятник, ислам, столица, регион*

*Assist. Prof. Jeyhun Mammadov*

# THE PLACE OF SHUSHA, THE CULTURAL CAPITAL OF THE TURKIC WORLD, IN ISLAMIC CULTURE

## ABSTRACT

The article covers the place of Shusha – the cultural capital of the Turkic world – in Islamic culture. This region of the Karabakh Khanate, which recently celebrated its 270th anniversary, is one of the most ancient lands of Azerbaijan, with a history and traditions as old as the people of Azerbaijan. The lower jawbone of the Azykh man, found during the archaeological excavations being conducted in the Azykh cave since the second half of the last century, led by the outstanding archaeologist M.Huseynov, proves that Azerbaijan is one of the earliest human settlements in the world.

At the same time, there are differing points of view in historical studies regarding the history of founding of Shusha. Many scientific publications show that Shusha was founded by Panakhali, the khan of Karabakh, in 1754. However, the research conducted by Azerbaijani scientists over the past 40 years has shown that Shusha is one of the oldest cities in our country, and even the annals mention the destruction of the Shusha fortress by the Mongols in the 13th century.

On top of that, Shusha is one of the cities endowed with monuments of Islamic culture. Shusha and the surrounding areas have also introduced a number of prominent scholars to the Islamic world. Today Shusha has entered into a new stage of its development. Historical mosques are being repaired and restored here. In the not-too-distant future Shusha will regain its historical appearance and become one of the most landscaped and wonderful cities in the world.

***Keywords:*** *history, culture, monument, Islam, capital, region*

# AZƏRBAYCANIN ŞUŞALI QADIN ŞAİR-ƏDİBLƏRİ: XURŞİDBANU NATƏVAN VƏ FATMA XANIM KƏMİNƏ

***f.f.d., dos. Faiq Ələkbərli,***
*AMEA Fəlsəfə və Sosiologiya*
*İnstitutunun aparıcı elmi işçisi*
faikalekperov@mail.ru
ORCID: 0000-0002-8865-568x

## XÜLASƏ

Məqalədə XIX əsrdə Azərbaycanın Qarabağ bölgəsinin Şuşa şəhərində yazıb-yaratmış qadın şair-ədiblərimiz – Xurşidbanu Natəvan və Fatma xanım Kəminənin dünyagörüşündən bəhs olunur. Burada, ilk növbədə, Natəvanın həyatından və ictimai işlərindən söz açılmış, onun Azərbaycanın Qarabağ bölgəsindəki fəaliyyəti işıqlandırılmışdır. Belə ki, Natəvan Qarabağ Xanlığının varisi kimi öz nüfuzundan istifadə edərək, bu bölgədə mühüm işlər görmüş, xeyriyyəçilik və maarifçiliklə məşğul olmuşdur. Məqalədə öz dövrünün tanınmış ictimai xadimi olan Natəvanın yenilikçi addımları izah olunmuş və onun romantik-fəlsəfi mahiyyətli yaradıcılığından, xüsusilə də insani hisslərin dünyəviliklə yanaşı, ruhaniyyətindən də söz açılmışdır. Şeirlərindəki ruhani-mənəvi duyğular bu dünya ilə nə qədər bağlı olsa da, eyni zamanda, ilahi xarakter daşıyan məzmundan da xali deyildir.

Məqalədə Natəvanla eyni dövrdə yaşamış Fatma xanım Kəminənin də həyat və yaradıcılığından bəhs olunur. Fatma xanım Kəminə dövrünün kifayət qədər tanınmış qadın şair-mütəfəkkirlərindən biridir. Onun yaradıcılığında müəyyən qədər dini-mistik motivlər olsa da, əsasən, yenilikçiliyə meyil etmişdir. Məqalədə göstərilir ki, Fatma xanım Kəminə öz dövrünün tanınmış nadir qadın şair-ədiblərindən biri kimi, düşüncələri və baxışlarına görə çox fərqlənmişdir. Hər halda, onun şeirlərində klassik ədəbiyyata və fəlsəfəyə bağlılıq olmaqla yanaşı, müəyyən qədər ondan kənaraçıxmalar da

hiss olunur. Fatma xanım Kəminənin yaradıcılığında müəyyən qədər pessimizm əksini tapsa da, bütövlükdə həyata bağlılıq daha güclüdür. Hər halda, onun şeirlərində zəmanənin dərdi, qəmi ilə yanaşı, dünya ilə mübarizə apararaq yaşamaq eşqi də vardır. Bu baxımdan, Kəminə heç də hər şeyi həyatın axarına buraxıb, "alın yazısı"na boyun əyib yaşamağın doğru olmadığını görə bilmişdir. Ona görə də Kəminənin zəmanəsinin nadir qadın şair-ədiblərindən biri kimi tanınması təsadüfi olmamışdır.

***Açar sözlər:*** *Qarabağ, Şuşa, qadın şair-mütəfəkkirlər, Xurşidbanu Natəvan, Fatma xanım Kəminə, yenilikçilik.*

## Giriş

XIX əsrdə dünyəvi mahiyyətli İslam dininə, milli-mənəvi xüsusiyyətlərə və yenilikçi-azadruhlu fəlsəfi məsələlərə yenidənqayıdış məsələsində Azərbaycanın türk mütəfəkkiri Abbasqulu Ağa Bakıxanov, Seyid Əbülqasim Nəbati, Mirzə Şəfi Vazeh və başqaları ilk yerləri tutmuşlar. Həmin dövrdə yaşamış S.Ə.Nəbati, A.A.Bakıxanov İslam dininin şiə məzhəbinin təsiri dairəsində olsa da, ümumilikdə, dünyagörüş baxımından İslam dininin dünyəvi-yenilikçi-hürr mahiyyətini dərindən dərk etmiş, milli kimliyi dini kimlikdən fərqləndirməyi bacarmış və ən əsası, yenilikçi ruhlu mütəfəkkirlər olmuşlar. Eyni zamanda, bu dövrdə Qasım bəy Zakirin, Mirzə Şəfi Vazehin yaradıcılığında da feodal cəmiyyətdə hökm sürən dini fanatizmin, dini mövhumatın tənqidi ilə yanaşı, milli dəyərlərə sədaqət və yeniləşməyə meyillilik də olmuşdur. Onlarla yanaşı, XIX əsrdə Azərbaycanın Qarabağ bölgəsinin Şuşa şəhərində yazıb-yaratmış qadın şair-ədibləri arasında iki sima – Xurşidbanu Natəvan və Fatma xanım Kəminə diqqətimizi daha çox cəlb etmişdir.

X.Natəvan və F.Kəminə öz dövrlərinə görə kifayət qədər qabaqcıl görüşlü, yenilikçi düşüncəli şair-ədiblərimizdir. Onların maarifçi, ruhani-mənəvi şeirlərində Azərbaycan türk qadınının arzu-istəkləri ilə yanaşı, insan həyatına və dünyaya baxışları da əks olunmuşdur. Həmin dövrün mühitinə nəzər saldıqda görürük ki, hər iki qadın-ədibimiz zəmanəsinə görə olduqca yenilikçi ruhlu olmuşlar.

**Natəvanın həyatı və ictimai fəaliyyəti**

Qarabağ xanlarının nəslindən olan Xurşidbanu Natəvan (1832-1897) 1832-ci il avqustun 15-də Şuşada, Qarabağın son xanı Mehdiqulu xan Cavanşirin ailəsində dünyaya gəlmişdir. Xalq arasında "Xan qızı" ləqəbi ilə tanınan Natəvan saray tərbiyəsi gormüş, dövrün tanınmış alim və sənətkarlarından dərs almışdır. Azərbaycan türk mütəfəkkiri Firidun bəy Köçərli Natəvanın tərcümeyi-halını qələmə alarkən yazırdı: "Mərhumeyi-məğfurə validi-əmcədinin vəfatından sonra atasının yerində əyləşib, bir müddət artıq təntənə ilə atası kimicəmi Qarabağa xanlıq elədi. Əvvəlcə Dağıstan nücəbalarından knyaz Xasay cənablarına ərə gedib və ondan iki nəfər övladı olubdur" (Köçərli 2005, 164). Xurşidbanu Natəvanın gənc yaşlarında çarlığın etibar etdiyi dağıstanlı knyaz Xasay xan Usmiyevlə evlənmək məcburiyyətində qalmasına əsas səbəb çarizmin onun Qarabağ bəylərindən biri ilə ailə qurmasını özü üçün təhlükəli hesab etməsi idi. Başqa sözlə, Qarabağ Xanlığının yenidən dirçəlməsini özü üçün təhlükə hesab edən Çar Rusiyası X.Natəvanın dağıstanlı bir knyazla ailə qurmasını daha məqbul hesab etmişdir.

Xasay xanın qulluğu ilə əlaqədar olaraq, Xurşidbanunun dörd-beş ilə yaxın Tiflisdə yaşaması onun şair və rəssam kimi formalaşmasına böyük təsir göstərmişdir. Tiflis mühiti Xan qızına Qafqazın çoxmillətli mədəniyyəti ilə tanış olmaq və ondan bəhrələnmək imkanı yaratmışdır. Natəvan bu şəhərdə rus, gürcü mədəni cəmiyyətlərinə qoşulmuş, özü də milli ənənəsi, kübarlara məxsus davranışı və üç dildə sərbəst danışması ilə bu cəmiyyətlərdə maraq oyatmışdır.

Bir sıra vilayət və şəhərlərə səyahətə çıxması Xurşidbanunun təfəkkür dairəsinin genişlənməsinə, dünyagörüşünün artmasına təkan vermişdir. Vladiqafqaza, Dağıstana, Şirvana, Bakıya, Gəncəyə və Naxçıvana səfərləri zamanı o, çarizmin ucqarlarda yeritdiyi müstəmləkə siyasətinin şahidi olmuş, yüksəkrütbəli dövlət qulluqçuları, yazıçı, alim və səyyahlarla görüşmüşdür. 1858-ci ildə xoşbəxt bir təsadüf Bakıda məşhur fransiz yazıçısı Aleksandr Düma ilə Xurşidbanunu rastlaşdırmışdır. Xasay xanın fransız dilində "əsl parisli kimi" danışması qonaqların heyrət və sevincinə

səbəb olmuş, aralarında dostluq əlaqəsi yaranmışdır (Məmmədov 2004, 10). Natəvanın Bakıdan Şıx kəndinə daş yol çəkdirməsi haqqında ilk məlumatı da A.Düma özünün "Qafqaza səyahət" kitabında vermişdir.

1864-cü ildə Xasay xanın ailəsini atıb-getməsi və knyaz Loris-Melikovla münaqişə nəticəsində sürgünə göndərilərək, 1866-cı ildə orada özünü öldürməsi Xurşidbanuya boşanmaq üçün qanuni əsas vermişdir. Şairin camaat arasına üzüaçıq çıxması, şerə, rəsmə və musiqiyə həvəs göstərməsi din xadimlərinin xoşuna gəlməmişdir. O, ərsiz qaldığına görə, xəbis və nadan adamlardan ünvanına tikanlı sözlər eşitmişdir. Xurşidbanu tənə və məzəmmətlərə son qoymaq üçün 1869-cu ildə Seyid Hüseyn Ağamirov adlı bir şuşalı ilə ailə həyatı qurmuşdur. Düşmənləri Natəvanın ailə üzvləri arasında təfriqə salıb, böyük oğlu Mehdiqulu xanın evdən baş götürərək, uzaq vilayətlərə getməsinə müvəffəq olmuşlar. Oğlundan uzaq düşməsi ananı fəraq odunda yandırmış, intizarda qoymuşdur. Bunun ardınca 16-17 yaşlı oğlu Mir Abbasın ölümü Xurşidbanunu intəhasız dərdlərə, məşəqqətlərə düçar etmişdir. Oğul dağına tablaşmadığından Natəvanın səhhəti pozulmuş, bir ilə qədər xəstə yatmışdır. Sağalandan sonra da ruhi iztirablar, üzüntülər Xurşidbanunu rahat buraxmamışdır (Məmmədov 2004, 9).

1870-1880-ci illərdə onun həyatında və yaradıcılığında yeni mərhələ başlamışdır. Şair maarifləndirmənin, mədəniyyətin yayılmasına öz töhfəsini vermiş, ictimai-mədəni tədbirlərdə fəal iştirak etmışdir. Bu illərdə o, əsas diqqəti 18 kənddən, bir neçə yaylaq və zavoddan ibarət təsərrüfatı nizama salmaq və onu yeni qaydada idarə etmək işinə yönəltmiş, yollar çəkilməsinə, körpülər salınmasına, məktəb binası tikintisinə illik gəlirdən xüsusi fond ayırmışdır. Natəvanı Qarabağın abadlaşdırılması, Şuşanın mədəni görkəm alması məsələsi ciddi düşündürmüşdür. O, 1873-cü ildə yüz min manat sərf edərək, yeddikilometrlik məsafədən sıldırım qayaların döşü ilə Şuşaya içməli su çəkdirmişdir.

Şair 1897-ci il oktyabr ayının 1-də Şuşada vəfat etmişdir.

**Natəvanın yaradıcılığı və dünyagörüşü**

Natəvan Qarabağ Xanlığının formal davamçısı kimi, həm Şuşa şəhərinin və ətraf ərazilərin idarəçiliyi ilə məşğul olmuş, həm də Şuşada "Məclisi-üns" (1864-1897) ədəbi məclisinin əsasını qoyaraq, burada ictimai-fəlsəfi məzmunlu şeirlərin müzakirəsini təşkil etmişdir. Azərbaycan türk mütəfəkkiri Firudin bəy Köçərli yazır: *"Xurşidbanu elmü mərifət sahibəsi olmağa görə, əksəri-övqatı ürəfa, şüəra və üdəba dairəsində keçirərdi. Şeir və qəzəli sevib, özü dəxi gözəl və zərif təb sahibəsi idi. Mərhum Qasım bəy Zakir və sonralardan Abdullah bəy Asi və onun müasirləri və xüsusən hali-həyatda olan Mirzə Rəhim Fəna cənabları ol gövhəri-pakın inayətləri sayəsində təblərinə vüsəti qüvvət verdilər"* (Köçərli 2005, 165).

"Məclisi-üns" adlı ədəbi məclisdə fəal şəkildə iştirak edən Natəvanın şeirlərindəki eşqin, sevginin cismani deyil, daha çox mənəvi xarakter daşımasına şübhə etmirik. Məsələn, o, bir şeirində yazırdı:

*Dilbəra, dərdi-dilimdən belə ünvan etdim –*
*Ki, qəmi-hicridə dil mülkünü viran etdim.*

*Mümkün olmaz mənə vəslin bilirəm həşrə kimi,*
*Ol səbəb məskənimi kuhü biyaban etdim.*

*Eşq sultanı mənim qətlimə fərman gətirib,*
*Etmədim tərki-vəfa, taəti-fərman etdim.*

*Səri-kuyində qoyub başımı bir uf demədim,*
*Səri-sidq ilə dilü canımı fərman etdim.*

*Yoxdu bir kimsə məgər dərdimi bilsin, ya Rəb –*
*Ki, mən öz qanım ilə dərdimə dərman etdim.*

(Köçərli 2005, 166).

Deməli, Natəvan öz ilahi sevgisindən əl çəkmir, çünki bu eşq onun yalnız bu həyatı deyil, əbədi həyatı üçün də bir dönməzlikdir. Bu anlamda insanın içindəki dərdini də özü kimi biləcək ikinci bir insan yoxdur, yalnız Tanrıdan başqa. Tanrı və insan vəhdəti dərdli ilə dərdsizi

bir-birindən ayıra bilər. Dərdli, möhnətli birisinin, eyni zamanda nə qədər dərdsiz olması da aşkardır. İçindəki dərdləri Tanrı ilə bölüşən insan, sanki dərdsizləşir və zahirən dərdli ikən dərdsiz görünür. Bizcə, bu anlamda bəlkə də insan üçün tək çarə özünə Dost bildiyi Tanrıdan başqa ilah yoxdur (Ələkbərli 2018,110). Şübhəsiz, belə bir Dostun əli ilə ölmək də, əslində, cismani cəhətdən ölməkdirsə, mənəvi cəhətdən ölümsüzləşməkdir. Bu anlamda, cismani dünyada özümüzə dost bildiklərimiz də əgər əsl Dostu anlamırlarsa, o zaman yenə tək çarə içimizdəki ilahi Dosta üz tutmaqdır. Natəvan yazır:

*Rəqib təhməti etdi məni cüda, ey dust,*
*Bu zülfü gördü rəva, görmə sən rəva, ey dust!*

*Əgər ki, tiğ şəkib öz əlinlə öldürsən,*
*Deyil cəfa bu mənə, bilməzəm cəfa, ey dust!*

*Kənardən baxaram mən həqir həsrət ilə,*
*Bu, yaxşı şivə deyil, olma bivəfa, ey dust!*

*Sənin bu hüsnünə layiq heyf ki, əhdin yox,*
*Nə qədər səy elədim, tapmadım dəva, ey dust!*

*Bəli, bu hicrin ilə mən həmişə xoşhaləm,*
*Görək ki, neyləyəcək axırı qəza, ey dust!*

*Rəqibə xoşdu həmişə məni kənar etsin,*
*Fəda o himmətinə, olasan riza, ey dust!*

*Çağırram Allahı mən hali-Natəvan ilə,*
*Məgər ki, tez verə haq düşmənə cəza, ey dust!*

(Natəvan 2004, 26)

Natəvan bu şeirində də Allahın ədalətinə sığınaraq mənəvi və maddi anlamdakı "dostu" bir-birindən fərqləndirməyə çalışmışdır. Buna səbəb də odur ki, insan nə qədər ilahi bir Dostu idrak etməyə çalışsa da, obyektiv aləmdə mövcud olan "dost"u da bir kənara qoymaq mümkün

deyildir. O zaman insan obyektiv aləmdəki "dostu" ilə, ilahi bir Dost arasında nə cür bağlılıq yarada bilər?! Bizcə, insanın şüurundakı ilahi "dost"la real həyatdakı "dost"un oxşar cəhətləri ilə yanaşı, fərqlilikləri də görməyi bacarmaq lazımdır. Təsadüfi deyil ki, xalq arasında deyirlər ki, dostunu, yol-yoldaşını mənə göstər, sənin mahiyyətcə kim olduğunu deyək. Deməli, obyektiv aləmdəki "dost"umuzun, yol-yoldaşımızın mahiyyəti xeyli dərəcədə, bizim "mən"imizin mahiyyətini ortaya qoyur ki, bu da mənəvi Dosta olan münasibətimizin bu və ya digər formada ifadəsidir.

Natəvanın şerlərində insan ruhunun daxili iztirabı və azadlığa doğru can atması çox hiss olunur. O yazırdı:

*Yenə ya Rəbb, nə qəmgindir mənim bu şad olan könlüm,*
*Rumuzi-eşqdən agah olub, ustad olam könlüm.*

*Görübdür yarı əğyarə olubdur məhvi-nəzzarə,*
*Edibdir sinəsin parə, mənim abad olan könlüm.*

*Niyə peymandan keçdin, niyə zəncirdən qaçdın?*
*Nədəndir çöllərə düşdün, mənim bərbad olan könlüm?*

*Fəraqın ruzi-məhşərdir, sərasət mehnətü qəmdir,*
*O zülfün kiymi dərhəmdir, mənim azad olan könlüm.*

*Baxın bu Natəvan zarə, günü bəxtim kimi qarə,*
*Gəzər Məcnuntək avarə, mənim naşad olan könlüm.*
(Natəvan 2004, 28)

Şair bir tərəfdən, könlünün iztirabından yazdığı halda, digər tərəfdən, onu bu iztiraba salanın "zalımlığı"ndan bəhs edir:

*Könüldə ahu-zarım var, nə səbrü, nə qərarım var,*
*Deməz bir dilfikarım var, neçin gəlməz, neçin gəlməz?*

*O zülfi-nərkisi-məstə könül çoxdandı pabəstə,*
*Məni hicran edəb xəstə, neçin gəlməz, neçin gəlməz?*

*Səri-kuyin gəzər könlüm, güli-ruyin sevər könlüm,*
*Vüsalın çün dilər könlüm, neçin gəlməz, neçin gəlməz?*

(Natəvan 2004, 56)

Yaxud:

*Çəkirdim həsrətini, görmədim, xudahfiz!*
*Olubdur indi işim naləvü fəğan, ölürəm.*

*Fəda o qamətinə kim, qəza nə xoş çəkmiş,*
*Qədər büküb belimi, eyləyib kəman, ölürəm.*

*Fərəqdan tükənib tabü taqətim, billah,*
*Vüsalə etməz əlim, zarü Natəvan ölürəm!*

(XIX əsr Azərbaycan ədəbiyyatı (poeziya) 2009, 653).

Natəvan xanım şikayət edirdi ki, könül verib "dost" sandığımızın bir müddət sonra düşmən cildində ortaya çıxması çox dözülməz olur. İnsan özünə yaxın bilib ürək sirrini, mərhəm hisslərini açıqladığı, düşüncələrini paylaşdığı "dost"un bir gün tamam başqa formada olduğunu gördükdə, daxilən sarsılır. Bəzən iş o yerə gəlib çatır ki, "dost" sandığın düşməninlə bir yerdə görünür, zərbə üstünə bir zərbə alırsan. O yazırdı:

*Ey dust, yararmı böylə iqrar?*
*Yar olduğum idi, oldum əğyar,*

*Sən qeyrilər ilə üns tutdun,*
*Bilməm niyə yarını unutdun?*

*Sən qeyr ilə həmzəbanü yekdil,*
*Əmma, mənə ruzgar müşkil.*

*Bəsdir mənə verdiyin bu xiffət*
*Əğyar arasında, bimürüvvət!*

*Birəhmlik etdiyin yamandır,*
*Bir rəhm elə kim, aman, amandır!*

*Bax bir fələkə, gör indi, zinhar,*
*Gör kimlər ilə edibdir iqrar?*

*Əfsus ki, keçdi ruzigarım,*
*Ahım sənə çatmaz, ey nigarım!*

*Biganəlik etmə, aşinayəm,*
*Dərgahinə kəmtərin gədayəm.*

*Hər an ki, məni bu halə salmış,*
*İndi belə qeylü-qalə salmış.*

*Gəl rəhm qıl indi, padşahım!*
*Əflakə yetişdi dudi-ahım.*
(Natəvan 2004, 65)

Natəvan bir şeirində isə bu dünyada bir çox şeylərin olmasındansa, olmamasını arzu etmişdir:

*Nə mən olaydım, ilahi, nə də bu aləm olaydı,*
*Nə də bu aləm ara dil müqəyyədi-qəm olaydı.*

*Nə hicr atəşinə odlanıb yanaydı dilim,*
*Nə eşqin içrə könül böyləşad xürrəm olaydı.*

*Nə sərv qəddin olaydı, nə həsrətilə gözüm gur*
*Nə ruzgar fəraqində qamətim xəm olaydı.*

*Nə bəhr olaydı, nə ümman, nə böylə göz yaşı cari,*
*Nə gül üzündə, ilahi, bu növi şəbnəm olaydı.*

*Nə gül olaydı, nə gülzari-gülşənin dəxi seyri,*
*Nə xar möhnəti, bülbül, səninlə möhkəm olaydı.*

*Nə cah olaydı, nə zindan, nə karivan güzəri,*
*Nə Yusifi bu bəladə görən bir adəm olaydı.*

*Nə bəzm, olaydı, nə bazari Yusif əhvalı.*
*Nə rəhgüzərdə Züleyxa qəm ilə həmdəm olaydı.*

*Nə ah olaydı, nə əfsus, nə parə-parə könül,*
*Nə Natəvanın, ilahi, həvəsi dərhəm olaydı!*
(Natəvan 2004, 51)

Bizcə, Natəvanın sözügedən şeirində insanın bu dünyada varlıq və yoxluq anlamındakı narahatlığı, yaxud nigarançılığı öz əksini tapmışdır. Düşünən hər bir şəxs kimi, Natəvan da insanın və real dünyanın varlığının bir anlamının olub-olmamasında çarəsiz görünür. İnsan özünün və dünyanın varlığından bir tərəfdən, nə qədər şad-xürrəm görünsə də, digər tərəfdən, özü, ya da ətrafında baş verən üzücü hallardan pessimizmə qapılır. Dünyada ölümlə-həyat, sevinclə-kədər, sevgiylə-nifrət, xeyirlə-şər bir yerdə mövcuddur. Bunların hər ikisini də reallıqda öz həyatında müşahidə edən Natəvan sonda bütün bunların olmasındansa, heç əvvəlcədən olmamasını diləmək kimi bir qənaətə gəlmişdir. Bütün bunlar, yəni dünyada var olmaqla var olmamaq arasındakı nisbət Natəvanın dünyagörüşünün yekunu idi.

Ümumiyyətlə, Natəvanın yaradıcılığı, əsasən, bu dünyanın faniliyində və axirətə inamda, nikbinlik üzərində qurulsa da, ancaq bəzi tərəddüdləri də hiss etmək mümkündür. Xüsusilə də ömrünün son illərində nikbinliyin müəyyən qədər pessimizmə doğru yuvarlanması hiss edilməkdədir. Bütövlükdə Natəvanın özündə güc taparaq toparlanması və özündənsonrakı qadın şair-ədiblərə cığır açması danılmaz bir həqiqətdir.

### Fatma xanım Kəminənin həyat və yaradıcılığı

Tanınmış qadın şair-ədiblərimizdən biri də 1841-ci ildə Şuşada anadan olmuş Fatma xanım Kəminədir (1841-1898). Fatma xanım kiçik yaşlarından etibarən, şerə maraq göstərmişdir. Şairin atası Mirzə Bəybaba Fəna da şair olub və "Fəna" təxəllüsü ilə şeirlər yazıb. Fatma xanım fars dilini mükəmməl bilib və bu dildə də şeirlər yazıb. Təhsilini Şuşada alıb, savadına görə ona "Mirzə Fatma xanım" deyirdilər. XIX əsr təzkirələri

arasında şairin şeirlərinə rast gəlinir. Şair onunla bir dövrdə yaşamış bir çox aşığın şeirlərinə nəzirələr yazmışdır. Dövrümüzə onun, əsasən, klassik şəkildə yazılmış şeirləri gəlib-çatmışdır. Firidun bəy Köçərli "Azərbaycan türklərinin ədəbiyyatı" əsərində Fatma xanım Kəminəni "nadireyi-zəmanə" saymış, onun ölümünü ağır itki kimi dəyərləndirmişdir. Köçərli yazırdı: *"Mirzə Bəybaba Fənanın övladı xilqətdən sahibi-fəhmü kiyasət və əhli-zövqü fərasət olduğu cəhətə, Fatimə xanım dəxi əyyami-tüfuliyyətdən öz fitri kamalti-zehnü fərasətilə çoxlarını heyrətə gətirərdi və müasirləri içində özünə artıq şöhrət və hörmət kəsb etmişdi. Mirzə Fatimə xanım türk və fars dillərində yaxşı savad əxz edib, hər iki dildə gözəl şeirlər yazırdı"* (Köçərli 2005, 169).

Kəminə xanımın həyat və yaradıcılığı haqqında XIX əsr təzkirələrində, az da olsa, məlumat vardır. Məsələn, Mir Möhsün Nəvvab "Təzkireyi-Nəvvab" əsərində Kəminə xanım haqqında məlumat verərkən bildirmişdir ki, o, dörd yüzə yaxın şeir yazmış, Şuşada Mir Mövsün Nəvvabın başçılıq etdiyi "Məclisi-fəramuşan"da yaxından iştirak etmişdir. Kəminə şair Natəvanın başçılıq etdiyi "Məclisi-üns" ədəbi məclisinin üzvləri ilə yaxın münasibətlər qurmuş, şerlərini onlarla bölüşmüşdür.

Fatma xanım Kəminə 1898-ci ilin sentyabrında Şuşada vəfat etmişdir.

Kəminənin şeirlərində ictimai-fəlsəfi məzmun az deyildir. Türk və fars dillərində yazıb-yaradan Kəminədə bir az şiə təəssübkeşliyi olsa da, ümumilikdə, onun şeirlərində sufiyanə məzmun daha çoxdur. Hər halda onun şeirlərində Həzrət Əliyə, Həzrət Hüseynə olan sevgi danılmazdır (Köçərli 2005, 172-173). Ancaq Kəminənin şeirləri Əhli-Beyt sevgisi ilə məhdudlaşmayaraq, Tanrı-insan vəhdətinin bütünlüyü kimi məsələni də ehtiva etmişdir. O yazır:

*Hər vəqt təngə düşsən, əlindən tutar Əli,*
*Müşkül güşadı, Heydəri-Kərrarə yalvarım.*

*Hər dəm qılır cəfa mənə çün tən ilə rəqib,*
*Şahi-qəyurü qolsuz ələmdarə yalvarım.*

*Kani-vəfavü qeyrəti-Abbasi-namvər*
*Görməz rəva xəbisü xətakarə yalvarım.*

*Mənsur tək çəkibdi məni darə zülfi-yar,*
*Yad eyləyim "ənəlhəqini" darə yalvarım.*

*Bülbül sifət nəvayə gətirdin Kəminəni,*
*Sevdayi-gül başımda, necə xarə yalvarım.*
(Köçərli 2005, 171).

Şair burada ilahi sevgi yolunda bir tərəfdən, Həzrət Əlidən, digər tərəfdən, Həllac Mənsurdan kömək "diləyir". Halbuki burada Kəminənin əsas istəyi Tanrıya olan sevginin təmənnasızlığı, ülviliyidir. Bu anlamda Tanrıya yalvarış simvolik mahiyyətlidir, şairin eşqində alilik özünün xəyali məni ilə uzlaşır:

*Rəhi-eşq içrə mənzurum mənim ol tacidarımdır,*
*Könül mülkündə sultanım, xücəstə şəhriyarımdır.*

*Əgərçi guşeyi-qəmdə şikəstə xatirəm, lakin*
*Səri-kuyində dövr edən xəyali-biqərarımdır.*

*Kəməndi-eşqinə bağlı gedib könlüm, inanmazsan,*
*Yoluna göz dikən ahid dü çeşmi-əşkbarımdır...*

*Kəminə bivəfa görsə səni, vallahı incinməz,*
*Səni məndən iraq edən bu bəxti-kəcmədarımdır.*
(Köçərli 2005, 171).

Başqa bir şeirində də Kəminə qəlbinin dərinliyindəki sevgini izhar etməklə çırpınır. Şair öz içindəki sevgi iztirablarını bəyan edərkən, onu nə dərəcədə ifadə etdiyinə, sanki özü də tam əmin deyil. O, şeirin dilinə arxalanıb, öz varlığı ilə Əbədi Varlıq – Yaradan arasında bütünlüyü əks etdirmək niyyətindədir:

*Cövri-rəqib, sərzənişi-əhli-ruzigar*
*Qoymaz qılam bu dərdi-dili yarə aşikar.*

*İşrətsərayi-könlümü, ey yari-tündxu,*
*Hər dəm cəfavü qəhr ilə gəl etmə tarmar.*

*Hicrində dürri-əşk, vüsalında nəqdi-can,*
*Bilməm, hüxuru qeybətdə eylərəm nisar.*

*Gülşəndə gör nə şur ilə bülbül fəğan edir,*
*Guya ki, şax üzrə gülə həmdəm oldu xar.*

*Dil intizari-vəsldə pamali-fikir olub,*
*Tən atəşi-fərağdə çün muy biqərar.*

*Gər feyzi-cami-eşqi-həqiqətdə məstsən,*
*Əhsənət xoş məqamdəsən, olma hüşyar.*

*Dövran ki, saqiyi-qamə olmuş həvalə, gör,*
*Bu dövrdə Kəminə kimi kimdi kamgar.*
(Köçərli 2005, 170).

Yaxud:

*Kuhü səhrayə düşüb Məcnun kimi qıldım şitab,*
*Aradım şaxü budağı tapmadım bir sayə mən.*

*Arifü saliklərin pəşminə dəlqin verməzəm,*
*Dəhrdə Tanrı bili yüz ətləsü dibayə mən.*

*Bulmamışkən əsl ürfanın məzaqın dəhrdə,*
*Uğradım nahaq yerə bir şixi-bipərvayə mən.*

*Kuyi-eşqə girməyə könlüm dəxi etməz həvəs,*
*Rahi-püraşubdürür, düşdüm əcəb qovqayə mən.*
(XIX əsr Azərbaycan ədəbiyyatı (poeziya) 2009, 661).

Kəminə bir şeirində yazırdı ki, bu dünyada insanı zəmanə nə qədər yandırsa da, onu ilahidən gələn bir qismət kimi qəbul etməlidir. O yazırdı:

*Fəraq atəşinə yandırıb zəmanə məni,*
*Bəlavü dərd, ilahi, gətirdi canə məni.*

*Bu qədri cövrü cəfayə fələk görüb tabım,*
*Edibdi ğəm oxuna müttəsil nişanə məni.*

*Zəbani-tən açıb üstümə ədu hər yan,*
*Tükəndi səbri-dilim, gətdilər amanə məni.*

*Tifaqımı dağıdıbdır bu çərxi-bədkiradır,*
*Edib məclisi-əğyarda fəsanə məni.*

*Görəndə zülf ilə xalın, deyər könül mürği:*
*O dami-zülfə salur axiri bu danə məni.*
(Azərbaycan qadın şairləri antologiyası 2005, 97-98).

Başqa bir şeirində deyirdi:

*Saqiya, mey ver ki, mən meyxanədə küllənmişəm,*
*Qəm hücumundan qaçıb bir güncdə gizlənmişəm.*

*Şuri-eşqin eyləyib divanə, müddət gəzmişəm,*
*Bağlayıb dil həlqeyi-geysuyə ta, dincəlmişəm.*

*Zülfi-kəckarın salıb sevdayə könlüm, sud yox,*
*Tari-muyin kimi, tari-muyindən incəlmişəm.*
(Azərbaycan qadın şairləri antologiyası 2005, 98).

Fatma Kəminənin yaradıcılığında müəyyən qədər pessimizm öz əksini tapsa da, bütövlükdə həyata bağlılıq daha güclüdür. Hər halda, onun şeirlərində zəmanənin dərdi, qəmi ilə yanaşı, dünyada mübarizə aparaq yaşamaq eşqi də vardır. Bu baxımdan, Kəminə heç də hər şeyi həyatın

axarına buraxıb, "alın yazısı"na boyun əyib yaşamağın da doğru olmadığını görə bilmişdir. Ona görə də Kəminənin zəmanəsinin nadir qadın şair-ədiblərindən biri kimi tanınması təsadüfi olmamışdır.

**Nəticə**

XIX əsr Azərbaycanın qadın-şair mütəfəkkirlərimiz Xurşubanu Natəvan və Fatma xanım Kəminə yalnız ədəbiyyat baxımından deyil, ictimai-fəlsəfi anlamda da özlərini ifadə etməyi bacarmışlar. Ola bilsin, onların yaradıcılığında ictimai-fəlsəfi məzmun çox da özünü büruzə verməmişdir. Şeirlərindəki mənaların mahiyyətini yalnız zahirlə, təzahürlə qiymətləndirmək də doğru olmazdı. Məsələn, Natəvanın şeirlərində yalnız dünyəvi yara həsr edilmiş mənaları deyil, eyni zamanda, ilahi xarakterli mahiyyəti də görmək lazımdır. Ən əsası budur ki, Natəvan bir qadın olaraq, istər dünyəvi yara, istərsə də İlahiyə olan sevgisini ifadə etməkdə özündə iradə tapa bilmişdir. Hər halda, dövrünün radikal dini-məzhəbçi mühitində istər Natəvanın, istərsə də Fatma xanım Kəminənin öz düşüncələrini büruzə verməsi bir yenilik idi. Bizcə, bu anlamda Fatma xanım Kəminənin də müdrikcəsinə düşüncələri yetərli qədərdir. Kəminə bəzi şeirlərində Natəvandan da cəsarətli şəkildə öz fikirlərini ortaya qoymuşdur. Məsələn, Kəminə şeirlərində haqq, ədalət axtararkən üzləşdiyi çətinlikləri vurğulamaqla yanaşı, tutduğu bu yoldan dönməyəcəyini də ifadə etmişdir.

## ƏDƏBİYYAT


Köçərli Firidun bəy (2005). Azərbaycan türklərinin ədəbiyyatı. İki cilddə, 2-ci cild. Bakı: Avrasiya-Press.

XIX əsr Azərbaycan ədəbiyyatı (poeziya). İki cilddə. (2009). I cild. Bakı: "Nurlar" NPM.

Tərbiyət Məhəmmədəli. (1987). Danişməndani-Azərbaycan.Bakı: Azərnəşr.

Ələkbərli F.Q. (2018). Azərbaycan Türk fəlsəfi və ictimai fikir tarixi (XIX-XX əsrlər). I hissə. Bakı: "Elm və təhsil".

Natəvan Xurşidbanu. (2004). Əsərləri. Bakı: "Lider nəşriyyat".

Azərbaycan qadın şairləri antologiyası. (2005). Bakı: "Avrasiya Press".

*д. ф. по философии, доц. Фаик Алекперли*

# АЗЕРБАЙДЖАНСКИЕ ПОЭТЕССЫ ИЗ ШУШИ: ХУРШИДБАНУ НАТАВАН И ФАТМА-ХАНЫМ КЯМИНЯ

## РЕЗЮМЕ

В статье рассматривается мировоззрение наших поэтесс Хуршидбану Натаван и Фатма-ханым Кяминя, творивших в XIX веке в городе Шуша Карабахского региона Азербайджана. В первую очередь здесь рассказывается о жизни и общественной деятельности Натаван, освещается ее деятельность в Карабахском регионе Азербайджана. Так, Натаван, пользуясь своим авторитетом как наследница Карабахского ханства, проделала в этом регионе важные работы, занималась благотворительностью и просветительством. В статье объясняются новаторские шаги Натаван, известного общественного деятеля своего времени, и рассматривается ее романтико-философское творчество, в частности одухотворение человеческих чувств наряду с секуляризмом. Духовно-нравственные чувства в ее стихах, как бы они ни были связаны с этим миром, также полны божественного содержания.

В статье рассказывается о жизнетворчестве Фатма-ханым Кяминя, жившей в одно время с Натаван. Фатма-ханым Кяминя также является одной из известных поэтесс- мыслителей своего времени. Хотя в ее творчестве и присутствовали религиозно-мистические мотивы, в основном наблюдалась склонность к новаторству. В статье показано, что Фатма-ханым Кяминя, как одна из уникальных поэтесс-литераторов своего времени, отличалась своими мыслями и взглядами. Во всяком случае, кроме связи с классической литературой и философией в ее стихах присутствует и некое отступление от нее. Хотя в творчестве Фатма-ханым Кяминя отражается некий пессимизм, привязанность к жизни в целом сильнее. Во всяком случае, в ее стихах, наряду с болью и печалью времени, есть еще и любовь к жизни, ведя с ней борьбу. С этой точки зрения Кяминя смогла увидеть, что было бы неправильно плыть по течению и подчиняться «судьбе». Поэтому не случайно то, что в свое время Кяминя была признана одной из уникальных поэтесс своего времени.

***Ключевые слова:*** *Карабах, Шуша, поэтессы-мыслители, Хуршидбану Натаван, Фатма-ханым Кяминя, новаторство.*

*Assoc. Prof. Faig Alakbarli*

# AZERBAIJANI WOMEN POETS FROM SHUSHA: KHURSHUDBANU NATAVAN AND FATIMA KAMINA

## ABSTRACT

The article discusses the worldview of our female poets Khurshidbanu Natavan and Fatima Kamine, who wrote in the 19th century in Shusha, Karabakh region of Azerbaijan. First of all, Natavan's life and public activity were discussed here, her activity in the Karabakh region of Azerbaijan was covered. Thus, Natavan, using his authority as the successor of the Karabakh Khanate, did important work in this region, engaged in charity and enlightenment. The article explains the innovative steps of Natavan, a well-known public figure of her time, and discusses her romantic-philosophical work, especially the spirituality of human feelings, along with secularism. The spiritual feelings in his poems, no matter how much they are connected with this world, are also full of divine content.

The article discusses the life and work of Fatima Kamina, who lived at the same time as Natavan. Fatima Kamina is also one of the well-known female poets and thinkers of her time. Although there were some religious-mystical motives in her work, she was mainly inclined to innovation. The article shows that Fatima Kamina, as one of the rare female poets of her time, was very different in her thoughts and views. In any case, in addition to the connection with classical literature and philosophy in her poems, there is a certain deviation from it. Although some pessimism is reflected in Fatma Kamina's work, the commitment to life as a whole is stronger. In any case, in her poems, along with the pain and sorrow of the time, there is also a love of fighting and living in the world. From this point of view, Kamina could see that it was not right to leave everything to the flow of life and obey the "foreword". Therefore, it is no coincidence that Kamina's time was recognized as one of the rare female poets.

***Keywords:*** *Karabakh, Shusha, women poets and thinkers, Khurshidbanu Natavan, Fatima Kamina, innovation*

# "DİFAİ" PARTİYASININ QARABAĞ VƏ ŞUŞA ÜZRƏ "QARABAĞ BİRLİK MƏCLİSİ" KOMİTƏLƏRİ VƏ ONLARIN FƏALİYYƏTİ HAQQINDA

***t.f.d., dos. Cavid Bağırzadə,***
*Gəncə Dövlət Universiteti Azərbaycan tarixi kafedrası*
cavid.bagirzade@gdu.edu.az

## XÜLASƏ

"Difai" partiyasının təşkilatçıları onun geniş fəaliyyəti üçün Qarabağın daha əlverişli olduğunu nəzərə alaraq, diqqəti məhz yalnız ora yetirirdilər. Bunu çox əsaslandırılmış addım hesab edən rus məmuru yazır ki, erməni-müsəlman münaqişəsindən daha çox əzab çəkən Qarabağ əhalisi onu düşmənin iti caynaqlarından xilas edəcək bir təşkilata çox ehtiyac duyurdu. "Difai" partiyasının 1905-ci ildə yaradılmasına baxmayaraq, onun yerlərdə təşkilat komitələrinin təsis edilməsi, əsasən, 1906-1907-ci illəri əhatə edir. Əhməd bəy Ağaoğlunun 1906-cı ildə Qarabağ və Gəncəyə səfərlərindən sonra, "Difai"nin ilk yerli komitələri məhz burada yaradılmışdı. "Difai" partiyasının Qarabağ bölgəsində yerli təşkilat komitələri Şuşada, Ağdamda, Bərdədə, Tərtərdə, Karyagində və Cəbrayılda təsis edilmişdi. "Difai" partiyasının əsas fəaliyyət göstərdiyi yerlər də məhz Gəncə-Qarabağ bölgəsi olmuşdur. "Difai" partiyasının başlıca təşkilat komitələri Yelizavetpol (Gəncə) quberniyasında meydana çıxmışdı ki, onların arasında Şuşa və Gəncə təşkilatları xüsusilə seçilmiş və geniş fəaliyyət göstərmişdi.

"Difai" partiyasının Mərkəzi Komitəsi Bakıda yerləşsə də, onun əsas fəaliyyəti yerlərdəki komitələrin üzərinə düşürdü. "Difai" partiyasının Gəncədə, Şuşada, Ağdamda, Bərdədə, Yevlaxda, Tərtərdə (Cavanşir qəzasında), Qarsda, Naxçıvanda, İrəvanda, Karyagində (indiki Füzulidə), Cəbrayılda, Xocaqanda, Vladiqafqazda şöbələri təsis edilmişdi.

Gəncədə, Əsgər ağa Goraninin (Adıgözəlovun) evində 1907-ci ilin martında keçirilmiş və yuxarıda haqqında bəhs etdiyimiz qurultayda, çox

güman ki, "Difai" partiyasının qəzalardakı fəaliyyətinə yenidən baxılmış, Qarabağ və Gəncə bölgələrində (Yelizavetpol quberniyası ərazisində) "Difai" partiyasının fəaliyyət istiqaməti müəyyənləşdirilmiş, təkmilləşdirilmiş, genişləndirilmiş proqram qəbul edilmişdir.

***Açar sözlər:*** *"Difai" partiyası, Şuşa, Əhməd bəy Ağaoğlu, "Qarabağ Birlik Məclisi", Kərim bəy Mehmandarov.*

**Giriş**

Azərbaycanda XX əsrin əvvəllərində milli təfəkkürün və ictimai fikrin formalaşması prosesində meydana çıxan "Difai" partiyası xalqımızı mənfur düşmənlərin hər cür törədə biləcəyi təhlükə və hücumlardan müdafiəsini təşkil etməklə yanaşı, millətçilik, demokratizm və dövlətçilik ideyalarını fəaliyyətinin başlıca qayəsi kimi ortaya qoya bilmişdir. "Difai" partiyası Azərbaycanın milli azadlığı, müstəqilliyi uğrunda mübarizəni özünün başlıca fəaliyyətinə çevirməklə yanaşı, Azərbaycanın milli müstəqilliyini ümumtürk azadlığının tərkib hissəsi kimi irəli sürürdü. "Difai" partiyasında cəmləşən ziyalılar həmin dövrün görkəmli ictimai-siyasi xadimləri, ədibləri, mütəfəkkirləri olmaqla milli özünüdərkin, ictimai fikirin formalaşmasında müstəsna əhəmiyyətli rol oynamışlar. Bütün bu proseslərdə ilk milli siyasi partiya kimi "Difai" partiyası aparıcı qüvvə olmuşdur. "Difai"nin güclü siyasi təşkilat olmasını şərtləndirən cəhətlərdən biri də o idi ki, onun yerlərdə geniş fəaliyyətə malik komitələri var idi. Bakıda 1905-ci ildə "Difai" partiyasının yaradılmasından sonra onun sədri Əhməd bəy Ağaoğlu Azərbaycanın əyalətlərini gəzib yerlərdə "Difai"nin komitələrini yaratmağa çalışmışdı (Hüseyn Baykara 1992, 122). "Difai" partiyasının Mərkəzi Komitəsi Bakıda yerləşsə də, onun əsas fəaliyyəti yerlərdəki komitələrin üzərinə düşürdü. "Difai" partiyasının Gəncədə, Şuşada, Ağdamda, Bərdədə, Yevlaxda, Tərtərdə (Cavanşir əqzasında), Qarsda, Naxçıvanda, İrəvanda, Karyagində (indiki Füzulidə), Cəbrayılda, Xocaqanda, Vladiqafqazda şöbələri təsis edilmişdi. "Difai" partiyasının şöbələri əhali arasında geniş şöhrətə malik idi. Çar məmurları öz ali rəislərinin nəzərinə çatdırırdılar ki, bu partiyanın mövcud olduğu müd-

dətdə yerli əhalinin ictimai işlərə marağı xeyli artmışdır, indi əhali onun komitələrinə hökumət idarələrindən çox müraciət edir. Həmçinin qeyd edirdilər ki, təbliğat nəticəsində "müsəlmanlar birləşəcək, əqli cəhətdən inkişaf edəcək və şüurlu olacaqlar, partiya, şübhəsiz ki, hökumət əleyhinə olan məqsədləri də tətbiq etməyə başlayacaqdır (Azərbaycan tarixi, V/2008, 156). "Difai" partiyasının başlıca təşkilat komitələri Yelizavetpol (Gəncə) quberniyasında meydana çıxmışdı ki, onların arasında Şuşa və Gəncə təşkilatları xüsusilə seçilmiş və geniş fəaliyyət göstərmişdi.

**"Difai" partiyasının Qarabağdakı komitələri**

"Difai" partiyasının 1905-ci ildə yaradılmasına baxmayaraq, onun yerlərdə təşkilat komitələrinin təsis edilməsi, əsasən, 1906-1907-ci illəri əhatə edir. Əhməd bəy Ağaoğlunun 1906-cı ildə Qarabağ və Gəncəyə səfərlərindən sonra "Difai"nin ilk yerli komitələri məhz burada yaradılmışdı. "Difai" partiyasının Qarabağ bölgəsində yerli təşkilat komitələri yuxarıda qeyd etdiyimiz kimi, Şuşada, Ağdamda, Bərdədə, Tərtərdə, Karyagində və Cəbrayılda təsis edilmişdi. Ümumiyyətlə, qeyd edək ki, "Difai" partiyasının əsas fəaliyyət göstərdiyi yerlər də məhz Gəncə-Qarabağ bölgəsi olmuşdur. "Difai"nin Qarabağda yerli komitələrinin yaradılması prosesi xüsusilə 1907-ci ilin martında gizli şəkildə Gəncədə Zaqafqaziya (Cənubi Qafqaz), Şimali Qafqaz və Krım müsəlmanları nümayəndələrinin keçirdiyi qurultaydan sonra daha da sürətlənmişdi. Qurultayda qərara alınmışdı ki, Qarabağda mövcud erməni təşkilatlarına cavab olaraq, "Difai"nin fəaliyyəti təşkil edilsin; Bakı kapitalistləri Hacı Zeynalabdin Tağıyev və Şəmsi Əsədullayevin köməyi ilə Ağdam yaxınlığında knyaz Usmiyevlərin mülkləri satın alınsın və Ağdamdan Xocalı stansiyasınadək bütün torpaqlar ermənilərdən satın alınaraq orada yalnız müsəlmanlar yerləşdirilsin; hökmən Şuşada yaşamaq azərbaycanlılara bir vəzifə olaraq tapşırılsın; Qarabağ müsəlman əyalətinə çevrilsin (Seyidzadə 1998, 127-128). Bu qurultaydan sonra partiyanın Ağdam, Bərdə, Tərtər, Karyagin, Cəbrayıl, Xocaqan, Naxçıvan, Qars, İrəvan və s. yerlərində şöbələri həm artmış, həm də fəaliyyətləri genişlənmişdi (Bağırzadə 2006, 65). Göründüyü kimi, Gəncə qurultayında alınmış qərarlar son dərəcə əhəmiyyətli idi. Çarizm tərəfindən Qarabağ xanlığının işğalından sonra,

XIX əsrdə bura köçürülmüş və torpaqlarla təmin edilmiş ermənilərin məskunlaşması nəticəsində bəhs olunan ərazilərdə xeyli sayda erməni yaşayış məntəqələri meydana gəlmişdi.

"Difai" partiyasının təşkilatçıları onun geniş fəaliyyəti üçün Qarabağın daha əlverişli olduğunu nəzərə alaraq diqqəti məhz yalnız ora yetirirdilər. Bunu çox əsaslandırılmış addım hesab edən rus məmuru yazır ki, erməni-müsəlman münaqişəsindən daha çox əzab çəkən Qarabağ əhalisi onu düşmənin iti caynaqlarından xilas edəcək bir təşkilata daha artıq ehtiyac duyurdu. Əhməd bəy Ağaoğlu Bakıda ağdamlı Baxış bəy Kazımbəyov, şuşalı Məşədi Şəmil Hacıyev və Hacı Hüseyn Münşiyevlə görüşərək, onları təlimat və proqramla təchiz etmiş və əvvəlcə xeyriyyə cəmiyyəti adı ilə fəaliyyətə başlamağı tövsiyə etmişdi. Evlərinə qayıdan bu şəxslər Qarabağ komitəsi yaradaraq Şuşa, Ağdam, Tərtər, Bərdə və Karyagində onun şöbələrini açmışdılar. Qeyd olunur ki, Məşədi Şəmil icra hakimiyyətinin rəisi və təşkilatçısı olub, Şuşa və Cavanşir qəzalarına gedərək orada komitənin filallarını yaradırdı. Məşədi Məmməd Cəfər isə həmin işi Zəngəzur və Cəbrayıl qəzalarında görürdü (Süleymanova 1999, 306).

Yuxarıda qeyd etdiyimiz faktlardan aydın olur ki, şöbələrin nə vaxt, necə yaradılması haqqında müxtəlif məlumatlar mövcuddur. Bu məlumatlar, əsasən, hakimiyyət orqanları arasında yazışmaların, göndərilmiş məktubların məzmunlarıdır. Qeyd etdiyimiz sonuncu məlumatlar Qafqaz canişinin dəftərxanasından Yelizavetpol qubernatoruna göndərilmiş 4 mart 1908-ci il tarixli məktubun məzmunu idi. Bu məlumatlardan belə bəlli olur ki, yuxarıda adlarını qeyd etdiyimiz qəzalarda "Difai" partiyasının komitələri və partiyanın Şuşa komitəsi olan "Qarabağ Birlik Məclisi" 1907-ci ildə yaradılmışdır. Qeyd etməliyik ki, bu komitələr, əsasən, 1906-cı il ərzində təsis edilmişdir.

1907-ci ilin martında Gəncədə, Əsgər ağa Goraninin (Adıgözəlovun) evində keçirilmiş və yuxarıda haqqında bəhs etdiyimiz qurultayda, çox güman ki, "Difai" partiyasının qəzalardakı fəaliyyətinə yenidən baxılmış, yuxarıda göstərdiyimiz qərar qəbul edilmiş, Qarabağ və Gəncə bölgələrində (Yelizavetpol quberniyası ərqazisində) "Difai" partiyasının fəaliyyət istiqaməti müəyyənləşdirilmiş, təkmilləşdirilmiş, genişləndirilmiş proqram qəbul edilmişdir.

"Difai" partiyasının Qarabağdakı komitələrində, Zəngəzur və Cəbrayıl qəzalarında Məşədi Məmməd Cəfər, Bərdədə Məşədi Mehdiqulu Şərif oğlu, Ağdamda Baxış bəy Kazımbəyov və Əhməd Hacı Sadıq oğlu Avarski, Yevlaxda Həsən Qaraca oğlu, Əşrəf Tağıyev və Saleh Hüseynov, Qayalı kəndində Məmməd Nəcəf oğlu, Tərtərdə Məşədi Əli Sadıq oğlu kimi nümayəndələri var idi. Bu nümayəndələr partiyanın Şuşa komitəsi ilə koordinasiya olunmuş şəkildə işləyirdilər. Daha sonralar isə qeyd edilən bölgələrdə partiyanın komitələri fəaliyyət göstərmişdir. "Difai" partiyasının Qarabağdakı komitələri mərkəz kimi bilavasiə Şuşa komitəsi ilə əlaqəli idilər.

"Difai" partiyasının Ağdam şöbəsi 1906-cı ildə yaradılmışdı. Bu komitənin yaradılmasında Baxış bəy Kazımov, Xasay bəy Usmiyev və Zülfüqar bəy Haqverdiyevin mühüm əməyi olmuşdur. Maraqlıdır ki, müxtəlif mənbələrdə Ağdam komitəsinin sədrləri yuxarıda adları qeyd olunan şəxslər göstərildiyindən öz tədqiqatlarında "Difai" partiyası ilə bağlı mülahizə yürüdən tədqiqatçılar da bir-birlərindən fərqli olaraq bu şəxslərin "Difai"nin Ağdam komitəsinin sədri olmaları haqqında fikirlər irəli sürmüşlər.

Bəzi məlumatlara görə, Ağdam komitəsinə Vladiqafqazda yaşayan və Ağdama gəlmiş Xasay xan Usmiyev başcılıq edirdi. Elə həmin sənəddə qeyd edilir ki, buraya Səlim bəy Rüstəmbəyov, Cəfər bəy Vəzirov, Qasım bəy Vəzirov və Qəhrəman ağa Cavanşirov daxil olmuşdur. Başqa məlumatlara gorə, Ağdam komitəsinə Zülfüqar bəy Haqverdiyev başçılıq etmişdir. Baxış bəy (meşşan) və Şükür bəy Kazımbəyov qardaşları, Mirzə Davud Ağamirzəyev (Əfəndi – Ağdam şəhərindən olan kəndli), Hacı Seyid Mirşi Seyid Bağır oğlu (Şuşa şəhərindən olan meşşan) komitənin üzvləri idilər (Bağırzadə 2006, 69; Əzizov 2009, 107-108). Bu yardımçı komitədə Şükür bəy Kazımbəyov, həm də icra hakimiyyətinin təşkilatcısı və rəhbəri rolunu yerinə yetirir, kəndbəkənd gəzərək partiyanın şöbələrini yaradır, əhalini "Difai"yə tabe olmağa and içdirirdi. Mirzə Davud Ağamirzəyev (Əfəndi) təşkilatın katibi idi. Partiyanın Ağdam yardımçı komitəsində Mirzəməmməd İbrahimov başda olmaqla, 6 təbliğatçı var idi. Gizli agent S.Səfərəlibəyovun 7 mart 1908-ci il tarixli məruzəsindən məlum olur ki, Ağdam komitəsi "qondarma" və "quru bəylər"dən təşkil olunmuşdur. Onların "əsl bəylər"ə barışmaz nifrət hissi vardı". Bu, butun məsələlərdə həqiqi bəylərə bərabər olmaq arzusu və paxıllıq hissi ilə izah edilirdi. Bu "quru bəylər"in öz malikanələri və

torpaqları yox idi, lakin onlar Ağdam bazarına nəzarət edir və buna görə də xalq arasında müəyyən nüfuza malik idilər (Əzizov 2009, 108).

"Difai" partiyasının Cavanşir qəzasında Bərdə, Tərtər, Qaryagin, Cəbrayıl komitələri fəaliyyət göstərirdi. Bərdə komitəsinin Yevlaxda və Tərtərdə bölmələri vardı. Tərtərdə partiya şöbəsinə Məşədi Alış İsmayılov, Məşədi Dadaş və Məşədi Rüstəm Muradxanovlar, Məşədi Fərhad Vəlibəyov, Məşədi Muxtar Zeynalov, Məşədi Əli Dadaşov rəhbərlik edirdilər. Şöbənin təbliğatcıları Məşədi Muxtar Zeynalov, Hacı İbrahim İsmayılov, Kərbəlayı Mahmud İsmayılov, Məşədi Rustəm Muradxanov, Məşədi Əli Dadaşov idilər (Süleymanova 1999, 302; Əzizov 2009, 109).

"Difai"nin Bərdə komitəsinin sədri Məşədi Mehdiqulu Hacı Şirin oğlu eyni zamanda döyuş drujinasına başcılıq edirdi. Komitənin üzvləri və təbliğatcıları Musa Quliyev, Hüseyn Əli Kərbəlayı oğlu, Molla Həbib Kərbəlayı Mehdi oğlu, Məşədi Zeynalabdin ağa Əhməd oğlu və Allahverdi Hacı Pənah oğlu idilər.

Karyagində Axund Mirzə Əli Axundzadə, Hacı Muxtar Sadıqov, Məşədi Qara Səfiyev, Məşədi Camal Vəzirov, sadıq bəy Məlik Aslanov, Bəhram bəy Vəzirov, Məşədi Mustafa bəy Zaurbəyov, Məmməd Həsən bəy Mirzə Camalov, Həsən Əli bəy Əsgərxanov, Hacı Qənbər Zeynalov, Mirzə Camal Yusifzadə və başqaları partiyanın yerli komitəsinin fəal üzvləri olmuşdular (Süleymanova 1999, 302; Bağırzadə 2006, 70).

Yevlax şöbəsinə Aslan Qaraca oğlu, Əşrəf Tağıyev, Salah Hüseynov rəhbərlik edirdilər. Qaryagin komitəsinə tələbələr A.Vəzirov və M.Axundov başçılıq edirdilər. Komitənin üzvləri Axund Mirzə Əli Axundzadə, Hacı Muxtar Sadıqov, Məşədi Camal bəy Vəzirov, Mirzə Camal Yusifzadə, Məşədi Qulu Əhmədov, Bəşir Əliyev, Səlim Şamxalov və Əli bəy Vəzirov idilər (Əzizov 2009, 109).

"Difai" partiyasının Cəbrayıl komitəsində Cəfər Əmiraslan oğlu, Mahmud Qaryağdıyev, Məşədi Dadaş Səfərov, Süleyman İmamverdiyev, Təhməz Nəcəfquliyev və başqaları fəal üzvlər, təbliğatçı və təşviqatçı idilər.

### "Difai"nin Şuşa komitəsi – "Qarabağ Birlik Məclisi" və onun fəaliyyəti

"Difai" partiyasının Şuşa komitəsi olan "Qarabağ Birlik Məclisi" Əhməd bəy Ağaoğlunun iştirakı ilə 1906-cı ildə yaradılmışdı. "Qarabağ

Birlik Məclisi"nin fəaliyyəti təkcə Şuşa şəhərini deyil, bütövlükdə Qarabağ bölgəsini də əhatə edirdi (Bağırzadə 2006, 62). "Difai" partiyasının ən böyük şöbəsi olan "Qarabağ Birlik Məclisi"nin fəaliyyəti bütün Qarabağı, ozamankı inzibati bölgü ilə Yelizavetpol quberniyasının Cavanşir, Karyagin və Şuşa qəzalarını əhatə edirdi. "Qarabağ Birlik Məclisi"nin təşkilatçıları tacirlər, ziyalılar, varlı və kasıb kəndlilərdən ibarət idi. Bu dövrdə Şuşada böyük nüfuz sahibi olan doktor Kərim (Əbdülkərim) bəy Mehmandarov "Qarabağ Birlik Məclisi"nin sədri idi. Şuşa komitəsinin sədr müavini Cahangir xan Nuribəyov, katibi isə Xuduş Quliyev olmuşdur (Seyidzadə 1998, 128). Şuşanın nüfuzlu adamlarından olan Əfrasiyab Əzimov, Məşədi Məhəmməd Əzim oğlu, Müseyib Kərim oğlu, Mirzə Hüseyn, Şıx Hüseyn, Abbas Hacı Cəfər oğlu, Rüstəm Kərbəlayı Əli oğlu, Şamil Hacıyev və başqaları bu komitənin üzvləri olmuşdular (Süleymanova 1999, 302).

"Qarabağ Birlik Məclisi"nin nə vaxt yaradılması barədə müxtəlif mülahizələr vardır. Dilarə Seyidzadənin fikrinə görə, "Qarabağ Birlik Məclisi" 1907-ci ilin martında Gəncədə keçirilmiş qurultayın qərarı ilə "Difai" partiyasının Qarabağda bölməsi kimi yaradılmışdı (Seyidzadə 1998, 128). Qeyd etdiyimiz kimi, "Difai" partiyasının təşkilatlanması 1906-cı ilin əvvəllərindən etibarən başlamışdır və bu proses, əsasən, Gəncə və Qarabağ bölgələrində həyata keçirilmişdir. Bunun fikrimizcə, bir neçə səbəbi olmuşdur: 1. "Difai" partiyası 1905-1906-cı illərdə ermənilərin azərbaycanlılara qarşı qırğınlar törətməsi zamanı, qırğınların qarşısının alınması, köməksiz və müdafiəsiz olan xalqın müdafiəsini təşkil etmək zərurətindən yaranmışdır.

Məlumdur ki, bəhs olunan dövrdə ən ağrılı hadisələr, münaqişə və qırğınlar Yelizavetpol quberniyasının ərazisində baş vermişdir. Buna görə də partiyanın məhz yerlərdə komitələrinin yaradılması bu səbəblərdən doğurdu. 2. Gəncə-Qarabağ bölgəsi XX əsrin əvvəllərində milli-siyasi partiyanın təşkilatlanması və fəaliyyəti üçün münbit ictimai şəraitə malik idi. Buna görə idi ki, "Difai" partiyasının Mərkəzi Komitəsi Bakıda yerləşsə də, əslində, onun başlıca fəaliyyəti Gəncə-Qarabağ bölgəsində idi. Azərbaycan XX əsrin əvvəllərində tarixi-mədəni və sosial-siyasi inkişafına görə iki əsas mərkəzə – Bakı və Gəncə şəhərlərinə malik idi. Neft sənayesinin inkişafı ilə daha çox kosmopolit, politexnik mərkəz kimi formalaşan Bakıda siyasi proseslər, əsasən, ümum-Rusiya məcrasında, xüsusən

onun sosial demokratiya hərəkatı ilə bağlı inkişaf edirdi. Sinfi maraqların milli maraqları üstələdiyi Bakıda Azərbaycan milli qüvvələrinin səsi bəzən eşidilməz olaraq qalırdı. Bakıdan fərqli olaraq milli ənənələrin daha üstün olduğu Gəncədə, Gəncə quberniyasında milli ideyaların formalaşması, inkişafı və yayılması üçün daha münbit şərait mövcud idi. Təsadüfi deyildir ki, Azərbaycan Xalq Cümhuriyyətinin, onun dövlət sturukturlarının yaradılmasında fəal iştirak etmiş şəxslərin, Cümhuriyyət fədailərinin böyük əksəriyyəti ya gəncəli olmuş, ya bu və ya digər dərəcədə Gəncə ilə bağlı olmuş, ya da məhz Gəncə quberniyasından olmuş, burada ilk təhsilini almış və ya çalışmış, onun ictimai mühitinin köynəyindən çıxmışdılar. Bir sözlə, Azərbaycan istiqlalı uğrunda mübarizənin tam ağırlığının yerləşdiyi yer Gəncə şəhəri və onun mərkəzi olduğu Gəncə quberniyası olmuşdur. 3. Digər tərəfdən "Difai" partiyasının əsasını qoyan, onun sədri Əhməd bəy Ağaoğlu özü şuşalı olduğundan, Gəncə-Qarabağ bölgəsinin insanları ilə yaxınlıq münasibətindən partiyanın ilk vaxtlarda təşkilat komitələrinin Gəncə-Qarabağ bölgəsində yaradılmasına başlanmışdır.

"Qarabağ Birlik Məclisi"nin Qarabağın, əsasən də Şuşaətrafı bölgələrdəki kəndlərində özəkləri fəaliyyət göstərirdi. Şuşanın Malıbəyli kəndində 1906-cı ildə azərbaycanlıları erməni hücumlarından müdafiə etmək məqsədilə "tatar komitəsi" adlı komissiya fəaliyyət göstərirdi. Həmin ilin sonunda komissiya "Difai" partiyasının özək təşkilatına çevrilmişdi. Partiyanın burada rəhbəri Əşrəf Məşədi Molla İmran oğlu, üzvləri isə Hacı Kərbəlayı Qənbər oğlu, Rza Məşədi Molla İmran oğlu və Məşədi Abbas Qulu oğlu olmuşlar. Ələsgər Kərbəlayı Qənbər oğlu onlar üçün silah hazırlayır və ya təmir edirdi. Komissiya bütün rəhbər göstərişləri Şuşa Mərkəzi Komitəsindən – Nəcəf ağa Cavanşirdən alırdı. Xuduş Quliyev, Şamil Hacıyev, Mir Seyid Hacı Miriş Malıbəyliyə gələndə Əşrəf Məşədi Molla İmran oğlunun evində qalırdılar (Süleymanova 1999, 307). Yeri gəlmişkən qeyd edək ki, 1905-1906-cı illərdə erməni quldur dəstələrinin xüsusi qəddarlıqla əhalisini qırıb, yer-yurduna od vurub-yandırdığı kəndlər içərisində Malıbəyli olmuşdur.

"Difai" partiyasının Şuşa komitəsinin Malıbəyli kəndindəki özəyinin rəhbəri Əşrəf Məşədi Molla İmran oğlu 1906-1910-cu illərdə əhalidən cərimə və ictimai vergi adı ilə pul yığmış, silah anbarı saxlamışdı. Əşrəf, hətta silahın bir qismini "Əncümən" partiyasına – Təbrizə göndərmişdi.

Arxiv materiallarında çar məmurları tərəfindən Malıbəyli özəyinin terrorçuluq fəaliyyəti haqqında məlumatlar vardır (Süleymanova 1999, 307). Çar məmurlarının partiyanı, onun yerlərdəki komitələrinin fəaliyyətini terroçu kimi təqdim etməsi, əslində, onların partiyaya olan münasibətindən irəli gəlirdi. Əslində, "Difai" partiyası öz doğma xalqını, çar dövlət orqanları və məmurları tərəfindən hərtərəfli şəkildə dəstəklənən erməni silahlı dəstələrinin hücumlarından, onların törətdiyi kütləvi qırğınlardan qorumaq, onların müdafisəni təşkil etmək məqsədilə fəaliyyət göstərən, buna görə də əhali içərisində maarifləndirici təbliğat işləri aparırdı.

"Qarabağ Birlik Məclisi"nin Karyagin, Zəngəzur, Şuşa və Cavanşir qəzalarında görkəmli nümayəndələri, həmçinin Məclisin qeyd olunan qəzalardakı komitələr üzərində böyük nüfuzu və təsiri var idi. "Qarabağ Birlik Məclisi"nin Şuşada yaxşı silahlanmış 400 nəfərlik döyüş drujinası yaradılmışdı (Azərbaycan tarixi, V/2008, 156). Yelizavetpol mahalı rəisinin 18 iyun 1907-ci il tarixli məktubunda deyilir ki, partiyanın əsas məqsədi öz xalqını maarifləndirmək, onun mənafelərini qorumaqdır. Onun Yelizavetpol qubernatorunun adına 13 avqust 1907-ci il tarixli məktubunda bildirilirdi: "Alınan məlumata görə, "Difai" partiyasının Qarabağ bölgəsində öz daimi bazası var, burada o, geniş partiya təşkilatları şəbəkəsinə malikdir və partiya fəaliyyəti sahəsində çox böyük uğurlar qazanmışdır. "Difai" partiyası öz siyasi mahiyyətinə görə demokratik təmayüllüdür, sosial-demokratik təlimindən istifadə edir və siyasi məqsədlər güdərək, əhalinin bütün demokratik təbəqələrini öz bayrağı altında birləşdirməyə çağırır (Əzizov 2005).

"Difai" partiyasının yerli komitələrinin geniş fəaliyyətinin yüksəliş dövrü 1906-1907-ci illəri əhatə edir. Bu dövrdə "Difai" partiyasının Şuşa komitəsi daha böyük miqyasda fəaliyyət göstərmiş, müvafiq proqram qəbul etmişdi. Bu proqramı "Difai"nin ümumi proqramı kimi də xarakterizə etmək mümkündür. "Qarabağ Birlik Məclisi"nin proqramı qalmaqdadır. Bu proqram "Difai" partiyasının genişlənmiş və tamamlanmış proqramıdır. Bu proqram 53 bənddən ibarətdir. Proqramda "müsəlmanlar arasında milli mənlik şüurunun inkişaf etdirilməsi" vəzifəsi qoyulur və onlar birliyə çağırılırdı. Proqramda belə hesab olunurdu ki, məhz müsəlmanların (yəni azərbaycanlıların – C.B.) birliyi onların əmlak toxunulmazlığının, maddi firavanlığının, mədəni inkişafının və milli özgünlü-

yünün qorunub saxlanılmasının rəhnidir. Proqram təşkilatın nizamnamə prinsiplərini müəyyən edirdi. Həmçinin proqramda göstərilirdi ki, biz bütün müsəlman əhalisi tərəfindən seçilmiş üzvlər, bütün müsəlman qardaşlarımıza bildiririk ki, proqramın maddələri həyata keçirilmək üçündür və bu maddələri yerinə yetirməkdən boyun qaçıran şəxslər millət xaini hesab olunub cəzalandırılacaqlar.

"Difai" partiyası və onun yerli komitələri, xüsusilə "Qarabağ Birlik Məclisi" qanunçuluq və hüquqi qaydaların cəmiyyətin həyatına daxil edilməsi sahəsində ilk kövrək addımlar atırdı.

"Difai"nin fəaliyyəti 1908-ci ilə qədər o qədər geniş miqyas almışdı ki, Azərbaycan qəzalarında çar hakimiyyəti orqanlarının mövcudluğuna təhlükə yaranmışdı. Partiya üzvlərinə qarşı repressiyalar başlanmışdı. Qafqaz canişini özünün 4 mart 1908-ci il tarixli fərmanı ilə "Difai" partiyasının ləğv edilməsi barədə tapşırıq vermişdi. Yelizavetpol general-qubernatoru Q.Kovalyov cavab məktubunda yazmışdı ki, cari ilin mart ayında bu partiya tamamilə ləğv ediləcəkdir. Lakin bu planların həyata keçirilməsi üçün qubernator, ilk növbədə, partiyanın Bakıdakı Mərkəzi Komitəsinin ləğv olunmasını təklif edirdi, çunki təkcə ona etibar edilmiş Yelizavetpol quberniyasında partiya qismən ləğv ediləcəyi halda, Bakıdakı Mərkəzi Komitə partiyanın öz funksiyalarına xitam vermiş bölmələrini bərpa etməyə calışacaqdır. Buna görə də qubernator "Difai" partiyasının mövcudluğuna birdəfəlik xitam vermək məqsədilə başda sədr Əhməd bəy Ağayev (Ağaoğlu) olmaqla, Mərkəzi Komitənin heyətini Zaqafqaziya (Cənubi Qafqaz) diyarı hüdudlarından cıxarmaq üçün icazə istəyirdi. Repressiyalara məruz qalan əsasən Ə.Ağayev oldu. Onun qəzetləri bağlanmış, özünü təqib etməyə başlamışdılar (Əzizov 2009, 138-139). Moskvadakı artistlər klubunda Ə.Ağayevin həbs edilməsi ilə nəticələnə biləcək növbəti təhrikçi insidentdən sonra o, Türkiyəyə mühacirət etmişdi. O gedəndən sonra partiyanın fəaliyyətində ciddi tənəzzul yarandı. "Qarabağ Birlik Məclisi"nin üzvləri kütləvi həbslərə məruz qaldılar. Q.Munşiyev, A.Əzimov, Məşədi Ş.Hacıyev, Z.Haqverdiyev, X.Quliyev, K.Kazımbəyov, M.D. Muxtarov və başqaları 1908-ci il martın 23-24-də tutularaq, Şuşa həbsxanasına salındılar. Onların hamısı Həştərxan quberniyasına sürgün olunmağa məhkum edildi, Muxtarov isə İran təbəəsi kimi İrana sürgünə göndərildi. Həştərxana sürgün hökmü sonradan Yeli-

zavetpolun yeni müvəqqəti general-qubernatoru Fleyşer tərəfindən başqa yerə getməmək barədə iltizam və adambaşı 3000 rubl girov ödənilməklə əvəz edilmişdi (Bağırzadə 2006, 82-83; Əzizov 2009, 139). Eyni zamanda, partiyanın Gəncə komitəsinin üzvləri də təzyiq və təqiblərə məruz qalmışdılar. Partiya üzvlərinin təqibi növbəti ildə də davam etmişdi.

"Qarabağ Birlik Məclisi"nin üzvlərinin işi üzrə məhkəmə araşdırması 1909-cu ilin may ayında aparılmışdı. İş üzrə müttəhimlər kimi, "Difai"nin Şuşa bölməsinin üzvləri – Məşədi Şamil Hacıyev, Əfrasiyab Əzimov, Kərbəlayi Usub Mirsiyabov, İrzabəy İrzabəyov və Məmməd İsmayıl oğlu; Ağdam bölməsinin üzvləri – Hacı Miriş Mirbağırov, Mirzə Davud Ağamirzəzadə, Baxış bəy Kazımbəyov, Hacı Cümşüd Hacı Cəfərqulu oğlu, Zülfüqar bəy Abdullabəy oğlu Haqverdiyev və Muxtar Kərbəlayı Məmməd oğlunun adları keçirdi. Adları çəkilən şəxslərin fəaliyyətlərinin məqsədi Zaqafqaziyanın müsəlman əhalisini qanuna və hökumətin sərəncamlarına itaət etməməyə təhrik etməkdən ibarət olan, özünü müsəlman "Difai" partiyası və "Qarabağ Məclisi" adlandıran, üzvləri ətraf kəndləri gəzərək əhalidən partiyanın ehtiyacları və silah üçün pul yığan, partiyanın adından inzibati və məhkəmə vəzifələrini yerinə yetirən, əhali arasında çəkişmə və mübahisələri tənzimləməklə məşğul olan cinayətkar birlikdə iştirak etməkdə" ittiham olunurdu. Araşdırma nəticəsində Yelizavetpol mahal məhkəməsi 1909-cu il mayın 15-də "Qarabağ Birlik Məclisi" üzvlərinin işi üzrə hökm çıxarmışdı. Məhkəmənin qərarı ilə həmin şəxslərdən 8 nəfəri 8 aydan 2 ilə qədər həbs cəzasına məhkum edilmiş, 3 nəfərin isə təqsiri sübut edilmədiyinə görə, məhkəmə onlara bəraət vermişdi (Əzizov 2009, 140).

## Nəticə

Beləliklə, Azərbaycan siyasi intibahının əsasını qoymuş, ilk milli siyasi partiya kimi xarakerizə etdiyimiz "Difai" partiyası geniş təşkilat komitələrinə malik olmuş, bölgələrdə geniş şəbəkə yarada bilmişdir. Onun ən mühüm yerli təşkilatları Gəncə və Şuşada yaradılmışdı. Partiyanın Şuşa komitəsi özünün geniş fəaliyyəti və özəkləri ilə fərqlənmişdir. Partiyanın dövrümüzə gəlib-çatmış 53 bənddən ibarət geniş proqramı da məhz Şuşa komitəsinə məxsus olmuşdur. Partiyanın Şuşa komitəsinin rəhbər və üzvləri çar hakimiyyət orqanları tərəfindən daha çox təqiblərə məruz qalmışlar.

## ƏDƏBİYYAT

Azərbaycan tarixi. (2008). (7 cilddə). V cild (1900-1920-ci illər). Bakı: Elm. (696 səh.+40) illüstrasiya.

Bağırzadə C.V. (2006). Difai partiyası: yaranması və fəaliyyəti. Bakı, "Nurlan" nəşriyyatı. (116 s.).

Əzizov E.Ə. (2009). Difai: XX əsrin əvvəllərində erməni-azərbaycanlı münaqişəsinin ilkin tarixi şərtləri və səbəbləri. Bakı: "CBS Polygraphic Production", (360 səh.).

Əzizov E. (2005). Difai qeyrət və hünər mücəssəməsi idi. // "Azərbaycan" qəzeti №121 (4040).

Hüseyn Baykara. (1992). Azərbaycan istiqlal mübarizəsi tarixi. Bakı, Azərbaycan Dövlət Nəşriyyatı. (276 s.).

Seyidzadə D.B. (1998). Azərbaycan XX əsrin əvvəllərində: müstəqilliyə aparan yollar. Bakı, Azərbaycan Respublikası Kitab Cəmiyyəti nəşri. (256 s.).

Süleymanova S.Y. (1999). Azərbaycanda ictimai-siyasi hərəkat (XIX yüzilliyin sonu-XX yüzilliyin əvvəlləri). Bakı, Azərbaycan Dövlət Kitab Palatası, (422 s.).

*д.ф.по истории, доц. Джавид Багирзаде*

## О КАРАБАХСКОМ И ШУШИНСКОМ КОМИТЕТАХ «КАРАБАХ БИРЛИК МЕДЖЛИСИ» (КАРАБАХСКОЙ СОЮЗНОЙ АССАМБЛЕИ) ПАРТИИ «ДИФАИ» И ИХ ДЕЯТЕЛЬНОСТИ

### РЕЗЮМЕ

Организаторы партии «Дифаи» сосредоточились именно на Карабахе, с учетом, того что этот регион являлся более благоприятным для ее обширной деятельности. Считая это очень разумным шагом, российский чиновник пишет, что народ Карабаха, больше пострадавший от армяно-мусульманского конфликта, нуждался в

организации, которая спасла бы его от острых когтей врага. Хотя партия Дифаи была создана в 1905 г., создание ее местных организационных комитетов в основном охватывает 1906-1907-е гг. После визитов Ахмад бека Агаоглу в Карабах и Гянджу в 1906 году именно здесь были созданы первые местные комитеты партии «Дифаи». Местные оргкомитеты партии «Дифаи» в Карабахском регионе были созданы в Шуше, Агдаме, Барде, Тертере, Карягине и Джебраиле. Основным местом деятельности партии «Дифаи» был Гянджа-Карабахский регион. Основные оргкомитеты партии «Дифаи» были созданы в Елизаветпольской (Гянджинской) губернии, среди которых особенно выделялись и вели обширную деятельность Шушинская и Гянджинская организации.

Хотя Центральный комитет партии «Дифаи» располагался в Баку, основная деятельность осуществлялась местными комитетами. Отделения партии «Дифаи» были созданы в Гяндже, Шуше, Агдаме, Барде, Евлахе, Тертере (Джаванширский район), Карсе, Нахичевани, Ереване, Карягине (нынешний Физули), Джабраиле, Ходжагане и Владикавказе.

В рамках упомянутого съезда, проведенного в марте 1907 года в Гяндже, в доме Аскер ага Горани (Адигезалова), вероятно, была пересмотрена деятельность партии «Дифаи» в уездах, определено направление деятельности партии «Дифаи» в Карабахском и Гянджинском регионах (на территории Елизаветпольской губернии), и принята более усовершенствованная и расширенная программа.

***Ключевые слова:*** *партия «Дифаи», Шуша, Ахмед бек Агаоглу, «Карабах Бирлик Меджлиси» (Карабахская союзная ассамблея), Карим бек Мехмандаров.*

*Assoc. Prof. Javid Baghirzade*

# REGARDING THE SHUSHA COMMITTEE OF THE DIFAI PARTY – THE KARABAKH UNION ASSEMBLY, THE KARABAKH COMMITTEES AND THEIR ACTIVITIES

## ABSTRACT

The organizers of the Difai party focused only on Karabakh, given that Karabakh was more suitable for its diverse activities. Considering this a very reasonable step, the Russian official writes that the people of Karabakh, more affected by the Armenian-Muslim conflict, needed an organization that would save him from the sharp claws of the enemy. Although the Difai Party was created in 1905, its establishment of local organizing committees mainly covers 1906-1907. Following Ahmad beyAgaoglu's visits to Karabakh and Ganja in 1906, the first local Difai committees were formed. Local organizing committees of the Difai party in the Karabakh region were created in Shusha, Agdam, Barda, Terter, Karyagin and Jebrail. The main place of activity of the Difai party was Ganja-Karabakh region.The main organizing committees of the Difai party arose in the Elizavetpol (Ganja) province, with the Shusha and Ganja organizations being particularly notable and widely active.

Although the central committee of the Difai party was located in Baku, its main activities were carried out by local committees. Branches of the Difai party were created in Ganja, Shusha, Agdam, Barda, Evlakh, Terter (Javanshir district), Kars, Nakhchivan, Yerevan, Karyagin (now Fizuli), Dzhabrail, Khojagan and Vladikavkaz.

In March 1907, in Ganja, in the house of Asker aga Gorani (Adigozalov), the aforementioned congress probably revised the activities of the Difai party in the counties, determined the direction of the Difai party in the Karabakh and Ganja regions (on the territory of the Elizavetpol province), and adopted a more improved and expanded program.

***Keywords:*** *Difai Party, Shusha, Ahmed bey Agaoglu, "Karabakh Union Assembly", Karim bey Mehmandarov.*

# MİR MÖHSÜN NƏVVAB YARADICILIĞI QARABAĞ ƏDƏBİ-MƏDƏNİ MÜHİTİ MÜSTƏVİSİNDƏ

***fil.f.d., dos. Səba Namazova,***
*Gəncə Dövlət Universiteti*
seba8080@mail.ru
ORCID: 0000-0002-7986-3073

## XÜLASƏ

Mir Möhsün Nəvvab Azərbaycan elmi, ədəbi-mədəni fikrində görkəmli yazıçı, alim, şair, rəssam, musiqişünas, xəttat, pedaqoq, astronom, nəqqaş, təzkirəçi kimi çoxtərəfli fəaliyyəti ilə geniş şöhrət qazanmışdır. O, Qarabağ ədəbi mühitində Xurşidbanu Natəvandan sonra ən böyük şəxsiyyət sayılır və olduqca zəngin irsə sahibdir.

Ensiklopedik biliyə malik olan, dövrünün müxtəlif elm sahələrinə dair çoxsaylı əsərlər yazmış Nəvvab, nəinki Şuşada, ümumən Qarabağda elmin, maarifin fəal təbliğatçısı kimi, uzun müddət "Gövhəriyyə" adı ilə tanınmış özünün açdığı yeni tipli məktəbdə dərs demişdir. Onun yaratdığı "Məclisi-fəramuşan" ədəbi məclisi Qarabağda geniş şöhrət tapmış, Azərbaycanda sənətin inkişafına müstəsna təsir göstərmişdir. Nəvvab, həmçinin Şuşada kütləvi kitabxana və qiraətxananın da təşkilatçısı olmuş, "Əkinçi", "Ziya", "Kəşkül" kimi mətbu orqanlarla əməkdaşlıq etmişdir. Mir Möhsün Nəvvab XIX əsrin 80-ci illərində Şuşada mətbəə də açmış, orada 50-yə qədər kitabın nəşrinə nail olmuşdur.

XIX əsr Qarabağ ədəbi-mədəni mühitində görkəmli yer tutan Nəvvab poeziyamızın zənginləşməsində də önəmli rol oynamış, üç dildə əsərlər qələmə almışdır. Onun qəzəl, müxəmməs, mürəbbe, rübai, təxmis, məsnəvi və təmsillərdən ibarət bədii yaradıcılığı mövzu rəngarəngliyi, problemin qoyuluşu baxımından diqqət çəkir.

Qarabağ ədəbi mühitinin tədqiqi sahəsində mühüm elmi məxəz olan "Təzkireyi-Nəvvab" Mir Möhsün Nəvvabın şah əsəri sayılır. Bu kitabda yüzə qədər şairdən bəhs edilərək onların şeirlərindən nümunələr veril-

mişdir. “Təzkireyi-Nəvvab” yalnız ədəbiyyat tarixini deyil, musiqi, xəttatlıq, tərcüməçilik və s. sahələri də öyrənmək üçün tutarlı məxəzdir.

Nəvvabın “1905-1906-cı illərdə erməni-müsəlman davası” əsəri isə müəllifin yaşadığı dövrün mürəkkəb, keşməkeşli hadisələrinə fəal vətəndaş, alovlu publisist mövqeyini əks etdirir. Kitab real faktlar əsasında yazılmışdır və xain ermənilərin 1905-1906-cı illərdə xalqımıza qarşı törətdyi mənfur əməllərini bütün gerçəkliyi ilə əks etdirir.

***Açar sözlər:*** *Mir Möhsün Nəvvab, Qarabağ, ədəbi mühit, yaradıcılıq, təzkirə.*

## Giriş

XIX əsr Azərbaycan ədəbi-mədəni mühitinin yetirdiyi böyük simalardan biri də Mir Möhsün Nəvvabdır. O, istedadlı şair, qüdrətli ədəbiyyatşünas və mahir fırça ustası kimi tanınır. Nəvvab nücum və tibb elmlərinə, musiqişünaslıq və ilahiyyata dair əsərlər də qələmə almışdır. İyirmidən artıq orijinal əsərin müəllifi olan Nəvvab haqqında indiyədək çeşidli yönlərdə araşdırmalar aparılsa da, onun irsinin daha geniş planda tədqiqinə ehtiyac duyulur.

Azərbaycan Milli Elmlər Akademiyasının Əlyazmalar İnstitutunda Nəvvabın əlliyə yaxın əlyazma kitabı qorunur. Həmin kitablar, əsasən, avtoqraf nüsxələrdən ibarət olmasına rəğmən, içərisində müəllifin öz əli ilə işlədiyi, tərtib edib köçürdüyü nüsxələrə də rast gəlinir. O əlyazmalar Nəvvabın müəllifi olduğu iyirmidən çox orijinal əsərini də əhatə edir. “Vüzuhil-ərqam”, “Divani-əş'ari-farsi”, “Divani-əş'ari-türki”, “Bəhrül-həzən”, “Kifayətül-ətfal”, “Nəsihətnamə”, “Nurül-ənvar”, “Kəşfül-həqiqeyi-məsnəvi”, “Ziyaül-ənvar”, “Dəvazdəh bənd”, “Məzamir”, “Şəmsül-hidayət”, “Məzlumnamə” və s. əsərlər içərisində “Təzkireyi-Nəvvab” öz dəyərinə görə seçilir. Təzkirənin yazılması XIX əsr Azərbaycan, ələlxüsus da Şuşa yaradıcı mühiti ilə yaxından bağlı olmuşdur.

Bəllidir ki, XIX əsrdə Azərbaycanda fəaliyyət göstərmiş ədəbi məclislərdən ikisi – “Məclisi-üns” və “Məclisi-fəramuşan” Şuşada təşkil olunmuş, mədəniyyət və ədəbiyyatın inkişafına əvəzsiz töhfələr bəxş etmişdir.

Abdulla bəy Asi, Fatma xanım Kəminə, Katib, Baki, Xarrat Qulu, Yusifi, Hicri və digərlərindən ibarət otuza qədər şair, musiqiçi və alimin toplaşdığı "Məclisi-fəramuşan"a Mir Möhsün Nəvvab rəhbərlik etmişdir. Həmin məclislərdə elmin ən müxtəlif sahələrindən bəhs edilərək incəsənət və musiqidən danışılsa da, başlıca xətt yenə də poeziya olaraq qalırdı.

## XIX əsr Qarabağ ədəbi mühitinin aynası olan Mir Möhsün Nəvvabın "Təzkireyi- Nəvvab" əsəri haqqında

Nəvvab öz təzkirəsində etiraf edirdi ki, əsəri yaxın dostlarının xahişi ilə 1891-ci ildə yazmağa başlamış, ardıcıl şəkildə 1892-ci ildə də üzərində işləmiş, beləliklə, "Təzkireyi-Nəvvab" kimi qiymətli bir ədəbi toplu yaranmışdır. Yüzə yaxın Qarabağ şairi haqqında məlumatların verildiyi təzkirədə onların poetik irsindən nümunələr də təqdim edilmişdir. Həmin şairlər sırasında ədəbiyyat tariximizin tanınmış simaları ilə yanaşı, sorağı yalnız Şuşa mühiti ilə məhdudlaşanların da adları və şeirlərindən nümunələr yer alırdı.

Əsasən iki hissədən ibarət olan təzkirənin birinci hissəsində Molla Pənah Vaqif, Molla Vəli Vidadi, Kərbəlayi Səfi Valeh, Qasım bəy Zakir, Cəfərqulu xan Arif Nəva, Məhəmməd bəy Aşiq, Aşıq Pəri, Abdulla bəy Asi və başqalarından bəhs edilir, Xurşidbanu Natəvan, Mehdiqulu xan Vəfa, Fatma xanım Kəminə, Həsənəli xan Qaradaği, Mirzə Rəhim Fəna, Məmo bəy Məmai, Mirzə Həsən Yüzbaşov, Mir Möhsün Nəvvab, Mir İbrahim Nəvvabzadə, Hacı Abbas Agah, Mir Mehdi Xəzani və digərlərindən ibarət ikinci hissədə isə əlli yeddi şairdən söz açılaraq əsərlərindən nümunələr verilmişdir. Bunlardan ikinci qismə aid şairlərlə Nəvvabın daha sıx şəxsi və ədəbi əlaqələri olmuşdur. Təzkirənin sonunda verilmiş qısa yazı və qeydlərdən anlaşılır ki, Nəvvab Qarabağdan kənarda yaşayan şairlərdən təzkirənin üçüncü hissəsində bəhs etmək niyyətində olmuşdur.

Təzkirənin diqqətəlayiq cəhəti bir də budur ki, orada göstərilən şeirlər dövrün ədəbi prosesini, şairlərin həyat və yaradıcılığını ardıcıl izləmək imkanı yaradır.

Müəllif bu əsərdə ədib, şairlərlə kifayətlənməyərək dövrünün ustad xəttat, nəqqaş, müğənni və musiqiçiləri haqqında maraqlı məlumatlara da

yer ayırmışdır. Burada Nəvvab hər bir şəxsin ədəbi portretini məharətlə təsvir edərək maraq dairəsinə dair bir sıra məqamları nəzərə çatdırmış, əsərlərinə münasibət bildirərək qiymət vermişdir.

Yeri gəlmişkən, "ədəbiyyatçılar üçün "Təzkireyi-Nəvvab" nə qədər dəyərlidirsə, musiqişünaslar, xəttatlar, tarixçilər üçün də bir o qədər əhəmiyyətlidir. Bu əsəri yazmaqla Nəvvab təzkirəçilik ənənəsinə novatorluqla yanaşmış və ilk dəfə olaraq təzkirəyə avtoqraf yazdırmışdır" (Əliyev 2016, 98).

Göründüyü kimi, Mir Möhsün Nəvvabın təzkirəsi Qarabağ ədəbi mühitinin hərtərəfli öyrənilməsində mühüm mənbə sayılır. Görkəmli ədəbiyyatşünas Firidun bəy Köçərli də vaxtilə həmin mühiti səciyyələndirərkən belə yazmışdır:

"Şuşa şəhərinin ab-havasının təsirindən torpağının bərəkətindən burada çox zürəfa, üdəba və şüəra vücuda gəlibdir. Belə ki, Şuşa qalası Zaqafqaziyanın Şirazı mənzələsində olub, ərbabi-zövqü səfa oymağı və əhli-hal və sahibi-dil yatağı hesab olunur" (Köçərli 1978, 157).

Qarabağ ədəbi mühitinin qüdrətli nümayəndəsi Mir Möhsün Nəvvab böyük zəka sahibi olaraq bir çox yaradıcılıq sahələrini öz fəaliyyətində yüksək bacarıqla birləşdirmişdir. Bu səbəbdən də onu məhz Qarabağ ədəbi mühiti müstəvisində araşdırmaq zərurəti meydana çıxır.

Tədqiqatlardan da bəllidir ki, Mir Möhsün Seyid Əhməd oğlu Nəvvab Ağamirzadə Qarabaği Azərbaycan elmi, ədəbi-nəzəri düşüncəsində şair, alim, yazıçı, rəssam, musiqişünas, pedaqoq, xəttat, nəqqaş, təzkirəçi kimi yüksək yaradıcı uğurlar əldə etmişdir. O, sözün əsl mənasında, ensiklopedik zəka sahibi idi. Elə, "Nəvvab" sözü də ərəb kəlməsi olub, "naib" anlamındadır. Daha dəqiq desək, "Allahın elçisi" mənasını verir.

Qarabağ ədəbi mühiti ilə bağlı çeşidli elmi araşdırmaları özündə ehtiva edən dəyərli əsərlər qələmə almış, bu mühitin müxtəlif nümayəndələri ilə əlaqədar çox sayda maraqlı tədqiqatlar aparmış böyük söz sərrafı "Təzkireyi-Nəvvab" əsərində özü barədə bunları qeyd etmişdir:

"Mir Möhsün Nəvvab bin mərhum Mir Əhməd bin Mir Fərzənd bin Mir Fəsih bin Mir Səburdur.

Nəvvab 1249-cu ildə (miladi 1833) Şuşa şəhərində anadan olub. Yeddi yaşından elmləri öyrənməyə başlayıb. Ərəb, fars, Azərbaycan dillərində

məharət göstərmiş, bu üç dildə həm nəsrlə, həm də nəzmlə əsərlər yazmışdır" (Nəvvab 2018, 283).

Bu qeydlərdən bir daha Nəvvabın 1833-cü ildə Şuşada dünyaya göz açdığı aydınlaşır və onun nəsil şəcərəsi, təhsili haqqında ətraflı təsəvvür formalaşır. Çoxsahəli yaradıcılığa malik Mir Möhsün Nəvvab bir sıra sahələrdə – ədəbiyyat, musiqi, rəssamlıq, nəqqaşlıq və s. yaradıcı məharət göstərmişdir. O, həmçinin yağlı boya ilə çəkilmiş rəsmlərin, miniatürlərin müəllifidir. Nəvvabın "Quşlar", "Güllər", "Teymurun portreti" rəsmləri xüsusilə maraq doğurur.

Onun ata-babası da Şuşada böyük nüfuza malik şəxsiyyətlər idilər. Atasının Şuşada ipək karxanasındakı hesabdarlıq işini sonradan Nəvvab özü davam etdirmişdir.

## Mir Möhsün Nəvvabın Qarabağın mədəni inkişafında rolu

Nəvvabın həyat və fəaliyyətinin digər önəmli tərəfi Qarabağ mühiti üçün son dərəcə xarakterik olan ədəbi və musiqi məclislərinin təşkili ilə bağlı olmuşdur. O, 1872-ci ildə "Məclisi-fəramuşan" adlı ədəbi məclis yaratmış və onun bütün ağırlığını öz üzərinə götürməklə yanaşı, evini də məclis iştirakçılarının ixtiyarına vermişdir.

Bəllidir ki, Mir Möhsün Nəvvab Şuşada iki məclis – "Məclisi-fəramuşan (Unudulmuşların məclisi)" və "Musiqiçilər məclisi"ni yaratmışdır. Bu məclislər yalnız Şuşada deyil, bütün Azərbaycanda ədəbiyyatın, sənətin inkişafına rəvac vermişdir.

Nəvvab Şuşa şəhərinin ümumən mədəni inkişafında çoxşaxəli fəaliyyəti ilə mühüm rol oyanmışdır. Belə ki, o özünün çap maşınında Azərbaycan şairlərinin şeirlərini çap edib yayırdı. Çoxşaxəli və məhsuldar fəaliyyət imkanlarına malik Mir Möhsün Nəvvab, həmçinin yeni üsullu məktəb açaraq orada müəllimlik etmişdir.

Nəvvab naşirlik işini də uğurla bacarmış, Şuşada mətbəə açaraq xeyli sayda kitabların nəşrinə nail olmuşdur. Bədii yaradıcılığın əksər sahələrində yüksək məharət nümayiş etdirmiş istedadlı sənətkarın Şuşa məscidinin minarələrində, evində, dərs dediyi məktəbdəki divar rəsmləri, quş və çiçək təsvirləri onun incə zövqlü bir rəssam olduğunu da sübuta yetirir.

Nəvvab 1903-cü ildə Şuşada kitabxana və qiraətxana da açmışdır. Oraya ayrı-ayrı şəhərlərdən qəzet və jurnallar gəlirdi. Qiraətxana müxtəlif illərdə "Şərqi-rus", "İrşad", "Molla Nəsrəddin", "İqbal", "Səda" və digər mətbu nümunələri alırdı. Hətta, "Məclisi-fəramuşan" ədəbi məclisinin üzvlərini dünya hadisələri və mədəni yeniliklərlə yaxından tanış etmək üçün Bakıdan "Əkinçi", Tiflisdən "Ziya", "Kəşkül" qəzetlərini, Hindistandan fars dilində nəşr olunan "Həblül- mətin" məcmuəsi də alınırmış.

Beləliklə, Qarabağ ədəbi mühiti Azərbaycan mədəniyyəti və ədəbiyyatının tarixində aparıcı yer tutmuş, bədii fikirdə yeni istiqamətlərin yaranmasına vəsilə olmuşdur. XVIII-XIX əsrlər boyunca Şuşa ədəbi mühiti yeni ideya-estetik xüsusiyyətləri, ədəbi-üslubi meylləri və zənginliyi ilə yalnız Azərbaycanda deyil, bütün türk aləmində, Şərq ədəbi düşüncəsində qabaqcıl mövqeyə malik idi.

Bu mənada, təkcə XIX əsrdə Şuşada doxsan beş şair, iyirmi iki musiqişünas, otuz səkkiz xanəndə, on doqquz xəttat, on altı nəqqaş, on bir nüsxəbənd, dörd astronom, on səkkiz memar, on altı həkim, qırx iki müəllimin olması kimi faktlar Şuşanın ədəbi-mədəni fikirdəki müstəsna rolunu bir daha təsdiq edir.

Olduqca rəngarəng, zəngin bədii yaradıcılığa malik olan Mir Möhsün Nəvvab klassik şeirin əksər janrlarında qələmini sınamışdır. Qəzəl, rübai, qitə, mürəbbe, müxəmməs, müsəddəs, müəşşər, şahpərə, fərd, tərcibənd, tərkibəndlər, o cümlədən şifahi xalq ədəbiyyatı üslubunda yazılmış qoşmalar şairin "Divan" və "Məzlumnamə"sinin əsasını təşkil edir. Onun divanındakı şeirlər klassik divanlara xas qaydada sıralanmamışdır. "Divan" dibaçə ilə başlanır və orada müəllif özü haqqında məlumat verərək əsəri yazmağa başladığı tarixi qeyd edib bütövlükdə əsərlərinin siyahısını da vermişdir.

Mir Möhsün Nəvvab poeziyasının diqqətəlayiq cəhəti bir də odur ki, şeirlərinin əksəriyyəti vətənpərvərlik ruhu aşılayır. Onun ümumilikdə yaradıcı fəaliyyəti xalq, Vətən sevgisindən qaynaqlanır.

**Mir Möhsün Nəvvabın "1905-1906-cı illərdə erməni-müsəlman davası" əsəri**

Məlumdur ki, Azərbaycan tarixi ilə bağlı həqiqətlərin bəyan edildiyi bir sıra əsərlərin sovet dövründə nəşrinə icazə verilməmişdir. Müstəqilliyin əldə edilməsindən sonra belə əsərlər geniş oxucu auditoriyasına bəlli olmuşdur. Nəvvabın sözü gedən əsəri ilk dəfə 1993-cü ildə Kamandar Şərifli və Arif Ramazanzadə tərəfindən əski əlifbadan çevrilərək tərtib edilmiş və "Azərbaycan" nəşriyyatında "1905-1906-cı illərdə erməni-müsəlman davası" adı ilə nəşr olunmuşdur.

Mir Möhsün Nəvvabın "1905-1906-cı illərdə erməni-müsəlman davası" əsərində onun yaşadığı dövrün mürəkkəb hadisələrinə ustalıqla aydınlıq gətirilmişdir. Müəllifin "Təvarixi-rəzm və şurişi-taifeyi-əraməniyyeyi-Qafqaz ba firqeyi-müsəlmanan" ("Qafqaz erməniləri tayfasının müsəlmanlarla savaş və iğtişaş tarixləri") adlandırdığı kitabı real faktlar əsasında qələmə alınmış və ermənilərin 1905-1906-cı illərdə xalqımıza qarşı törətdiyi çoxsaylı, qanlı cinayət əməllərini əks etdirməklə yanaşı, bir sıra aktual məsələlərə də aydınlıq gətirmişdir.

Kitabda təsvir olunan hadisələr Qarabağda, ələlxüsus da onun mərkəzi Şuşada baş verir. Buna rəğmən, müəllif ermənilərin Bakı və İrəvanda, Naxçıvan və Təbrizdə, Tiflis və Xorasanda törətdikləri təxribatlara da diqqəti yönəldir və onların eyni mərkəzdən idarə edildiklərini nəzərə çatdırır. Əsər konkret hadisələrin təsvirindən ibarətdir və müəllifin bu hadisələrdə ya bilavasitə iştirakı, yaxud başqalarından eşitdikləri əsasında yazılmışdır.

Kitabda Nəvvab ermənilərə qarşı vuruşan insanların igidliyindən böyük vəcdlə söz açırdı. Müəllif 1905-ci ilin avqustunda Şuşada baş verən qanlı hadisələri təsvir edərkən azərbaycanlıların misli görünməmiş şücaətlərini dilə gətirmişdir:

"Ermənilər öz qarşılarına qoyduğu məqsədə çatmaq üçün durmadan səngərlər tikir, müxtəlif tədarüklər görür, vilayətlərdən və kəndlərdən Şuşaya kömək gətirirdilər. Odur ki, şəhər erməni tayfası ilə dolmuşdu.

Mən, Mir Möhsün Nəvvab evim erməni məhəlləsinə qonşu olduğuna görə qarşıdan gələn təhlükəni nəzərə alaraq şəhərin bir neçə izzətli şəxsləri evimi dəyişməyi mənə məsləhət bildilər. Həmin xahişə binaən bir

gecə əyləşib diqqətlə sual etdim ki, bu davada fəth, nüsrət və qələbə biz müsəlmanlarla olacaq, yoxsa erməni tayfası ilə? İstixarə etdikdən sonra bu növ cavab zühura gəldi:

Qələbə yaxın günlərdə sizinlədir.

Bütün düşmənlər sizin ayağınızın altındadır".

Sonra bu beyti yazıb qazixanədə yığıncaqda söylədim. Bir para adamlara isə bu beyti yazıb verdim ki, cürətləri daha da artsın, ümidsizlər cəsarətə gəlsinlər" (Nəvvab 2020, 47).

Nəvvabın bu əsəri ədəbi-publisistik səciyyə daşıyır. Belə ki, müəllif hadisələrin bir çoxunun bədii şəkildə təsvirinə üstünlük verməklə yanaşı, yeri gəldikcə uyğun şeir parçalarını da nəsrin arasında işlədirdi. Həmin cəhət əsərin bədii keyfiyyətlərini və estetik dəyərini daha da gücləndirir.

"1905-1906-cı illərdə erməni-müsəlman davası" əsərində də qeyd edildiyi kimi, ermənilər mənfur əməllərini həyata keçirmək üçün müxtəlif hiylələrə əl atır, gah özlərini məzlum millət kimi göstərir, gah da durmadan ağlasığmaz vəhşiliklər törədirdilər. Əsərin ayrıca bir hissəsində ermənilərin kazaklarla birgə xalqımıza qarşı talan və qarətlər etdikləri qələmə alınmışdır.

Dövrünün qabaqcıl ziyalısı, ensiklopedik bilik sahibi Mir Möhsün Nəvvabın "1905-1906-cı illərdə erməni-müsəlman davası" kitabı yaxın keçmişimizi özündə yaşadan ən mötəbər bir qaynaq kimi yüksək dəyərləndirilir və xalqımızı öz haqq işində mübarizəyə səsləyir.

Mir Möhsün Nəvvab, hətta "Şuşa qalasında baş vermiş erməni-müsəlman münaqişəsi münasibətilə" başlıqlı iyirmi bəndlik mürəbbesində də şəhərə ermənilərin aramsız hücumlarından, günahsız insanların öldürülməsindən, evləri yandırılmasından, yerli azərbaycanlı əhalinin birləşərək onları darmadağın etmələrindən danışaraq təəssüflə deyirdi ki, düşmənlə heç vəchlə barışmaq olmaz. Şeirin sonluğunda Nəvvab bu xüsusda düşüncələrini dilə gətirərək xalqı birliyə səsləyir:

*Müsləmana təəssüb vacibdi, Nəvvabi-zar,*
*Böylə fərman veribdir o rəsuli-tacidar,*
*Həmiyyəti olanı hifz eləsin Kirdgar,*
*Qeyrətsiz əşxasla izn yox danışmağa.*

**Nəticə**

Göründüyü kimi, Mir Möhsün Nəvvab yaşadığı dövrdə cərəyan edən mövcud ictimai-siyasi hadisələrdən qətiyyən kənarda qalmamış, tariximizin faciəli səhifələrindən olan 1905-1906-cı illərdə rus imperiyasının fitnə-fəsadları və qəsbkar ordusunun köməyi ilə xain ermənilərin xalqımızın üzərinə qaldırılması nəticəsində baş vermiş qanlı qırğınlardan da öz əsərində faktlar əsasında bəhs etmişdir.

Azərbaycan mədəniyyətinin inkişafına mühüm töhfələr vermiş Mir Möhsün Nəvvabın çoxşaxəli ədəbi-ictimai fəaliyyəti, milli klassik ənənələrə söykənən zəngin irsi nəinki Qarabağ yaradıcı mühitini, ümumən Azərbaycanda incəsənətin inkişaf tarixini izləmək üçün zəngin mənbə sayılır.

## ƏDƏBİYYAT


Əliyev Ə. Qarabağ ədəbi mühiti və Mir Möhsün Nəvvab. (2016). (Monoqrafiya). Bakı: Avropa, (151 səh.).

Köçərli F. (1978). Azərbaycan ədəbiyyatı. İki clddə. I cild. Bakı: Elm, (595 səh.).

Nəvvab M.M. (2020). 1905-1906- cı illərdə erməni-müsəlman davası. Bakı: Mücrü, (172 səh.).

Nəvvab M.M. (2018). Təzkireyi-Nəvvab. Bakı: Elm, (740 səh.).

*д.ф. по филологии, доц. Саба Намазова*

## ТВОРЧЕСТВО МИР МОХСУН НАВВАБА НА УРОВНЕ КАРАБАХСКОЙ ЛИТЕРАТУРНО-КУЛЬТУРНОЙ СРЕДЫ

### РЕЗЮМЕ

Мир Мохсун Навваб снискал широкую известность своей разносторонней деятельностью в научной, литературно-культурной мысли Азербайджана как выдающийся писатель, ученый, поэт, художник, музыковед, каллиграф, педагог, астроном, живописец, комментатор. Он считается величайшей личностью в карабахской литературной среде после Хуршидбану Натаван и имеет очень богатое наследие.

Обладая энциклопедическими знаниями, Навваб написал множество трудов, посвященных различным областям науки своего времени. Он преподавал в школе нового типа, открытой им, являющейся активным пропагандистом науки, просвещения не только в Шуше, но и в целом в Карабахе, и известной длительное время как «Гевхария». Созданное им литературное собрание «Маджлиси-Фарамушан» получило широкую известность в Карабахе и оказало исключительное влияние на развитие искусства в Азербайджане в целом. Навваб также был организатором публичной библиотеки и читального зала в Шуше, сотрудничал с такими органами печати, как «Экинчи», «Зия» и «Кашкуль». Мир Мохсун Навваб также открыл в Шуше типографию в 80-е годы XIX века, где издал около 50 книг.

Занимая видное место в литературно-культурной среде Карабаха в XIX веке, Навваб также сыграл важную роль в обогащении нашей поэзии, написав произведения на трех языках. Его художественное творчество, состоящее из газелей, мухаммасов, мураббе, рубаи, тахмисов, маснави и басен, привлекает внимание многообразием тем и постановкой проблем.

Шедевром в творчестве Мир Мохсун Навваба считается «Тазкирейи-Навваб», являющийся важным научным источником в области

исследования литературной среды Карабаха. В этой книге упоминается около сотни поэтов, и приводятся примеры их стихов. «Тазкирейи-Навваб» является надежным источником для изучения не только истории литературы, но и музыки, каллиграфии, переводоведения и др. сфер.

Труд «Армяно-мусульманский конфликт 1905-1906-х годов» Навваба отражает позицию автора активного гражданина, ярого публициста в сложных, бурных событиях своего времени. Книга написана на основе реальных фактов и во всей ее реальности отражает гнусные намерения вероломных армян против нашего народа в 1905-1906-х гг.

***Ключевые слова:*** *Мир Мохсун Навваб, Карабах, литературная среда, творчество, тазкира*

***Assoc. Prof. Saba Namazova***

## MIR MOHSUN NAVVAB'S WORKS IN THE LEVEL OF KARABAKH LITERARY AND CULTURAL ENVIRONMENT

### ABSTRACT

Mir Mohsun Navvab has gained wide fame in the scientific, literary and cultural thought of Azerbaijan as a prominent writer, scientist, poet, artist, musicologist, calligrapher, pedagogue, astronomer, painter, writer of memoir. He is considered the greatest figure in the Karabakh literary environment after Khurshidbanu Natavan and has a very rich heritage.

He possessed encyclopedic knowledge and wrote numerous works on various fields of science at the time. The literary assembly "Majlisi-Faramushan" created by him became widely known in Karabakh and had an exceptional impact on the development of art in Azerbaijan in general. Navvab was also the organizer of a public library and reading room in

Shusha, and collaborated with newspapers such as Akinchi, Ziya, and Kashkul. Mir Mohsun Navvab also opened a printing house in Shusha in the 1880s, where he published approximately 50 books.

Having a prominent place in the literary and cultural environment of Karabakh in the 19th century, Navvab also played an important role in the enrichment of our poetry, writing works in three languages. His artistic work, consisting of ghazals, mukhammas, murabbe, rubai, tahmis, masnavi and fables, attracts attention in terms of the variety of themes and problems.

*Tazkireyi-Navvab*, which is an important scholarly source in the study of the literary environment of Karabakh, is considered a masterpiece of Mir Mohsun Navvab. This book mentions about a hundred poets and gives examples of their poems. *Tazkireyi-Navvab* is a reliable source for studying not only the history of literature, but also music, calligraphy, translation, etc.

Navvab's *Armenian-Muslim conflict in 1905-1906* reflects the author's position as an active citizen, an ardent publicist in the complex, turbulent events of his time. The book is written on the basis of real facts and reflects in all its reality the despicable intentions of the treacherous Armenians against our people in 1905-1906.

***Keywords:*** *Mir Mohsun Navvab, Karabakh, literary environment, creativity, memoirs*

# ÜZEYİR HACIBƏYLİ TƏNQİDÇİ-MAARİFÇİ KİMİ

## (Felyetonlar əsasında)

***f.f.d. Qadir Səfərov,***
*AMEA akad. Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutu*
*Din və ictimai fikir tarixi şöbəsinin aparıcı elmi işçisi*
qadirseferov0707@gmail.com

## XÜLASƏ

Qərb ölkələrinə və Rusiyaya nisbətən Azərbaycanda maarifçilik ideyaları gec yayılmışdır. Azərbaycan fəlsəfi fikrində maarifçilik hərəkatı həm Qərbin, həm də Şərqin mütərəqqi ideyalarını özündə sintez edərək universal dəyərlər yaratmışdır. Azərbaycanda maarifçilik zəminli fikirlər M.Nəvvab, İ.Qutqaşınlı, A.A.Bakıxanov, M.F.Axundov və H.Zərdabi kimi mütəfəkkirlərin düşüncələrində öz əksini tapmışdır. Məqalənin birbaşa mövzusu olan böyük bəstəkar, maarifçi və ictimai xadim Üzeyir Hacıbəylinin dövrün ictimai-siyasi, maddi-mənəvi məsələlərinə münasibəti çoxşaxəli olmuşdur. O, gah publisist-yazar, gah musiqiçi, gah da mütəfəkkir kimi qarşımıza çıxmaqdadır. Yazıda Üzeyir Hacıbəyli milli-ictimai xadim olaraq nəzərdən keçirilir və onun tənqidçi-maarifçi xüsusiyyətləri əsas götürülərək araşdırılır. Həmçinin vurğulanır ki, Üzeyir Hacıbəylinin maarifiçi-realist fəaliyyəti millətin, xalqın milli-mədəni və maddi-mənəvi həyatının bugünü və gələcəyi ilə bağlı olmuşdur. Azərbaycan xalqının azadlıq, özünüdərk məsələsi maarifçi-ziyalının yaradıcılığının əsas prioritet istiqamətlərindəndir.

***Açar sözlər:*** *Azərbaycan, maarifçilik, fəlsəfə, milli-mənəvi, Üzeyir Hacıbəyli.*

**Giriş**

Bəzi tədqiqatçılar hesab edirlər ki, "Avropada maarifçilik fəlsəfəsi şəxsiyyətin avtonomluğu prinsiplərini, insan və vətəndaş hüquqlarını, demokratiyanı birdəfəlik və həmişəlik müəyyənləşdirmişdir. Digərləri isə düşünür ki, o, bizi yoldan çıxardı, çünki tərəqqiyə illüzor inam yaratdı, mücərrəd rasionalizm tələsi qurdu, totalitarizm doğurdu". Maarifçiliyə ikili – lehinə və əleyhinə – münasibətlərin olması onun mahiyyətinə fərqli yanaşmalarla bağlıdır (Behbudov, 167).

Maarifçilik hərəkatının əhəmiyyətli rolu ondadır ki, şüurları dəyişməyə nail oldu. Cəmiyyətdə müstəqil, fərqli və tənqidi düşünən insanları bir araya gətirdi. Məşhur fransız kulturoloqu M.Fuko qeyd edirdi ki, maarifçilik yalnız kollektiv hərəkat deyil, həm də müstəqil və məsuliyyətli yaşamağa qərar vermiş fərdin cəsarətli əməlidir (Fuko) ( Behbudov, 167).

Ümumilikdə, rasionallığın və universallığın vəhdətindən ibarət olan Qərb maarifçiliyi ideyalar məcmusu şəklində qədim dövrlərdən mövcud olsa da, XVIII əsrdə sistemli fəlsəfi təlim kimi meydana gəlmişdir (Hüseynov 2018, 4).

Azərbaycanda XIX əsrdə ənənəvi fəlsəfi görüş və ideyalar artıq formalaşmışdı. Yalnız bu fəlsəfi fikir və düşüncələr zamana uyğun yeni töhfələr verə bilmirdi. Məhz bu səbəbdən, Avropadan cəmiyyətə diktə olunan və yayılan fəlsəfi görüşlər cəmiyyətə, sanki diktə olunurmuş kimi olduğundan, ənənəvi alimlər bu düşüncələrlə uyğun lisan tapa bilmədilər. Azərbaycan maarifçilik fəlsəfəsinin formalaşmasını bu toqquşmanın nəticəsi kimi xarakterizə etmək olar (Məlikov 2018, 121).

Ümumiyyətlə, Azərbaycanda maarifçiliyin və demokratik ictimai-fəlsəfi fikrin formalaşması ilk öncə A.Bakıxanovun və M.F.Axundovun adı ilə bağlıdır.

A.Bakıxanovun əsərlərinin elmi təhlili göstərir ki, o, sözün əsl mənasında, son böyük Azərbaycan metafiziki idi. O, birinci olaraq metafizikanın predmetini elmin predmetindən fərqləndirmişdir. Elmdə A.Bakıxanov izahedici şəxs kimi çıxış edirdi. Metafizikada (hikmətdə) isə o, idealist və ilahiyyatçı idi. Metafizikanın bütün məzmununu fövqəlhissi mahiyyətlərə, ilahi predmetlərə müncər edirdi. A.Bakıxanov, həmçinin meta-

fizikanı varlığın fövqəltəbii prinsipləri (rəmzləri) haqqında bir elm kimi səciyyələndirirdi (Məlikov 2018, 126).

F.Qasımzadə yazır: «M.F.Axundovun yaradıcılığında maarifçilik, xalqın tərəqqisi ilə bağlı olan məsələlər, xalq hakimiyyəti, demokratik azadlıqlar ideyası mühüm yer tutur. O, öz dövrünün qabaqcıl ictimai-siyasi baxışlarına malik olan mütəfəkkir, xalqın azadlıq hərəkatı və ictimai tərəqqisi ilə bilavasitə bağlı olan görkəmli maarifçi və Yaxın Şərq ölkələrinin ilk inqilabçı-demokratıdır (Orucov 2012, 24). Bakıxanov yaradıcılığı ilə M.F.Axundovun fəaliyyəti arasında az müddət olmasına baxmayaraq, bu dövrdə çoxlu dəyişiklik baş vermişdir. Axundov ənənəvi elmlərə, sanki nifrət edirdi. Avropada gələn yeni düşüncələri, sanki milliləşdirməklə bizim fikirlərə uyğun təbliğ etməyin tərəfdarı kimi çıxış edirdi (Məlikov 2018,126).

Azərbaycanda maarifçilik fəlsəfəsinin yaranması və inkişafında özünəməxsus yerləri ilə seçilən şair və mütəfəkkirlərdən – Mirzə Şəfi Vazeh və Seyid Əzim Şirvanidir. Mirzə Şəfi Vazehin Tiflisdə təşkil etdiyi "Divani-Hikmət" ədəbi məclisi, Seyid Əzim Şirvaninin maarifçiliyin inkişafı və cəhalətin, avamlığın tənqidi baxımından qələmə aldığı satiraları özünəməxsusluğu ilə seçilir.

Maarifçiliklə əlaqədar xidməti olmuş növbəti mütəfəkkirimiz – Həsən bəy Zərdabi olmuşdur. Azərbaycanda ilk dəfə milli mətbuatın əsasının qoyulması məhz onun adı ilə bağlıdır. Belə ki, 1875-ci il iyulun 22-də "Əkinçi" qəzeti fəaliyyət göstərməyə başlamışdır. Xalqın qəzet oxuyaraq maariflənməsini düşünmüş, bunun üçün də əlindən gələni əsirgəməmişdir.

Digər tərəfdən, "Molla Nəsrəddin" jurnalı ətrafında cəmləşmiş maarifçi-ziyalılar, o cümlədən, Ü.Hacıbəyli geniş fəaliyyətlə çıxış edirdilər.

Mollanəsrəddinçilərin fəlsəfi dünyagörüşünə təsir edən amillər və ideya cərəyanları kimi Avropa, rus maarifçilik mədəniyyətini, eləcə də milli maarifçilik fəlsəfi irsini gostərmək olar. Müasir milli və ümumbəşəri sosial-fəlsəfi ideyaların vəhdətindən formalaşan mollanəsrəddinçi fəlsəfi dünyagörüşü ictimai həyatı və xalqın şüurunu yeniləşdirmək, milliliyi nəzərə almaqla, müasir əxlaqi dəyərlər aşılamaq vəzifəsini şərəflə yerinə yetirirdi (Hüseynov2018, 4).

## Üzeyir Hacıbəylinin həyatı və fəaliyyəti

Üzeyir Hacıbəyli 1885-ci ilin 18 sentyabrında Qarabağın Ağcabədi kəndində kənd mirzəsi Əbdülhüseynin ailəsində doğulmuşdur. Tezliklə Üzeyirin ailəsi Şuşa şəhərinə köçür. Azərbaycanın mədəni mərkəzlərindən biri olan Şuşa qədimdən bəri özünün musiqi və ədəbi ənənələri ilə məşhur idi (Üzeyir Hacıbəyli 2008, 5).

Üzeyir Hacıbəyli 1899-cu ildən 1904-cü ilədək Qori Müəllimlər Seminariyasında oxumuşdur. Burada o, dünya mədəniyyəti ilə tanış olmuş, rus və Qərbi Avropa klassiklərinin dahi əsərlərini mənimsəmişdir. Seminariyanı bitirdikdən sonra Üzeyir bir müddət Hadrut kəndində müəllim işləmişdir. O, 1905-ci ildə – inqilab ərəfəsində Bakıya gəlir, burada ictimai-siyasi və maarifçi fəaliyyəti başlanır.

Ü.Hacıbəyli fəaliyyətinə maarifçi-demokrat cəbhəsinin fəal nümayəndələrindən biri kimi başlamışdır. "İrşad", "Həqiqət", "Tərəqqi", "Yeni iqbal", "Kaspi", "Molla Nəsrəddin" kimi jurnal və qəzetlərin səhifələrində dərc olunmuş məqalə və felyetonlarında Hacıbəyli dövrün aktual məsələlərinə – xalqın maarifi uğrunda mübarizə, milli dil problemi, rus mədəniyyətinə münasibət və s. kimi problemlərə toxunmuşdur. O, ən aktual siyasi mövzularda – Rusiyada 1905-ci il inqilabı, İran inqilabı və digər hadisələr haqqında yazırdı. Felyetonları "Ordan-burdan", "Filankəs", "Üzeyir", "Bəhmənkəs" və digər ümumi başlıqlar, həmçinin müxtəlif təxəllüslərlə dərc olunurdu.

Kəsərli qələm sahibi olan jurnalist, incə yumora malik dramaturq, gözəl pedaqoq, elmi nəzəri fikirləri ilə seçilən alim, yorulmaz ictimai xadim Üzeyir bəy Hacıbəylinin yaradıcılığının ana xəttini, qayəsini elə məhz istiqlalçılıq, millətçilik, vətənçilik-azərbaycançılıq təşkil edir. O, bu mövzuda məhəbbətlə yazır, düşündürür, fikirlərini əsaslandırır, tutarlı, dolğun faktlardan, mənbələrədən məharətlə istifadə edərək əsərləri ilə sanki bugünkü günümüzə ayna tutur (Əzimova, 2020).

Onun mövzuları, əsasən, bunlardan ibarət idi: hürriyyəti-kəlam, hüriyyəti-şəxsiyyə, hürriyyəti-icma, hürriyyəti-mətbuat, hürriyyəti-vicdan.

**Dil məsələsi**

Milli dil məsələsi yuxarıda da işarə etdiyimiz kimi, ilk maarifçilərdən Axundovu da narahat etmişdir. M.F.Axundov onillər ərzində yeni Azərbaycan əlifbası yaratmaq uğrunda gərgin mübarizə aparmışdır.

Üzeyir bəy də bir maarifçi kimi bu ənənəni davam etdirmişdir. Ona görə, "İnsanın hər bir ehtiyacını, ağlına gələn ali əfkarını, qəlbində törəyən hissiyyati-şairənəsini ən müsbət surətdə izhar və bəyan etməyə vasitə – dildir. Belə olan halda, dilin geniş, zəngin bəliq və səlis olması, insanın hər bir cəhətdən təaki və tərəqqisinə nə böyük bir xidmət etmiş olar" (Hacıbəyov 1985,182).

"Biz öz türk dilimizi bilmirik və bilmədiyimiz üçün bədbəxt dilimizi daha da xarab edirik" (Hacıbəyov 1985, 75).

Ana dilinin saflığı, tərəqqisi uğrunda mübarizə aparan, "Binaənəleyh dilimizi öyrənməliyik", – deyən Ü.Hacıbəyli dil haqqında zaman keçdikcə dəyəri və mənası daha aydın duyulan fikirlər söyləmişdir:" Bir millətin ki, dili batdı, onda o millət özü də batar, çünki bir milllətin varlığına, isbati vücud etməsinə səbəb onun dilidir" (https://modern.az/articles/85148/1/).

Din başqa, dil başqa, milliyyət başqa. Dində dil yoxdur, dində milliyyət də yoxdur. Əgər yaponlar İslam dinini qəbul etsələr, onlar cəhətincə müsəlman olarlar, amma dil və milliyyətcə yapon olaraq qalırlar (Hacıbəyov 1985, 141). Din, dil fərqliliyində Üzeyir Hacıbəyli islahatçı müsəlman mütəfəkkir Cəmaləddin Əfqaniyə yaxın fikir irəli sürməkdədir. Belə ki, Əfqani dilin və milli kimliyin əhəmiyyətini belə ifadə etmişdir: "Dilsiz cəmiyyətin milli varlığı, ədəbiyyatı olmayan xalqın dili olmaz. Yenə də tarixi olmayan xalqın ləyaqəti, özünəinamı, tarixini qoruyub-saxlayan, keçmişinin əsərlərini yaşadan, nümunə kimi təqdim edən liderləri olmayan xalqın tarixi olmaz (Hacıbəyov 1985, 141)".

**Dini maarif**

Üzeyir Hacıbəyli vətənpərvərliyi maddi və mənəvi nailiyyətdə görür (Hacıbəyov 1985, 160).

Üzeyir bəy dini radikalizm nümayiş etdirən müsəlmanların bir-birini təkfir və təlin etməsini kəskin tənqid edirdi.

O deyirdi: "Mən burasını yaxşı anlayıram ki, bir molla bir kafiri müsəlman edə bilər. Amma burasını heç qana bilmirəm ki, molla müsəlmanı kafir etsin! Çünki müsəlmanı kafir eləmək – missionerlərin işidir. Bu birinci. İkinciyə qaldıqda, Allah-Taala Məhəmməd əleyhissalamı göndərdi ki, kafirləri müsəlman etsin, Məhəmməd əleyhissalam da dəxi etdi.

– Ayə, bəs mollanümalərə kim tapşırdı ki, Məhəmməd əleyhissalamın müsəlman etdiyi adamları kafir etsinlər? (Hacıbəyov 1985, 42).

Əzalarımızın qüvvətsizliyi cismani qüvvətsizlik deyildir. Yəni əzalarımız çolaq, şil və şikəst deyildir. Onların qüvvətsizliyi mənəvi qüvvətsizlikdir (Hacıbəyov, 1985, 80).

Özünə olan zülmü rəf və dəf etməyə heç bir qüdrət yoxdur. Zira əql yoxdur və onun üçün də müdafiə yolunu bilmir, lakin faslılar (mərakeşlilər) heyvan deyildirlər, insandırlar. İnsan isə əqlə malikdir və o əqli artırmaq üçün də mədəniyyət kimi doğru bir yol vardır... Faslılar təkfir, təlin kimi boş və çürük məsələlərlə məşğul olub, əvvəldə olan mədəniyyətiislamiyyəni bimərrə unudub heyvan kimi ömür sürürlər (Hacıbəyov 1985, 98).

Biz öz milliyyətimizi baqi saxlamaq, istiqbalımızı təmin etmək üçün var qüvvəmizi elm, maarif yolunda sərf etməliyik ki, biz də mədəniyyətlilər cərgəsinə girməklə özümüzü mədəniyyətlilərin hər növ təcavüzatından müsəvvən saxlaya bilək (Hacıbəyov, 1985, 105).

İnsanın cəhaləti elmsizlikdəndir. Elm kəsb etmək üçün insana yol verilməlidir, mane olunmamalıdır (Hacıbəyov 1985, 124).

Məşhur missioner Liminski deyirdi ki, aləm-İslamın və əz-cümlə Rusiya müsəlmanlarının xabi-qəflətdən bidar ola bilməmələrinə səbəb avam və cahil mollalardır ( Hacıbəyov 1985, 158).

Müsəlmanlarda məsəl çoxdur, nə etmək, əməl azdır və bir yerdə ki, məsəl çox ola və əməl az ola, o yerin işi... sözün doğrusu, çox uzundur (Hacıbəyov 1985, 294).

Ümumilikdə deyə bilərik ki, Üzeyir Hacıbəylinin maarifiçi-realist fəaliyyəti millətin, xalqın milli-mədəni və maddi-mənəvi həyatının bugünü və gələcəyi ilə bağlı olmuşdur. Azərbaycan xalqının azadlıq, özünüdərk məsələsi maarifçi-ziyalının yaradıcılığının əsas prioritet istiqamətlərindəndir.

## ƏDƏBİYYAT


Behbudov Sabir. Azərbaycan maarifçiliyinin dini dəyərləri və müasirlik. "Metafizika" jurnalı. № 4 (16), səh. 163-171. file:///C:/Users/user/Downloads/57005520210412%20(1).pdf).

Hüseynov Yusif. Mollanəsrəddinçilərin fəlsəfi dünyagörüşü və müasirlik. Avtoreferat. 2018. http://www.aak.gov.az/upload/dissertasion/fels/fels_d_hyh_14_12_18.pdf

Məlikov Ələddin. Azərbaycan Cümhuriyyət dövrünün fəlsəfi fikrini formalaşdıran amillər.

https://www.researchgate.net/publication/325550247Azrbaycan_Cumhuriyyt_dovrunun_flsfi_fikrini_formalasdiran_amillrFactors_forming_the_philosophical_idea_of_the_Azerbaijan_Republican_era

Orucov Əliyar. Azərbaycan xalqı milli özünüdərk yollarında: XIX əsrin sonu - XX əsrin əvvəlləri (tarixi-fəlsəfi aspekt). Bakı: "AVROPA" 2012. 251s. səh.24. http://www.anl.az/el/Kitab/2015/2012-687.pdf

Hacıbəyov Üzeyir. Seçilmiş əsərləri. tərt. ed., qeyd, izah, lüğətin müəll. M. Aslanov; red. M. İbrahimov. Bakı. Yazıçı, 1985.

Üzeyir Hacıbəyli. Biblioqrafiya /Tərtib edənlər: R.Orucəliyeva, H.Haşımova və başq.; Elmi red. və ön sözün müəl.: Z. Səfərova; İxt. red. və burax. məsul: K.Tahirov; Red.: G.Səfərəliyeva; M.F. Axundov ad. Azərbaycan Milli Kitabxana.- B., 2008

Əzimova Aygün. Üzeyir Hacıbəyli "Azərbaycan" qəzetində: mətbuat tariximizin mühüm mərhələsi. 2020. https://525.az/news/147060-uzeyir-hacibeyli-azerbaycan-qezetinde-metbuat-tariximizin-muhum-merhelesi

https://modern.az/articles/85148/1

*д. ф. по философии Гадир Сафаров*

# УЗЕИР ГАДЖИБЕЙЛИ КАК КРИТИК-ПРОСВЕТИТЕЛЬ (на примере фельетонов)


## РЕЗЮМЕ

По сравнению с западными странами и Россией идеи просвещения в Азербайджане распространились поздно. В Азербайджанской философской мысли движение просвещения сформировало универсальные ценности, синтезировав в себе прогрессивные идеи как Запада, так и Востока. Размышления просветительского характера в Азербайджане нашли отражение в идеях таких мыслителей, как М.Навваб, И.Гутгашинлы, А.А.Бакиханов, М.Ф.Ахундов и Г.Зардаби. Отношение великого композитора, просветителя и общественного деятеля Узеира Гаджибейли, которому непосредственно посвящена данная статья, к общественно-политическим и материально-духовным вопросам эпохи было многогранным. Он предстает перед нами порой как публицист-писатель, порой как музыкант, а порой как мыслитель. В статье Узеир Гаджибейли рассматривается как общественный деятель, взяв за основу его характеристики в качестве критика-просветителя. Также подчеркивается, что просветительско-реалистическая деятельность Узеира Гаджибейли была связана с настоящим и будущим национально-культурной и материально-духовной жизни нации и народа. Вопрос свободы, самосознания азербайджанского народа является одним из приоритетных направлений творчества просветителя-интеллигента.


***Ключевые слова:*** *Азербайджан, просвещение, философия, национально-духовный, Узеир Гаджибейли.*

*Ph.D Gadir Safarov*

# UZEYIR HAJIBAYLI AS A CRITIC AND ENLIGHTENER
## (through feuilletons)

**ABSTRACT**

Compared to Western countries and Russia, the ideas of enlightenment got widespread rather late in Azerbaijan. The enlightenment movement has formed universal values in the philosophical thought of Azerbaijan, synthesizing progressive ideas of both the West and the East. The enlightenment ideas in Azerbaijan were reflected in the thoughts of such thinkers as M.Navvab, I.Gutgashinli, A.A.Bakikhanov, M.F.Akhundov and G.Zardabi. The perspectives of the great composer, enlightener and public figure Uzeyir Hajibayli on the social and political, material and spiritual aspects of the period were versatile. Sometimes we view him as a publicist-writer, then as a musician, and then as a thinker. The article covers Uzeyir Hajibayli as a public figure, based on his characteristics as a critic-enlightener. It is also emphasized that his activities as enlightener and realist were connected with the present and future of the national and cultural, material and spiritual life of the nation and people. The matter of freedom and self-consciousness of the Azerbaijani people is one of the priority areas in the work of the enlightener.

***Keywords:*** *Azerbaijan, enlightenment, philosophy, national and spiritual, Uzeyir Hajibayli*

# ŞUŞANIN DİNİ İRSİ: MƏSCİDLƏRİ, DİNİ TƏHSİLİ, İLAHİYYATÇILARI

***f.f.d. Aliyə Mürsəlova,***
*Azərbaycan İlahiyyat İnstitutunun müəllimi*
aliyatagiyeva@yahoo.com

## XÜLASƏ

Azərbaycanın özünəməxsus tarixi, maarif və mədəniyyəti, tədris sistemi və elm sahələri olub. Hər bölgə özünə uyğun tərzdə dünya elmlərinə və mədəni irsin inkişafına töhfələr verib. Qarabağın ürəyi sayılan, Azərbaycan mədəniyyətinin və incəsənətinin, elminin beşiyi hesab olunan Şuşa şəhəri belə bölgələrdən biridir. Şuşa dini və dünyəvi təhsil tarixi baxımından maraqlı və keşməkeşli yol keçmişdir. Şuşa şəhərində XIX əsrlə müqayisədə XVIII əsrdə dini təhsil sahəsində canlanma diqqəti cəlb edir. Bu canlanma nəticəsində İslam dünyasında qiraət, fiqh, kəlam, təfsir və digər sahələrdə öz sözünü demiş din xadimləri yetişmiş, vacib əlyazmalar qələmə alınmış, tarixi-mədəni irsi əks etdirən məscid və mədrəsələr tikilmiş, milli-ictimai şüurun inkişafı başlanmışdır. Təsadüfi deyil ki, Azərbaycanda ilk kitabxana məhz Şuşa şəhərində açılmışdır (1856-cı il). Mədrəsələrdə dini elmlərlə yanaşı, dünyəvi elmlər tədris olunur, dünyəvi məktəblərdə tədris ana dilində aparılır, rus, fars və ərəb dilləri öyrədilirdi.

Maarifçilik fikrinin xalq arasında yayılması və cəmiyyətin savadlandırılması dövrü XIX əsrin ikinci yarısından etibarən başlanmışdır. Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra dini təhsilin tənəzzül etdiyini görünür. Ateizmin hökm sürdüyü bir şəraitdə digər dinlərə qarşı tolerantsızcasına davranmağın nəticəsində bəzi din xadimləri vətənlərindən sürgün olunur, digərləri isə qətlə yetirilirlər. Milli-mənəvi irsimizi məhv etmək məqsədilə məscid və mədrəsələr dağıdılır, rus pravoslav kilsələri və Alban məbədləri sonrakı illərdə ermənilərə verilmək düşüncəsi ilə qapadılır.

Məqalədə XVIII-dən XX əsrin əvvəllərinədək Şuşa şəhərində dini və dünyəvi təhsilin vəziyyəti və inkişafı, mədrəsə və məscidlərin formalaş-

ması və aqibəti, nəinki din sahəsində, həmçinin maarifin inkişafında mühüm rol oynamış din xadimlərinin həyat və yaradıcılıqları araşdırılır. Bundan əlavə, həm İslam, həm də xristian dininə aid abidələrin formalaşması və sonrakı taleyi də şərh olunur.

***Açar sözlər:*** *irs, din, təhsil, repressiya, mədrəsə, məscid, kilsə, axund.*

***"Şuşasız Qarabağ, Qarabağsız isə ümumiyyətlə Azərbaycan yoxdur"***
**Ümummilli lider Heydər Əliyev**

**Giriş**

Qarabağın iki minə yaxın müsəlman və xristian (alban) dini-tarixi abidələri arasında mədəni irsimizin məşhur və əzəmətliləri Qarabağ xanının adı ilə adlanan "Pənahabad" şəhərində yerləşirdi (Каджар 2007, 92; Cavanşir 2019, 57). Niyə keçmiş zamanda? Erməni vandalları işğal illərində onların çoxunu xarabalıqlara çevirdi. Mədəniyyətimizin zəngin beşiyi olan Şuşanın 1992-ci ilin mayın 8-də işğalı nəticəsində 200 nəfər şəhid və 150 nəfər əlil oldu, 552 körpə yetim qaldı, 22 min insan qaçqın düşdü, abidələrimiz isə yerlə-yeksan edildi. Buna baxmayaraq, illər keçsə də sonda ədalət qələbə çaldı. Ali Baş Komandanını rəhbərliyi ilə 2020-ci il noyabrın 8-də Silahlı Qüvvələrimiz tərəfindən Şuşa şəhəri erməni işğalından azad olundu. Öz mədəni irsimizi canlandırmaq və dünya miqyasında tanıtmaq baxımından üzərimizə böyük məsuliyyət düşür.

Şuşa 1753-cü ildən etibarən Qarabağın mərkəzi şəhəri sayıldı (Hüseynov 2015, 23). Şuşa şəhərinin ziyalıları və din xadimləri 1920-ci ildən başlayaraq repressiya qurbanına çevrildilər. Cəmi üç il sonra isə Qarabağa Muxtar Vilayət statusu verildi və Şuşanın inzibati ərazisinin böyük hissəsi əlindən alındı. Qarabağ xanlığı dövründə (1747-1822) inşa olunan tarixi memarlıq abidələri, dini ocaqlar və sair məbədlər 1992-ci ilə qədər mütəmadi olaraq məhv edilməyə başlanıldı. Yalnız ulu öndər H.Əliyevin təşəbbüsü ilə 1977-ci ildə Azərbaycan SSR Nazirlər Soveti "Şuşa şəhərinin tarixi hissəsinin tarix-memarlıq qoruğu elan etmək haqqında" qərar qəbul

etdikdən sonra milli-mənəvi irsimizin talan olunması prosesi birmüddətlik (I Qarabağ müharibəsinədək) dayandırıldı (Hüseynov 2015, 28-29).

Şuşada 350 hektar ərazidə yerləşən 300 tarixi abidənin 23-ü respublika və dünya əhəmiyyətli abidləri olub. Burada XIX əsrin ortalarında 1 kurqan, 3 türbə, 1 məscid-mədrəsə, 2 məscid-karvansara, 2 məbəd, 1 qız monastırı, 4 kilsə və s. mövcud idi (Каджар 2007, 104; Suleymanov, Sulemanov 2012, 53). Abidələr şəhəri olan Şuşanın 17 məhəlləsi vardı (Каджар 2007, 97) və XIX əsrin sonunda hər məhəlləsində bir məscid, əlavə iki Cümə məscidi olmaqla, cəmi 19 məscid mövcud idi. Bunlardan Yuxarı və Aşağı Gövhər ağa, Təzə məscid, Malıbəyli, Mərəzəli, Lembran, Gülablı, Yusifcanlı, Şelli, Xəzəristan, Ağcabədi, Xəlil Fəxrəddinli, Məriyanlı, Xunaşın, Culfalar və s. məscidlərinin adlarını misal çəkmək olar. Şuşanın məhəllələrində Hacı Yusifli, Köçərli, Mamay, Mərdinli, Quyuluq, Seyidli, Xoca Mərcanlı, Çöl Qala məscidləri yerləşirdi. Şuşanın möhtəşəm məscidləri və qamətli minarələri XVIII-XIX əsrlərə aiddir (İsmayılov 2016, 27; Hüseynov 2015, 32). Şuşada inşa olunmuş məscidlər əsasən bir, cümə məscidləri isə ikiminarəli tikilmişdi. Cümə məscidləri həcminə, memarlıq üslubuna, xarici və daxili divarları üzərində həkk olunan Qurani-Kərimin surə və ayələrinə görə birminarəlilərdən fərqlənirdi. Şuşa məscidləri dini ideoloji mərkəz sayılırdı. Burada dini elmlərlə yanaşı, dünyəvi biliklərin təbliğinə də geniş yer verilirdi. Şuşanın din xadimləri yerli mədrəsələrdə təhsil aldıqdan sonra, Şərq ölkələrində ali dini məktəbləri bitirənlər idilər. Məscidlərin yanında sayı, təqribən, 11-17 olan dini ocaqlar da fəaliyyət göstərirdi. Onlardan Seyid Xəlil ocağı, Saqqaxana ocağı, Həzrət Abbas ocağı, Şahlıq ocağı, qadınların ziyarət etdikləri Mir Fəseh ocağı, İmam Hüseynin şəhidliyinin xatirəsinə adlanan Şami-Qəriban ocağı, Qurdlar ocağı, Cindirli piri, Seyid ocağı, Sərqa ocağı, Əli ocağının adlarını çəkmək olar. Bu ocaqlar XX əsrin əvvəllərinədək fəaliyyət göstərmişdir (Hüseynov 2015, 32-35; Каджар 2007, 167). Şuşada 1830-cu ilin statistik qeydiyyatına görə, 64 müsəlman və 21 xristian din rəhbərinin ailələri ilə yaşayırdılar (Каджар 2007, 208).

**Dini abidələr**

Saatlı məscidi 1883-cü ildə Kərbəlayı Səfixanın tikdiyi son məscidlərdəndir. Fərqli bir üslubda tikilən bu məscidin minarələri, bir növ, Yuxarı Gövhər ağa və Ağdam Cümə məscidlərinin minarələrini xatırladır. Əslində, bu məscid Molla Pənah Vaqifin dərs dediyi mədrəsənin yerində inşa edilmişdi (Каджар 2007, 127).



Şuşanın mərkəzində yerləşən Aşağı Gövhər ağa məscidi, təxminən, 1875 (1832)-ci ildə (Каджар 2007, 126), Yuxarı Gövhər ağa məscidi (Каджар 2007, 122, 124) isə səkkiz il sonra Gövhər ağa tərəfindən, təqribən, 1750-ci ildə Pənah xanın qamışdan tikdirdiyi (Каджар 2007, 98) və 1768-ci ildə İbrahim xanın daşla bərpa etdirdiyi qədim məscidin yerində Kərbəlayı Səfixan Sultanhüseyn oğlu Qarabağiyə tikdirilib (Gurbanov 2018, 18-19). Yuxarı Gövhər ağa məscidinin minarələrinin naxışlarını isə digər qarabağlı məşhur Mir Möhsün Nəvvab işləmişdi.







Xoca Mərcanlı məscidi XVIII əsrdə tikilmiş, XX əsrdə ermənilər tərəfindən məhv edilmişdir.

Təkminarəli Malıbəyli məscidi XVIII əsrdə yerli çay daşlarından inşa edilmiş, XX əsrin əvvəllərində erməni vandalları tərəfindən uçurulmuşdur.

Çuxur məhəllə məscidi XVIII əsrdə tikilmiş, interyerində bütün memarlıq bəzəkvurma üsullarından – polixrom divar boyakarlığı, Quran yazıları və yapma bəzəklərindən istifadə olunmuşdur.

Hacı Yusifli məscidinin eyniadlı bulağın yanında XVIII-XIX əsrlərdə tikildiyi təxmin edilir. Memarı Kərbəlayı Səfixan Qarabağidir.



Quyuluq məscidi XVIII əsrdə inşa edilmişdir. Təzə Məhəllə, Mamay, Mərdinli və Culfalı məscidləri XIX əsrdə inşa olunmuşdur.







İşğal dövründə onların hamısı dağıntılara məruz qalmışdır.

İslama məxsus dini abidələrdən başqa, Şuşada rus pravoslav və Alban xristian məbədləri də mövcud olmuşdur. Bunlardan Qazançı kafedralı, Müqəddəs Vaftizçi İohann kilsəsi (Yaşıl kilsə), Müqəddəs Məryəm Ana kilsəsi, Müqəddəs Xilaskar Məsih kilsəsi, Qız monastırının adlarını qeyd etmək olar.

Qazançı kilsəsinin qədim Zərdüşt məbədi üzərində tikildiyi güman edilir. Kilsənin əsası Rusiyanın Peterburq şəhərində "Sinod" adlı ali məclisin qərarı ilə 1836-cı ildə qoyulub. Kilsənin tikilməyə başlaması artıq Qarabağ xanlığı dövrünə təsadüf edir və 1880-ci ildə inşası bitib. Ordubadın Qazançı kəndindən gələnlərin məhəlləsində yerləşdiyi üçün adı "Qazançesos" olub.

Müqəddəs İohan kilsəsi 1847-ci ildə inşa olunub, el arasında "Yaşıl kilsə də adlanırdı. Şuşa işğal olunduqdan sonra ermənilərə xas olan tərzdə, rus pravoslav kilsəsi "təmir" olunaraq erməni apostol kilsəsinə çevrilib.

**Dini təhsil**

Qarabağdakı mədrəsə müdirləri XIX əsrdə, əsasən, Tiflis Ali Ruhani İdarəsində imtahan verərək müdərris adını alan yerli mollalar və ya Şərq ölkələrində dini təhsil alan şəxslər idilər (Çingizoğlu 2013, 11). Şuşada hər məhəllədə mədrəsələr açılmışdı və orada münhəsirən əşara və nəzmə diqqət verilir, fars ədiblərinin (Firdovsi, Sədi, Hafiz və b.) əsərləri tədris edilir, musiqi nəzəriyyəsinə artıq dərəcədə yer ayrılırdı (Çingizoğlu 2013, 12). Uşaqlar 6 yaşdan tədrisə cəlb olunurdular. Gündəlik Quran, əlifba, ədəbiyyat, fiqh, ərəb və fars dilləri, İslam fəlsəfəsi, riyaziyyat, nücum, müsəlman dövlətlərinin tarixi və din tarixi, qədim coğrafiya kimi fənlər tədris olunurdu. Dini əxlaq haqqında təlim, Quranı təfsir etmək, peyğəmbərlərin tarixini izah etmək, şəriət əsas fənlərdən sayılırdı. Şəriət fənninə müsəlman qanunşünaslığının mənbələrinə dair elmi əsərlər, şəriətin hissələri, mirasın bölünmə qaydaları, kəbin və boşanma hüquqları daxil idi. İlahiyyat elmləri əsas yer tutsa da, əlavə dərslərə ictimai və təbiət elmləri, dialektika, məntiq və psixologiya əlavə edilmişdi (Çingizoğlu 2013, 13). Mədrəsədə təhsil pulsuz olsa da, dərs vəsaitləri məhdud sayda idi və çətin tapılırdı. Qarabağ mədrəsələrində həm ümumtəhsil fənləri fiqh (hüquq), kəlam, sərf (morfologiya), nəhv (qrammatika), kətəbə (dəftərdarlıq), şeir və əruz, əxbar (dini tarix), həm də ali fənlər (fəlsəfə, məntiq, tibb, elmi-ədəd (hesab), həndəsə, nücum (astronomiya), kimya, xiyal (mexanika, musiqi) tədris olunurdu (Çingizoğlu 2013, 14-15). Şuşada XVIII əsrin II yarısında İbrahimiyyə, XIX əsrdə Mərdinli məhəlləsində Beytülədəb, mərkəzdə Gövhəriyyə, Bərgüşad mahalında Mollabürhan və

Qaraçorlu mahalında Bağırbəyli mədrəsələri fəaliyyət göstərirdi (Çingizoğlu 2013, 15-17). Şuşada 1830-cu ildə qəza məktəbi, 1838-ci ildə seminariya, 1876-cı ildə şəhər ibtidai məktəbi, 1880-ci ildə altısinifli qəza məktəbi, 1886-ci ildə rus-tatar məktəbləri, 1894-cü ildə Marinski qız məktəbi açılmışdı. 1910-cu ildə Şuşa məktəblərində 2000-ə yaxın şagird və tələbə təhsil alırdı.

Rusiya hökumətinin icazəsi ilə 1826-cı ildə Bazel missionerlərinin Yevangel cəmiyyəti tərəfindən Azərbaycanda ilk dəfə Şuşada Bazel Missionerləri Məktəbi açılır. Burada müsəlman uşaqlara alman dili öyrədilirdi. Şuşada 1830-cu ildə dünyəvi təhsil verən ilk qəza məktəbi fəaliyyətə başlayır. Məqsəd, ilk növbədə, Azərbaycan və rus dillərində tərcüməçilər hazırlamaq idi. Həmçinin burada 1849-cu ildə ilk dəfə Müsəlman Şiə Məktəbi fəaliyyətə başlamışdı. Məktəbin açılmasında məqsəd şiə müsəlman uşaqlara şəriət dərslərini keçmək və rus dilini öyrətmək idi. Burada Quran, Azərbaycan, ərəb, fars və rus dilləri, coğrafiya, tarix, məntiq, ritorika, təfsir, kosmoqrafiya, metafizika, hüsnxət və rus qanunşünaslığı fənləri tədris olunurdu. Məktəbin ilk məzunları Əliş Nəsirbəyov, İbrahim Əlibəyov, Kərim Cəfərbəyov, Mehdi Qurbanbəyov, Həsənəli Vəlibəyov və Kazım Naibov idi (Çingizoğlu 2013, 25-26). Məktəb 1861-ci ildə bağlansa da, yeni təhsil ocaqlarının yaranmasında vacib rol oynamışdır.

Şuşa Marinski Qız Məktəbi dini ayrı-seçkilik qoymadan bütün qızlar üçün açıq idi. Orada oxu, yazı, hüsnxət, rəsm, rəsmxət, ümumi coğrafiya, tarix, ölkəşünaslıq, milli musiqi, təbiət, fizika, fransız və alman dilləri kimi fənlər tədris olunurdu. Gimnastika istəyə bağlı keçirilirdi. Təhsilin pullu olmasına baxmayaraq, kasıblar üçün güzəşt edilirdi və pulsuz idi (Çingizoğlu 2013, 27). Məktəbin açılmasında məqsəd qadınların rusdilli olması və dünya təhsilinə cəlb olunmaları idi.

Şuşa Şəhər Məktəbi 1874-cü ildə Zaqafqaziyada ilk qəza məktəbi kimi təsis edilmişdi. Burada şəriət, oxu, yazı, rus və fransız dilləri, hesab, həndəsə, coğrafiya, tarix, fizika, gimnastika və nəğmə dərsləri keçirilirdi (Çingizoğlu 2013, 28).

Təhsil sistemində XIX əsrin sonlarında mühüm dəyişikliklər baş verdi, nəticədə dini təhsil dünyəvi təhsillə əvəzləndi. Beləliklə, 1881-ci ildə Şuşada altısinifli Realni məktəbi açılır. Məktəbdə daha çox musiqi və ədəbiyyat

fənlərinə əhəmiyyət verilirdi. Ziyalı ailələr üçün 1896-cı ildə isə Nikolayevsk Rus-tatar Məktəbi fəaliyyətə başlamışdır (Çingizoğlu 2013, 31).

**Dini təhsil almış şuşalılar**

Qarabağın dahi memarı Kərbalayı Səfixan Sultanhüseyn oğlu Qarabaği (1817-1910) Şuşa şəhərində anadan olmuşdur. Onun tikdirdiyi məscidlər Şərq memarlıq üslubuna xas olan elementləri yerli adətlərlə birləşdirmişdi (Qarabağlı 1995, 80).

Qarabağın dahi din xadimlərindən XIX əsrdə yaşamış Molla İsmayıl Qarabağini misal çəkmək olar. O, ibtidai təhsilini vətənində aldıqdan sonra, Təbriz, Məşhəd, İsfahan və Tehran şəhərlərində böyük alimlərdən dərs alır. Sonra isə alim Samirə və Nəcəf şəhərlərində Mirzayi-Şirazi, Fazil Şərabyani, Muhamməd Həsən Maməqani, Fazil İrəvani kimi nəhəng alimlərin yanında öz biliklərini artırır. Molla İsmayıl Qarabaği miladi 1905-ci ildə Nəcəf şəhərində vəfat etmiş və orada dəfn olunmuşdur (Rəhimov, 68).

Muhyiddin Məhəmməd ibn Əli Qarabaği (v. 1535) XV əsrin II yarısında Qarabağda doğulmuş filosof və ilahiyyatçıdır. O, hənəfilik məzhəbinin fəqihi idi deyə, "hənəfi" ləqəbi ilə tanınmışdı (Ansiklopedi 2001, XXIV/369). Sonradan Kiçik Asiyaya köçmüş, oradan da İstanbula gələrək bir çox mədrəsələrdə, o cümlədən İznikdə Süleyman Paşa və Orxan Paşa mədrəsələrində dərs demişdir. Dini, etik və fəlsəfi mövzulara həsr olunan "Mühazirələr" adlı ən məşhur əsərinin on beş əlyazması dünyanın müxtəlif şəhərlərinin kitabxanalarında saxlanılır. Məhəmməd Qarabaği əl-Hənəfinin AMEA-nın Əlyazmalar İnstitutunda "Şərh ədəb əl-bəhs" əlyazması (B-1996, 17b-30b; B-5591, 164b-171b; B-4938, 1b-11b) bu günə kimi qorunub-saxlanılır (Çingizoğlu 2013, 45).

Yusif ibn Məhəmmədcan Qarabaği görkəmli Azərbaycan filosofu və şairidir. O, 1532-ci ildə Qarabağda anadan olmuş, 1591-ci ildə Səmərqənddə vəfat etmişdir. Ruhani ailəsində doğulmuş, ilk təhsilini vətənində almış, sonra isə İrana köçmüşdür. Ərəb dili və ədəbiyyatı, təfsir, hədis, fiqh, kəlam və fəlsəfə elmlərinə yiyələnmişdir. Tədrisini davam etdirmək üçün müəllimi Həbibullah Mirzəcan Şirazi ilə Səmərqəndə yollanır və burada "Böyük Axund" adına laiq görülür. Sonra Buxaraya köçərək, burada dini məclislərdə iştirak etmişdir. Elə burada da dəfn olunmuşdur. Ərəbcə

yazılan 20-dən çox əlyazması Özbəkistan Şərqşünaslıq İnstitutunda və 7-si İstanbulun Süleymaniyyə kitabxanasında saxlanılır. Farsca yazdığı kiçik, lakin məşhur "Həft cinan" risaləsini (Güzle 1991, 45-46) M. Məhəmmədi Azərbaycan dilinə tərcümə etmişdir (Qarabaği 1997).

Mirzə Əbdürrəhman Qarabaği 1794-cü ildə Şuşada dünyaya gəlmişdir. O, Şuşanın məşhur ruhani və qazı nəslinin nümayəndəsidir. Təhsilini davam etdirmək üçün Nəcəfə yollanır və Şeyx Əhməd Bəhreynidən mükəmməl dərs aldıqdan sonra, müctəhid məqamına çataraq Şuşaya qayıdır. O, Şuşada mədrəsələr açır, şəriət qanunlarını öyrədir, dini elmlər üzrə tələbələr yetirşdirir. Elmi və ictimai fəaliyyətlə məşğul olmağa başlayanda Azərbaycan Rusiya imperiyasının tərkibində idi. Rus məmurları alimin fəallığından narahat olurlar və onu birmüddətlik həbs edirlər. Həbsdən çıxdıqdan sonra Şirvana köçür və burada da vəfat edir. Cənazəsi Şirvandan Şamaxıya, buradan isə Nəcəfə aparılaraq orada dəfn olunur (Çingizoğlu 2013, 52-53).

Hacı Mirzə Məhəmməd Münşizadə 1800-cü ildə Şuşada anadan olmuşdur. Təhsilini Təbriz şəhərində almış, sonra Şuşaya qayıdaraq burada Mərdinli məscidinin nəzdində "Beytül-ədəb" mədrəsəsini yaratmışdır (Çingizoğlu 2013, 54).

Mirzə Məhəmməd Ədilbəyov 1808-ci ildə anadan olmuş, mədrəsə təhsili almış və Şuşa Qəza Məktəbində şəriətdən, türk və fars dillərindən dərs demişdir. Eyni zamanda, Quberniya Cümə məscidinin axundu olmuş və "İbrahimiyyə" mədrəsəsində dərs demişdir (Çingizoğlu 2013, 57).

Kərbəlayı Qulu Pərinazzadə 1823-cü ildə anadan olmuşdur. İbtidai təhsilini mollaxanada, ali təhsilini isə mədrəsədə almışdır. Dini tamaşalar üzrə rejissorluq etmişdir. Kərbəla faciəsinin şəbihini göstərməkdə onun misli olmamışdır (Çingizoğlu 2013, 67).

Kərbəlayı Molla Əbdülhüseyn Qacar 1825-ci ildə dünyaya gəlmişdir. İbtidai təhsili evdə atasında, sonra da Təbriz şəhərində mədrəsədən almışdır. Vətəninə qayıdıb kəndinin dini işləri ilə məşğul olmuşdur. Qacar prixodunun axundu vəzifəsinə təyin olunmuşdur. Məktəb açaraq uşaqlara dini və dünyəvi bilikləri tədris etmişdir (Çingizoğlu 2013, 71).

Mirzə Həsən bəy Əmirov 1833-cü ildə doğulmuşdur. İbtidai təhsilini atasından, sonra da mədrəsədə almışdır. Şuşa məktəbində dərs demişdir.

Cümə məscidinin axundu vəzifəsini icra etmişdir. O, Mir Möhsün Nəvvabın ana babasıdır (Çingizoğlu 2013, 79).

Hacı Molla Şükür Məhərrəmzadə 1833-cü ildə anadan olmuşdur. İbtidai təhsilini atasından, sonra da mədrəsədə almışdır. Şuşa şəhərinin qazısı olmuşdur. Ermənilərdən müdafiə olunan şuşalılara 1905-1906-cı illərdə rəhbərlik etmişdir. Gövhər ağa məscidindəki mədrəsədə uşaqlara dərs demişdir. O, 1890-cı ildə "Risaleyi-hüruf və hüquq" kitabını qələmə almışdır (Çingizoğlu 2013, 80).

Mirzə Həsənxan bəy Tahirov 1836-cı ildə doğulmuşdur. İbtidai təhsilini atasından, sonra Təbriz şəhərində "Talıbiyyə" mədrəsəsində almışdır. Axund adını daşımışdır. Dəvətlə Sankt-Peterburq Universitetinin Şərq dilləri fakültəsində fars dilindən dərs deməyə başlamışdır. Təqaüdə çıxdıqdan sonra vətəninə qayıdıb Şuşa qəzasının qazısı vəzifəsində işləmişdir. Şuşa şəhər Realni məktəbində 1885-ci ilədək şəriət, türk və fars dillərindən dərs demiş, 1885-ci ildə Qafqaz Ruhani İdarəsinin şeyxülislamı təyin edilmişdir (Çingizoğlu 2013, 82).

Səfərli bəy Vəlibəyov məşhur müəllim və yazıçıdır. O həm də Süleyman Sani Axundovun doğma dayısıdır. Şuşada 1861-ci ildə anadan olmuşdur. İlk təhsilini Şuşada dini mədrəsədə aldıqdan sonra, Qori Seminariyasında təhsilini davam etdirmişdir. Tiflisdə müəllimi A. O. Çernyayevski ilə birgə Azərbaycan dilində yazdığı "Vətən dili II" dərsliyini 1888-ci ildə nəşr etdirmişdir. Onun tələbələrindən N.Nərimanovun, C.Məmmədquluzadənin, S.S.Axundovun və başqalarının adlarını çəkmək olar. Səfərli bəy Vəlibəyov 1902-ci ildə Bakıda vəfat etmişdir (Каджар 2007, 211).

Mirzə Nəsir Qarabaği 1865-ci ildə doğulmuşdur. İlk olaraq ailəsində, sonra isə mədrəsədə təhsil almışdır. Tehran şəhərində təhsilini davam etdirmişdir. Nəcəfdə 14 il müctəhid yanında dərs almışdır. Təbriz şəhərində məskunlaşaraq burada tələbələrə dərs demiş, ədəbi məclislər təşkil etmişdir. İctihad dərəcəsinə çatan müctəhid olmuşdur (Çingizoğlu 2013, 122).

**Nəticə**

Dəniz səviyyəsindən 1300-1600 metr hündürlükdə yerləşən, XVIII əsrin ortalarında əsası qoyulan və üç tərəfdən sıldırım qayalarla əhatə olunan Qarabağın döyünən ürəyi Şuşa şəhərinin gözəl təbiəti və saf havası var. Şuşa 1992-ci ilin mayın 8-də işğal olunmamışdan əvvəl burada kilsə və məscidlər, mədrəsələr, təhsil ocaqları, kitabxanalar, karvansaralar və muzeylər vardı. Şəhər XIX əsrdə teatr, XX əsrdə Qafqazın musiqi mərkəzinə çevrilmişdir. Şuşa "Kiçik Paris", "Qafqazın incəsənət məbədi" və "Muğam beşiyi" adlandırılmışdır.

Sovetlər dövründə, ateizm fəlsəfəsinin güclü təsiri nəticəsində, dini təhsil məhdudlaşdırıldığı üçün bütün Azərbaycandan olduğu kimi, Şuşadan da din xadimləri təqibə məruz qalaraq vətənlərini tərk etməli olmuşlar. Vətəndaşlarımız dini təhsil ala bilmələri üçün xarici ölkələrə üz tutmuş və orada qalıb fəaliyyətlərini davam etdirmişlər. Təəssüflər olsun, vətənlərində qalan din xadimlərimiz isə ya repressiya qurbanlarına çevrilmiş, ya da sürgünə göndərilmişlər. Mədrəsələr qapadılmış, məscidlər və kilsələr isə ya dağıdılmış, ya da mədrəsələrin aqibətini yaşamışdır.

Qarabağın 30 illik işğalının qaranlıq səhifəsinə məscidlərin dağıdılması və Qarabağ xanlığının Rusiya imperiyasının nəzarətinə keçdiyi tarixdən əsası qoyulan rus pravoslav kilsələrinin arxitekturasının ermənilər tərəfindən savadsızcasına və hərisliklə dəyişdirilməsinə baxmayaraq, tarixi silmək mümkün deyildir. 44 günlük Vətən müharibəsi nəticəsində azad olunmuş Şuşa şəhərinin bərpasına başlanmışdır. Şuşa zəfərindən sonra şəhərin infrastrukturunun qurulmasında tarixi və dini abidələrin bərpası prioritet məsələlər kimi seçilmiş və Azərbaycan Respublikası Prezidenti İlham Əliyev tərəfindən 2022-ci il "Şuşa İli" elan edilmişdir.

*"Əziz Şuşa, biz səni dirçəldəcəyik!"*

***Müzəffər Ali Baş Komandan İlham Əliyev***

# ƏDƏBİYYAT

Abdürrahim Güzle. (1991). Karabaği ve Tehafütü. Ankara. (272 s.).

Cavanşir Ehmed. (2019). Karabağ hanlığının tarihi. İstanbul: Post yayın, (94 s.).

Çingizoğlu Ənvər. (2013). Qarabağda maarif. Bakı: Zərdabi LTD, (288 s.).

Eyyubov İsmayıl. (2017). Azərbaycanın siyasi təlimlər tarixi. Dərslik. Bakı: "MM-S" müəssisəsi, (406 s.).

Gurbanov Rafi. (2018). Armeniant Terror: religious and historical monuments of Azerbaijan. Baku: The State Committee on Religious Associations of the Republic of Azerbaijan, (87 p.).

Hüseynov Yunis. (2015). Şuşa salnaməsi. Bakı: "Şuşa" nəşriyyatı, (152 s.).

İSLAM Ansiklopedisi. (2001). İstanbul: TDV, 44 c. XXIV c., (588 s.).

İsmayılov Faiq. (2016). Azərbaycanın işğal olunmuş ərazilərindəki tarix və mədəniyyət abidələrinə vurulan zərər. Bakı: AMEA Hüquq və İnsan Haqları İnstitutu, (89 s.).

Каджар Чингиз. (2007). Старая Шуша. Баку: "Şərq-Qərb", (344 стр.).

Qarabağ: yaddaş kitabı. (2015). Bakı: (QAT) Qarabağ Azadlıq Təşkilatı, (72 s.).

Qarabaği Yusif. (1997). Yeddi bağ. Fars dilindən tərcümə edən Məsiağa Məhəmmədi. Bakı: "İrşad", (87 s.).

Qarabağlı Rizvan. (1995). Memar Kərbəlayı Səfixan Qarabaği. Bakı: Azərbaycan, (80 s.).

Nəsirov Elnur. (2011). Orta əsrlərdə yaşamış Azərbaycan alimləri. Bakı: "Nurlar", (416 s.).

Rəhimov Natiq. (2014). Azərbaycan din alimləri. Bakı: "Nurlar", (216 s.).

Suleymanov Elkhan. (2012). Sulemanov Vurgun. Invasion of Azerbaijani lands by Aremenia and the Heavy Consequences of Occupation. USA, South Carolina, North Charleston: CreateSpace Independent Publishing Platform, (157 p.).

Şuşa – qədim Azərbaycan diyarı. (2009). Bakı, (41 s.).

*д. ф. по философии Алия Мурсалова*

# РЕЛИГИОЗНОЕ НАСЛЕДИЕ ГОРОДА ШУША: МЕЧЕТИ, РЕЛИГИОЗНОЕ ОБРАЗОВАНИЕ, ТЕОЛОГИ

## РЕЗЮМЕ

Азербайджан обладает своеобразной историей, просвещением и культурой, системой образований и научными сферами. Каждый регион внес свой вклад в своеобразное развитие мировой науки и культурного наследия. Одним из таких регионов является Шуша, сердце Карабаха, колыбель азербайджанской культуры, искусства и науки. Шуша прошла интересный и сложный путь в плане истории религиозного и светского образования. Примечательно возрождение религиозного образования в Шуше в XVIII веке по сравнению с XIX веком. В результате этого возрождения появились религиозные деятели, сказавшие свое слово в области гираята, фикха, келама, тафсира и др., были написаны важные рукописи, построены мечети и медресе, отражающие историческое и культурное наследие, началось развитие национально-общественного сознания. Не случайно то, что первая в Азербайджане библиотека была открыта именно в Шуше (1856 г.). Наряду с религиозными науками в медресе преподавались и светские науки, в светских школах обучение велось на родном языке, а также преподавались русский, персидский и арабский языки.

Со второй половины XIX века начался период распространения грамотности среди народа и просвещения общества. После установления советской власти в Азербайджане религиозное образование начало приходить в упадок. В результате нетолерантности к другим религиям в условиях господства атеизма некоторые религиозные деятели были депортированы, другие убиты. В целях уничтожения нашего национального-духовного наследия были разрушены мечети и медресе, в последующие годы были закрыты русские православные церкви и албанские храмы с намерением передачи их армянам.

В статье рассматриваются состояние и развитие религиозного и светского образования в Шуше с XVIII до начала XX вв., становление

и судьба медресе и мечетей, жизнь и творчество религиозных деятелей, сыгравших важную роль не только в религии, но и в образовании. Кроме того, комментируется формирование и дальнейшая судьба памятников, относящихся как к исламу, так и к христианству.

**Ключевые слова:** *наследие, религия, образование, репрессия, медресе, мечеть, церковь, ахунд.*

***Ph.D Aliya Mursalova***

**RELIGIOUS HERITAGE OF SHUSHA: MOSQUES, RELIGIOUS EDUCATION, THEOLOGIANS**

**ABSTRACT**

Azerbaijan was a country with its own history, culture, education system, and science. Each region has contributed to the development of world science and cultural heritage. Shusha, the heart of Karabakh, the cradle of Azerbaijani culture, art and science, is one of such regions. Shusha has passed an interesting and challenging way in terms of the history of religious and secular education. Compared to the 19th century, the revival of religious education in Shusha in the 18th century is noteworthy. As a result of this revival, religious figures who spoke in the Islamic world in the fields of recitation, jurisprudence, theology, interpretation and others, important manuscripts were written, mosques and madrasas reflecting historical and cultural heritage were built, and the development of national and social consciousness began. It is no coincidence that the first library in Azerbaijan was opened in Shusha (1856). Along with religious sciences, secular sciences were taught in madrassas, in secular schools, mother tongue was taught, and Russian, Persian and Arabic languages were also taught.

The spread of enlightenment among the people and the enlightenment of society began in the second half of the nineteenth century. Religious education in Azerbaijan declined after the

establishment of the Soviet government. As a result of atheism and intolerance towards other religions, some clergymen were deported and others were killed. In order to destroy our national and spiritual heritage, mosques and madrasas are being destroyed, Russian Orthodox churches and Albanian temples are being closed in the following years with the intention of giving them to Armenians.

The article examines the state and development of religious and secular education in Shusha from the 18th to the early 20th centuries, the formation and fate of madrassas and mosques, and the lives and works of religious figures who played an important role not only in religion but also in education. In addition, the formation and subsequent fate of monuments belonging to both Islam and Christianity are commented.

***Keywords:*** *heritage, religion, education, repression, madrasa, mosque, church, akhund*

# YUXARI GÖVHƏR AĞA MƏSCİDİNƏ MƏXSUS EPİQRAFİK ABİDƏLƏRDƏKİ YAZILARIN TƏDQİQİ

*f.f.d. Elnur Mustafayev,*
*AMEA akad. Z.M.Bünyadov adına*
*Şərqşünaslıq İnstitutu Din və ictimai fikir tarixi şöbəsinin*
*elmi işçisi, Gənc Alim və Mütəxəssislər Şurasının sədri*
elnur.mustafayev88@mail.ru

## XÜLASƏ

Məqalədə "Azərbaycan musiqisinin beşiyi", "Zaqafqaziyanın konservatoriyası", "Qafqazın sənət məbədi", "Kiçik Paris" adlandırılan Qarabağın mədəniyyət mərkəzi Şuşa şəhərində inşa edilmiş Yuxarı Gövhər ağa məscidinin inşa tarixi, memarlıq üslubiyyəti və məscidə məxsus daş kitabələri tədqiq edilmişdir. Müəllif məqalədə məscidin inşasını dörd mərhələyə bölərək, tarixi xronologiyanı gözləməklə abidə ilə bağlı ətraflı məlumatları paylaşmışdır. Müəllif Yuxarı Gövhər ağa məscidinin memarlıq xüsusiyyətləri haqqında geniş məlumatlar verdikdən sonra, onun Azərbaycan memarlığının ən füsunkar nümunələrindən biri olduğunu əsaslandırır. Belə ki, 1883-cü ildə Gövhər ağanın maddi vəsaiti əsasında üçüncü məscidin yerində Şuşanın dördüncü və sonuncu məscidi inşa edilmişdir. Dördüncü məscidin müəllifi məşhur Kərbəlayi Səfixan Qarabağidir. Bu məscid müəllifin ən yaxşı əsərləri sırasına daxildir. Məscidin minarələrinin dekoru və otaqların divar rəsmləri Mir Möhsün Nəvvab tərəfindən işlənmişdir. Məqalədə dördüncü məscidin kompozisiya-planlaşdırma və memarlıq bədii xüsusiyyətlərinə görə sələfindən (3-cü məsciddən) kəskin şəkildə fərqləndiyi qeyd edilir.

Yazıda daş kitabələrin üzərinə həkk olunmuş nümunələr müəllif tərəfindən oxunmuş və Azərbaycan dilinə tərcümə edilmişdir. Kitabələrə həkk olunmuş yazılar həmin dövrün dini-fəlsəfi və ictimai-siyasi dünyagörüşü haqqında dolğun təsəvvür yaradır. Məqalədə epiqrafik abidələrin dövrünün milli, dini, mədəni və ictimai düşüncə tərzini öyrənmək üçün ən

yaxşı vasitə olduğu da qeyd edilir. Bu nöqteyi-nəzərdən, məqalədə gələcək nəsillərə tarixi irsimiz və əsrlərboyu təşəkkül tapmış zəngin mədəniyyətimiz haqqında daha geniş məlumatları ötürmək üçün bu qəbildən olan abidələrin böyük əhəmiyyətə malik olduğu müəllif tərəfindən əsaslandırılır.

***Açar sözlər:*** *Azərbaycan, İslam, Qarabağ, Şuşa, məscid.*

## Giriş

Azərbaycanın ən qədim yaşayış məskənlərindən biri olan Qarabağ kiçik Qafqaz dağlarından başlayaraq, Kür və Araz çayları arasındakı əraziləri əhatə edən coğrafi məkandır. Məlum olduğu kimi, Azərbaycanın münbit iqlim şəraiti, təbiəti və əlverişli coğrafi mövqeyi bu ərazilərdə ən qədim insanların yaşamasına və tədricən formalaşmasına zəmin yaratmışdır. Misal olaraq Füzuli şəhəri yaxınlığında yerləşən Azıx mağarasını qeyd etmək olar ki, dünyada ən qədim insan düşərgələrindən biri hesab olunur. Belə ki, 1968-ci ildə arxeoloq Məmmədəli Hüseynov tərəfindən aparılan qazıntılar zamanı Azıx mağarasında tapılan qədim insanın alt sümüyü bu ərazilərdə, təqribən, 250-300 min il bundan əvvəl yaşayış məskənlərinin mövcudluğuna əyani sübutdur (Bünyadov 1994, I/628).

Qarabağın müxtəlif ərazilərində aşkar edilmiş qədim daş abidələr, dolmenlər[1], kromlexlər[2], antik dövrə aid daş qutu qəbirlər bu yerlərin qədimliyinə, həmçinin regionda yaşayan qədim insanların özünəməxsus dini-ideoloji və milli-mədəni dünyagörüşünə sahib olduqlarına işarə edir.

Azərbaycan tarixinin öyrənilməsi və tarixi sərhədlərinin müəyyənləşdirilməsində epiqrafik abidələr böyük əhəmiyyətə malikdir. Bu nöqteyi-nəzərdən epiqrafik abidələrin tədqiqi və qəbirüstü abidələrdə əks olunmuş epitafiyaların yeni reallıqlar kontekstində oxunması müasir Azərbaycan elminin qarşısında duran aktual problemlərdən biridir. Belə ki, epiqrafik abidələrdə həkk olunmuş yazılar regionda yaşayan xalqların təşəkkülünün həm ilkin mərhələlərinin, həm də onun etnoqrafik, linqvistik və antropoloji

[1] Neolit dövründə dini ibadət və digər məqsədlərlə qaya parçaları və iri daşlardan düzəldilmiş kiçik otaqlar.
[2] Neolit və Tunc dövrlərində dini ayinlərin keçirilməsi məqsədi ilə iri daş parçaların dairəvi şəkildə basdırılması.

xüsusiyyətlərinin formalaşması proseslərinin, eləcə də xalqın etnogenezinin, dini-milli dünyagörüşünün və əhali arasında hakim olan ideoloji məsələlərin müəyyən edilməsində ən əlverişli vasitələrdən biridir. Xüsusilə işğaldan azad olunmuş Azərbaycanın ayrılmaz bir hissəsi olan Qarabağ ərazisində mövcud olan epiqrafik abidələrin öyrənilməsi çox böyük əhəmiyyətə malikdir. İslamdansonrakı Qarabağda inşa olunmuş məscid, mədrəsə, karvansara və türbələrin üzərindəki daş kitabə yazıları, eyni zamanda, müsəlmanlara aid qəbirüstü epitafiyalar bir çox həqiqətlərin üzə çıxarılmasında və erməni yalanlarının ifşasında mənbə kimi istifadə edilə bilər.

## Şuşa şəhərinin salınma tarixi və Yuxarı Gövhər ağa məscidi

Şuşa şəhəri Yaxın Şərqin mədəniyyət incilərindən biri hesab olunur. Heç şübhəsiz, bu şəhər milli memarlığımızın və Orta əsr şəhərsalma mədəniyyətinin ən bənzərsiz nümunələrindən biridir. Şuşa şəhəri Qarabağ xanlığının üçüncü paytaxtı olmaqla, milli-mənəvi dəyərlərimizin formalaşmasında özünəməxsus rol oynamış, bu torpaqlarda yetişmiş alim, şair və ziyalıları ilə fərqlənmişdir.

Tədqiqatlar zamanı məlum olmuşdur ki, Şuşa şəhərinin tarixi qədim Daş dövrünə gedib çıxır. 1971-1975-ci illərdə Şuşa şəhəri yaxınlığında aparılmış arxeoloji tədqiqatlar zamanı Daş dövrünə aid yaşayış məskənləri aşkar edilmişdir. Qazıntılar zamanı əldə edilmiş materiallar bu ərazilərdə yaşayış əlamətlərinin Paleolit dövrünə gedib-çıxdığını sübut edir (Mahmudov 2012, 152).

Daha sonrakı dövrlərdə, daha dəqiq desək, Orta əsrlərdə Azərbaycan ərazilərində qurulmuş Ağqoyunlu, Qaraqoyunlu və Səfəvilər dövründə Qarabağ vilayəti öz əhəmiyyətini qoruyub-saxlamış və regionda cərəyan edən ictimai-siyasi hadisələrin mərkəzində olmuşdur. Bir faktı qeyd etmək olar ki, Səfəvi hakimiyyətinin Azərbaycan torpaqlarında yaratdığı dörd bəylərbəylikdən biri də Qarabağ bəylərbəyliyi olmuşdur. Qarabağ Xanlığı qurulanadək, təxminən, 300 il müddətində bu bəylərbəyliyə məşhur Ziyadoğulları nəslindən olan hakimlər başçılıq etmişlər (Эфендиев 2004, 61-67).

Dahi sərkərdə Nadir şah Əfşarın 1747-ci ildə vəfatından sonra yaranmış xanlıqlardan biri də Qarabağ Xanlığı idi. Qarabağ Xanlığının əsasını

Cavanşirlər tayfasının Sarıcalı oymağına mənsub Pənahəli xan (1748-1763) qoymuş və 1756-cı ildə ilk əvvəllər Pənahabad, sonra isə Şuşa adlandırılan şəhəri inşa etdirmiş və xanlığın paytaxtını buraya köçürmüşdür.

Şuşa XVIII əsrin sonlarında Azərbaycanın, eləcə də Yaxın Şərqin iri şəhərlərindən biri hesab olunurdu. Şəhərin əlverişli coğrafi mövqeyi onun sürətlə inkişafına və tezliklə mədəniyyət ocağına çevrilməsinə zəmin yaratmışdır. Şəhərin salındığı ərazinin relyefi onun möhkəm müdafiə qalası kimi inşa olunmasına və özünəməxsus memarlığın yaranmasına güclü təsir göstərmişdir.

Şuşa şəhəri memarlıq abidələri ilə zəngindir və İslam dünyasında ecazkar memarlıq üslubu ilə fərqlənir. Yarandığı gündən etibarən şəhərdə müdafiə tikililəri ilə yanaşı, yaşayış evləri, imarətlər, saraylar, hamamlar, karvansalar, məscid və mədrəsələr tikilib istifadəyə verilmişdir. Memarlıq abidələrinin inşası isə burada tikinti sənətinin inkişafına əlahiddə dərəcədə şərait yaratmışdır. Bu ərazilərdə fəaliyyət göstərən mühəndislər, bənnalar, xəttatlar, dülgərlər, nəccarlar, həkkaklar, mühəzziblər, daşyonanlar və başqa sənətkarlar Yaxın Şərq, Azərbaycan və Qərb memarlığının üslubiyyətindən yüksək bacarıqla istifadə etmişlər.

Azərbaycanın başqa şəhərlərində olduğu kimi, Şuşada da məscid tikintisinə xüsusi diqqətlə yanaşılırdı. Tarixi mənbələrə əsasən, ilk məscid Pənahəli xanın hakimiyyəti illərində qamışdan tikilmiş, İbrahimxəlil xan isə hicri 1182-ci ildə (miladi 1768/69) həmin məscidin yerində daş və əhəngdən yeni Cümə məscidi tikdirmişdir (Baharlı 1991, 276). XIX əsrin I yarısında Gövhər ağanın maddi dəstəyi ilə İbrahimxəlil xanın yararsız hala düşmüş məscidinin yerində qoşaminarəli üçüncü məscid inşa edilmişdir. 1883-cü ildə Gövhər ağanın vəsaiti hesabına Kərbəlayi Səfıxan Qarabaği tərəfndən dördüncü Cümə məscidi inşa edilmiş və son quruculuq-bərpa işləri aparılmış, əsaslı şəkildə təmir edilmişdir. Son bərpa və təmir işlərindən sonra məscid Yuxarı Gövhər ağa məscidi kimi məşhurlaşmışdır (Mahmudov 2012, 152).

Kərbəlayi Səfixan Qarabaği Şuşada Aşağı Gövhər ağa məscidi, Ağdam Cümə məscidi və Bərdə imamzadəsi ilə yanaşı, Yuxarı Gövhər ağa məscidi də memarın ən yaxşı əsərləri sırasına daxildir.



(Yuxarı Gövhər ağa məscidinin fasad görünüşü)

Məscidin sonuncu quruculuq-bərpa işləri zamanı tətbiq edilən kompozisiya-planlaşdırma və memarlıq bədii xüsusiyyətləri sələflərindən kəskin şəkildə fərqlənir. Giriş Şahbulaq məscidində olduğu kimi, yarımdairəvi daş tağla tikilmişdir. E. Avalov qeyd edir ki, ola bilsin, memar əvvəlki tikilinin özüllərini yeni məscid binası üçün istifadə etmişdir və bu hala Şərq memarlığında tez-tez rast gəlinir. Məscidin ümumi ölçüləri planda 26.5 x 21.5 metrə bərabərdir. Məscidin portikinin arkadası, ikimərtəbəli tikilinin hündürlüyü boyunca ucalan üç eyni tağdan ibarətdir. Eyvanın tağları üzərində Quran ayələri yazılmış dekorativ lent uzanır. Yuxarı Gövhər ağa məscidinin dam örtüyünün orta hissəsində əsas ox boyunca yerləşən və mərkəzi damın üstünü örtərək, təxminən, 5 metr diametrə malik olan iki günbəz mövcuddur. Kərpiclə hörülmüş minarələrin səthi qabarıq lentlərlə üç hissəyə bölünmüş və rəngli daşlarla bəzədilmişdir (Авалов 1977, 57). Minarələrin içində yerləşdirilmiş 85 pilləkənli vintvari nərdivan müəzzin üçün nəzərdə tutulmuş meydana çıxır. Minarə meydanının üstü üçüncü məsciddə olduğu kimi zövqlə yonulmuş incə dirəklər üstündə duran çadırvari damla tamamlanır. Minarələrin üstünü son zamanlaradək ayparalar bəzəyirdi. Minarələrin pilləkənləri vintvari şəkildə yerləşdirilmiş kiçik pəncərə yarıqları ilə işıqlandırılır. Kərpiclə hörülmüş minarələrin səthi qabarıq lentlərlə üç hissəyə bölünmüş və rəngli daşlarla bəzədilmişdir.

Minarənin yuxarısında Quran ayələri yazılmış lent vardır. Minarələrin naxış dizaynı, həmçinin məscid yaxınlığındakı mədrəsənin ikinci mərtəbəsindəki kiçik otağın divar rəsmləri Mir Möhsün Nəvvab (1833–1918) tərəfindən işlənmişdir. Yuxarı Gövhər ağa məscidinin hündür oxvari minarələri və mərkəzi gümbəzi tikiliyə xüsusi gözəllik verir və şəhərin memarlıq kompozisiyasında əhəmiyyətli yer tutur (Саламзаде 1964, 97).

### Yuxarı Gövhər ağa məscidinin daş kitabələri

Yuxarı Gövhər ağa məscidinin şimal fasadında bir neçə kitabəyə rast gəlmək mümkündür. Qeyd edək ki, bu kitabələrin bir çoxu Məşədixanım Nemətova tərəfindən tədqiq edilmişdir (Nemətova 1961, 47-59). Abidənin giriş qapısının yuxarı hissəsində, daha dəqiq desək baş fasadında düzbucaqlı formada və onun yuxarısında iki ədəd xonça şəklində kitabə mövcuddur. Nəstəliq xətti ilə yazılmış düzbucaqlı formada olan kitabənin mətni belədir (bax: şəkil 1):



(şəkil 1)

"فإنه كريم يحب الكرامة لعباده المضطرين اليه المحترقين على بابه لطلب مرضاته،
أز قرار وصيت نامه رضوان جايكاه كوهر آغا أز وجوه أرجاه أملاك موقوفه مستخدمين
تمام وكلاء تعمير شد"

Tərcüməsi: *«O (Uca Allah) səxavətlidir. Allah onun razılığını əldə etmək üçün onun qapısına yönələn əlacsız bəndələrinin kəramətli olmasını arzulayır. Cənnət məkanlı Gövhər ağanın vəsiyyətnaməsinə əsasən təyin olunmuş vəkillər vəqf olunmuş əmlakdan tam şəkildə istifadə etməklə məscidi təmir etmişdir».*

İnşaat kitabəsinin birinci sətrində ərəb dilində həkk olunmuş yazı şiələrin altıncı İmamı Cəfər ibn Musa əl-Sadiqdən nəql olunmuş irihəcmli hədisdən bir hissədir. Belə ki, hədis İmam Sadiqə nisbət edilən «Misbahu-ş-Şəriə» kitabının «Məscidə daxil olarkən» adlı 61-ci babında yer almışdır, məscidlərə aid ədəb-ərkan və davranış qaydalarından bəhs edir (Sadiq 1982, 140-141).

Kitabənin ikinci sətrində isə fars dilində olmaqla, Gövhər ağanın vəqflə bağlı vəsiyyəti yazılmışdır. Kitabəyə həkk olunmuş yazıdan bir daha məlum olur ki, məscidin təmiri Gövhər ağanın vəsiyyətnaməsinə əsasən məscidə vəqf etdiyi vəsait vasitəsilə həyata keçirilmişdir.

Düzbucaqlı formada olan kitabənin yuxarı sağ tərəfində olan xonçanın içərisində ərəb dilində "Fəth" surəsinin 48-ci ayəsindən bir hissə yazılmışdır (bax: şəkil 1):"يد الله فوق ايديهم" - «Allahın əli (qüdrəti) onların (möminlərin) əli üzərindədir» ("Fəth", 48/10). Sol xonçanın içərisində isə ərəb dilində "Allah" kəlməsi və Əhli-beyt üzvlərinin adları yazılmışdır (bax: şəkil 1): "الله محمد علي فاطمة حسن حسين" - «Allah, Məhəmməd, Əli, Fatimə, Həsən, Hüseyn».

Məscidin giriş qapısının sol hissəsində düzbucaqlı formalı kitabədə ərəb dilində nəstəliq xətti ilə aşağıdakı yazı həkk olunmuşdur (bax: şəkil 2):



(şəkil 2)

"قال رسول الله صلعم اعبد الله كأنك تراه فإن لم يكن تراه فإنه يراك و حروف العبد ثلاثة العين و الباء و الدال فالعين علمه بالله و الباء بونه عمن سواه و الدال دنوه من الله بلا كيف و لا حجاب و ليس شيء أشد عقابا ممن لبس قميص التنسك بالدعوى بلا حقيقة و لا معنى ١٣٠٢"

Tərcüməsi: *«Allahın Rəsulu (Allahın salamı və duaları ona və ailəsinə olsun) dedi: Allaha elə ibadət et ki, sanki onu görürsən. Əgər sən onu görməsən belə bil ki, O, səni görür. «Əbd» (qul, bəndə) sözü üç hərfdən ibarətdir: «eyn», «bə», «dəl». «Eyn» hərfi bəndənin Allahı bilməsi, «bə» Onu (Allah) başqalarından fərqləndirməsi, «dəl» isə qulun Ona (Allaha) yaxın olmasıdır (Sadiq 1982, 8). Heç bir həqiqəti və mənası olmayan ibadət köynəyi geyinmək iddiasında olmaqdan böyük cəza yoxdur, 1302».*

Kitabəyə həkk olunmuş Məhəmməd peyğəmbərdən nəql edilən hədis İmam Sadiqə nisbət edilən «Misbahu-ş-Şəriə» kitabının "bəndəlik" adlı ikinci babından götürülmüşdür. Kitabədə qeyd olunan tarixdən məlum olur ki, o, hicri 1302, miladi 1883/1884-cü illərdə yazılmışdır.

Giriş hissənin sağ tərəfində yerləşən digər dördbucaqlı kitabədə isə bu sözlər yazılmışdır (bax: şəkil 3):



(şəkil 3)

"قال الصادق عليه السلام إذا استقبلت القبلة فانس الدنيا و ما فيها، و الخلق و ما هم فيه، واستفرغ قلبك
من كل شاغل يشغلك عن الله و عاين بسرك عظمة الله واذكر وقوفك بين يدي الله تعالى، سنة ١٢٨٢"

Tərcüməsi: *"İmam Cəfəri-Sadiq (Allahın salamı olsun Ona) dedi: "Üzü qibləyə tərəf durduqda dünyanı və onun içindəkiləri, məxluqatı və onda olanları unut. Qəlbini Allahdan uzaqlaşdıran bütün şeylərdən boşalt. Daxili aləminlə Allahın əzəmətini dərk et və Uca Allahın qarşısında dayandığını xatırla. 1282-ci il".*

Kitabədəki yazı digərlərində olduğu kimi, “Misbahu-ş-Şəriə” kitabının namaza daxil olma” adlı 39-cu babından götürülmüşdür. Bu hədis, eyni zamanda, Əllamə Məclisinin məşhur “Buharül-ənvar” kitabının 81-ci cild, “Namazın ədəbləri” adlı 16-cı babında da mövcuddur. Yazıda göstərilən tarix hicri 1282, miladi 1865-ci ildir ki, bu, kitabənin digərlərindən daha qədim olduğunu göstərir. Bu kitabənin əvvəlki məscidlərə aid olduğunu və yeni məscidin inşası zamanı istifadə edildiyini güman etmək mümkündür.

Məscidin qarşısındakı tikintini iki yerə bölən daş arakəsmə üzərindəki xonça içərisində isə belə yazılmışdır (bax: şəkil 4):



(şəkil 4)

"عمل كربلائي صفي خان معمار قراباغي ١٣٠١"

Tərcüməsi: *“Qarabağlı memar Kərbəlayi Səfixanın işidir 1301”.*

Görkəmli memar Kərbəlayi Səfixan Sultanhüseyn oğlu Qarabaği 1817-ci ildə Şuşa şəhərində anadan olmuşdur. Onun adına Qarabağda inşa edilmiş bir çox məscidin üzərində rast gəlmək mümkündür. Bu isə Səfixan Qarabağinin XIX əsrin axırlarında Qarabağ vilayətində tanınmış memar olduğunu göstərir. Onun Qarabağ memarlığının inkişafında xüsusi xidmətləri olmuş və inşa etdiyi tikililərdə, xüsusilə məscidlərdə Şərq memarlığına xas olan konstruktiv elementləri yerli ənənələrlə əlaqələndirmişdir.

**Nəticə**

Epiqrafik abidələr, ümumilikdə, maddi-mədəni irs aid olduğu ərazinin və orada yaşayan əhalinin tarixini, eyni zamanda, mövcudluğunu isbat edən ən mühüm sübutlardan biri hesab olunur. Bununla yanaşı, daş kitabələr dövrünün milli, dini, mədəni və ictimai düşüncə tərzini öyrənmək üçün ən yaxşı vasitələrdən biridir. Gələcək nəsillərə tarixi irsimizi və əsrlərboyu təşəkkül tapmış zəngin mədəniyyətimiz haqqında daha geniş məlumatları ötürmək üçün bu qəbildən olan abidələr böyük əhəmiyyətə malikdir.

Qarabağ ərazisində yüzlərlə müxtəlif növ mədəniyyət abidəsi qeydə alınmışdır ki, bunların da əksəriyyətini epiqrafik abidələr təşkil edir. Azərbaycanın Şuşa, Ağdam, Bərdə, Füzuli, Zəngilan, Cəbrayıl, Laçın, Kəlbəcər rayonları ərazisindən vaxtilə xeyli miqdarda tikinti, qəbir və s. epiqrafik abidələr qeydə alınmış və tədqiq edilmişdir. Bütün müsəlman Şərqində olduğu kimi, Azərbaycanda, o cümlədən Qarabağda son Orta əsrlərdə də mədəniyyət, elm və ədəbiyyat yüksək inkişaf dövrü keçirmişdir. Sonrakı dövrlərdə də Qarabağ mədəni mərkəz rolunu itirməmişdir. Beləliklə, tədqiqatlar Qarabağın maddi mədəniyyət irsinin Azərbaycanın maddi və mənəvi mədəniyyətinin tərkib hissəsi olduğunu aydın şəkildə göstərir və bu barədə əks fikirlərin əsassız olduğunu sübüt etməyə əsas verir. Bu baxımdan, Yuxarı Gövhər ağa məscidi və məscidə aid olan bir sıra daş kitabələr yerləşdiyi ərazidə etnogenez məsələlərini öyrənmək, yerli əhalinin milli-dini kimliyi haqında ən dolğun təsəvvür yaratmaq üçün bariz və əyani sübutdur. Abidəni tədqiq edərkən məlum olur ki, Qarabağ ərazisi Azərbaycan və İslam dünyasının ayrılmaz bir parçası, özünəməxsus memarlıq tərzi və bənzərsiz incəsənət nümunələri ilə Yaxın Şərqin mədəniyyət ocağıdır.

Qarabağ abidələrinin bugünkü taleyinə gəldikdə, XX əsrin sonlarında Ermənistanın törətdiyi pozuculuq fəaliyyəti, münaqişə və müharibə Azərbaycanın Qarabağ bölgəsində maddi mədəniyyət abidələrinin taleyini təhlükə altına qoymuşdur. Erməni işğalçıları tərəfindən törədilmiş vandalizm aktları nəticəsində Azərbaycan və İslam mədəniyyətinə aid bir çox tarixi abidə məhv edilmişdir. Buna baxmayaraq, Qarabağda və onun ətrafında yüzlərlə epiqrafik məzar daşları və onlar üzərindəki epitafiyalar

öz varlığını qoruyub-saxlamaqdadır. Qüdrətli Azərbaycan Dövləti və onun Şanlı Ordusunun tarixi qələbələri ilə düşmən işğalından azad olunmuş müqəddəs torpaqlarımızda yaxın gələcəkdə epiqrafik abidələr yenidən qeydə alınacaq və bu abidələrdə genişmiqyaslı elmi tədqiqatlar aparılacaqdır.

## ƏDƏBİYYAT


Baharlı. (1991). "Əhvalati-Qarabağ. Qarabağnamələr"; Bakı: Yazıçı, c, 2, (302 s.).

Bünyadov Ziya. (1994). Azərbaycan tarixi (ən qədim zamanlardan XX əsrədək); Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, c.1, (628 s.).

əl-Məclisi, Məhəmmədbaqir. (1986). "Biharul-ənvar"; Tehran: "əl-Vəfa", c.81.

Hüseynzadə Əli. (1959). "Göhər Ağanın vəqfnaməsi", Azərbaycan SSR Elmlər Akademiyasının xəbərləri, N 1; Bakı: "Elm".

Mahmudov Yaqub. (2012). "Şuşa - Pənahabad"; Bakı: Təhsil, (152 s.).

Nemətova Məşhədixanım. (1961). "Şuşa şəhərindəki "Cümə məscidi"nin kitabələri", Azərbaycan SSR Elmlər Akademiyasının xəbərləri, N 1; Bakı: "Elm".

Sadiq Cəfər ibn Musa. (1982). "Misbahuş-şəriə"; Beyrut: "Əla Nəşriyyat müəssisəsi", (210 s.).

Авалов Эльтуран. (1977). "Архитектура города Шуши и проблемы сохранения его исторического облика"; Баку: Элм.

Саламзаде А.В. (1964). "Архитектура Азербайджана XVI-XIX вв". Баку.

Эфендиев Октай. (2004). "Карабах в составе Государства Караюнлу, Аккоюнлу и Сефевидов (XV-XV1I вв.)". Баку.

*д. ф. по философии Эльнур Мустафаев*

## ИССЛЕДОВАНИЕ НАДПИСЕЙ В ЭПИГРАФИЧЕСКИХ ПАМЯТНИКАХ, ПРИНАДЛЕЖАЩИХ ВЕРХНЕЙ МЕЧЕТИ ГЕВХАР-АГИ

### РЕЗЮМЕ

В статье исследована история строительства, архитектурный стиль и каменные надгробия Верхней мечети Гевхар-аги, построенной в Шуше-культурном центре Карабаха, известной как «Колыбель азербайджанской музыки», «Закавказская консерватория», «Храм кавказского искусства», «Маленький Париж». В статье автор разделил строительство мечети на четыре этапа и поделился подробной информацией о памятнике с соблюдением исторической хронологии. Предоставив обширную информацию об архитектурных особенностях Верхней мечети Гевхар-аги, автор утверждает, что это один из самых очаровательных образцов азербайджанской архитектуры. Так, в 1883 году на месте третьей мечети за счет материальных средств Гевхар-аги была построена четвертая и последняя мечеть города Шуша. Автором четвертой мечети является знаменитый Кербалайи Сефихан Карабахи. Эта мечеть является одним из лучших произведений автора. Оформление минаретов мечети и настенные росписи комнат были разработаны Мир Мохсун Наввабом. В статье отмечается, что четвертая мечеть отличается от своей предшественницы (3-й мечети) композиционно-планировочными и архитектурно-художественными особенностями.

В статье образцы, выбитые на надгробиях, были прочитаны и переведены автором на азербайджанский язык. Выбитые на надгробиях надписи дают полное представление о религиозно-философском и общественно-политическом мировоззрении того времени. В статье также отмечается, что эпоха эпиграфических памятников является лучшим инструментом для изучения национального, религиозного, культурного и социального образа мышления. С этой точки зрения

автор статьи обосновывает важность таких памятников для передачи будущим поколениям большего количества информации о нашем историческом наследии и богатой культуре, формировавшейся на протяжении веков.

***Ключевые слова:*** *Азербайджан, ислам, Карабах, Шуша, мечеть*

***Ph.D Elnur Mustafayev***

## INVESTIGATION OF EPIGRAPHIC MONUMENTS BELONGING TO YUKHARI GOVHAR AGHA MOSQUE

**ABSTRACT**

The article examines the construction history, architectural style and stone inscriptions of the Yukharı Govhar Aga Mosque, built in Shusha, the cultural center of Karabakh, known as the "Cradle of Azerbaijani Music", "Transcaucasian Conservatory", "Caucasian Art Temple" and "Little Paris". In the article, the author divided the construction of the mosque into four stages and shared detailed information about the monument, waiting for the historical chronology. After giving extensive information about the architectural features of the Yukxharı Govhar Aga Mosque, the author argues that it is one of the most charming examples of Azerbaijani architecture. Thus, in 1883, the fourth and last mosque of Shusha was built on the site of the third mosque at the expense of Govhar aga. The author of the fourth mosque is the famous Karbalai Safikhan Garabaghi. This mosque is one of the best works of the author. The decoration of the minarets of the mosque and the wall paintings of the rooms were designed by Mir Mohsun Nawwab. The article notes that the fourth mosque differs from its predecessor (3rd mosque) in composition-planning and architectural features.

The inscriptions engraved on the stone inscriptions in the article were read by the author and translated into Azerbaijani. The inscriptions engraved on the inscriptions give a full picture of the religious-philosophical and socio-political worldview of that time. The article also notes that the era of epigraphic monuments is the best tool for studying the national, religious, cultural and social way of thinking. From this point of view, the author of the article substantiates the importance of such monuments in order to pass on to future generations more information about our historical heritage and our rich culture formed over the centuries.

***Keywords:*** *Azerbaijan, Islam, Karabakh, Shusha, mosque*

# ŞUŞANIN BÖYÜK TARİXİ

***fil.f.d. Yeganə Qaraşova,***
*Bakı Dövlət Universiteti*
*Humanitar fakültələr üzrə*
*ingilis dili kafedrasının baş müəllimi*
yegana_qrshv1287@mail.ru

## XÜLASƏ

Məqalədə Şuşanın tarixi inkişaf mərhələləri təhlil olunur, burada baş verən iqtisadi, siyasi və mədəni-mənəvi proseslər nəzərdən keçirilir. Göstərilir ki, bu il Şuşa şəhərinin 270 yaşı tamam olacaq. Şuşanın əsasının qoyulduğu XVIII əsrdə Azərbaycan tarixində böyük hadisələr baş vermişdir: Səfəvi dövləti 235 il mövcud olmuş, 1736-cı ildə süqut etmiş, Nadir şahın qurduğu Əfşar imperiyası 11 il yaşadıqdan sonra 1747-ci ildə parçalanmış və Azərbaycanda feodal pərakəndəliyi – xanlıqlar dövrü başlanmışdır. Bu dövrdə Azərbaycan ərazisində 20 xanlıq, 6 sultanlıq, 5 məliklik və 1 camaatlıq mövcud olmuşdur. Dünya tarixindən məlum olduğu kimi, feodal pərakəndəliyi dövrü üçün hər bir feodalın öz ərazisini qorumaq və genişləndirmək üçün apardığı ara müharibələri xarakterikdir.

Yeni yaranmış xanlıqların xanları öz paytaxtlarını möhkəmləndirməklə məşğul olurdular. Bu faktı da qeyd etmək lazımdır ki, Qarabağ xanlığından başqa bütün xanlıqlar əsrlərlə yaşı, qala divarları olan şəhərlər ətrafında formalaşmışdılar (məsələn: Dərbənd, Bakı, Gəncə, Təbriz, Ərdəbil və s.). Səfəvi dövlətinin 4 bəylərbəyliyindən biri olan Qarabağ bəylərbəyliyinin tarixi ərazisində iki xanlıq – Gəncə və Qarabağ xanlıqları yaradılmışdı. Qarabağ xanlığı paytaxt şəhəri olmayan yeganə xanlıq idi. Xanlığın əsasını qoyan Pənahəli bəy İbrahimxəlil oğlu yerli elatların ən nüfuzlusu olan Cavanşir tayfasından idi.

***Açar sözlər***: *Qarabağ tarixi, Gəncə və Qarabağ xanlıqları, Şuşa şəhəri, Pənahəli bəy, Şuşa mədəniyyəti.*

***"...Şuşa Azərbaycanın ən əziz və böyük tarixi olan bir guşəsidir. Şuşanı yaradanlar, Şuşa şəhərini quranlar, Şuşa qalasını tikənlər Azərbaycan torpağının sahibləri olublar və Qarabağda Azərbaycan torpağının daim qorunması, saxlanması üçün Şuşa şəhərini, qalasını yaradıblar. Bu, Azərbaycan xalqının, əcdadlarımızın yaratdığı böyük abidədir, təkcə şəhər deyil, böyük bir tarixi abidədir".***

**Heydər Əliyev**

**Giriş**

Müzəffər Ordumuz tərəfindən 44 gün davam etmiş II Qarabağ müharibəsi nəticəsində Azərbaycanın 30 ilə yaxın işgal altında olmuş 5 şəhəri, 4 qəsəbəsi, 286 kəndi azad edildi. Vətənimizin hər qarış torpağı bizim üçün əzizdir, amma Şuşa birincidir. Erməni separatçıları işğal etdikləri şəhər və kəndlərimizin əksəriyyətini tamamilə dağıtmış, yaşayış evlərini, ictimai binaları söküb-aparmış, bağları, meşələri kəsib-doğramış, işğal olunmuş əraziləri Qərb jurnalistlərinin sözü ilə desək, Hirosimaya çevirmişlər. Şuşada isə belə söküntü işləri aparılmamışdı.

Əksinə, Ermənistanın bir çox iş adamı Şuşada özləri üçün təmtəraqlı villalar, istirahət mərkəzləri, otellər və s. tikdirmişlər. Şuşada, ancaq Qarabağ xanlığına aid tarixi binalar, məscidlər, qala divarları, karvansaralar, muzeylər, şəhərin ən görkəmli şəxsiyyətlərinin (milliyyətcə azərbaycanlı olan) qəbirləri, qəbirüstü abidələri, heykəlləri – cəmi 600 tarixi abidə qarət olunmu., sökülüb dağıdılmışdır. Şuşada tarixi abidələrin bərpası adı altında abidələrin erməniləşdirilməsi və saxtalaşdırılması prosesi gedirdi. Erməni separatçıları Şuşada Azərbaycan mədəniyyətinin, tarixinin izlərini silməyə çalışmışlar.

Onlar bu işdə çox böyük "təcrübə"yə malikdirlər – 1918-ci ildə ermənilərə paytaxt kimi güzəşt olunan qədim Azərbaycan şəhəri İrəvandakı bütün tarixi abidələr – saraylar, məscidlər, qala divarları sökülüb-dağıdılmışdır. Müasir Yerevan şəhərində İrəvan xanlığına aid bir abidə belə, demək olar ki, qalmamışdır. Düzdür, 1764-cü ildə İrəvan xanı Hüseynəli xanın tikdirdiyi möhtəşəm Göy məscid qalıb, amma onu da iranlaşdırıb-

lar və indi həmin məscid Ermənistandakı İran icmasının mədəni mərkəzi kimi fəaliyyət göstərir. Erməni separatçıları yaxşı bilirdilər ki, gec-tez torpaqlar geri qaytarılacaq və buna görə də DQMV ətrafındakı ərazilərdə tikinti işləri aparmırdılar və aparılan danışıqlarda həmin ərazilərlə, necə deyərlər, "spekulyasiya" edirdilər.

Həmin ərazilərin qaytarılması hesabına qondarma "Artsax Respublikası"nın tanınmasını tələb edirdilər. Erməni separatçılar Şuşanı öz qondarma respublikaları üçün "əbədi" olaraq paytaxt və Ermənistanın mədəni mərkəzi hesab edir və onu heç vaxt dinc yolla geri qaytarmaq fikrində deyildilər. Erməni tarixçiləri Şuşanın "qədim erməni şəhəri" olduğunu sübut etmək üçün dəridən-qabıqdan çıxırdılar. Rus alimi, yazıçısı, tarixçisi və jurnalisti olan V. L.Veliçko 1904-cü ildə ermənilərin tarixi saxtalaşdırması haqqında belə yazmışdır: "... Ermənilər mənşəyi müəyyən olunmamış... xalqdır".

Yeri gəlmişkən onu da qeyd etmək lazımdır ki, neft mədənlərinin sahibi olan erməni kapitalistlər (*burada Bakı neft mədənləri nəzərdə tutulur – müəllif*) Ermənistanın xüsusi tarixinin yaradılması, bu kiçik xalqın və onun qəhrəmanlarının... ucaldılması üçün mesenatlıq edirlər. Xüsusən də öz tarixi "xidmətlərini" və indiki fəzilətlərini parazitcəsinə ortaya qoymaq üçün daha aydın, şəffaf, ləyaqətli tarixi olan qonşu xalqların üzərinə kölgə salmaq fürsətini əldən vermirlər. Onlar tarix – arxeologiya sahəsində gürcüləri həyasızcasına qarət edirlər: abidələrdəki gürcü yazılarını qaşıyıb-pozur, boş qalmış qədim pravoslav kilsələrini ələ keçirir, hər bir daşı gürcü çarlığının keçmişindən bəhs etdiyi vilayətlərin qədim erməni əraziləri olduğunu göstərən tarixi absurdlar tərtib edirlər" (В.Л. Величко, 1990, 4, 35).

Qondarma respublikaya havadarlıq edən Ermənistanın Baş naziri Nikol Paşinyan "Artsax respublikası"nın elanı şərəfinə Cıdır düzündə təşkil olunmuş şənlikdə iştirakı ilə bütün beynəlxalq etiket və qayda-qanunları pozması ilə yanaşı, həyasızcasına "Qarabağ Ermənistandır, nöqtə" deyərək Azərbaycana "mesaj" göndərdi və tezliklə mesajının cavabını aldı.

Müzəffər Azərbaycan Ordusunun qəhrəmanlığı nəticəsində 44 günlük müharibə böyük qələbəmizlə başa çatdı. Müzəffər Ali Baş Komandan İlham Əliyev bütün dünyaya bəyan etdi: "Qarabağ Azərbaycandır!".

İkinci Qarabağ müharibəsi zamanı ən həlledici, əfsanəyə çevrilən döyüşlərdən biri də Şuşa uğrunda gedən savaşlar oldu. Şuşa uğrunda gedən döyüşlər haqqında Müzəffər Ali Baş Komandan İlham Əliyev belə demişdir: "Şuşanın işğaldan azad edilməsi bizim gücümüzü göstərdi. Ordumuzun peşəkarlığını, hərbçilərimizin cəsarətini, qəhrəmanlığını göstərdi. Şuşanın götürülməsi çox böyük peşəkarlıq, cəsarət tələb edən əməliyyat idi. Əminəm ki, bu əməliyyat dünya hərb tarixində xüsusi yer tutacaqdır. Çünki bu əməliyyatı yalnız yüngül silahlarla silahlanmış bizim qəhrəman hərbçilərimiz dağlardan, meşələrdən, cığırlardan keçərək icra ediblər. Şuşanın işğaldan azad edilməsi bizim şanlı Qələbəmizdir".

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev Şuşanın düşməndən azad edildiyi gün belə demişdir: "Əziz Şuşa, sən azadsan! Əziz Şuşa, biz qayıtmışıq! Əziz Şuşa, biz səni dirçəldəcəyik! Şuşa bizimdir! Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!".

Şuşanı dirçəltmək, yenidən mədəniyyət mərkəzinə çevirmək üçün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 7 may 2021-ci il sərəncamı ilə Şuşa şəhəri Azərbaycanın mədəniyyət paytaxtı elan edildi, 5 yanvar 2022-ci il tarixli sərəncam ilə 2022-ci il "Şuşa ili" elan olundu. Bu sərəncamlar xalqımızın və dövlətimizin, Qarabağın tacı sayılan Şuşanın Azərbaycan tarixində tutduğu yerə və əhəmiyyətinə olan münasibətinə bariz bir sübutdur.

## Qarabağın tacı sayılan Şuşanın tarixi

Pənahəli xan, öz atası və qardaşları ilə birlikdə, Azərbaycan torpaqlarının Osmalı dövlətinin işğalından azad edilməsində Səfəvi dövlətində qoşun başçısı olan Nadir xan Əfşarın rəhbərliyi ilə iştirakı zamanı öz sərkərdəlik qabiliyyətini bacarıqla nümayiş etdirmişdir. Nadir xan özünü şah elan etdikdən sonra Pənahəli bəy və böyük qardaşı Fərzəli bəy bir müddət onun yanında xidmət edirlər. Sarayda eşikağası kimi böyük vəzifədə olan qardaşı Fərzəli bəy Nadir şahın siyasətini tənqid etdiyinə görə şah tərəfindən edam olunduqdan sonra, Pənahəli bəy Cavanşir ona

sarayda eşikağası vəzifəsi təklif olunsa da, özünü sarayda güvəndə hesab etmədiyinə görə 1738-ci ildə özünə yaxın olan adamlarla Qarabağa qaçır.

Nadir şahın təqibindən xilas olmaq üçün bir müddət müxtəlif ərazilərdə gizli həyat sürür və ətrafına tərəfdarlar toplamağa başlayır. Topladığı dəstə ilə qonşu ərazilərə basqınlar edir. Ümumiyyətlə. Nadir şah mərkəzləşdirilmiş bir dövlət yaradan hökmdar kimi həmişə yerli feodalların güclənməsindən narahat olur və ona qarşı azacıq olsa etiraz bildirən feodalları cəzalandırırdı. Məsələn, 1736-cı ildə baş tutmuş Muğan qurultayında onun taxta çıxmasına etiraz edən Qarabağ bəylərbəyliyindən olan Ziyadoğlular, Cavanşir, Otuzikilər və Kəbirli kimi böyük tayfa başçılarının nüfuzunu zəiflətmək üçün bir sıra tədbirlər görür.

Nadir şah Əfşarın əmri ilə Qarabağın Otuzikilər, Cavanşir və Kəbirli tayfa başçıları ailələri ilə birlikdə Xorasana sürgün edilir (Pənahəli xanın ailəsi – gənc arvadı və üç oğlu, o cümlədən gələcəkdə Qarabağın ikinci xanı olan böyük oğlu İbrahimxəlil də sürğün olunanlar arasında idi), Qarabağ bəylərbəyliyinə daxil olan Borçalı, Qazax və Şəmşəddin mahallarının idarəsi Ziyadoğullarından alınaraq Nadir şahın asılılığında olan gürcü hakiminə verilir.

Həmçinin, Nadir şah Qarabağ məliklərini Qarabağ bəylərbəyinin tabeliyindən azad edərək, onları birbaşa öz sarayına tabe edir: "Xəmsə məliklərinə də əmr verdi ki, Gəncə xanlarının itaət zəncirini mənim möhkəm hökmüm vasitəsilə xas və avam camaatın boynundan kənar edin. Özünüzü tamamilə azad sayın. Bütün ərizələrinizi və vacibli işlərinizi yazıb mənim... hüzuruma göndərin" (Qarabağnamə 1, 37). Nadir şah Əfşarın öz taxtını möhkəmləndirmək üçün gördüyü bu tədbirlər Azərbaycanın gələcək tarixində böyük problemlərin baş verməsinə səbəb oldu. Qarabağ məlikləri xanlıqlar dövründə daim çuğulluq edir, ayrı-ayrı xanlıqlar arasında nifaq salır, separatçı mübarizələrini "dini" mübarizə kimi qələmə verərək xarici xristian dövlətlərindən yardım dilənirdilər.

Nadir şah sui-qəsd nəticəsində öldürüldükdən sonra, Pənahəli bəy Cavanşir Qarabağda hakimiyyəti ələ keçirir. Qarabağın Cavanşir, Otuzikilər və Kəbirli kimi böyük tayfalarına arxalanan Pənahəli bəy öz gücünü artırmaq üçün Nadir şahın Xorasana sürgün etdiyi Qarabağ tayfalarının geri qaytarılması üçün fəaliyyətə başlayır. "Elat gəldikdən sonra o,

gələnlərə yurd, mənzil və məskən mərhəmət etdi, onları mehribanlıq qanadı altına aldı və ehtiyaclarını təmin etdi" (Qarabağnamə I, 39).

Pənahəli bəyin sürğündən qayıdan həmvətənlərinə qarşı göstərdiyi münasibət ona əhali arasında böyük hörmət, nüfuz və rəğbət qazandırdı. Pənahəli bəy öz nüfuzundan siyasi məqsədlə istifadə etdi. Öz gücünə və əhalinin dəstəyinə arxalanan Pənahəli bəy heç bir hakimdən fərman almadan özünü xan elan edib Qarabağı, eləcə də qismən Gəncə, Təbriz, Ərdəbil və Naxçıvanın bəzi torpaqlarını idarə etməyə başladı.

Pənahəli xana Qarabağın rəsmi hakimi və xanı titulu Nadir şah öldürüldükdən sonra taxta çıxan qardaşıoğlu Adil şahın (Əliqulu xan) fərmanı ilə 1748-ci ildə verilmişdir. Belə ki, Adil şah tərəfindən Azərbaycan ölkəsinə sərdar təyin edilmiş Əmir Aslan xan Pənah xanın Qarabağda olan nüfuzunu nəzərə alaraq, öz adından ona hədiyyə olaraq at, qılınc və xələt göndərərək, onu Adil şaha itaət etməyə dəvət edir.

Pənahəli xan Əmir Aslan bəyin təklifini qəbul edir. "Çünki hələ belə bir şövkət və dövlət sahibi olan əmirlə düşmənçilik, ədavət və müharibə etmək vaxtı deyildi. Digər tərəfdən, ətrafda olan bəzi vilayətlərin xanları, üzdə dostluqdan və sədaqətdən dəm vurduqlarına baxmayaraq, ürəkdə Pənah xanın pisliyini istəyirdilər. Buna görə o, Adil şahın dövlətinə itaət etməyə hazır olduğunu və onaxidmət edəcəyini bildirərək, sədaqətini andıran cavablar və hədiyyələr göndərdi.

Sərdar Əmir Aslan belə bir itaəti və elçilərin gəlişini Adil şah dövləti üçün böyük xidmət sanıb, Adil şahın hüzuruna məktub yazdı. Adil şahın (Pənah xana) xan adı verilməsi və Qarabağ hakimi vəzifəsinə təyin edilməsi haqqında imzaladığı fərman, qiymətli xələt, qızıl yəhərli at və qaşdaşla bəzənmiş qılıncla birlikdə Sərdar Əmir Aslanın yaxın adamı vasitəsilə, o zaman yaşadıqları Bayat qalasına gəlib çatdı" (Qarabağnamələr I, 129-1).

Pənahəli xan ailə və qohumlarının, qulluqçu və yaxın adamlarının və el böyüklərinin ona düşmən olan qonşu dövlətlərin və yerli feodalların hücumlarından qorunması üçün münasib bir yerdə qala tikilməsinə qərar verir. "Məşvərətdən sonra, indi Kəbirli mahalı içində olan Bayat qalasının binası qoyuldu. Qısa bir zamanda möhkəm hasar və xəndək qayrıldı, bazar, hamam və məscid tikildi. Xan bütün ailəsini,qohumlarının və el

böyüklərinin əhli-əyalını oraya topladı. Ətrafda olan camaat,hətta Pənah xanın tərəqqisini, onun rəftar və məhəbbətini eşidən Təbriz və Ərdəbil vilayətlərinin bir çox əhalisi və sənətkarları belə öz ailələri ilə birlikdə gəlib Bayat qalasında yerləşdilər" (Qarabağnamələr I, 126-127).

Qarabağ xanlığının ilk inzibati mərkəzi üçün yer Kəbirli mahalında (müasir Ağcabədi rayonunun ərazisində) təyin edildi. Bayat qalası qısa müddət (11 ay) ərzində inşa edildi. Bayat qalası Pənahəli xanın böyük gücə malik olduğuna bir sübut kimi Qarabağ məliklərini qorxuya saldı. Məliklər Şəki xanı Hacı Çələbiyə müraciət edərək onu Bayat qalasına hücum etməyə təşviq etdilər." Ona bildirdilər ki, Pənah xan burada taxta çıxmış, qala və səngər tikdirmişdir. Əgər dəfində bir qədər təxir edilsə, sonra onun qarşısında durmaq mümkün olmayacaqdır" (Qarabağnamələr I, 40).

Hacı Çələbinin 1848-ci ilin sonlarında öz müttəfiqləri ilə Bayat qalasını tutmaq cəhdi müvəffəqiyyətsizliklə nəticələndi. Pənahəli xanın təbəələri onun köməyinə gəldilər. Hacı Çələbi geri çəkilməyə məcbur olur. Bayat qalası düşmən tərəfindən tutulmasa da, onun müdafiə baxımından imkanlarının zəif olması göz qabağında idi - qala sərhədə yaxın idi, təbii maneələri olmayan düzənlikdə yerləşmişdi, aranda yerləşdiyi üçün yay zamanı yaşamaq çətin idi, yaz və yay vaxtı elat yaylağa getdiyindən qalanın ətrafında əhalinin sayı azalırdı, yəni əhali arasında sürətlə qoşun toplamaq imkanı azalırdı. Bu səbəbdən, yeni bir qala məsələsi ortaya qoyuldu. Həm də yeni qala elə yerdə tikilməliydi ki, o həm dağ, həm də aranla əlaqədar olsun. "Bu məqsədlə bir çox fikir, məsləhət və məşvərətdən sonra Ağdamın 5-6 kilometrliyində yerləşən və Şahbulaq adlanan yerdə qala və istehkam düzəltmək qərara alındı" (Qarabağnamələr. III kitab, 81).

Beləliklə, dağətəyində yerləşən Tərnəgüd adlı yerdə Qarabağ xanlığının ikinci mərkəzi olan Şahbulaq qalası inşa edildi. Daş və əhəngdən məscidlər, evlər, bazar və hamamlar tikildi. 1851-ci ildə el camaatının bütün evləri - böyüklərin, sənətkarların, xanın yaxın adamlarının və xidmətçilərinin ailəsi 1851-ci ildə Şahbulağı qalasına köçürüldü.

Pənahəli xan Qarabağ xanlığını daxildən möhkəmləndirir, məliklərin müqavimətini qıraraq onları özünə tabe edib, xanlığın ərazisini genişlən-

dirir. Bəzi xanlıqları isə özündən asılı vəziyyətə salır. Bu zaman Urmiya xanı Fətəli xan Əfşar, Astrabad hakimi Məhəmhəsən xan Qacar, Şiraz hakimi Kərim xan Zənd İranda mərkəzi hakimiyyət uğrunda mübarizə aparırdılar. Pənahəli xan başa düşürdü ki, Qarabağ xanlığının böyük ərazili, güclü xanlığa çevrilməsi gec-tez Əfşar imperiyasının boş qalmış taxtı uğrunda mübarizə aparan qüvvələrin diqqətini özünə çəkəcəkdi və onlar yeni mərkəzləşmiş dövlətin yaradılmasında potensial rəqibi aradan qaldırmaq üçün Qarabağ xanlığına hücum edəcəkdilər.

Mirzə Camal Cavanşir bu məsələnin müzakirəsi üçün Şahbulaq qalasında çağırılan geniş məsləhət şurası haqqında belə yazır: "Hökumət işlərini bir an belə unutmayan mərhum Pənah xanın işgüzar və bacarıqlı adamları, xanın əmrinə görə məsləhət üçün yığışıb dedilər: "Mərhum Nadir şah vəfat etdikdən sonra bizimlə Əliqulu xan (Adil şah) və Sərdar Əmir Aslanın arasında sülh, ittifaq və dostluq əlaqəsi davam etməkdə idi. İndi, çox mümkündür ki, belə bir münasibət və dostluq əlaqəsi bizimlə Məhəmmədhəsən xan arasında olmasın. Ətraf xanlarından da bir o qədər xatircəm deyilik. Onların Məhəmmədhəsən xanı üzərimizə təhrik edərək, onunla birlikdə bizə qarşı çıxacaqları ehtimalı vardır.

Belə bir vəziyyətdə Qarabağın elləri, adlı-sanlı adamları Qızılbaş qoşununun ayağı altında paymal olar, biz isə Şahbulağı qalasında elə bir qüvvətli düşmənin və ətraf xanların qarşısında müqavimət göstərə bilməyib, bütünlükdə qırılarıq.Ona görə də işin əlacını qabaqdan görmək lazımdır. Biz gərək dağların içində, möhkəm və keçilməz yerdə elə bir əbədi və sarsılmaz qala tikək ki, onu güclü düşmən belə mühasirə edə bilməsin. Qalanın bir tərəfi dağlarda olan ellərin üzünə daima açıq olmalı və mahallarla rabitəmiz, əlaqəmiz (bir an belə) kəsilməməlidir" (Qarabağnamələr. I kitab, 131).

Qarabağ xanlığının yeni inzibati mərkəzinin hökmən dağlıq yerdə tikilməsi haqqında qərar qəbul ediləndən sonra axtarış işləri başlandı. Pənahəli xan yeni şəhər üçün məsləhət bilinən yerlərlə şəxsən özü tanış olur və Şuşa şəhərinin indiki yerini çox bəyənir.

Onu da qeyd etmək yerinə düşərdi ki, arxeoloqlar Qarabağda ilk insanların hələ 1,5 milyon il əvvəl yaşamalarının izlərini tapıblar. Şuşa yaxınlığında olan Şuşa mağarasında Paleolit, Mezolit dövrlərinə aid olan

daş əmək alətləri, Eneolitə aid gil qab məmulatı,Tunc, Dəmir dövrlərinə və Orta əsrlərə aid saxsı məmulat qırıntıları tapılmışdır. Mağaranın ağzında orta əsrlərə aid daşdan qalın istehkamlar, qala və bina divarlarının qalıqları var. Amma, Pənahəli xanın yeni qala üçün seçdiyi ərazidə "...yaşayış evləri yox idi. Bura, şərq tərəfdə, qalanın altı verstliyində yaşayan Şuşa kəndi əhalisinin ... otlağı idi" (Qarabağnamələr. I kitab, 131).

Paytaxt üçün seçilmiş ərazi – 1400 m yüksəklikdə yerləşən Şuşa yaylası, sanki təbii bir qala idi. Şuşa yaylasını əhatə edən qayaların hündürlüyü bəzi yerlərdə 400 metrə kimi çatır. Üç tərəfdən – cənub, qərb və şərqdən – Şuşa yaylasını əhatə edən yüksək qayalıqlar müxtəlif istiqamətlərdə bir-birinin üstündə ucalaraq, şimal istiqamət istisna olmaqla, bütün tərəflərdən tamamilə əlçatmaz edirdi. Buna görə də yeni qalanın, ancaq şimal tərəfində müdafiə divarları inşa etmək kifayət idi.

Şuşa yaylasının ən mühüm xüsusiyyətlərindən biri də yaxşı yonulan inşaat daşları və meşələrlə zəngin olması idi. Bunlar qalanın inşası üçün yerli xammal rolu oynamaqla böyük dəyər kəsb edirdi. Ərazidə qalanın inşası üçün lazım olacaq daşların, meşələrin olması qalanın tikintisinin ucuz başa gələcəyi və sürətlə gedəcəyindən xəbər verirdi. Qalanın inşası üçün seçilmiş yerin üstünlüklərindən biri də buradan bütün ətraf ərazilərin yaxşı müşahidə olunması və nəzarət edilməsi idi ki, bu da düşmənin qəfil hücumunun qarşısını alırdı.

Qala üçün seçilən yerdə isə su problemi yaranır. Mirzə Camal Qarabaği bu barədə belə yazır: "Xanın bir neçə nəfər bilici və məlumatlı adamı gedib, qalanın yerini və ətrafını yoxladı. Qalanın içində iki-üç bulaqdan başqa axar su yox idi. Bu bulaqların suyu isə qala camaatına kifayət etməzdi. Ona görə, güman gələn yerlərdə quyu qazdırıb, müəyyən etdilər ki, buranın bir çox yerində su quyuları qazmaq mümkündür. Bu xəbəri mərhum Pənah xana çatdırdılar. Xan sevinərək, bir neçə nəfər öz yaxın adamı ilə buraya gəldi, yerlə tanış olub, əzmlə qalanın binasını qoydu" (Qarabağnamələr. III kitab, 131).

İbrahimxəlil xanın yaxın xidmətçilərindən olan Mirzə Vəlinin nəvəsi Baharlının yazdığı "Əhvalati-Qarabağ" əsərində Pənahəli xanın yeni paytaxt üçün yer seçməsi ilə bağlı maraqlı hadisə təsvir olunmuşdur. "Bu əhvaldan Şuşa kəndinin (söhbət Şuşa şəhərinin 6 verstliyində yerləşən

kənddən gedir) camaatı xəbərdar olub bu fikrə düşüb ki, bir iş etsinlər. Bəlkə xan gəlib bu yerdə əyləşməyə. Qorxublar ki, Pənah xandan onlara artıq zərər dəyə... Belə ki, qədim adamlar öz ata-babalarından nəql edirlər ki, bu qalanın içində üç çay var imiş. Hansı ki, bu üç dərə ola: Cəfər dərəsi və Şahbaz dərəsi və Kəngərli dərəsi və bu adları bu dərələrə qala bina olandan sonra qoyublar. Qərəz, Şuşa kəndinin adamları ki, erməni tayfasıdırlar, özlərinin canının və malının qorxusundan gəlib bu axar suların başlarında olan bulaqların təmamən gözlərin gecə ikən tutub və möhkəm basdırıblar ki, susuz olmaq cəhətinə bəlkə Pənah xan bu yerdə oturmaya, bir qeyri yerə gedə. Bu fikri-bifayda ilə həmən suları basdırıb, qurudublar" (Qarabağnamələr. III kitab. (2), 37).

Pənah xanın öz adını verdiyi yeni qalada müdafiə divarları ilə yanaşı, Xan sarayı, bazar, məscid, hamam, divanxana, pul kəsmək üçün zərbxana (burada pənahabad adlı sikkə buraxılmağa başlamışdı) da tikildi. Bundan başqa, hər bir məhəllə üçün ayrıca məscid, hamam, mədrəsə və s. inşa edilirdi. İnşaat işləri bitdikdən sonra xanlığın mərkəzi Şahbulaq qalasından Pənahabada köçürüldü. "Pənahəli xan və Qarabağın bir çox zadəganları və sənətkarları qalaya köçdülər. Tezliklə qalaya Qarabağdan və Azərbaycanın digər yerlərindən də köçüb sakin olanların sayı artdı". "Pənahabad" adı ilə məşhurlaşan yeni paytaxta başqa şəhərlərdən köçənlər məhəllə-məhəllə yerləşdirilirdilər. Bunu Pənahabad şəhərindəki küçə adları (Təbrizi, Əylisli, Qazançalı, Qurdlar, Culfalar və s.) bir daha təsdiq edir" (Azərbaycan tarixi. III, 491).

Şuşa şəhəri XVIII əsrin ortalarında meydana çıxsa da, özünün siyasi, iqtisadi və mədəni inkişafına görə bir çox Orta əsr Azəbaycan şəhərlərini qabaqladı. "Pənahəli xanın dövründə Şuşa Azərbaycanın inzibati, ticarət və sənətkarlıq mərkəzlərindən biri oldu. Şuşadan Aran vasitəsilə Ön Qafqazı İran və digər ölkələrlə birləşdirən karvan yolu keçirdi" (Z.M. Bünyadov, 535).

XVIII əsrin ikinci yarısında Azərbaycanın tarixi, mədəni və strateji əhəmiyyətə malik şəhəri sayılan Şuşa özünün xalçası, ipəyi, parçası və çini qabları ilə dünya bazarları sırasına çıxmış və bununla da böyük şöhrət qazanmışdı.

Qarabağa səfər etmiş bir çox əcnəbi (ingilis səyyahı Q. Keppel, rus qraf Platon Zubov, Vasili Potto, A. A. Kaspari və s) Şuşa qalasının uğurlu

strateji mövqedə yerləşməsi və bunun süni müdafiəyə az ehtiyac yaratdığını qeyd edir. A.A.Kaspari qalanı Yunanıstandakı Fermopil keçidi ilə müqayisə edir. 1848-ci ilin payızından 1850-ci ilin dekabrına kimi Qafqazda olmuş rəssam B. F.Timm və 1864–1865-ci illərdə Şuşada olmuş rəssam V.V.Vereşaginin çəkdikləri tablolarda Şuşa qalası, Xan sarayı təsvir olunmuşdur (Шушинский Ф.).

Pənahabad (Qala, daha sonra Şuşa) adlandırılan yeni paytaxtın təməli qoyulan gündən XIX əsrin ortalarınadək Şuşa qalasında fasiləsiz yenidənqurma və genişləndirmə işləri aparılmışdır. Pənahəli xanın vəfatından sonra onun oğlu İbrahimxəlil xan atası tərəfindən başladılan inşaat işlərini davam etdirmişdir. Azərbaycanın görkəmli şairi və İbrahimxəlil xanın vəziri Molla Pənah Vaqif şəxsən Şuşa qalasının bərpa və inşası işlərinə rəhbərlik və nəzarət etmişdir. Onun dövründə yeni məhəllələr salınmışdır. XIX əsrin ortalarında artıq şəhərdə 17 məhəllə, 1856 ev, 476 dükan, 11 küçə, 4 karvansara, 2 bazar, 7 hamam, 979 su quyusu, 6 meydan, 4 daş və iki laxta körpü, 9 məscid və 4 kilsə var idi" (Çingiz Qacar, 86).

XIX əsrin 50-60-cı illərində əhalinin sayına görə "Şuşa 19,3 min nəfər əhali ilə Şamaxı və Nuxa şəhərlərindən sonra üçüncü yerdə idi" (Azərbaycan tarixi (1), 275). Şəhərin getdikcə artan əhalisinin suya tələbatını təmin etmək üçün ata tərəfdən Pənahəli xanın, ana tərəfdən isə Gəncə xanı Cavad xanın nəticəsi olan və el arasında "Xan qızı" çağırılan şair Xurşidbanu Natəvan 1873-cü ildə öz hesabına Şuşanın yeddikilometrliyində yerləşən Sarıbaba dağından saxsı borularla Şuşaya su kəməri çəkdirir. Bu su kəməri indi də "Xan qızı bulağı" adı ilə məşhurdur. Əsas küçələrin altından daş döşənmiş tağlı kanalizasiya çəkilmişdi. Şuşa Azərbaycanın kanalizasiya sistemi olan bir neçə şəhərindən biri idi. Gecələr küçələrin işıqlandırılması neft çırağı ilə həyata keçirilirdi. Şuşa şəhəri öz daş döşənmiş küçələri, daşdan tikilmiş hündür, çoxlu pəncərələri olan evləri ilə Zaqafqaziyanın digər şəhərlərindən tamamilə fərqlənirdi.

Şuşanı qurub-yaradan, onu özlərinə paytaxt edən Qarabağ xanları onun mədəni inkişafı üçün də böyük işlər görürdülər. "Şuşada tarixi qalalar tikdirməklə bərabər, Pənahəli xan XVIII əsrin ikinci yarısında özünün saray əyanlarının və eləcə də Qarabağa gələn hörmətli qonaqların istifadə edə biləcəkləri Şərq üslubunda möhtəşəm bir kitabxana binası

tikdirmişdir. Kitabxananın fondu, əsasən, Qarabağın məscid və mədrəsələrində toplanmış, üzü köçürülmüş qiymətli əlyazmalar ilə zəngin olmuşdur.

İbrahimxəlil xanın hakimiyyəti dövründə kitabxananın fondu daha da zənginləşmiş, hətta uzaq Venesiyadan kitabxana üçün kitablar gətirilmişdir. Həmin dövrdə İbrahimxəlil xanın vəziri, dövrünün mütəfəkkir şairi Molla Pənah Vaqif də bu kitabxanadan bəhrələnmiş, sonralar burada üzünü köçürdüyü əlyazmalardan və bütün ömrüboyu topladığı əsərlərdən ibarət şəxsi kitabxanasını yaratmışdır (Azərbaycan Milli Ensiklopediyası, 306).

**Pənahəli xanın şəcərəsi**

Pənahəli xanın övladları, nəvə-nəticələri arasında incəsənətə, ədəbiyyata, mesenatlığa meyli olanlar çox idi.

İbrahimxəlil xanın qızı – Şuşanın ilk şairi **Ağabəyim ağa** (1780-1832) **Gövhər ağa İbrahimxəlil xan qızı Cavanşir** (1792-1888)**.** II Qarabağ xanı İbrahimxəlil xan Cavanşirin qızı, Azərbaycan şairi. Öz vəsaiti hesabına Hacı Yusifli məhəlləsində məscid tikdirmiş və Meydan məhəlləsində İbrahimxəlil xan tərəfindən 1769-cu ildə inşa olunmuş məscidi təmir etdirmişdir. Məscidlər şairin adı ilə adlandırılmışdır: Aşağı Gövhər ağa və Yuxarı Gövhər ağa məscidləri.

**Əhməd bəy Cəfərqulu bəy oğlu Cavanşir** (1823-1903)**.** Tarixçi, şair, Pənahəli xan Cavanşirin nəticəsi.

**Əbülfət xan Tuti İbrahimxəlil xan oğlu Cavanşir** (?-1839). II Qarabağ xanı İbrahimxəlil xan Cavanşirin oğlu, dövlət xadimi. Şair.

**Xan qızı Xurşidbanu Natəvan** (1830-1897). III Qarabağ xanı Mehdiqulu xan Cavanşirin qızı. Görkəmli Azərbaycan şairi, rəssam və xeyriyyəçi.

**Xanbikə (Fatmabikə) xanım** (1856-1921). Xan qızı Xurşidbanu Natəvanın qızı. Şair, bəstəkar.

**Mehdiqulu xan Vəfa** (1855-1900). Görkəmli Azərbaycan şairi Xan qızı Xurşidbanu Natəvanın oğlu. Çar ordusunun polkovnik-leytenantı.

**Cəfərqulu xan Məhəmmədhəsən Ağa oğlu Cavanşir** (1785-Şuşa, 1867). Azərbaycan şairi və dövlət xadimi, general-mayor.

Azərbaycan şairi **Məhəmməd bəy Behbud bəy oğlu Cavanşir** (Məhəmməd bəy Aşiq) (1800-1861). Şair.

**Əbdülsəməd bəy Məhəmməd bəy oğlu Cavanşir** (Əbdülsəməd bəy Aşiq) (1845-?). Şair.

**Qəmərnisəbəyim Ata xan qızı Əbraxanova** (Qəmər bəyim Şeyda) (1881-1933). Şair.

**Cəfərqulu xan Cavanşirin nəvəsi, Xan Şuşinski** (İsfəndiyar Aslan oğlu Cavanşir) (1901-1979). Xanəndə (12, 104-110). Xan Şuşinski həm də "Qəmərim", "Ay gözəl", "Məndən gen gəzmə", "Al yanağında", "Ölürəm, a ceyran bala" və nəhayət, Şuşaya həsr etdiyi və dillər əzbəri olan, bir növ Şuşanın himni olan "Şuşanın dağları" kimi mahnıların müəllifidir (İsmayılov İ.).

Qarabağ xanlığının sonuncu xanı Mehdiqulu xanın yeganə övladı Xurşidbanu Natəvan ( 1832-1897) bir xeyriyyəçi kimi, fəal ictimai xadim kimi, hər şeydən əvvəl xeyirxah bir insan və istedadlı şair kimi xalqın yaddaşına həkk olmuşdur. Xanəndələr onun yazdığı qəzəlləri bu günə qədər sevə-sevə oxuyurlar. Natəvan rəssamlıqla da məşğul olurdu. Muzeydə saxlanılan nəfis əl işləri, müxtəlifjanrlı bədii tikmələr onun istedadından, yüksək zövq və bacarığından xəbər verir. Qohumlar arasında Natəvana "Dürrü yekta" (tək inci) deyirmişlər – bəli, o, Şuşanın tək incisi, xanlığın son vərəsəsi idi. Natəvanın Şuşanın mədəni mərkəzə çevrilməsində bir mesenat kimi misilsiz xidmətləri olmuşdur.

## Nəticə

Şuşa şəhəri Qarabağın ayrılmaz hissəsi olaraq Azərbaycan tarixində təkrarsız iş salmışdır. İlk növbədə onun sosial, mənəvi və siyasi əhəmiyyətini qeyd etmək lazımdır.

# ƏDƏBİYYAT

Azərbaycan Prezidenti Əjdərbəy məscidinin bərpasına 3 milyon manat ayırdı //http://www.milli.az/news/society/12264.html

Величко В.Л. (1990). Кавказ. Русское дело и междуплеменные вопросы. Баку.

Qarabağnamələr. (2006). I-III kitablar. Bakı. // I kitab. Mirzə Adıgözəl bəy.

Qarabağnamələr. (2006). I kitab. Mirzə Camal Cavanşir Qarabaği. Qarabağ tarixi. Bakı.

Qarabağnamələr. (2006). III kitab. Həsən İnfa Əlzadə. Şuşa şəhərinin tarixi. Bakı.

Qarabağnamələr. (2006). III kitab. Baharlı. Əhvalati-Qarabağ. Bakı.

Azərbaycan tarixi. (2007). III cild. Bakı.

Z.M.Bünyadov və Y.B. Yusifov. (1994). Azərbaycan tarixi. Bakı.

Шушинский Ф. (1968). Шуша. — Б.: Азербайджанское государственное издательство.

Çingiz Qacar. (2019). Köhnə Şuşa. Bakı.

Azərbaycan Milli Ensiklopediyası. (2007). 25 clddə. "Azərbaycan" cildi. Bakı:.

İsmayılov İ. (2015). Azərbaycan mirvarisi Şuşa. Bakı.

*д. ф. по филологии Егяна Гарашова*

# ВЕЛИКАЯ ИСТОРИЯ ШУШИ

## РЕЗЮМЕ

В статье анализируются этапы исторического развития Шуши, происходившие здесь экономические, политические и культурно-нравственные процессы. Отмечается, что в этом году Шуше исполнится 270 лет. В XVIII веке, когда была основана Шуша, в истории Азербайджана произошли великие события: 235-летнее Сефевидское государство рухнуло в 1736 году, Афшарская империя, основанная Надир-шахом, распалась в 1747 году, спустя 11 лет, и в результате феодальной раздробленности в Азербайджане возникли ханства. В этот период на территории Азербайджана существовало 20 ханств, 6 султанатов, 5 царств и 1 община. Как известно из мировой истории, период феодальной раздробленности характеризуется войнами, которые каждый феодал вел для защиты и расширения своей территории.

Главы новых ханств занимались укреплением своих столиц. Следует отметить тот факт, что все ханства, кроме Карабахского ханства, образовались вокруг многовековых городов с крепостными стенами (например: Дербент, Баку, Гянджа, Тебриз, Ардебиль и др.). На исторической территории Карабахского княжества, являющегося одним из 4-х княжеств Сефевидского государства, образовались два ханства - Гянджинское и Карабахское. Карабахское ханство было единственным ханством без столицы. Основатель ханства Панахали бек Ибрагимхалил оглы был выходцем из племени Джаваншир, самого влиятельного из местных народов.

***Ключевые слова:*** *История Карабаха, Гянджинское и Карабахское ханства, город Шуша, Панахали бек, культура Шуши.*

*Ph.D Yegana Garashova*

## IMPORTANT HISTORY OF SHUSHA

### ABSTRACT

The article examines the stages of the historical development of Shusha as well as the economic, political, cultural, and spiritual processes that occurred here. Shusha will be 270 years old this year, according to reports. When Shusha was founded in the 18th century, great events occurred in the history of Azerbaijan: the 235-year-old Safavid state collapsed in 1736, the Afshar Empire, founded by Nadir Shah, collapsed 11 years later in 1747, and khanates arose as a result of feudal disintegration in Azerbaijan. Azerbaijan had 20 khanates, 6 sultanates, 5 kingdoms, and 1 community during this period. According to world history, the period of feudal fragmentation is marked by wars waged by each feudal lord to protect and expand his territory.

The heads of the newly formed khanates were engaged in strengthening their capitals. Except for the Karabakh khanate, all khanates were built around centuries-old cities with fortress walls (for example: Derbent, Baku, Ganja, Tabriz, Ardabil, etc.). Ganja and Karabakh khanates were formed on the historical territory of the Karabakh principality, one of the four principalities of the Safavid state. The Karabakh Khanate was the only one that did not have a capital. Panahali bey Ibrahimkhalil oglu, the founder of the khanate, was from the Javanshir tribe, the most powerful of the local peoples.

***Keywords***: *History of Karabakh, Ganja and Karabakh khanates, Shusha city, Panahali bey, Shusha culture*

# MOLLA PƏNAH VAQİFİN QARABAĞ SARAYI İLƏ BAĞLILIĞI RƏVAYƏTLƏR İŞIĞINDA

***İradə Yusifova,***
*AMEA Şəki Regional Elmi Mərkəzi*
*Folklorşünaslıq və el sənətləri şöbəsinin müdiri*
irada.yusifova@list.ru

## XÜLASƏ

Azərbaycan ədəbiyyatında gözəllik aşiqi, realist şeirin banisi kimi tanınan Molla Pənah Vaqifin həyat və yaradıcılığı müxtəlif yönlərdən geniş şəkildə araşdırılsa da, dahi şairin maraqlı və məşəqqətli həyatının izlərini özündə qoruyub-saxlayan, şairə ümumxalq sevgisindən qaynaqlanan rəvayətlərdə yaşaması, etiraf edək ki, elmi nöqteyi-nəzərdən geniş şəkildə konkret istiqamətdən tədqiq olunmamışdır. Düzdür, M.P.Vaqif haqqında yazan görkəmli ədəbiyyatşünaslar bu problemə ümumi müstəvidən laqeyd qalmayaraq, şairin həyatını rəvayətlər işığında oxucularına təqdim etmişlər. Bir çox hallarda bu məsələ sistemsiz və dağınıq məlumatlar, yaxud məhdud şəkildə oxuculara təqdim edilmişdir. Məlumdur ki, mədəniyyət beşiyi olan Şuşa ədəbi mühitinin aparıcı siması olmuş Molla Pənah Vaqifin bənzərsiz yaradıcılıq yolu özündənsonrakı ədəbi inkişafa qüvvətli təsir göstərmiş, Azərbaycan dövləti həmişə Vətən ədəbiyyatının təbliği sahəsində M.P. Vaqif yaradıcılığına böyük hörmət və ehtiramla yanaşmış, 2017-ci il ölkəmizdə "Molla Pənah Vaqif ili" kimi qeyd edimiş, şairin anadan olmasının 300 illik yubileyi ilə əlaqədar möhtəşəm tədbirlər, konfranslar keçirilmiş, şairin yaradıcılığı ədəbiyyatşünaslıq və folklorşünaslıq elmlərinin çərçivəsində dəyərləndirilmişdir. Qeyd etməyi vacib bilirik ki, şairin folklor görüşləri ilə əlaqədar yazılan məqalələr sırasında onunla bağlı yayılan rəvayətlərə də yer verilmiş, filologiya elmləri doktoru Almaz xanım Həsənqızı "Molla Pənah Vaqifin rəvayətlərdə yaşayan şəxsiyyəti" adlı maraqlı məqalə ilə çıxış etmişdir. Məqalə tələblərindən irəli gələn həcm imkanları yol vermədiyindən, müəllif şairə ümumxalq sevgisindən doğan rəvayətlərin hamısını bir məqalədə ver-

mək imkanına malik olmadığına görə, fikirlərini konkret və olduqca maraqlı şəkildə vaqifsevərlərə çatdırmışdır. Bu mövzuya müraciətimiz məhz bu sahədə olan boşluğu doldurmaq məqsədi daşıyır.

***Açar sözlər**: Molla Pənah Vaqif, rəvayət, İbrahim xan, Gəncə, Qarabağ Xanlığı.*

**Giriş**

Folklorşünasığa dair nəzəri fikir öyrədir ki, epik folklorun geniş yayılmış janrlarından olan rəvayətlər tarixi şəxsiyyətlərlə bağlı olub, onların tanınmasında mühüm rol oynayır. M.P.Vaqif haqqında da yayılan rəvayətlər məhz böyük şairin həyat və fəaliyyətinin müxtəlif tərəfləri ilə bağlı olmuşdur. Ədəbiyyat tariximizin səhifələrindən məlumdur ki, M.P.Vaqifin poeziyasının məzmun yükü haqqında ilk dəfə dahi M.F.Axundzadə söz açmışdır. Sonra isə XX əsrin əvvəllərində sistemli ədəbiyyatşünaslıq elmimizin yaradıcısı Firidun bəy Köçərli özünün "Azərbaycan ədəbiyyatı" əsərinin I cildində "Molla Pənah "Vaqif" təxəllüs" adlı genişhəcmli məqalə ilə çıxış etmiş, şairin həyatının rəvayətləşmiş tərəflərini sistemli şəkildə diqqətə çatdırmışdır. Dahi Firidun bəydən sonra, uzun illər Vaqif yaradıcılığının öyrənilməsi sovet ideologiyasının səhv təbliğatı nəticəsində kölgədə qalmış, ancaq 1960-cı illərin ortalarında görkəmli ədəbiyyatşünas Araz Dadaşzadə şairin həyat və yaradıcılığını konkret istiqamətdən tədqiqata cəlb etmişdir. Tədqiqatın şairin həyatı ilə bağlı hissəsində alim M.P.Vaqifin həyatı ilə bağlı rəvayətlərə yer verməklə, hətta Firidun bəyin bu sahədəki qaranlıq fikirlərinə aydınlıq gətirmişdir. Akademik Həmid Araslı M.P. Vaqifin xalqa bağlı yaradıcılığını dəyərləndirərək yazmışdır: *"Vaqif yaradıcılığı lirik poeziyanın artıq inkişaf yolu keçib formalaşmaqda olduğu bir dövrə təsadüf edir. Vaqif isə formalaşmaqda olan lirik şeri yeni realist inkişaf yoluna salaraq, onu xalq ruhuna, xalq zövqünə yaxınlaşdırmış, özünəqədərki fərqli bir yola istiqamətləndirmişdir"* (Molla Pənah Vaqif , 2004, 6). Akademik Nizami Cəfərov Molla Pənah Vaqifi, haqlı olaraq, yaşadığı dövrün, mühitin övladı kimi xarakterizə edərək yazır: *"M.P.Vaqif öz-özlüyündə (təbiətən) istedadlı, müdrik olsa da, onun şəxsiyyəti, ümumiyyətlə, dövrün, mühitin tarixi reallığının məhsuludur ki, böyük şairin, dövlət xadiminin*

*yaşadığı həmin dövr Azərbaycanda milli intibah dövrü, mühit isə milli intibah mühiti idi"* (Cəfərov Nizami 2017, № 2-3).

**Molla Pənah Vaqifin həyatına dair rəvayətlər ədəbiyyatşünasların qələmində**

"Vaqif və rəvayətlər" polemikasında, fikrimizcə, ən mühüm yeri sadə bir kəndli balası olan Vaqifin İbrahimxəlil xanın sarayına necə düşməsi məsələsi tutur. Biz araşdırmamızda bu xətti əsas götürərək problemi çözmək fikrindəyik. Məlumdur ki, M.P. Vaqifin həyatı ictimai-siyasi mühit kontekstində nəinki ədəbiyyatşünaslar, hətta tarixçilər tərəfindən də qələmə alınmışdır. Bu barədə H.Qaradağinin "Təzkirə"sində, Pzaqulu bəyin "Sərgüzəşti-Vaqif"ində, Mirzə Camalın "Qarabağ tarixi"ndə, Mirzə Adıgözəl bəyin "Qarabağnamə"sində maraqı rəvayətlər diqqəti çəkməkdədir.

Vaqifin Qarabağ sarayına gəlməsi ilə bağlı Rzaqulubəyin söylədiyi rəvayət diqqətəlayiqdir. O qeyd edir ki, Vaqif Şuşada olarkən bir çox adamlar ilə yaxınlıq edib, ülfət qılıbmış. Onlardan biri İbrahim xanın yaxın adamı, sarayda mötəbər şəxs Mirzə Vəli Baharlı imiş" (Adolf Berje 1968, № 3; Dadaşzadə Araz 1966, 48). Tədqiqatçı Araz Dadaşzadə fundamental əsərində M.P. Vaqifin şəxsi bacarıqları sırasında münəccimlik keyfiyyətini diqqətə çatdırır: *"Vaqif ayın tutulmasını və zəlzələni qabaqcadan xəbər verərkən heyran qalmış Baharlı bu əhvalatı İbrahim xana danışır. İbrahim xan Vaqiflə şəxsən görüşüb, onun kamalını qiymətləndirir və, nəhayət, saraya gətirdir"* (Dadaşzadə Araz 1966, 48). Firidun bəy Köçərli Vaqifin İbrahim xanın sarayına gəlməsinin səbəbini isə öz əsərində aşağıdakı rəvayətlə bağlayır: *"İbrahim xanın bir nəfəri onun yaxın dostu imiş (Fikrimizcə, Rzaqulubəyin də qeyd etdiyi kimi, bu şəxs yuxarıda adıçəkilən Mirzə Vəli Baharlı olmuşdur. Nədənsə Firidun bəy bu şəxsin adını qeyd etməmişdir – İ.Y.) və xanın sarayında olan əhvalatdan həm də Molla Pənaha söylərmiş. Molla Pənah artıq həvəs və diqqətlə haman əhvalata və xandan sadiq olan hökm və əmrlərə qulaq asarmış. Bir dəfə xanın bir şikayətçiyə etdiyi ziyadə biməzmun və gülünc binagüzarlığını Molla Pənah eşidib, öz xəyalından keçirir ki, mən tezlik ilə gərəkdir xana müdəbbir və məsləhətçi olam. Və bihəqiqətə çox çəkmir ki, Molla Pənahın tərif və tövsifi xanın qulağına çatıb, onu hüzuruna dəvət eləyir və xan mollanın elmü kəmalına və adabu əxlaqına diqqət yetirəndən sonra onu bəyənib, eşikağası mənsəbini ona verir"* (Köçərli 2005, 128).

M.P. Vaqifin Qarabağ sarayına düməsi ilə bağlı Firidun bəy Köçərli digər maraqlı bir rəvayəti də diqqətə çatdırır. O yazır: *"Molla Pənahın Qarabağa düşməsi ilə bağlı özgə bir rəvayət də budur ki, Molla Pənah Daşsalahlıda məşhur Şəfi Əfəndidən elm təhsil edir imiş. Daşsalahlıda molladan bir xəta üz verməyə görə, orada artıq qala bilməyib gedir yaylağa. Çün o vaxtı yay mövsümü imiş....El dağdan enəndə Molla Pənah vətəninə qayıtmayıb. Gəncə tərəfə azmış olur və orada şah Abbas məscidinin canibindəki hücrələrin birisində özünə sığınacaq tapıb yenə başlayır təhsili-elmə məşğul olmağı. Bu heyndə Qazax mahalından olan bir qarının oğlu Cavad xanın əmri ilə Gəncədə dustaq imiş. Arvad məscidə gəlir ki, xana ərizə yazdırıb versin, taki xan onun oğlunu azad eləsin. Molla Pənah qarının ərizəsini yazıb verir və ona bərk tapşırır ki, xan soruşsa, deməsin ki ərizəni kim yazıbdır.*

*Qarının ərizəsi Cavad xana ziyadə xoş gəlir və ondan soruşur ki, bunu kim yazıbdır. Qarı əvvəlcə cavab vermir. Amma xan təkid edəndən sonra Molla Pənahı nişan verir. Xan mollanı hüzuruna çağırıb, ondan soruşur ki, bu ərizəni sənmi yazırsan?. Molla cavab verir ki, bəli mən yazmışam. Xan ona tapşırır ki, bundan sonra mənə hər nə ərizə yazılsa, tamamını sən yaz və hər birinə də bir qızıl qələm-haqqı al və Molla Pənah da bu sayaq edirmiş. Bir neçə vaxtdan sonra İbrahim xan Gəncəyə Cavad xanın mülaqatına gəlibmiş. Burada İbrahim xan Cavad xandan bir qabil mirzə təmənna edir. Cavad xan Molla Pənahın elm və məharətini ona tərif edib, öz qonağına mirzə verir. İbrahim xan xoşhallıq ilə onu qəbul edib, özü ilə Qarabağa aparır, orada özünə ən müqərrəb şəxslərdən biri edir"* ( Köçərli 2005, 129).

Bu maraqlı nümunənin el arasında digər variantı da dolaşmaqdadır ki, orada Cavad xan Vaqifin qarıya yazmış olduğu ərizəni oxuduqdan sonra ərz edir ki, bu ərizəni kim yazıbsa üzə çıxsın, ona ərizənin hər sözünə bir qızıl verirəm. Həmçinin nümunənin məzmununda qeyd edilmişdir ki, Qarabağ xanı İbrahim xanın şənində özünə başucalığı gətirmək üçün Vaqifi ona mirzə kimi bağışlamışdı. Göründüyü kimi, Firidun bəyin qələmə aldığı rəvayətdə bu məsələlər verilməmişdir. İnternet səhifələrində şairin *(Molla Pənah Vaqif nəzərdə tutulur – İ.Y.)* Qarabağ Xanlığına pənah gətirməsi və saraya cəlb edilməsi ilə bağlı maraqlı rəvayətlər silsiləsi diqqəti cəlb edir. Göstərilir ki, bir gün Qarabağ hakimi İbrahim xan öz dəstəsi ilə ovdan qayıdarkən yolda çobanlara rast gəlir. Çobanların yanındakı zorba bir itin boynundakı dəri bükmə və gözmuncuğu xanın nəzərini cəlb edir və atı saxlayır:

– A bala, o itin boynundakı nədir?

Çoban cəld cavab verir:

– Xan sağ olsun, duadır, göz dəyməsin deyə yazdırmışam.

İbrahim xan təəccüblənir, əhvalı dəyişir. Xanı başa düşməyən çoban iti tərifləyir…

– Bəs duanı harada yazdırmısan?

– Şişə qalasında.

Bərk əsəbiləşən xan xilafi-şər iş görən, dini ələ salan mollanı cəzalandırmaq məqsədilə çobanı iti ilə birlikdə Şişəyə apartdırır. Axtarıb dua yazan mollanı tapırlar və xanın hüzuruna gətirirlər. İbrahim xan diziüstə qarşısında əyilmiş mollaya qəzəblənir:

– Quran sənə qənim olsun, nə cürətlə dinimizi ələ salıb, itə dua yazırsan?

– Xan sağ olsun, əgər siz buyuranlar doğru isə, boynum vurulsun. İtin boynundakı dua deyil, bir məzahdır, çobanla zarafat etmişəm.

– Necə yəni məzahdır?

Molla ürəklənir:

– Xan, qalaların təbiətinə bələdsiniz. Kimsə çobanı öyrədir ki, belə pəncəli köpəyə dua yazdırmasan göz dəyər, tez ölər. Çoban da sürüsündən iki qoyun götürüb şəhərə gəlir, dua yazan axtarır… Onu müxtəlif yerlərə göndərirlər. Qəssab əttara, əttar baqqala, baqqal çaqqala, çaqqal da mənim üstümə. Mən də camaatın kələyini duyub, dua əvəzinə bir məzah yazdım.

Xan itin boynundakı bükməni açdırır və saralmış kağızda yazılanları oxutdurur:

*Gözüm düşdü ətinə,*
*Dua yazdım itinə.*
*Həmin sirri kim açsa,*
*Bu çobanın…*

Xan gülümsəyir. Mollanın özünü sərbəst aparması, hazırcavablığı xoşuna gəlir, özünə mirzə götürür, saraya gətirir. Həmin molla məşhur şair Vaqif imiş...

Vaqifin İbrahim xanın sarayına gəlməsi haqqında başqa bir rəvayət belə nəql edilir: "Vaqif Tərtərbasardan Şuşaya gəlir. Şəhərin Saatlı məhəlləsində məktəb açır. Öz savadı və uzaqgörənliyi, şirin şeirləri ilə tez zamanda ətrafdakıların hörmətini qazanır.

Novruz bayramı günü münasibətilə şairin yazdığı məşhur "Bayram oldu" şeiri əl-əl gəzib, axırda İbrahim xana çatır. Xan şeri oxutdurur:

*Bayram oldu, heç bilmirəm neyləyim,*
*Bizim evdə dolu çuval da yoxdur.*
*Dügiylə yağ, hamsı çoxdan tükənmiş,*
*Ət heç ələ düşməz, motal da yoxdu*
(Molla Pənah Vaqif 1988, 82).

Şeirin məzmunu xana ağır təsir bağışlayır. Əhalinin pis dolanışığı onu düşündürür. Şeirin müəllifinin tapılıb saraya gətirilməsini əmr edir. Molla Pənah xanın fərraşları tərəfindən saraya gətirilir. Xan onun hazırcavab, zirək və istedadını görüb saraya dəvət edir.

## Molla Pənah Vaqifin həyatı şifahi və yazılı bədii düşüncədə

İnternet səhifələrində özünə yer alan M.P.Vaqiflə bağlı maraqlı rəvayətlərdən biri Qacar – Vaqif konfliktinin əsası olan Qacarın İbrahim xanı ələ salması ilə bağlı ondan rəngsiz at istəməsidir. Rəvayətdə söylənilir: "Ağa Məhəmməd şah Qacar Şuşanın mühasirəsi vaxtı İbrahim xana məktub yazaraq, ona bir at göndərməsini tələb edir. Lakin bu at nə kəhər, nə kürən, nə səmənd, nə qara, nə ağ, yəni heç bir rəngdə olmamalı idi. Çarəsiz qalan İbrahim xan Vaqifə müraciət edir. Vaqif Ağa Məhəmməd şaha belə bir cavab yazır: "İstədiyiniz at xan tövləsində hazırdır. Adam göndərin, aparsın. Lakin həmin adam həftənin şənbə, bazar ertəsi, çərşənbə axşamı, çərşənbə, cümə axşamı, cümədən başqa hansı günündə istəyir gəlsin" (http:// senet.az). Dahi şairimiz Səməd Vurğun bu el ədəbiyyatı nümunəsinin məzmununu Qacarın işğalçılıq siyasətinə nifrət əlaməti olaraq bədiiləşdirərək, şairin cavabını oxucularına aşağıdakı kimi təqdim etmişdir:

*Aldıq məktubunu, Məhəmməd Qacar,*
*Tərlan oylağında sar ola bilməz.*
*Bu dünya qamamış ulu şahlara,*
*Zülm də, zalım da var ola bilməz*
(Səməd Vurğun 2005, 73).

Şairin məşəqqətli həyatının rəvayətləşmiş səhnəsi olmuş Şuşa şəhəri işğal olunduqdan sonra Qacarla üzləşməsi Vaqifin müqəddəsliyi ilə bağlı maraqlı bir faktı ortaya qoyur. Tarixi gerçəklikdir ki, 1797-ci ildə Ağa Məhəmməd şah Qacarın qoşunları aclıqdan taqətdən düşmüş Şuşaya daxil olurlar. İbrahim xanın yaxın adamları tutulur, Vaqif də həmçinin. Söylənilənlərə görə, şair yolda dustaq yoldaşı Sofi bəyə deyir:

– Mən nə şahın üzünü görəcəyəm, nə də qətl ediləcəyəm. Səni bilmirəm.

O gün cümə axşamı imiş. Qacar qatı dindar olduğu üçün cümə axşamı qan tökməyi günah sayır və deyir:

– Sabah elə bir siyasət eləyim ki, tarixlərdə deyilsin. Bir minarə qurduracağam, şair Molla Pənahın da başı lap yuxarılarda asılsın. Gedin dəmirçilərə deyin, minarə üçün çoxlu mıx qayırsınlar!..

Vaqif saraya gətiriləndə qüruba bir və ya iki saat qalıbmış. Sərkeşbaşı Məhəmmədhüseyn xan Vaqifi qapıda əlibağlı görüb soruşur:

– Bu kimdir?

Cavabında deyirlər:

– Bu, həmin Molla Pənahdır ki, eşidibsiniz.

Həmin dəm sərkeşbaşı Vaqifə nalayiq söyüşlər yağdırır:

– Ay pədərsüxtə! Qoca köpək!

Vaqif ləyaqətinin tapdalanmasına yol verməyərək, qürurla sakitcə cavab verir:

– Ey xan, siz şəxsi-dövlətsiniz, dəstgir və giriftarlara yaman gəlmələr, hədyan sözlər buyurmaq sizin rütbə və məratibinizə şayistə deyil…

Lakin Məhəmmədhüseyn xana bu sözlər zərrəcə təsir göstərmir. O, Vaqifi yenə təhqir edir. Vaqif isə soyuqqanlılıqla onun cavabını verir:

– Ey xani-nanəcib! Mən əgər dustağəm, dustaği-şahəm, sən nəçisən ki, mənə bir zərrəcə acib yetirə biləsən. Həmin bu cür rəftar məhz sənin nanəcib və naqabilliyinə nişanədir! Bəlkə şah sabah məni azad edəcəkdir

və ya fələyi-kəcrəftar və təqdiri-pərvərdigar bəlkə qeyri bir yol gedəcəkdir. Gecə hamilədir, kim bilir sabah nə doğacaq.

Məhəmmədhüseyn xanın göstərişi ilə Vaqifi zindana salırlar.

Molla Pənah gecəyarısı zindanbandan soruşur:

– Şəhərdə təzə bir əhvalat və şuriş yoxdur?

O cavab verir ki, bir şey bilmir. Şairin gözünə yuxu getməyib, sübh tezdən yenə zindanbandan soruşur:

– Şəhərdə nə xəbər var?

Zindanböyüyü bu səfər də Molla Pənahın ürəyini sakit edə bilməyib cavab verir ki, o, bir xəbər eşitməyibdir.

Amma çox keçmir ki, Ağa Məhəmməd şahın qətlə yetişmək xəbəri şəhərə yayılır. Dəmirçilərə xəbər gəlir ki, mıx lazım deyil, şahın cənazəsi üçün bir neçə mismar lazımdır. Baş dəmirçi üzünü göyə çevirib deyir:

– Ey mıxı mismara döndərən Allah…

Dustaqlıqdan azad olan Vaqif də öz əziz dostu şair Vidadiyə məşhur "Ey Vidadi gərdişi-dövrani kəcrəftara bax" rədifli qəzəlini yazır…".

Bu rəvayətin məzmunu Ağa Məhəmməd şahın sarayının qulluqçularından olmuş "Qarabağın sirləri" əsərinin müəllifi Abraham Beknazaryans tərəfindən təhrif olunmuşdur. Onun oğlu Apresiyə diktə etdiyi sərsəmləmələrinə görə, guya Vaqif Ağa Məhəmməd şahın öldürüləcəyini bildiyi üçün zindanbaşıdan tez-tez şəhərdə nə baş verdiyini soruşurmuş. "Qarabağın sirləri" əsərində Vaqif mötəbər şəxsiyyət kimi xatırlansa da, şairə qarşı yönəlmiş erməni hiyləsi açıq-aşkar diqqəti cəlb edir. Vaqifin fundamental araşdırıcısı Araz Dadaşzadənin Beknazaryansın "Qarabağın sirləri" kitabına istinadən vermiş olduğu qeydlər bu baxımdan diqqətçəkicidir. Guya Səfərəli bəyə gecə yatağında Qacarın öldürülməsi sifarişini Vaqif vermiş, bunun müqabilində ona bir yeşik qızıl vəd edərək demişdir: "Səfərəli bəy, sən bir nəfəri öldürməklə, min-min təqsirsiz adamı xilas edirsən" ( Dadaşzadə Araz 1966, 76).

M.P.Vaqifin oğlu Qasım ağa ilə birlikdə öldürülməsi haqqında verilmiş məlumatlar nə qədər təəssüfdoğurucu olsa da, yenə də rəvayət olaraq qalır. Həmin rəvayətlərdə söylənilir ki, 1797-ci ildə Ağa Məhəmməd şah Qacar Şuşada öldürüldükdən sonra hakimiyyət İbrahim xanın qardaşıoğlu Məhəmməd bəy Cavanşirin *(Məhəmməd bəy Cavanşir Mirzə Cəlilin*

*üçüncü həyat yoldaşı olmuş Həmidə xanımın babası olmuşdur. Həmidə xanım həmin Məhəmməd bəy Cavanşirin oğlu Əhməd bəy Cavanşirin qızıdır – İ.Y.)* əlinə keçir. Məhəmməd bəy İbrahim xanın ən yaxın adamlarını, o sıradan Vaqifi və oğlunu həbsə aldırır.

…Molla Pənahı oğlu Qasım ağa ilə qətlgaha apartdırmışdır. Qətlgah isə Cıdır düzünün qurtaracağındakı Xəzinə qayası idi. Bura dəhşətli və sıldırım bir qayadır ki, oradan müqəssirləri xanın hökmü ilə aşağı atırmışlar. Yolda Molla Pənah qətlgaha aparıldıqlarını anlayır. O, duyduğunun həqiqət olub-olmamasına inanmaq üçün təngnəfəs halda oğlundan soruşur:

– Qasım ağa, bizi hara aparırlar?

Oğlu sərzənişli sözlərlə cavab verir:

– Ağa, bir çoxlarını sən bu yolla göndərmisən, indi də bizi həmin yolla ora aparırlar!

Vaqif Cıdır düzünə çıxan bir yamacda yerə oturur. Onda ürəyilə getməyə taqət qalmır. Cəllad bir-iki dəfə qolundan dartırsa da, yerindən qaldıra bilmir. Vaqif zəif, lakin qürurlu səslə deyir:

– Nə eləyəcəksinizsə, elə burada eləyin, heç yerə getməyəcəyəm!

Cəlladlardan biri qəməsini çıxarıb Qasım ağaya yaxınlaşdıqda, Vaqif yalvarır:

– Amandır! Əvvəl məni! Mənə oğul dağı göstərməyin!

Cəlladlar şairə qulaq asmayıb, əvvəl oğlunu, sonra da özünü öldürürlər. Rəvayətin məzmununun reallıqla bağlılığının nə dərəcədə düzgün olduğunu söyləməkdə aciz olsaq da, qəti şəkildə o fikri ifadə edirik ki, M.P.Vaqif İbrahim xanın sarayında yalnız xalq mənafeyi naminə yaşamış, günahsız insanları xanın qəzəbindən qorumuşdur. Dahi Səməd Vurğun şairin xəlqi ruhunu "Vaqif" pyesində dostu Vidadinin Vaqifi xalqdan uzaq düşüb sarayda yaşamaqda günahlandırdığı zaman, Vaqifin dilindən verdiyi aşağıdakı fikirlərlə təsdiqləmişdir:

*Mən orda olmasam qan çıxar dizə,*
*Quşlar da ağlayar ellərimizə.*
*Xan məndən utanır, çəkinir bir az,*
*Mən getsəm qırğının hesabı olmaz*

(Səməd Vurğun 2005, 82).

M.P. Vaqifə olan ümumxalq sevgisinin nəticəsidir ki, şairin zəngin həyat və fəaliyyətini əks etdirən "Vaqif" dastanı formalaşmışdır.

**Nəticə**

Nəticə etibarilə qeyd edə bilərik ki, M.P.Vaqifin saray həyatı ilə bağlılığı, diqqətə çatdırdığımız rəvayətlərin məzmunundan da göründüyü kimi, ikinci bir tərəfin təqdimatı ilə olmamış, şairin bilavasitə şəxsi qabiliyyəti, elmi, zəkası, fitri istedadı ilə əlaqədar olmamışdır. Nümunə kimi verdiyimiz hər bir rəvayətdə şairin xalq tərəfindən izlənilən zəngin biliyi, elmi dünyagörüşü öz təcəssümünü tapmış, onu xalqa sevdirmişdir. Tədqiqatçı alim Almaz Həsənqızı çox doğru olaraq yazmışdır ki, "Əgər Vaqif haqqında təzkirələrdə, Qarabağ tarixinə dair əsərlərdə – "Qarabağnamə"lərdə bu və ya digər dərəcədə dəyərli məlumatlar olmasaydı belə, onun həyat yolunu yaradıcılığı əsasında kifayət qədər aydın şəkildə təsəvvür etmək olardı". Təsadüfi deyil ki, böyük şəxsiyyətin başına gələn əhvalatlardan bəhs edən nəinki ədəbiyyatçılar, hətta tarixçilər də həmin əhvalatların məzmun-mündərəcəsini daha mükəmməl çatdırmaq üçün məhz ayrı-ayrı şeirlərinə müraciət etməli olmuşlar. Təhlillərdən göründüyü kimi, şairin Qarabağ Xanlığı ilə təmasını əks etdirən rəvayətlərin bədii ilmələri onun əsərlərində və şairin obrazını özündə əks etdirən Yusif Vəzir Çəmənzəminlinin "Qan içində" (və ya "İki od arasında") romanında, Səməd Vurğunun "Vaqif" dramında və bir sıra digər ədəbi yaradıcılıq məhsullarında öz əksini tapmışdır. Fikrimizcə, Molla Pənah Vaqifi yaxşı tanımaq üçün bu söylənilən mənbələrlə yanaşı, onunla bağlı yaranan rəvayətlər də diqqətdə saxlanılmalıdır.

Beləliklə, Molla Pənah Vaqif Azərbaycan ədəbiyyatında özünəməxsus mövqeyi olan bir söz ustadı, ən əsası,xalqının qüdrətli və sevimli şairidir.

## ƏDƏBİYYAT

Azərbaycan ədəbiyyatı tarixi. (2004). 6 cilddə, I c., Bakı: Elm, (699 s.).

Берже Adolf. (1968). Несколько слов о Закавказских мусульманских поэтах, газ. «Кавказ», №3.

Cəfərov Nizami. (2017). Vaqifin dövrü, həyatı, dünyagörüşü, "Azərbaycan" jurnalı, sayı 2-3.

Dadaşzadə Araz. (1966). Molla Pənah Vaqif: həyat və yaradıcılığı, Bakı, (189 s).

Köçərli Firidun. (2005). Azərbaycan ədəbiyyatı.İki cilddə. I Cild. Bakı: Avrasiya – Press. (560 s.).

Səməd Vurğun. (2005). Seçilmiş əsərləri. Beş cilddə. IV Cild. Bakı: Şərq-Qərb, (400 s.).

Vaqif Molla Pənah. (1968). Əsərləri, (tərtib edən: H.Araslı), Bakı: Azərnəşr.

Vaqif Molla Pənah. (2004). Əsərləri, (tərtib edən: H.Araslı), Bakı: Şərq-Qərb.

Vaqif Molla Pənah. (1988). Əsərləri. ( Şeirlər). Bakı: Yazıçı, (192 s.).

http:// senet.az

*Ирада Юсифова*

## СВЯЗЬ МОЛЛЫ ПАНАХА ВАГИФА С КАРАБАХСКИМ ДВОРЦОМ В СВЕТЕ ПРЕДАНИЙ

### РЕЗЮМЕ

Хотя жизнь и творчество Моллы Панаха Вагифа, известного в азербайджанской литературе как эстета и основоположника реалистической поэзии, широко изучены с разных сторон, но следует признать, что трудная и интересная жизнь поэта, отраженная в

преданиях, сохранивших следы этой жизни и являющихся плодом народной любви к поэту, не исследована детально в конкретном направлении с научной точки зрения. Правда, видные литературоведы, писавшие о М.П.Вагифе, не остались равнодушными к этой проблеме и представили своим читателям жизнь поэта в свете преданий. Однако в большинстве случаев этот вопрос представляется читателям бессистемно и разрозненно, либо ограниченно. Известно, что уникальный творческий путь М.П. Вагифа, лидирующей личности в литературной среде Шуши-колыбели культуры, оказал сильное влияние на литературное развитие поэта. Азербайджанское государство всегда высоко ценило творчество М.П. Вагифа в сфере пропаганды национальной литературы. 2017-й год был отмечен в нашей стране как «Год Моллы Панаха Вагифа», по случаю 300 – летия со дня рождения поэта были проведены знаменательные мероприятия и конференции, творчество поэта было оценено в ракурсе литературоведения и фольклороведения. Следует отметить, что среди статей о фольклорных взглядах поэта, имеются и предания о поэте. Доктор филологических наук Алмаз ханым Гасан кызы написала интересную статью под названием «Личность Моллы Панаха Вагифа, живущая в преданиях». В связи с тем, что возможности объема, вытекающие из требований статьи, не позволяли и автор не обладал возможностью изложения всех преданий, являющихся плодом народной любви к поэту, в одной статье, она довела свои мысли до любителей Вагифа в конкретной и очень интересной форме. Наше обращение к этой теме несет в себе цель устранить этот пробел в этой области.

***Ключевые слова:*** *Молла Панах Вагиф, предание, Ибрагим хан, Гянджа, Карабахское ханство.*

*Irada Yusifova*

# THE CONNECTION OF MOLLA PANAH VAGIF WITH THE KARABAKH PALACE IN THE LIGHT OF LEGENDS


## ABSTRACT

Although the life and work of Molla Panah Vagif, known in Azerbaijani literature as a lover of the beautiful and the founder of realistic poetry, have been widely studied from different angles, the specific direction has not been studied thoroughly and scientifically. True, prominent literary scholars who wrote about Molla Panah Vagif did not ignore this problem from a general point of view and presented their readers with the life of the poet in the light of legends. However, in most cases, this issue is presented to readers in an unsystematic and fragmented, or in a limited way. It is well known that the unique creative path of Molla Panah Vagif, the major figure of the Shusha literary environment, the cradle of culture, had a strong influence on the subsequent literary development. Vagif's work was treated with great respect; 2017 was designated as the "Year of Molla Panah Vagif" in our country, with large events and conferences commemorating the poet's 300th anniversary, and the poet's work was recognized in the fields of literature and folklore.'

It is important to note that among the articles written about the poet's folklore gatherings, there are legends about the poet, Almaz Khasangizi, Doctor of Philology, made an interesting article entitled "Personality of Molla Panah Vagif, living in legends." The author specifically and very interestingly conveyed his thoughts to the lovers of Vagif, as he could not state all the legends of folk love in one article due to the volume of possibilities arising from the requirements of the article. Our appeal to this topic is aimed at filling a gap in this area.


**Keywords:** *Molla Panah Vagif, legend, Ibrahim Khan, Ganja, Karabakh Khanate*

# ŞUŞA ƏDƏBİ-MƏDƏNİ MÜHİTİ KAMRAN MƏMMƏDOVUN TƏDQİQATLARINDA

***Könül Hüseynova,***
*Odlar Yurdu Universitetinin baş müəllimi,*
*AMEA Nizami Gəncəvi adına*
*Ədəbiyyat İnstitutunun doktorantı*
konul1771@ mail.ru

## XÜLASƏ

Məqalədə Şuşa ədəbi-mədəni mühitinə məxsus səciyyəvi cəhətlərə toxunulur, zəngin fakt və materiallara istinad edilməklə Cənubi Qafqazın mədəniyyət beşiyi olan qala-şəhərin coğrafi mövqeyi, memarlıq abidələri, xüsusən qaynar ədəbi mühitinə bənzərsiz məziyyətlər gətirən yaradıcılıq ab-havası təhlil müstəvisinə çıxarılır. Qarabağın mərkəzi əyalətlərindən biri kimi Şuşada formalaşan ədəbi mühitin aparıcı simalarından olan Qasım bəy Zakir, Xurşidbanu Natəvan, Nəcəf bəy Vəzirov, Əbdürrəhim bəy Haqverdiyev, Üzeyir Hacıbəyov, Yusif Vəzir Çəmənzəminli kimi müqtədir qələm sahiblərinin həyatı, yetişdiyi ədəbi-mədəni mühit Əməkdar elm xadimi, professor Kamran Məmmədovun monoqrafiyalarında, elmi tədqiqatlarında sistemli şəkildə tədqiqi məsələləri əsas araşdırma hədəfi seçilir.

Ədəbi-mədəni mühitin yaradıcı şəxsiyyətin formalaşmasında, sənətkar fərdiyyətinin yetkin səviyyəyə gəlişməsində müstəsna rolu məsələsi professor Kamran Məmmədovun tədqiqxarakterli məqalələrindən başlayaraq, irihəcmli monoqrafik araşdırmalarınadək sistemli şəkildə izlənilir. Belə təhlil və tədqiq marağı Azərbaycan cəmiyyətindəki, xüsusən onun tarixi-coğrafi bir ərazisi olan Şuşadakı ictimai-siyasi, sosial-iqtisadi mənzərə barədə əyani təsəvvür yaradır.

Ədəbi məclislərə, kütləvi mədəni tədbirlərə ev sahibliyi edən Şuşanın ətraf bölgələrdən, yaxın-uzaq ölkələrdən gələn səyyahlara, elm, sənət

adamlarına öz mehriban qucağını açması, şəhər-qalanın tarixinə, bənzərsiz təbiətinə hüsn-rəğbət oyatması da diqqət mərkəzinə çəkilmişdir.

Şuşada XIX-XX yüzilliklərdə baş verən ağır iqtisadi-sosial tənəzzül və onun sadə insanların güzəranına gətirdiyi məhrumiyyətlər, rus çarizminin və onun əlaltıları olan yerli məmurların, əyanların özbaşınalıqları ədəbi etiraz və protest kimi satirik təmayülün gündəmə gətirilməsinə münbit zəmin yaradır. Bu ictimai-siyasi amilləri şərtləndirən müddəalar professor Kamran Məmmədovun elmi-nəzəri irsində fəal mövqeyə çıxarılması təcrübəsi prioritet elmi istiqamət kimi təhlilə yönəldilir.

***Açar sözlər:*** *ədəbi mühit, mədəni mərkəz, Şuşada mədəni həyat, ədəbi məclis, Qarabağnamələr, satirik təmayül.*

**Giriş**

Şuşa Azərbaycanın özünəməxsus bənzərsiz təbiəti, memarlıq abidələri, o cümlədən fəal, yaradıcı ictimai-ədəbi-mədəni mühiti ilə seçilən mədəniyyət mərkəzlərindən biridir.

Əsası 1750-ci ildə Qarabağ xanı Pənahəli xan tərəfindən qoyulan qala-şəhər Qarabağın, o cümlədən Cənubi Qafqazın inzibati ərazi vahidlərindən hesab olunurdu. Şərq memarlığının zəngin elementlərindən və ornamentlərindən geniş istifadə olunan şəhər-qala özünün müdafiə-istehkam məqsədi daşıyan giriş qapıları (qala qapıları), qala divarları, səyyahlar üçün nəzərdə tutulan karvansaraları, dini etiqad və ayinlərin icrası məqsədilə inşa olunan Saatlı və Aşağı, Yuxarı Gövhər ağa məhəllədaxili məscidləri bu tarixi-memarlıq komplekslərini üzük qaşı kimi çevrələmiş füsunkartəbiətli Şuşaya xüsusi gözəllik gətirirdi.

Şuşanın 1992-ci il may ayının 8-də erməni təcavüzü nəticəsində işğala məruz qalması, tarixi şəhər-qalanın düşmən əlinə keçməsi Azərbaycan tarixinin ən faciəli səhifələrindən biridir. Zaman-zaman düşmən təcavüzünə məruz qalan Şuşa bu dəfə milli xəyanət nəticəsində yağı əlinə keçdi, şəhər sakinləri doğma yurd-yuvalarından zorla çıxarıldı, pərən-pərən salındılar. Yurd həsrəti ilə yaşayan şuşalılar iyirmi səkkiz il yarım qaçqın-köçkün həyatı yaşamaq məcburiyyətində qaldılar.

44 günlük İkinci Qarabağ müharibəsi zamanı Müzəffər Ordumuzun erməni işğalından azad etdiyi Şuşa xalqımızın milli-mənəvi dəyərlərini, əzəmət və qürurunu qoruyub-saxlayan tarixi Azərbaycan torpağı kimi öz yenilməzliyini, əsl sahibinin kimliyini bütün dünyaya bəyan etdi. Bu mənada iyirmi səkkiz il yarım işğal altında qalan Şuşanın bərpası, əvvəlki görkəminə qaytarılması, xüsusi dövlət idarəetmə statusu qazanması heç də təsadüfi deyil.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Şuşa şəhərinin Azərbaycanın mədəniyyət paytaxtı elan edilməsi haqqında 7 may 2021-ci il tarixli sərəncamında deyilir: "Tarixi-mədəni əhəmiyyəti və Azərbaycan xalqı üçün müstəsna mənəvi dəyərə malik olması Şuşaya xüsusi qayğı və həssaslıqla yanaşılmasını zəruri edir"[3] (Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 7 may 2021-ci il).

Qafqazın konservatoriyası adlandırılan Şuşada ədəbi-musiqili məclislərin keçirilməsi ənənəvi hal alan mədəni tədbirlər sırasında vaxtilə öncül yerlərdən birini tuturdu. Qaynar yaradıcılıq ab-havası ilə nəfəs alan, ədəbiyyat və sənət məsələlərinə geniş meydan verən Şuşa bu mənada, həm də bir mədəniyyət beşiyi kimi böyük şöhrət qazanmışdır.

Qarabağın tarixindən bəhs edən "Qarabağnamələr" bu qeyri-adi coğrafi məkanın keçmişi, ictimai-mədəni həyatı haqqında müfəssəl bilgi verən ensiklopedik məlumat toplusu kimi xüsusi əhəmiyyət daşıyır.

**Şuşa mədəni mühitinin formalaşması**

Şübhəsiz, Şuşa mədəni mühitinin formalaşmasına fəal təsir göstərən sahələrdən biri də XIX yüzilliyin ədəbi-bədii təcrübəsi idi. Belə bir yaradıcılıq ab-havasını şərtləndirən amilləri mütləq şəkildə yalnız klassik ənənə ilə bağlamaq doğru olmazdı. Sözsüz ki, digər milli ədəbi-bədii təcrübələrdə olduğu kimi, ümumən Azərbaycan ədəbiyyatında, məxsusi olaraq Şuşada yaşayıb-yaradan sənətkarların yaradıcılığında qabaqcıl Avropa, rus və dünya ədəbi-bədii təcrübəsinin və mədəniyyətinin nailiyyətlərindən qismən də olsa, faydalanma və ədəbi təsir özünü qabarıq şəkildə

---

[3] Şuşa şəhərinin Azərbaycanın mədəniyyət paytaxtı elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, Bakı şəhəri, 7 may 2021-ci il.

nümayiş etdirirdi. Bunu şəhər mədəniyyətinin spesifik xüsusiyyətlərindən irəli gələn bir tələb kimi də qiymətləndirmək olar. Bu cəhət həm də Şuşada yaşayıb-yaradan yaradıcı şəxsiyyətlərin geniş dünyagörüşünə yiyələnmək, öz yaradıcılıq axtarışlarında yeni mövzu, ideya-sənətkarlıq məsələlərinə əhəmiyyətli dərəcədə meyil göstərmək cəhdləri də hesab edilə bilər. Burada yaranan və formalaşan ədəbi mühitin yeniliyə, dünya çapında baş verən nailiyyətlərə açıq olmaq xüsusiyyətini dünyəvi təhsil və səhiyyə sahəsinə artan maraqla da izah etmək olar.

İki adda ədəbi məclisin Qarabağda fəaliyyət göstərməsi bu bölgədə şeirə, sənətə böyük maraq və rəğbətin göstəricisi kimi xüsusi qeyd oluna bilər. Bu ədəbi məclislərdən "Məclisi-üns" və "Məclisi-fəramuşan" Qarabağda, ona yaxın və uzaq ərazilərdə yaşayıb-yaradan ədəbi qüvvələri öz ətrafında birləşdirən, əsasən, qəzəl, qəsidə, rübai, müxəmməs kimi klassik janrlarda qələmə alınan nümunələrin canlı, fəal müzakirəsini keçirən bir ədəbi yığıncaq idi.

Şuşada 1861-ci ildə Mirzə Rəhim Fənanın təşkilatçılığı ilə cəmləşən məclis yerli şairlərdən Hacı Abbas Agahın evində keçirilirdi.

Mötəbər akademik Feyzulla Qasımzadənin XIX əsr Azərbaycan ədəbiyyatı tarixinin tədqiqatçısı olaraq, Şuşada fəaliyyət göstərən "Məclisi-üns"ün başlıca yaradıcılıq qayəsi, fəal üzvləri barədə məlumat xarakterli qeydləri bu baxımdan diqqəti cəlb edir. O yazırdı: "İlk illərdə məclisin Mirzə Rəhim Fəna, Hacı Abbas Agah, Məmo bəy Məmai və Mirzə Ələsgər Növrəsdən ibarət cəmi dörd üzvü var idi. Xurşidbanu Natəvan 1872-ci ildən etibarən məclisi öz himayəsinə götürdükdən sonra, onun şöhrəti artmağa başlad. Az bir zamanda üzvlərinin sayı 30-a qalxdı. Məclisin şöhrəti yalnız Qarabağda deyil, başqa şəhərlərə də yayıldı"[4] (Qasımzadə 1974, 389).

Xurşidbanu Natəvanın evində keçirilən ədəbi məclis, həm də ziyafət-qonaqlıq mərasimi kimi düşünülmüşdü. Bu ədəbi məclislə bərabər, Qarabağda Mir Möhsün ağa Nəvvabın rəhbərliyi və təşkilatçılığı ilə yaradılan "Məclisi-fəramuşan" və ya "Məclisi-xamuşan" bölgədə ədəbi həyatın inkişafına öz müsbət təsirini göstərdi.

---

[4] Qasımzadə F. XIX əsr Azərbaycan ədəbiyyatı tarixi. Elmi redaktoru M.Quluzadə, Bakı: "Maarif", 1974, s.389

Azərbaycanın tarixi taleyində ikiyə bölünmənin, parçalanmanın faciəsi kimi tarixə yazılan ondoqquzuncu yüzillik ədəbi inkişaf və təkamül baxımından xüsusi bir yaradıcılıq mərhələsidir. Bu mərhələnin ədəbi-estetik prinsiplərinin təcrübi olaraq müəyyənləşdirilməsi istiqamətində Qarabağın mərkəzi əyalət şəhəri kimi Şuşa ədəbi-mədəni mühitinin xüsusi yeri və mövqeyi olmuşdur.

Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü, professor Yaşar Qarayevin "qızıl əsr" adlandırılan ondoqquzuncu yüzilliklə bağlı irəli sürdüyü mülahizələr bu baxımdan diqqəti cəlb edir: "Son iki əsrin bədii təcrübəsinə mənzilbaşından – bugünün zirvəsindən və keçmişin yekun dərslərindən salınan nəzər bir daha sübut edir ki, o, məhz obyektiv tarixi tərəqqi prosesində bədii-estetik orbitlərin kəsişdiyi, qovuşduğu və bir-birini tamamladığı xəlitə, sintez dövrü kimi özünü daha doğruldur"[5] (Qarayev 2002, 168).

**Şuşa ədəbi mühiti tədqiq predmeti kimi**

Əməkdar elm xadimi, filologiya elmləri doktoru, professor Kamran Məmmədovun elmi-nəzəri fəaliyyətində bilavasitə Şuşa ədəbi-mədəni mühitində yetişən sənətkarların həyatı, yetişdiyi mühit və yaradıcılıq irsi mühüm yerlərdən birini tutur. Bunun bir səbəbini də görkəmli ədəbiyyatşünas alimin əslən Şuşadan olması ilə əlaqələndirməkdə elə bir ixtilaf və qəbahət yoxdur. Uşaqlıq illəri Şuşa kimi ecazkar, möcüzəli bir məkanda keçən Kamran Məmmədovun ruhuna duyğusal düşüncələr pıçıldayan bu şəhərdən, buradan pərvazlanan ədəbiyyat və sənət adamlarından vəcdlə, ehtirasla bəhs etmək istəyi həmişə, bütün həyatı və fəaliyyəti boyu əsas məram və məqsədə çevrilib. Qoynunda göz açdığı doğma yurdun füsunkar təbiətindən, tarixi keçmişindən, sadə, əməksevər insanların mehr və məhəbbətindən qürur duyan alimin məqalə və publistik düşüncələrində Şuşa əzəmətli, tarixi sınaqlardan şərəf və ləyaqətlə çıxan coğrafi məkan kimi xüsusi dəyər daşıyır.

Heç təsadüfi deyil ki, Qarabağın başı üstünü alacaq təhlükənin – erməni təcavüzünün ideoloji əsaslarının hazırlandığı bir vaxtda bu məkrli

[5] Qarayev Y. Azərbaycan ədəbiyyatı: XIX-XX yüzillər, Bakı: "Elm", 2002, s. 168.

planlara ilk qəti etirazını bildirən və həyəcan təbili səsləndirənlərdən biri məhz Kamran Məmmədov idi. Belə bir saxta ictimai-siyasi möhtəkirliyi ifşa edən bir məqaləni xatırlatmaq kifayətdir ki, əsl həqiqət üzə çıxsın.

"Mənfur bir ermənin böhtanlarına cavab" adlı yazıda erməni daşnak ideologiyasını təbliğ edən Zori Balayanın bədnam "Ocaq" kitabında irəli sürülən antitürk və anti-Azərbaycan fikirləri rədd edən müəllif belə bir sərt ittihamı öz opponentinə cəsarətlə ünvanlamaqdan çəkinmir: "Oxucuda belə bir təsəvvür yaranır ki, Ermənistan daşnak yuvası, göydən asılmış bir qozdur, öz-özünün içində inkişaf edir.

...Belə çıxır ki, dünyada Ermənistandan qədim, gözəl yer, ermənilərdən də gözəl xalq yoxdur. Adamda gərək az-maz ağıl olsun ki, özünü bu qədər tərifləməsin, abır-həya eləsin. Bir də başa düşmək olmur ki, bir nömrəli daşnak, milyon yarım ermənin qırılmasına (?) səbəbkar olan Andronik paşa indi nə səbəbə xalq qəhrəmanı kimi (hansı xidmətlərinə görə?!) hallanır. Əgər bu, düz adam idi, Ermənistanda qalıb xalqına xidmət edəydi, yoxsa əsl xalq düşməni kimi, murdar daşnak kimi xalqını qırğına verib xaricə qaçmayaydı... Kitabda bu alçaqdan və quldurdan (Andronikdən) də böyük məhəbbətlə danışılıb..."[6] (Məmmədov 2010, 248-249).

Qarabağ ədəbi mühitində yetişən Qasım bəy Zakirin (1784-1857), Xurşidbanu Natəvanın (1832-1897), Nəcəf bəy Vəzirovun (1854-1926), Əbdürrəhim bəy Haqverdiyevin (1870-1933), Üzeyir Hacıbəylinin (1885-1948), Yusif Vəzir Çəmənzəminlinin (1887-1943) həyatı və yaradıcılığı haqqında Kamran Məmmədovun qələmə aldığı məqalə və araşdırmalarda, monoqrafik tədqiqatlarda Şuşa ədəbi-mədəni mühitinə məxsus səciyyəvi cəhətlər, bu coğrafi ərazinin təbiəti, əməksevər insanları, burada doğulub boya-başa çatan elm, ədəbiyyat və sənət, mədəniyyət və incəsənət xadimləri barədə yetərincə məlumatlar verilir.

Qasım bəy Zakirin həyat və yaradıcılığı, yetişdiyi ədəbi-mədəni mühit barədə müfəssəl məlumat verən eyniadlı monoqrafiyada belə bir cəhd özünü bariz şəkildə nümayiş etdirir. Monoqrafiyada təkcə realist satiranın görkəmli nümayəndəsi olan şairin böyüdüyü ailə, mənsub

---

[6] Məmmədov K. Mənfur bir ermənin böhtanına cavab, Ruhum da Şuşadan nigaran qalıb, Toplayıb tərtib edəni və ön sözün müəllifi: Filologiya üzrə fəlsəfə doktoru Məmmədova Dilarə Mustafa qızı, Elmi redaktoru: Şirindil Alışanlı, Bakı: "Elm", 2010, s. 248-249

olduğu nəsil-şəcərə ilə bağlı bilgi verilməklə kifayətlənilmir, əksinə, rus çarizminin, yerli məmurların Şuşada və ona yaxın ərazilərdə törətdikləri fitnə-fəsadlar barədə də yetərincə təsəvvür yaradılır: "1849-cu ilin payız aylarında Qarabağın Xındırıstan kəndinə təşrif buyuran "çağırılmamış qonaq"ın az sonra xəyanətkar və cinayətkar əməlləri üzə çıxır. Əslində, ilk baxışda Allah qonağı təsiri bağışlayan atlı dəstə onları qonaq kimi qarşılayanların qollarını bağlayır, ayaq basdıqları kəndin altını-üstünə çevirirlər. Atlı dəstənin ucu-bucağı görünmürdü. Öndə iki atlı yan-yana yorturdu. Onlardan biri – lopabığ, zər-zibalı, döşümedallı yekəpər şəxs qamçı tutduğu sol əlilə müxtəlif səmtləri göstərir, onunla yanaşı addımlayan atlıya nə isə deyirdi. Onlar yol kənarında dayanmış qocaya çatdıqda dayandılar. Sağ tərəfdəki atlı döşümedallı yekəpərə nəsə dedi, o, yönünü dala çevirib əmr etdi:

– Bu qoca kaftarın da qollarını bağlayın. Bütün işlərin mayası budur" [7] (Məmmədov 1984, 3).

Qollarının bağlanılmasına göstəriş verilən qoca Qasım bəy Zakir idi. Bu tipli xarakterik təsvirlər, şübhəsiz, sənətkarın yaşadığı mühitin bir sıra gerçəkliklərini əyani şəkildə xatırladır, hakim dairələrin, mövcud üsul-idarə üzvlərinin uzaqgörən, haqsızlığa boyun əyməyən yaradıcı şəxsiyyətə münasibətinin aydın təsəvvürə gətirilməsinə imkan yaradır.

"Qasım bəy Zakir" monoqrafiyasının "Gənclik illəri. Vaqifə məhəbbət" adlı hissəsində Qasım bəy Zakirin doğulub boya-başa çatdığı əsrarəngiz təbiəti olan Şuşanın füsunkar gözəllikləri, tarixi keçmişi haqqında məlumatlar, Qarabağ xanlığının birinci hakimi olan Pənah xan Cavanşir tərəfindən əsası qoyulan şəhərin maddi-mədəniyyət abidələri, ümumən ictimai-mədəni həyatı ilə bağlı qeydlər bu mühüm strateji əhəmiyyət daşıyan qala-şəhərin tarixi-coğrafi mənzərəsi barədə müəyyən qənaət hasil edir.

Kamran Məmmədov Qasım bəy Zakirin nəsil-şəcərəsi barədə bəhs edərkən onun Pənah xan Cavanşir nəslindən olduğunu xüsusi olaraq nəzərə çatdırır: "Qasım bəy də bu "zümrüd tacda" – macəralı şəhərdə dünyaya gəlmiş"di və özü də Cavanşir nəslindən idi. Onun atası Əli bəy,

[7] Məmmədov K. Qasım bəy Zakir, Bakı: "Gənclik", 1984, s. 3.

babası Şahverən bəy, ulu babası Kazım ağadır. Kazım ağa da Pənah xanın doğma qardaşı idi”[8] (Məmmədov 1984, 6).

Bu faktlar Qasım bəy Zakirin Qarabağ xanlığının əsasını qoyan məşhur Cavanşir nəsil-səcərəsindən, əsilli, nəcabətli bir sülalədən çıxdığını bir daha təsdiqləmiş olur. Ədəbiyyatşünas alimin vaxtilə irəli sürdüyü mülahizələr indi, artıq kütləvi şəkildə nəşr olunan, bilavasitə elmi dövriyyəyə gətirilən ədəbi-tarixi mənbələrlə yaxından səsləşməsi göz qabağındadır. Bu mənada Mir Mehdi Xəzaninin “Qarabağnamələr” adlı silsilə nəşrlərdən olan kitabında Qasım bəy Zakirin yetişdiyi mühit, nəsil-səcərəsi haqqında verilən məlumat xarakterli qeydlərlə üst-üstə düşür: “Qarabağ xanlarının əsli Cavanşir oymağı və Sarıcalı tayfasındandır”[9] (Xəzani M.M. 2006, 171).

Zəngin faktlar və mənbələr əsasında araya-ərsəyə gətirilən monoqrafiya üçün ən etibarlı məxəzlərdən biri kimi, heç şübhəsiz ki, şairin zəngin yaradıcılıq irsi seçilir. Dövrlə, mühitlə bağlı ictimaimotivli əsərlərin təhlili müəllifə bədii materialdan istifadə yolu ilə müxtəlif hadisə və olaylara münasibət bildirilməsi bir çox mətləblərin üzə çıxarılmasına vəsilə olur. Bunu şairin həyat və yaradıcılığı ilə bağlı bölmələrdə aydın şəkildə görmək mümkündür. Şairin XIX əsrin ortalarında Bakıya sürgün olunması yalnız rəsmi sənədlərlə və faktlarla üzə çıxarılmır. Belə bir yaşantı və ovqatı, daxili həyəcan və iztirabları “Durnalar” qoşmasının vasitəsilə çatdırılması son dərəcə təbii və inandırıcı təsir bağışlayır. Bu xarakterik xüsusiyyətlər şairin “Fərzəndi-əziz” şeiri təhlil olunan hissələrdə özünü qabarıq şəkildə nümayiş etdirir.

Şuşa ədəbi mühitində bədii-estetik zövqü formalaşan sənətkarların yaradıcılıqları ədəbi növ və janr rəngarəngliyi ilə diqqəti cəlb edir. Əgər klassik poeziya Xurşidbanu Natəvanın şəxsində fəal bir yaradıcılıq xüsusiyyətləri köklənməsi ilə əlamətdar yaradıcılıq məziyyətləri qazanırdısa, satirik şeirin yeni bir yaradıcılıq təmayülü kimi gündəmə gətirilməsi tədricən realist ədəbiyyata keçidin zərurətini qaçılmaz edirdi. Bu mənada Xurşidbanu Natəvan klassik poetik üslubun təmsilçisi idi. Belə bir poetik təcrübəyə yiyələnən sənətkar kimi Qasım bəy Zakirin mövcud gerçəkliyə

[8] Yenə orada, s. 6
[9] Xəzani M.M Kitabi-tarixi-Qarabağ. Bakı, “Şərq-Qərb”, 2006, s.171

tənqidi münasibətinin nəticəsi kimi yaranan satiraları məhz sənətkarlıq baxımından diqqəti cəlb edir, geniş xalq kütlələrinin gün-güzəranının əsil mənada bədii sözün qüdrəti ilə canlandırmaq iqtidarını nümayiş etdirirdi. Əslində, Qasım bəy Zakir satirasının mövzu dairəsi bununla da məhdudlaşıb qalmırdı, daha geniş ictimai-siyasi, sosial-iqtisadi mətləbləri ifadə edən yeni realist mündəricəli yaradıcılıq hadisəsi idi.

Qasım bəy Zakirin yaradıcılığında satiranın məxsusi yerini, aparıcı mövqeyini, əsas tənqid hədəflərini Kamran Məmmədov XIX əsr gerçəkliyində, rus çarizminin ucqarlarda yürütdüyü yarıtmaz antimilli siyasətə münasibətdə üzə çıxararaq belə bir qənaətə gəlirdi: "Zakir satirasının əsas tənqid hədəfi şairin yaşadığı ictimai mühitdəki haqsızlıq və özbaşınalıq, hakim imtiyazlı təbəqələrdir. "Şərin kökünü" ölkənin ağası hesab olunan çar hakimlərində, onlara havadarlıq edən alçaq təbiətli yerli bəylərdə və yaltaq ruhanilərdə görən şairin M.F.Axundova, İ.Qutqaşınlıya, Baba bəy Şakirə, M.P.Kolyibakinə yazdığı məktublarında, eləcə də ayrı-ayrı satirik şeirlərində ictimai məsələlər – zülmün, özbaşınalığın və haqsızlığın kəskin tənqidi, vətən və xalq məhəbbəti əsas yer tutur. Məktublarda ölkəni idarə edənlərin, hakim feodal qüvvələrin əxlaq və rəftarı kəskin tənqid olunur"[10] (Məmmədov 1984, 8).

Kamran Məmmədovun Şuşa mühitində yetişən realist-satirik təmayülün davamçıları ilə yanaşı, bir kül halında milli satirik şeirin inkişaf təkamülünü sistemli şəkildə izlənməsi baxımından "XIX əsr Azərbaycan şeirində satira" monoqrafiyası xüsusi əhəmiyyət daşıyır. Monoqrafiyada realizm ədəbi cərəyanının bir yaradıcılıq platforması kimi zərurəti ideyası ədəbi-tənqidi məqalələrində və müasirlərinə ünvanladığı məktublarında bütün ciddiyyəti ilə vurğulayan Mirzə Fətəli Axundzadənin mülahizələrini, irəli sürdüyü konseptual müddəaları dövrün ədəbi təcrübəsinin tələb və ehtiyacından irəli gələn yaradıcılıq vəzifələrindən biri hesab edilir. Müəllif, doğru olaraq, realizmin inkişaf etdirilməsində, onun ədəbi-bədii təcrübəyə gətirə biləcəyi yeni meyil və yanaşmaları Mirzə Fətəli Axundzadənin adı və əvəzsiz xidmətləri ilə bağlayaraq belə bir obyektiv qənaətə gəlir: "Azərbaycan ədəbiyyatı tarixində realist ədəbi məktəbin formalaş-

[10] Məmmədov K. Ön söz, Qasım bəy Zakir, Seçilmiş əsərləri, Tərtib və müqəddimə Kamran Məmmədovundur, Bakı: "Yazıçı", 1984, s.8

ması, mükəmməl estetik-fəlsəfi, nəzəri əsaslarının işlənib hazırlanması Axundovun adı ilə bağlıdır"[11] (Məmmədov 1975, 72).

Kamran Məmmədov Azərbaycan satirik şeirinin inkişaf xüsusiyyətləri ilə paralel olaraq, milli dramaturgiyada bədii gülüşün, komik ünsürlərin fəal bir mövqeyə çıxmasını şərtləndirən amilləri Şuşa ədəbi mühitində yetişən, sonrakı yaradıcılıq axtarışlarını paytaxt Bakıda davam və inkişaf etdirən yazıçı-dramaturqların yaradıcılığında müntəzəm şəkildə təhlilə yönəltməyə əhəmiyyətli dərəcədə yer ayırır.

XIX yüzillikdə maarifçiliyin bir ədəbi-estetik məfkurə istiqaməti kimi özünəməxsus yaradıcılıq istiqamatinə çevrilməsi, ayrı-ayrı xalqların inkişaf tarixində fərqli bir səciyyə daşıması tarixi təkamül və ictimai şəraitin xarakterindən bilavasitə asılıdır.

Bu dönəmdə maarifçiliyi özləri üçün əsas ideal və ədəbi-estetik yaradıcılıq təmayülü seçən qələm sahibləri xalqı cəhalət və geriliyin məngənəsindən, cəhalətin buxovlarından azad olunmasında yeganə çıxış yolu və vasitə hesab edirdilər.

Nəcəf bəy Vəzirov, Əbdürrəhim bəy Haqverdiyev, Üzeyir Hacıbəyli və Yusif Vəzir Çəmənzəminli kimi Şuşa ədəbi mühitində yetişən yazıçı-dramaturqlar haqqında Kamran Məmmədovun qələmə aldığı tədqiq xarakterli məqalə və monoqrafik elmi araşdırmalarda Mirzə Fətəli Axundzadə ənənələrini davam və inkişaf etdirən böyük bir yaradıcı ədəbi nəslin və özünəməxsus sənətkar dəsti-xətti ilə seçilən ədəbi şəxsiyyətlərin yaradıcılıq irsi sistemli şəkildə təhlil hədəfinə çevrilmişdir.

Professor Kamran Məmmədovun bu baxımdan 1963-cü ildə nəşr olunan "Nəcəf bəy Vəzirov" monoqrafiyası özünün orijinal elmi-nəzəri strukturu, qarşıya qoyulan yaradıcılıq problemlərinin aktuallığı ilə seçilr, müəllifin ciddi, səriştəli tədqiqatçı səviyyəsini nişan verir. Bu monoqrafiya alimin vaxtilə doktorluq dissertasiyasının əsasında hazırlanan, vəzirovşünaslığı yüksək elmi-nəzəri səviyyədə təmsil edən sanballı tədqiqatlardan biri hesab olunur.

On bir fəsildən ibarət olan monoqrafiyada Nəcəf bəy Vəzirovun həyatı, bir qədər fərəhli keçməyən uşaqlıq və yeniyetməlik illərinin ağrı-

---

[11] Məmmədov K. XIX əsr Azərbaycan şeirində satira. Bakı, "Elm", 1975, s.72

acılı anları, Şuşa kimi mədəni mərkəzdəki ədəbi mühitin ümumi mənzərəsi, elmə, biliyə sonsuz maraq və rəğbəti, Rusiyanın mərkəzi şəhərlərində təhsil illəri, bir vətənpərvər gənc kimi xalqın rifahı və qabaqcıl millətlərin cərgəsinə qoşulması yolunda mücadiləsinin ibrətamiz məqamları barədə əyani təsəvvür yaradılır.

Kamran Məmmədov yaradıcılığa başladığı ilk dövrün məhsulu olan ədəbi nümunələr üzərində geniş təhlil və araşdırmalar aparır, bir sənətkar olaraq onun mövzu dairəsi, toxunduğu ictimai mətləbləri maariçilik konsepsiyasından irəli gələn prinsipial məqamlar kimi səriştəli tədqiqatçı nöqteyi-nəzərindən dəyərləndirməyə nail olur.

Əlbəttə, Moskva mühitində təhsil almasına baxmayaraq, Nəcəf bəyin bir gənc kimi dünyagörüşündəki məhdudiyyətlər, yaradıcılığının ilk mərhələsinə təsadüf olunan bir dönəmdə nəzərə çarpan məhdudiyyətlər də belə məqamlarda ciddiyyətlə nəzərə çatdırılır. Belə bir obyektiv baxış bucağından yanaşma bir sənətkar kimi Nəcəf bəy Vəzirovun yaradıcılıq təkamülünü yüksələn xətt üzrə dinamik inkişafını izləməyə əlverişli stimul yaradır.

Ədibin "Ev tərbiyəçisinin bir şəkli" məzhəkəsi, "Daldan atılan daş topuğa dəyər", "Sonrakı peşmançılıq fayda verməz", "Adı var, özü yox" kimi ilk yaradıcılıq dövrünə təsadüf edən dram əsərlərində ailə-məişət və tərbiyə məsələlərinə diqqət ayrıldığını nəzərə alan Kamran Məmmədov dahasonrakı yaradıcılıq mərhələlərində qələmə alınan "Yağışdan çıxdıq, yağmura düşdük" və "Müsibəti-Fəxrəddin" kimi mövzu, janr və sənətkarlıq baxımından seçilən əsərləri ciddi ictimai-sosial mündəricəsinə görə əsl yaradıcılıq nailiyyəti kimi yüksək dəyərləndirir.

Maraq doğuran bir cəhət də odur ki, bu tipli əsərlərin mövzu və obrazları çox vaxt Şuşada gördüyü, müşahidə etdiyi hadisələrdən götürülərək ümumiləşdirilir, mükəmməl sənət hadisəsi kimi ədəbi ictimaiyyətin ixtiyarına verilirdi.

Şuşa ədəbi mühitində yetişən Əbdürrəhim bəy Haqverdiyevin yaradıcılığı Nəcəf bəy Vəzirovdan fərqli olaraq yığcam süjet xəttinə malik, cəmiyyət və insanlararası münasibətlərdəki aşınmaları, dini xurafatı və ictimai geriliyi ifşa edən hekayə və nəsr nümunələri ilə fərqləndirilməsi tamamilə təbii və inandırıcı görünür, Kamran Məmmədovun orijinal

yaradıcılıq dəst-xəttinə malik sənətkarların, fərdi sənət dünyasının özünəməxsus məziyyətlərinin aşkar edilməsinə bir vəsilə olur. Bu mənada Kamran Məmmədovun 1950-ci ildə işıq üzü görən "Əbdürrəhimbəy Haqverdiyev" monoqrafiyasını xüsusi olaraq qeyd etmək lazımdır.

Alimin Əbdürrəhim bəy Haqverdiyev yaradıcılığına elmi marağının bünövrəsi hələ tələbə ikən universitet illərindən başlaması haqqında məlumat xarakterli yazılarda maraq doğuran qeydlərə rast gəlirik: "1945-ci ildə Kamran Məmmədov universiteti fərqlənmə diplomu ilə bitirdi (diplom işi Əbdürrəhimbəy Haqverdiyevin "Ağa Məhəmməd şah Qacar" pyesi, elmi rəhbər isə professor Mir Cəlal Paşayev olub). Lakin o, arzu etdiyi kimi elmi iş dalınca aspiranturaya deyil, ata-anadan yetim qalmış kiçik bacı-qardaşlarını dolandırmaq üçün (Kamran ailənin böyük oğlu idi) "Gənclik" nəşriyyatında redaktor kimi işə başladı.

...Azərbaycan uşaq ədəbiyyatı məsələlərinə aid yazdığı ilk məqalələr ona tezliklə uğur qazandırdı, imzası ədəbi-elmi ictimaiyyət içərisində tanındı. Aspiranturanı bitirib, 1949-cu ildə "Əbdürrəhimbəy Haqverdiyevin bədii nəsri" adlı namizədlik dissertasiyasını uğurla başa çatdırdı və həmin "dostu" ilə bir Şurada müdafiə etdi (Elmi rəhbər akademik Feyzulla Qasımzadə idi)"[12] (Məmmədov K. 2010, s. 3-4). Bu xarakterik qeydlərdən bir daha məlum olur ki, Kamran Məmmədovun Şuşa ədəbi mühitində yetişən sənətkar kimi Əbdürrəhimbəy Haqverdiyevin tarixi mövzuda qələmə aldığı "Ağa Məhəmməd şah Qacar" pyesini tələbə tədqiqatı kimi seçmiş, belə bir maraq onu az sonra ədibin nəsr yaradıcılığını və ədəbi irsini bütöv halda tədqiq etməyə sövq etmişdir.

Diqqəti cəlb edən digər əlamətdar cəhət də ondan ibarətdir ki, Kamran Məmmədovun tələbə tədqiqatında və sonralar tamamladığı eyniadlı monoqrafiyada birbaşa XVIII əsrin sonları – XX əsrin əvvəllərində Şuşada baş verən ictimai-siyasi hadisələrin – İran, Rusiya, Gürcüstan kimi ölkələrlə ziddiyyət və qarşıdurmaların, qanlı müharibələrin əsas mövzu istiqaməti seçilərək təhlilə yönəldilməsi səbəbsiz deyildi. "Ağa Məhəmməd şah Qacar" kimi tarixi faciədə işğalçılıq, təcavüz məqsədilə axıdılan

---

[12] Məmmədov K. Ruhum da Şuşadan nigaran qalıb, Toplayıb tərtib edəni və ön sözün müəllifi: Filologiya üzrə fəlsəfə doktoru Məmmədova Dilarə Mustafa qızı, Elmi redaktoru: Şirindil Alışanlı, Bakı: "Elm", 2010, s. 3-4

günahsız qanların, fəlakət və qırğınların insan talelərinə gətirdiyi məhrumiyyətlərlə yanaşı, zalım və despot hökmdarın ifşasını, tarix səhnəsindən silinməsi faktını təsdiqləyən ictimai-siyasi məsələlərə obyektiv baxış bucağından münasibət sərgilənirdi.

Əbdürrəhim bəy Haqverdiyevin həyatına və ədəbi irsinə artan tədqiq marağının nəticəsi kimi meydana gələn eyniadlı monoqrafiyanın ilk nəşrindən sonra, yeni arxiv materialları əldə edilərək təkmilləşdirilmiş variantın iki dəfə işıq üzü görməsi Kamran Məmmədovun Şuşa mühitinin ətri, rayihəsi gələn sənətkarlara, onların qələmindən çıxan ədəbi nümunələrə xüsusi əhəmiyyət verməsindən soraq verir.

Eyni münasibəti Azəbaycan professional musiqisinin banisi, yazıçı-dramaturq, publisist yazıları ilə şöhrət qazanan Üzeyir bəy Hacıbəyli haqqında qələmə alınan məqalə və yazılara şamil olunduğunu görmək mümkündür.

Yazıçı, ədəbiyyatşünas-folklorçu, hüquqşünas-diplomat olan Yusif Vəzir Çəmənzəminli haqqında yazılan monoqrafiyasında Kamran Məmmədovun ədibin nəsr personajları arasında Şuşa mühitindən çıxan şəxslərin obrazına geniş yer ayrılmasını da belə bir fəal maraqla izah və şərh etməyə müvəffəq olur. Bunun daha geniş və əhatəli ponaramasını ədibin “Qan içində” və “İki od arasında” adları ilə nəşr olunan tarixi romanında görmək mümkündür.

**Nəticə**

Şuşa ədəbi mühitinin XIX və XX yüzilliklərdəki mövcud yaradıcılıq axtarışlarını ümumiləşdirən, bu istiqamətdə sistemli və ardıcıl elmi-nəzəri tədqiqatlar aparan professor Kamran Məmmədovun monoqrafik araşdırmalarında bu bölgə ədəbiyyat, elm və incəsənət beşiyi kimi Azərbaycan və dünya mədəniyyətinə bəxş etdiyi şəxsiyyətlərin ömür yolu, yaradıcılıq irsi bugünkü işğaldan azad Şuşanın əvvəlki görkəminin bərpasında, yeni inkişaf perspektivlərinin müəyyənləşdirilməsində müstəsna mənbə və məxəz kimi fəal rol oynaması sərf-nəzər edilir, elmi-nəzəri fikrin ədəbi-mədəni mühitə maraq və münasibətinin bir göstəricisi olaraq qiymətləndirilir.

Şuşa haqqında qələmə alınan ədəbi-bədii nümunələrdə bir əyalət mərkəzi olan şəhərin tarixi keçmişi, yaxın onilliklərdəki müasir durumu

təsvirə gətirilməklə bərabər, bu zəngin irsin obyektiv təhlil və dəyərləndirilməsinə də əhəmiyyətli dərəcədə yer ayrılması, eyni zamanda, elmi-nəzəri fikir üçün aktuallıq kəsb etməsi Kamran Məmmədovun tədqiqatlarında özünün parlaq təzahürünü tapır. Belə bir tarixi-müqayisəli tədqiq üsulunda Şuşa ədəbi-mədəni mühitinə xas olan xarakterik cəhətlər ümumiləşdirilərək üzə çıxarılır.

Kamran Məmmədovun Şuşa ədəbi-mədəni həyatının ümumi mənzərəsi, ictimai-siyasi ab-havası haqqında fikir yürüdən əsərlərin satirik şeir təmayülünün inkişaf və təkamülündə məxsusi yaradıcılıq mövqeyini müəyyənləşdirərkən Qasım bəy Zakirin, Baba bəy Şakirin poetik irsində poeziyanı, Əbdürrəhim bəy Haqverdiyev, Nəcəf bəy Vəzirov və Yusif Vəzir Çəmənzəminli kimi sənətkarların qələmə aldığı nümunələrdə nəsr və dramaturgiyanı bir səciyyəvi bədii hadisə olaraq dəyərləndirir, baş verən ictimai-siyasi prosesləri belə bir ədəbi növ və janr kontekstində nəzərdən keçirilməsi təcrübəsinin əhəmiyyət doğuran məqamları barədə yekdil qənaət hasil edilir.

## ƏDƏBİYYAT


Qarayev Y. (2002). Azərbaycan ədəbiyyatı: XIX-XX yüzillər, Bakı: “Elm”, (s. 168).

Qasımzadə F. (1974). XIX əsr Azərbaycan ədəbiyyatı tarixi. Elmi redaktoru M.Quluzadə, Bakı: “Maarif”, s.389

Xəzani M.M Kitabi-tarixi-Qarabağ. Bakı, “Şərq-Qərb”, 2006, s.171

Məmmədov K. Mənfur bir ermənin böhtanına cavab, Ruhum da Şuşadan nigaran qalıb, Toplayıb tərtib edəni və ön sözün müəllifi: Filologiya üzrə fəlsəfə doktoru Məmmədova Dilarə Mustafa qızı, Elmi redaktoru: Şirindil Alışanlı, Bakı: “Elm”, 2010, s. 3-4; s. 248-249.

Məmmədov K. XIX əsr Azərbaycan şeirində satira. Bakı, “Elm”, 1975, s.72

Məmmədov K. Qasım bəy Zakir, Bakı: “Gənclik”, 1984, s. 3; s. 6.

Məmmədov K. Ön söz, Qasım bəy Zakir, Seçilmiş əsərləri, Tərtib və müqəddimə Kamran Məmmədovundur, Bakı: “Yazıçı”, 1984, s.8

Şuşa şəhərinin Azərbaycanın mədəniyyət paytaxtı elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, Bakı şəhəri, 7 may 2021-ci il.

*Конуль Гусейнова*

# ОСОБЕННОСТИ ЛИТЕРАТУРНО-КУЛЬТУРНОЙ СРЕДЫ ГОРОДА ШУША В ИССЛЕДОВАНИЯХ КАМРАНА МАМЕДОВА

## РЕЗЮМЕ

В статье затрагиваются черты, свойственные литературно-культурной среде Шуши. Автор, ссылаясь на богатые факты и материалы, анализирует географическое положение, архитектурные памятники, в особенности, творческую атмосферу города-крепости- колыбели культуры Южного Кавказа, в значительной степени обогатившей художественную жизнь города. Систематизированное изучение жизни, литературно-культурной среды, окружающей выдающихся мастеров пера, ведущих личностей литературной среды, сформировавшейся в Шуше, как одной из центральных провинций Карабаха, таких, как Гасым бек Закир, Хуршидбану Натаван, Наджаф бек Везиров, Абдуррахим бек Ахвердиев, Узеир Гаджибеков, Юсиф Везир Чеменземинли, стало основной задачей в монографиях и научных исследования заслуженного деятеля науки, профессора Камрана Мамедова.

Вопрос исключительной роли литературно-культурной среды в формировании творческой личности, усовершенствовании деятельности литератора, систематически прослеживается в крупных монографических исследованиях профессора Камрана Мамедова, начиная со статей исследовательского характера. Такой интерес к анализу и исследованию создает наглядное представление об общественно-политической, социально-экономической среде в азербайджанском обществе, в частности в ее историко-географической территории Шуше.

Подчеркивается, что Шуша, где проводились художественные собрания, массовые культурные мероприятия, гостеприимно принимала путешественников, деятелей науки, искусства, прибывающих из

окружающих регионов, ближних и дальних стран, пробуждала восхищение историей, очаровательной природой города-крепости.

Произошедший в Шуше в XIX-XX столетия тяжелый социально-экономический регресс и лишения, которые он привел в жизнь простых людей, своеволие русского царизма, местных чиновников, знати, находящихся в их подчинении, создали благоприятную почву для появления сатирического направления, как литературный протест. Положения, обусловливающие эти общественно-политические факторы, в научно-теоретическом наследии профессора К.Мамедова выводятся на активную позицию. Такая практика проанализирована в качестве приоритетного направления науки.

***Ключевые слова***: *литературная среда, культурный центр, культурная жизнь в Шуше, литературное общество, Карабахнаме, сатирическое направление.*

***Konul Huseynova***

## THE LITERARY AND CULTURAL ENVIRONMENT OF SHUSHA IN KAMRAN MAMMADOV'S RESEARCHES

### ABSTRACT

The article touches upon the peculiarities of Shusha literary and cultural environment with reference to rich facts and materials, analyzes the geographical position of the fortress-city, the cradle of culture of the South Caucasus, architectural monuments, especially the features of the impetuous literary environment. The matter of systematical research of the life of such great writers as Gasim bey Zakir, Khurshud Banu Natavan, Najaf bey Vazirov, Abdurrahim bey Hagverdiyev, Uzeyir Hajibeyov, Yusif Vazir Chamanzaminli, the leading figures of the literary environment formed in Shusha, one of the central provinces of Karabakh,

in monographs and scientific researches of Kamran Mammadov, is chosen the main research target of the article.

The issue of the exceptional role of the literary and cultural environment in the formation of creative personality, the development of the literary figure’s individuality is followed in this article beginning from scientific articles by Professor Kamran Mammadov to the large-scale monographs; Such an analysis and research interest creates a clear picture of the socio-political, socio-economic landscape in Azerbaijani society, especially in Shusha, its historical and geographical area.

In this scientific paper, attention was drawn to the fact that Shusha, which hosts literary meetings and mass cultural events, cordially welcomes scientists and artists from the surrounding regions, travelers from near and far countries and arouses sympathy for the history and unique nature of the city-fortress.

As we all know, Professor Kamran Mammadov's scientific and theoretical legacy has vigorously assessed the severe economic and social decline and deprivation it has caused to ordinary people in Shusha in the nineteenth and twentieth centuries as well as the impact of Russian tsarism and the arbitrariness of local officials on literary and artistic thought, creating fertile ground for bringing up the satirical tendency in the form of literary protest and strengthening of satiric thought.

***Keywords***: *literary environment, cultural center, cultural life in Shusha, literary circle, Garabaghname books, satirical tendencies*

# ŞUŞA – MƏKANIN POETİKASI

***Günel İsgəndərova,***
*AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu*
gunel.isgan@gmail.com

## XÜLASƏ

Poetik düşüncə – məkan duyğularının bir anda üzə çıxan relyefi, eyni zamanda, psixoloji ovqatın bədii əksidir. Duyğu keçmişə olan həsrətin əks-sədası kimi deyil, əksinə, keçmişdəki ilk xəyalın parlaması ilə rezonans doğuran poetik düşüncədir. Bədii mətndə poetik təfəkkürün cərəyan etməsi üçün zəminə, müəyyən bir məkana ehtiyac duyulur. Hansı zamanda və nə məqsədlə yaranmasından asılı olmayaraq, "məkan" ünsürü bədii mətndəki hadisə və obyektlərin təqdim edildiyi səhnə xüsusiyyətini daşıyır. Məkan, həm də poetik düşüncənin metaforla işlənmiş əksidir.

Zaman keçdikcə bədii mətnin yazılış forması və nəqletmə üslubu dəyişərək yeni məkan anlayışları ortaya çıxmışdır. Artıq "məkan" məfhumu "populyar mədəniyyət" statusu qazanmaqla sabitlik halından çıxır və insan-məkan münasibəti kontekstində yeni funksionallıq qazanır. Bədii mətnə sadə və "bəşəri" don geyindirməklə qəhrəmanın mənsub olduğu sosial-mədəni görüşləri ayna kimi əks etdirir. Azərbaycan ədəbiyyatında coğrafi məkanların təsviri özünəməxsus yer tutur. Xüsusən mədəniyyət məkanı kimi tanınan Şuşa ədəbiyyatımıza, söz və sənətə verilən dəyərin göstəricisidir. Şuşa sadəcə coğrafi məkan deyil, eyni zamanda, ədəbi prosesin formalaşdığı yaradıcılıq mühitidir. Qısası, Şuşa, həm insanda şairlik ruhunu oyadan bədii məkan, həm də əsərdə psixoloji ovqatı əks etdirən bədii obrazdır. Təsadüfi deyil ki, Qasım bəy Zakir, Baba bəy Şakir, Məhəmməd bəy Aşiq, Natəvan, Nəvvab, Fatma xanım Kəminə, Əbdürrəhim bəy Haqverdiyev, Nəcəf bəy Vəzirov, Yusif Vəzir Çəmənzəminli, Üzeyir Hacıbəyli, Əhməd Ağaoğlu kimi yazıçı və mütəfəkkirlərimiz Şuşada yetişib yaradıcılığa başlayıblar.

***Açar sözlər:*** *məkan, poetika, milli ünsürlər, Şuşa.*

## Giriş

Məkan – poetik düşüncə məhsulu olmaqla bədii mətndəki hadisələrin cərəyan etdiyi səthdir. Bədii mətndə məkan olmasa, həm yazar obrazlarını təqdim etməkdə acizlik çəkər, həm də oxucu hadisələri təxəyyülündə canlandırıb mətnə daxil ola bilməz. Məkan mətndəki hadisə və obyektlərin təqdim olunduğu səhnədir. Bu səhnədə obrazlar rol alaraq, həm yaşadığı mühiti, həm də sahib olduğu sosial-mədəni statusunu canlandırır. Məkan, bir növ, yazarın daxilindəki təlatümlərin obrazlar vasitəsilə güzgüdəki əksini özündə ehtiva edir. Məkan – obyektiv varlıq olmaqla, insan əməyinin məhsulu deyildir. Məkan-zaman sonsuzdur, tükənməzdir, onların sonsuzluğu konkret cisim və hadisələrin sonluluğunun vəhdətindən, məcmusundan yaranır.

## Poetik məkanın funksionallığı

Məkan – hiss və duyğuların bədii əsərdə formalaşdığı, hadisələrin cərəyan etdiyi konkret, yaxud mücərrəd (utopik) obyekt formasıdır. Poetik düşüncə məkan duyğularının bir anda üzə çıxan relyefi, eyni zamanda, psixoloji ovqatın bədii əksidir. Duyğu keçmişə olan həsrətin əks-sədası kimi deyil, əksinə, keçmişdəki ilk xəyalın parlaması ilə rezonans doğuran poetik düşüncədir. Hər bir poetik düşüncə bu mənada bilərəkdən, yaxud qeyri-ixtiyari formada *apriori* kökünə, yəni ruh ilə əməl, daxili aləmlə sərgüzəşt arasındakı bağla vəhdətdədir. Ədəbiyyatda bu iki metoda – daxilə və ya xaricə – yönəliş vasitəsilə poetik düşüncə özünəməxsus yeniliyə sahibdir. Bu yenilik zaman axını boyunca öz dərinliyi və yayılma prinsipi baxımından erroziyaya uğrasa da, daim varlığını sürdürə bilmişdir. Eposdan axıb-gələn məkan modern ədəbiyyatda yeni struktur qazanaraq, dəyişən bəşəriyyətə imicini əks etdirir.

Fredə görə "əksetdirmə" bizim olan hiss və arzuları başqalarına yükləmə məfhumu ilə qarışdırılır. Belə ki, psixoloji duyğular içində çarpışan şəxs öz duyğularını qeyri-iradi olaraq başqalarına köçürməyə başlayır (T.Eagleton, 187). Bu mənada, poetik düşüncə, sadəcə, yazarın xəyalının əksi deyil, həm də yaratdığı xəyalın oxucunun içində kök salmasıdır.

Ədəbiyyatın psixoanaliz nəzəriyyəsində poetik düşüncə əsərin *yazarı, mövzusu, forma strukturu və oxucusu* baxımından dörd fərqli istiqamətdə təhlilə cəlb olunur. *Yazarı* psixoanaliz baxımından təhlil etmək spekulyativ işdir. Burada yazarın "niyyəti" ilə əsər arasındakı bağlılıq təhlil edilir. Ədəbiyyatda pekulyativlik – yazarın izi ilə gedib bədii mətndə əksini tapma, eləcə də yazarın mücərrəd mühakimələri deməkdir. Əsərin *mövzu*sunda isə obrazların təhtəlşüur motivləri, mətndəki obyekt və ya hadisələrin psixoanalitik vəziyyətinə önəm verilir. Fredin sənət və ədəbiyyat sahəsindəki çalışmalarında isə bu iki istiqamət daha çox tədqiqata cəlb edilir. Bu tədqiqatlarda ədibin açıq şəkildə özünü göstərdiyi psixoloji izah verilir, həmçinin real həyatda qarşılaşdığımız təhtəlşüurun sənətdəki əksi təhlil edilir. Şübhəsiz, Fred bu tədqiqat işlərində sənətkar şəxsiyyətini formalaşdıran motivləri psixoanaliz üsulu ilə tədqiq etmiş, sənətkarı yetişdirən duyğu və təzyiqləri üzə çıxarmağa çalışmışdır. Poetik düşüncənin insan ruhunun, varlığının məhsulu olub, şüuraltında formalaşdığını da unutmaq olmaz.

Beləliklə, poetik düşüncə sənətkarın şüurunda formalaşıb, onu əhatələyən bir zəminə yerləşir. Bədii mətndə poetik təfəkkürün cərəyan etməsi üçün zəminə, müəyyən məkana ehtiyac duyulur. Hansı zamanda və nə məqsədlə yaranmasından aslı olmayaraq, "məkan" ünsürü bədii mətndəki hadisə və obyektlərin təqdim edildiyi səhnə xüsusiyyətini daşıyır. Dolayısı ilə nəql olunan mətn bu səhnə üzərində inşa edilir.

Ədəbiyyatda məkan hadisələrin cərəyan etdiyi, həyatın vüsət aldığı torpaq parçası və ya bir çox rəmzi mənaları özündə ehtiva edir. Ontoloji təhlildə məkan insan varlığının kainatdakı bağlanma yeri, varlıqlar aləmi və nəhayət, insan nailiyyətinin həm nəticəsi (Korkmaz, s.400), həm də aidiyyət duyğusunu mənimsədiyi yaşayış sahəsidir. Bu kimi rəmzi mənalar daşıyan məkan müəllifin həm ideoloji görüşlərinə, həm tarixi, həm də bədii-semantik məzmuna bürünür.

Məkan ünsürləri əbəbi mətndə müəyyən məqsədlərə xidmət üçün daxil edilərək hadisələrin gedişatını formalaşdırır. Bu mənada, məkan ünsürlərini aşağıdakı qaydada ümumiləşdirə bilərik:

1. Qəhrəmanı yönəltmək üçün;
2. Ab-hava yaratmaq üçün;

3. Mühiti tanıtmaq üçün;
4. Məkandan simvol və ya obraz kimi istifadə etmək üçün (Margill, 38).

Bədii mətndə daxili aləmlə fiziki dünyanın dialektliyi içində olan məkan metaforlarla süslənərək həndəsi füqurunu ərsəyə gətirir. Poetik düşüncədə metafor varlıq və ya hadisənin başqa bir varlıqda görünən təsviretmə formasıdır. Təsvir – bədii mətnin qurmaca dünyasında yer alan insan, zaman, obyekt, hadisə və məkan kimi ünsürlərin poetik əksidir. Təsviretmə rəsmi olduğu kimi çəkmək deyil, sənətkarın təsvir edəcəyini xarakterik xüsusiyyətləri ilə qələmə aldığı, tərif edilənin gerçəklik payıdır. Təsvir poetik düşüncəni maddələr halında sabit edən, sadəcə, yeni birləşmələrə açıq olan matrisdir (Todorov, 11). Məkanda metafor oxucunun zehninə xitab edərək xəyal gücünü artırır, onu istiqamətləndirir.

Məkan geniş mənada maddi və mənəvi dəyərlərin əksini özündə ehtiva edir. Məkanayönəlik bu təsəvvürlər zaman içində dəyişikliyə uğramış, amma öz funksionallığını itirməmişdir. Yazar poetik müstəvidə məkanı və onu əhatələyən əşya və ya obyekti bu məkan tipi əsasında dastan motivli əsərlərdə əks etdirmişdir. Burada təsvir edilən məkanın real dünya ilə əlaqədə olması vacib deyil, məkan stilləşdirilmiş məfhumdur. Belə məkan anlayışlarında *dağ, ağac, ocaq, çay, səma* və s. bildiyimiz mənanın xaricində, təsviri xüsusiyyətdən daha uzaq, mövcud olduğu dövrün düşüncəsinə uyğun olan funksional varlıqdır. Zaman keçdikcə bədii mətnin yazılış forması və nəqletmə üslubu dəyişərək yeni məkan anlayışları ortaya çıxmışdır. Bu yenilik şüur və iradə ilə əhatə olunmuş, müstəqil və dinamik şəxs olaraq "insan"ın mətn daxilindəki hərəkətini tənzimləmişdir. Dastanlarda makro ölçüdə verilən məkan, müasir mətndə parçalara bölünmüş şəkildə təqdim olunur. Bu parçalanma yeni vərdişlər, yeni xüsusiyyətlər, yeni fəlsəfi düşüncə, bir sözlə, yeni həyat tərzinin formalaşmasına zəmin yaradır. "Məkan" məfhumu "populyar mədəniyyət" statusu qazanmaqla sabitlik halından çıxır və insan-məkan münasibəti kontekstində yeni funksionallıq qazanır. Bədii mətnə sadə və "bəşəri" don geyindirməklə qəhrəmanın mənsub olduğu sosial-mədəni görüşləri ayna kimi əks etdirir.

Beləliklə, yeni məkan və o məkanda yaşayan qəhrəman yeni sosial status qazanır. Mirzə Cəlil, Mirzə Fətəli Axundzadə, Qasım bəy Zakir,

Məmməd Səid Ordubadi, Hüseyn Cavid, Cəfər Cabbarlı, Səməd Vurğun, Anar, Elçin və başqalarının əsərlərində qəhrəmanla onu əhatə edən mühit arasındakı münasibəti bu yeni əlaqələr fərqlənməklə zaman-insan-məkan kontekstində parçalara ayrılır. Yeni mikroölçülər – qitələr, bölgələr, şəhərlər, kücələr, parklar, köşklər, saraylar, apartmanlar, otellər, sanatoriyalar, bağ evləri... yaranır (M.Tekin, 141).

Beləliklə, məkan sadəcə fiziki mühitin deyil, daxili aləmin üzə çıxmasına vasitə olur, mənsub olduğu milli-mənəvi dünyagörüşünü, milli-kimlik fenomenini açmağa çalışır.

**Məkan milli ünsür kimi**

Milli ünsürlər bir millətin dilində, mədəniyyətində, sosial həyatında, sənətdə və ədəbiyyatda özünütapma və millilik fenomeninin dərki deməkdir. Daha çox ədəbiyyatda özünü göstərən milli ünsürlər fərdin duyğu dünyasına, arzu və xəyallarına, təbiətin saflığına və zənginliyinə yönəlmişdir. Bu mənada milli ünsürlər müxtəlif və geniş şəkildə qarşımıza çıxır. Dünya ədəbiyyatında milli ünsürlər dedikdə inqilablar, mövcud hakimiyyətə baş qaldırma, reform kimi proseslər özünü göstərir. Bir növ siniflərarası toqquşma kimi səciyyələnən bu proseslər hadisələrin müsbət və mənfi tərəflərini deyil, daha çox kim tərəfindən həyata keçirildiyini, hadisələrin mahiyyətini müəyyən edir. Hansısa millətin milli ünsürləri əsasında, ilk növbədə, etnik eynilik və bunun başlıca göstəricisi olan dil, folklor, ənənələr dayanır. Lakin bu, başqalarından fərqlənməyə, diferensiallığa dəlalət edir (T.Mirzəliyev, 21).

Milli ünsür kimi məkanı belə qruplaşdıra bilərik:

1) Üzərində yaşadığımız və sərhədləri müəyyənləşmiş torpaq parçası;
2) Bölünməzlik, Vətənin bütün halı;
3) Hakimiyyətlilik, müstəqil dövlət kimi idarəçilik sistemi olan;
4) Dil, din və milli dəyərləri birləşdirən varlıq;
5) Keçmişdən gələcəyə, nəsildən-nəslə ötürülən tarixi bağlılıq.

Əsasən, qəhrəmanın milli kimliklərini göstərmək üçün məkan ünsürlərindən istifadə edilir. Hələ klassik ədəbiyyatda Nizami Gəncəvi əsərlərində türk kimliyi və onun coğrafiyasını təsvir etmək üçün məkanın

milli ünsürlərindən yararlanmışdır. Belə məkan modeli o mühitdə yaşayan insanların sosial-psixoloji kimliyinə aydınlıq gətirir.

Müəllif poetik məkan sayəsində oxucunu xəyallara aparır, qəhrəmanın yaşadığı mühitə diqqət çəkir. Məkanı rəngləndirən bu ruhsal vəziyyət məkanın poetikliyini artırır.

Belə əsərlər obrazların davranışları mühitində bəlli bir mövqe qazanmış, istedadlı, qabiliyyətli insanların ayıqlıqlarını itirdikləri zaman millətin, fərdin və nəhayət, özlərinin necə faciələrlə qarşılaşa biləcəklərini göstərir (T.Məmməd, 51).

Azərbaycan ədəbiyyatında coğrafi məkanların təsviri özünəməxsus yer tutur. Xüsusən mədəniyyət məkanı kimi tanınan Şuşa ədəbiyyatımıza, söz və sənətə verilən dəyərin göstəricisidir. Şuşa sadəcə coğrafi məkan deyil, eyni zamanda, ədəbi prosesin formalaşdığı yaradıcılıq mühitidir.

Qısası, Şuşa həm insanda şairlik ruhunu oyadan bədii məkan, həm də əsərdə psixoloji ovqatı əks etdirən bədii obrazdır. Təsadüfi deyil ki, Qasım bəy Zakir, Baba bəy Şakir, Məhəmməd bəy Aşiq, Natəvan, Nəvvab, Fatma xanım Kəminə, Əbdürrəhim bəy Haqverdiyev, Nəcəf bəy Vəzirov, Yusif Vəzir Çəmənzəminli, Üzeyir Hacıbəyli, Əhməd Ağaoğlu kimi yazıçı və mütəfəkkirlərimiz Şuşada yetişib yaradıcılığa başlayıblar.

Şuşa ədəbi məclisləri arasında "Məclisi-üns" və "Məclisi-fəramuşan"ın ədəbiyyata, incəsənətə, mədəniyyətə verdiyi töhfələr xüsusi fərqlənir, həmin məclislərin mövcudluğu Şuşanın poetik məkandakı mövqeyini əks etdirir. Belə ədəbi məclislər həm də musiqi məclisi hesab edilir. Musiqi məclisləri bəzən şeir məclisləri ilə birlikdə olsa da, onlara xüsusi günlər də ayrılırdı. Həmin vaxtlar "Məclisi-üns"də musiqi məclislərinə Növrəs başçılıq edirdi. Nəvvab özü həm də musiqişünas olduğundan, "Məclisi-fəramuşan"ın musiqi yığıncaqlarını həm özü, həm də Hacı Hüsü aparırdı. Hacı Hüsü "Məclisi-fəramuşan"ın içərisində "Xanəndələr məclisi" də qurmuşdu (T.Məmməd). Bu məclislərdə musiqiyə elmi münasibət bəslənir, söz və musiqi vəhdətdə təqdim olunurdu. Mənfur qonşuların işğalçı niyyəti belə ədəbi məclislərin Şuşada keçirilməsinə son qoyur.

"Şuşanın dağları – başı dumanlı" mahnısında Şuşa obrazını formalaşdıran "başı dumanlı" sözləri Məmməd Səid Ordubadinin "Dumanlı Təbriz" tarixi romanında olduğu kimi, təbiət hadisəsinə deyil, Şuşada baş

vermiş gərgin, qanlı-qadalı ictimai-siyasi və tarixi hadisələrə mahnı dili ilə edilmiş bir işarətdir. Həmin məqamda Şuşa haqqında oxuduqlarıma uyğun olaraq, "Şuşanın dağları başı dumanlı" sözləri XVIII əsrdə Ağa Məhəmməd şah Qacarın Şuşaya hücum etməsi, İran şahının öldürülməsi və sonradan hakimiyyəti ələ keçirmiş Məhəmməd bəy tərəfindən Molla Pənah Vaqifin qətlə yetirilməsi hadisələrini mənalandıran misra kimi qəbul edilə bilər (İ.Həbibbəyli). Burada məkan ünsürü olan Şuşa müəllifin təxəyyülünü deyil, reallığı olduğu kimi təqdim etmək üçün simvolik məna qazanır.

Bəzi əsərlərdə məkan geniş və açıq məkan kimi təsvir edilir. Əsasən sosial məsələlərə diqqət çəkərək qəhrəmanın kimliyini yönləndirən amil kimi istifadə olunur. Burada yaşayan insanlar talenin hökmünə boyun əymiş, yoxsul və acınacaqlı vəziyyətdə təsvir edilirlər. Elçin Mehrəliyevin "Yurd yeri" pyesində öz torpaqlarından didərgin düşən insanların çadırlarda acınacaqlı vəziyyətdə yaşamaları bu mənada diqqəti çəkir:

"Mahal *(ürəyində)*: Bu qışı da çadırda keçirtdik. Altı ildir... Bir igidin ömrüdür altı il. Kənd salamat qalsaydı, neçə ev tikilmiş, neçə bağ salınmışdı... hm.. (*Acı-acı gülümsünür.)* Kənddən çıxhaçıxda bir-iki ting calamışdım, salamatdırsa indi bar verir... Eh, Güllü dözmədi bu dərdə, gözləyə bilmədi. Torpaq deyə-deyə, Cəlil deyə-deyə getdi. Yurd dərdinə tap gətirməyənlər beləcə qırılırlar..." (E.Mehrəliyev, 481).

Doğma torpağa olan həsrət və Şuşa nisgili Mahal kişinin psixoloji ovqatını formalaşdırmaqla məkunlaşdığı çoğrafiyanı şərtləndirir. Bu məkandakı insanlardan kimi ruhən, kimi də fiziki olaraq əlil kimi olur. Bu mühiti dəyişmədikcə insan da dəyişməz.

Bəzən məkan ünsürü qarşıda cərəyan edən pis və ya yaxşı hadisələri vurğulamaq üçün işlənir. Belə mətndə məkan poetik məna çaları qazanır:

*Bu gecə yuxuma girmişdi Şuşa,*
*Cabbar ağlayırdı, Xan ağlayırdı.*
*Dönmüşdü qanadı qırılmış quşa,*
*Qarabağ başabaş qan ağlayırdı*

***(Z.Yaqub)***

Zəlimxan Yaqubun şeirindən nümunə gətirdiyimiz bu dördlükdə baş vermiş müsibət və təlaş yuxuda Şuşanın dilə gəlişi ilə verilir. Sabirin "Yatmışları razı deyiləm kimsə oyatsın..." misrasını xatırladan bu şeirdə məkan kimi verilən Şuşa qəflətdə yatan kimsələri poetik obrazla oyatmağa çalışır.

Bəzən isə məkana qəhrəmanın kimliyi ilə birlikdə içində yaşadığı mühitin sosial-mədəni görünüşünü də təsvir etmək üçün müraciət edilir.

Sovet dövründə Şuşa mədəniyyət ocağı olmaqla bərabər, həm də vətəndaşların istirahət etdikləri dincəlmə və sağlamlıq mərkəzi idi. Elçinin "Şuşa dağlarını duman bürüdü" hekayəsində mühit əsərin qəhrəmanı olan Cavanşirin dünyagörüşü vasitəsilə təsvir edilir. Cavanşir verdiyi məlumatlarla həm öz sərgüzəştlərini, həm bu sərgüzəştin cərəyan etdiyi sosial mühiti, həm də bu mühitdə formalaşan mədəniyyəti oxucuya tanıdır.

Məkan – təsviri ifadə formasıdır. Baxılan məkan baxan şəxsin psixoloji ovqatının, mədəniyyətinin güzgüdəki əksini ifadə edir, eyni zamanda, müsbət və mənfi olanı əks etdirir. Lakin bu da nisbi bir anlayışdır. Əgər psixoloji mahiyyəti etibarilə əsərdəki obrazlar müsbət yüklüdürsə, onda məkanı gözəl görür və ya əksinə, gərginlik və təlaş içindədirsə, məkanı daha bədbin görür.

Bəzən məkan funksionallığının xaricində qəhrəman kimi təsvir edilir və bəşəri xüsusiyyət qazanır. Şuşa eyni zamanda, bəşəri simvoldur. Rəşadətli Ordumuzun 44 günlük müharibədə göstərdiyi şücaət bu bəşəri simvolun göstəricilərindən biridir. Səkkiz noyabr 2020-ci il tarixdə Azərbaycan Respublikasının Prezidenti, Qalib Ali Baş Komandan İlham Əliyevin ümummilli lider Heydər Əliyevin Fəxri xiyabandakı məzarını ziyarət etdikdən sonra, Şəhidlər xiyabanından bəyan etdiyi aşağıdakı sözlər Qarabağ savaşının Qələbə parolu kimi səslənmişdir: "Əziz Şuşa, sən Azadsan! Əziz Şuşa, biz qayıtmışıq! Əziz Şuşa, biz səni dirçəldəcəyik!". Artıq "başı dumanlı" olan Şuşa psixoloji ovqatı, baş vermiş müsibətin xəbərçisi kimi deyil, damarlarda qan çağlayan müstəqil bir obraz, sülh və azadlıq təcəssümüdür.

**Nəticə**

Məkanın milli ünsür olaraq poetik düşüncə kimi təhlil edildiyi bu məqalədə məkanın eposdan müasir dövrədək keçdiyi yolda dəyişikliklərə məruz qaldığı, *apriori* kökünə bağlı olduğu, poetik düşüncə məhsulu olsa da, yazarın xəyalının əksi deyil, həm də yaratdığı xəyalın oxucunun içində kök saldığı nəticəsinə gəlinmişdir. Məkanayönəlik təsəvvürlər zaman içində dəyişikliyə uğrasa da, funksionallığını itirməmişdir. Dastanmotivli əsərlərdə yazarın poetik müstəvidə məkan və onu əhatələyən əşya, yaxud obyekti stilləşmiş şəkildə özünü göstərsə də, yeni ədəbi mətnlərdə məkanın daha dəyişkən və rəngarəng olduğu təyin edilmişdir. "Məkan" məfhumunun bədii əsərə qatdığı yenilik müxtəlif aspektlərdən təhlil edilmiş və konkret nümunələrdə öz əksini tapmışdır. Artıq "məkan" məfhumu "populyar mədəniyyət" statusu qazanmaqla sabitlik halından çıxır və insan-məkan münasibəti kontekstində yeni funksionallıq qazanır. Bədii mətnə sadə və "bəşəri" don geyindirməklə qəhrəmanın mənsub olduğu sosial-mədəni görüşlərini ayna kimi əks etdirir.

Azərbaycan ədəbiyyatında, xüsusən coğrafi məkanların təsviri millilik təcəssümü kimi çıxış edərək həm milli kimliyi, həm də onun coğrafiyasını əks etdirir. Belə əsərlər obrazların davranışları mühitində bəlli bir mövqe qazanmış, istedadlı, qabiliyyətli insanların ayıqlıqlarını itirdikləri zaman millətin, fərdin və nəhayət, özlərinin necə faciələrlə qarşılaşa biləcəklərini göstərmişdir.

# ƏDƏBİYYAT


Azərbaycan dramaturgiyası antalogiyası. (2007). “Yurd yeri”, Bakı: “Şərq-Qərb”.

Eagleton T. (2018). “Edebiyat kuramı”, İstanbul, Ayrıntı Yayınları.

Həbibbəyli İ. (2021). “Böyük qayıdışın şah əsəri – Şuşa!”, https://525.az/news/176940-boyuk-qayidisin-sah-eseri-susa

Korkmaz R. (2004). “Yeni türk ədəbiyyatı əl kitabı”, Ankara: Ayrıntı Yayınları.

Magill F.A. (2007). “Şotlandiya və Azərbaycan ədəbiyyatında yaşayış məskəni bədii obraz kimi” filologiya elmləri namizədi alimlik dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiya işi, Bakı.

Məmməd T. (2020). “Milli kimlik və bədii mətn”, Bakı: “Elm və təhsil”.

Məmməd T. (2020). “Şuşa ədəbi məclisləri: funksiya və missiya”, https://edebiyyatqazeti.az/news/sience/6494-susa-edebi-meclisleri-funksiya-ve-missiyasi

Mirzəliyev T. (2019) “Əhməd bəy Ağaoğlu”, Bakı: “Elm və təhsil”.

Todorov T. (2014). “Poetikaya giriş”. İstanbul: Metis eleştiri.

*Гюнель Искендерова*

# ШУША-ПОЭТИКА ПРОСТРАНСТВА

## РЕЗЮМЕ

Поэтическое мышление — это внезапно проявляющийся рельеф пространственных чувств, в то же время художественное отражение психологического настроя. Эмоция — это не отголосок тоски по прошлому, а поэтическая мысль, резонирующая с заревом первой мечты прошлого. Для отражения поэтического мышления в художественном тексте, необходимо определенное пространство. Независимо от того, когда и с какой целью он создается, элемент «пространство» имеет характер сцены, в которой представлены события и предметы в художественном тексте. Пространство также является метафорическим отражением поэтической мысли.

Со временем менялись форма написания и повествовательный стиль художественного текста, возникали новые пространственные концепции. Понятие пространства уже теряет устойчивость, получив статус «массовой культуры», и обретает новую функциональность в контексте человеко-пространственных отношений. Одетый в простое и «человеческое» одеяние, художественный текст отражает социокультурные взгляды главного героя. Описание географических мест занимает особое место в азербайджанской литературе. Известная как пространство культуры, Шуша является показателем ценности, придаваемой нашей литературе, слову и искусству. Шуша – это не только географическое пространство, но и творческая среда, в которой формируется литературный процесс. Одним словом, Шуша — это и художественное пространство, пробуждающее в человеке дух поэзии, и художественный образ, отражающий психологический настрой в произведении. Не случайно наши писатели и мыслители, такие как Гасым бек Закир, Баба бек Шакир, Мухаммед бек Ашиг, Натаван, Навваб, Фатма-ханым Кяминя, Абдуррахим бек Хагвердиев, Наджаф бек Везиров, Юсиф Везир Чеменземинли, Узеир Гаджибейли, Ахмед Агаоглу, начали творческий путь в Шуше.

***Ключевые слова:*** *пространство, поэтика, национальные элементы, Шуша.*

*Gunel Isgandarova*

# SHUSHA-POETRY OF SPACE

## ABSTRACT

Poetic thinking is both an immediate release of spatial emotions and an artistic reflection of psychological mood. Emotion is a poetic thought that resonates with the glow of the first dream of the past, not an echo of longing for the past. A certain amount of space is required for poetic thought to flow in a literary text. The element of "space" has the character of a scene in which events and objects in a literary text are presented, regardless of when and for what purpose it is used. Space also serves as a metaphor for poetic thought.

Over time, new spatial concepts have emerged, changing the form of writing and the style of transmission of the literary text. The concept of space is already gaining stability from the status of “popular culture” and gaining new functionality in the context of human-spatial relations. Dressed in a simple and “human” dress, the literary text reflects the socio-cultural views of the protagonist. The description of geographical places has a special place in Azerbaijani literature. Known as a place of culture, Shusha is an indicator of the value given to our literature, words and art. Shusha is not only a geographical place, but also a creative environment where the literary process is formed. In short, Shusha is both an artistic space that awakens the spirit of poetry in a person, and an artistic image that reflects the psychological mood in the work. It is not accidental that our writers and thinkers such as Gasim bey Zakir, Baba bey Shakir, Mahammad bey Ashig, Natavan, Navvab, Fatma khanum Kamina, Abdurrahim bey Hagverdiyev, Najaf bey Vazirov, Yusif Vazir Chamanzaminli, Uzeyir Hajibeyli, Ahmad Agaoglu started their creative work in Shush.

***Keywords:*** *Space, poetics, national elements, Shusha*

# ŞUŞALI İCTİMAİ-SİYASİ XADİMLƏRİN AZƏRBAYCANIN İNKİŞAF TARİXİNDƏ ROLU

***Rəhman Abbaszadə,***
*Anadolu Universitetinin*
*İctimaiyyətlə əlaqələr, reklamçılıq*
*və korporativ kommunikasiya*
*ixtisası üzrə magistrantı*
rahman.a.abbas@gmail.com

## XÜLASƏ

Məqalənin əsas məqsədi Vətənimizin rifahı, inkişafı yolunda şuşalı ictimai-siyasi xadimlərin böyük rol oynadığını göstərməkdir. Araşdırma zamanı haqqında bəhs edilmiş görkəmli ictimai-siyasi xadimlərin Vətənimiz və xalqımız naminə göstərdikləri fədakarlıqlar, xidmətlər təhlil edilmişdir. Bu kontekstdə adları qeyd olunmamış Azərbaycanın bir sıra görkəmli ictimai-siyasi xadimi kimi, şuşalı ictimai-siyasi xadimlər də dövlətimizin güclənməsi və tərəqqisi naminə mübarizə aparmış, həmçinin bu şanlı mübarizədə Vətənimizin və xalqımızın milli mənafeyi uğrunda canlarını fəda etməyə hazır olmuş qüdrətli şəxsiyyətlər olmuşlar. İstər Əhməd bəy Ağayevin Şuşada ilk kitabxana və qiraətxana açdırması, İbrahimxəlil xanın oxumağa və elmə həvəs göstərən insanlar üçün hər cür şərait yaratması, istərsə də Xudadat bəy Məlik-Aslanovun təşkilatçılığı ilə 1919-cu ildə Bakıda Ana dilində dərs keçilən ilk Dəmir Nəqliyyatı Məktəbinin istifadəyə verilməsi kimi məsələlərə diqqət yetirmək olduqca məqsədəuyğundur. Təbii ki, Azərbaycanın inkişafı üçün əvəzsiz xidmətlər göstərmiş digər şuşalı ictimai-siyasi xadimlərin də qısa fəaliyyətlərindən bəhs etmək olar. Siyasi, hərbi, mədəni, iqtisadi, sosial və digər sahələrdə ölkəmizin inkişafı yolunda edilən xidmətlərlə əlaqəli konseptual xarakterli, önəmli elmi-nəzəri əhəmiyyətli tədqiqatların mövcud olması ayrı-ayrılıqda şuşalı ictimai-siyasi xadimlər dövrünün tariximizin zəngin

bir mərhələsi hesab olunmasının əsas faktorlarındandır. Bu məsələ kontekstində ictimai-siyasi xadimlərin fəaliyyətlərinin forması və xarakteri araşdırma predmetinə çevrilir. Həmin dahi şəxsiyyətlərin etdikləri böyük işlər və xidmətlər ölkəmizin dövlətçilik tarixində həlledici mərhələ kimi hər zaman yüksək dəyərləndirilməlidir.

*Açar sözlər*: *şuşalı ictimai-siyasi xadimlər, Azərbaycanın inkişafı, dövlətçilik tarixi.*

## Giriş

Tarixboyu Azərbaycanın inkişafı, tərəqqisi naminə böyük töhfələr vermiş neçə-neçə görkəmli sima yetişmişdir. Bu dahi şəxsiyyətlər istər ictimai-siyasi xadim, istər sərkərdə, elm xadimi, yazıçı və ya şair, yaxud incəsənət xadimi olsun, dövlətimizin yüksəlişi yolunda böyük rol oynamışlar. Bu yolda əvəzsiz xidmətlər göstərmiş ictimai-siyasi xadimlərimiz də az olmamışdır. Ölkəmizin bir sıra bölgələrindən olduğu kimi, mədəniyyət paytaxtımız Şuşadan da bir sıra qüdrətli ictimai-siyasi xadimlər Azərbaycanın inkişaf tarixinə öz adlarını qızıl hərflərlə yazdırmışlar. Onlar üçün hər zaman önəmli bir şüar olmuşdur: "Azərbaycanın və xalqımızın inkişafı naminə çalışmaq və bu yolda ola biləcək bütün çətinliklərə qəhrəmanlıqla sinə gərməyi bacarmaq". Vətənimizin bu qeyrətli və igid şəxsiyyətləri bu şüarın haqqını layiqli verə bilmişlər. Onlar heç zaman ruhdan düşmədən inamla mübarizələrini davam etdirmişlər. Bu da təsadüfi deyildi, çünki onların baş vurduqları bu çətin və şərəfli yolda güc aldıqları Vətən və xalq sevgisi var idi. O sevgi ki, həmçinin Azərbaycanın inkişaflı gələcəyinə də işıq salırdı.

## Pənahəli xan ilk şuşalı ictimai-siyasi xadim kimi

Görkəmli şuşalı ictimai-siyasi şəxsiyyətlərdən biri 1748-ci ildə Qarabağ xanlığının əsasını qoymuş Pənahəli xan olmuşdur. Araz və Kür çayları arasında yerləşən bu ərazi Şəki, İrəvan, Naxçıvan, Gəncə, Qaradağ, Cavad və Şamaxı xanlıqları ilə həmsərhəd idi. Pənahəli xan dövlətin strateji baxımdan daha da güclənməsi üçün 1748-ci ildə Kəbirli mahalında

Bayat qalasını, 1751-ci ildə isə Tərnəkütdə Şahbulağı qalasını tikdirmişdir. Bu qala coğrafi cəhətdən əlverişli ərazidə yerləşmədiyi üçün Pənahəli xanın əmri ilə həmin ildə Şuşa qalasının inşasına başlanıldı və qalanın tikintisi 1756-1757-ci illərdə başa çatdırıldı (Zaqafqaziya Seymi 2006, 216). Şuşa qalası istər siyasi, istərsə də iqtisadi paytaxt kimi Qarabağ xanlığında olduqca mühüm yerə sahib olmuşdur.

Pənahəli xan olduqca vətənpərvər, xalqının və dövlətinin inkişafı naminə mübarizə aparan nümunəvi lider olmuşdur. Onun uzaqgörən, düzgün siyasəti nəticəsində bir sıra qonşu xanlıqlar və xanlıqların tərkibində olan məliklər onunla dostluqlar qurmağa başlamışlar. O, təkcə Bayat, Şahbulaq və Şuşa qalalarının deyil, həmçinin Əsgəran və Qarabağ xan sarayının yaradıcısı olaraq adı böyük fəxarət hissi ilə çəkilən hökmdardır. Şuşa qalasını tikdirdikdən sonra Pənahəli xan burada sikkəxana da açdırmış və həmin sikkəxanada "Pənahabad" adlı sikkə də tədavülə buraxılmışdır. Hazırda Azərbaycan Tarix Muzeyində qorunub-saxlanılan Pənahabad sikkəsi və həmçinin Şuşa qalasının parad açarı bizlərə Pənahəli xanı xatırladan dəyərli tarixi sənət nümunələridir.

## Pənahəli xanın layiqli davamçısı – İbrahimxəlil xan

Qarabağ xanlığının əsasını qoymuş Pənahəli xanın oğlu və layiqli davamçısı İbrahimxəlil xan, təxminən, 1726-cı ildə Şuşa yaxınlığında dünyaya gəlmişdir. O,1759-1806-cı illərdə Qarabağ hakimi olmuşdur. İbrahimxəlil xan Qarabağın üçüncü xanı idi. Onun dövründə Qarabağ xanlığı istər elm, istərsə də mədəniyyət və incəsənət baxımından çox böyük sürətlə inkişaf etmişdir. Oxumağa və elmə həvəsli, bilikli insanlar üçün hər cür şərait yaradılırdı. Şuşada elm, incəsənət və mədəniyyət işçilərindən təşkil olunmuş ziyalı təbəqə xanlığın sosial və ictimai baxımdan inkişafında olduqca mühüm rol oynamışdır. Tikinti işləri də İbrahimxəlil xanın dövründə geniş yayılmışdı.Yeni xan sarayları, qala divarları, məktəblər və yaşayış evləri tikildikcə, Şuşa daha da abadlaşır və inkişaf edirdi.

**Qüdrətli ictimai-siyasi xadim – Əhməd bəy Ağayev**

Azərbaycanla yanaşı, Türkiyənin də ictimai-siyasi xadimi olmuş Əhməd bəy Ağayev 1869-cu ildə Şuşada dünyaya gəlmişdir. İbtidai və orta təhsilini Şuşada almış Əhməd bəy Ağayev daha sonra Parisdə hüquq məktəbini və Sarbonna Universitetini bitirmişdir. O, Fransada təhsil aldığı illərdə gənc türklərlə dostluq və qardaşlıq əlaqələrini gücləndirmiş, bununla da onların türk xalqları ilə bağlı özünüdərk ideyalarını böyük həvəslə dəstəkləmişdir. Əhməd bəy Ağayev 1884-cü ildə Azərbaycana qayıdaraq "Kaspi", "İrşad", "Həyat", "Tərəqqi" qəzetləri ilə əməkdaşlıq qurmuşdur. 1896-cı ildə Şuşada ilk kitabxananın və qiraətxananın açılması da onun adı ilə bağlıdır (Y. Çəmənzəminli 2005, 394). Əhməd bəy Ağayev 1897-ci ildə H.Z.Tağıyevin dəvəti ilə Bakıya gələrək "Kaspi" qəzetində maarifləndrici məqalələr yazmışdır. Həmçinin Ə.Hüseynzadə ilə birlikdə "Həyat" qəzetində redaktorluq fəaliyyəti ilə də məşğul olmuşdur (V.İmanov, Ə.Topçubaşov 2003, 33). 1905-ci ildə gizlin şəkildə "Difai" təşkilatını qurmuş Əhməd bəy Ağayev bununla çar hökumətinə və mənfur erməni qüvvələrinə qarşı qəhrəmanlıqla mübarizə aparırdı (A.Balayev, M.Ə.Rəsulzadə 2014, 191). Əhməd bəy Ağayevın türk xalqlarının milli oyanışına, özünüdərkinə, ruhən və mədəni yaxınlaşmasına, inkişafına xidmət edən yazılarını görükcə nə qədər vətənpərvər, yurd eşqi ilə ürəyi döyünmüş bir şəxsiyyət olduğunun bir daha şahidi oluruq. 1908-ci ildə Əhməd bəy Ağayev İstanbula səfər edir və burada "Birlik və tərəqqi" partiyasına daxil olur. O, həmçinin Süleymaniyyədə kitabxana direktoru olmuş, "Türk yurdu" jurnalında redaktor vəzifəsində də çalışmışdır. Türkiyə Ordusu 1918-ci ildə qardaş Azərbaycan Xalq Cümhuriyyətinin köməyinə gəldiyi zaman Əhməd bəy Ağayev Türkiyə Ordusu komandanının siyasi müşaviri kimi vətəni üçün layiqli xidmət etmişdir. O, Bakıda Azərbaycan parlamentinə üzv seçildikdən sonra, Azərbaycan nümayəndə heyətinin tərkibində Versal sülh konfransında da iştirak etmişdir. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 7 may 2019-cu il tarixli, 211 nömrəli Qərarı ilə əsərləri dövlət varidatı elan edilən müəlliflərin siyahısına böyük bir qürur hissi ilə Əhməd bəy Ağayevin də adı daxil edilmişdir.

**Görkəmli siyasi və dövlət xadimi Xudadat bəy Məlik-Aslanov**

Xudadat bəy Ağa oğlu Məlik-Aslanov 1879-cu ildə Şuşada dünyaya gəlmişdir. Görkəmli dövlət və siyasi xadim olmuş Xudadat bəy Şuşa məktəbinin yetirməsi idi. O, həmçinin 1904-cü ildə Peterburq (indiki Sankt Peterburq) Yol Mühəndisliyi İnstitutuna qəbul olunmuş və həmin ildə də oranı I dərəcəli diplomla müvəffəqiyyətlə bitirmişdir. Xudadat bəy Məlik-Aslanov Zaqafqaziya Komissarlığında və 1918-ci il aprelin 26-da qurulmuş Zaqafqaziya Federativ Respublikasında dəmiryol nəqliyyatı komissarı və naziri vəzifəsinə layiq görülmüşdür. Həmin vəzifələrdə işlədiyi müddətdə Xudadat bəyin Qafqaz dəmir yolu nəqliyyatı tarixinə həsr etdiyi kitabı nəşr olunmuşdur. O, Zaqafqaziya Seymində "*Müsəlman fraksiyası*"nın, 1918-ci il mayın 27-də Tiflisdə Məhəmməd Əmin Rəsulzadənin rəhbərliyi altında təşkil olunmuş Azərbaycan Xalq Cümhuriyyəti Milli Şurasının üzvü olmuşdur (Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi Prezident Kitabxanası, 2003, 29). Azərbaycan 1918-ci ilin may ayına qədər müstəqil bir dövlət deyildi. Yalnız həmin ilin 28 may tarixində ölkəmiz öz müstəqilliyini əldə etdi. Həmin gün Tiflisdə Azərbaycan Xalq Cümhuriyyəti qurulduğu zaman Fətəli xan Xoyskinin sədrliyi ilə birinci milli müvəqqəti hökumət 9 nazirlikdən ibarət idi. Bu nazirliklərə dəmir yolu, poçt və teleqraf nazirlikləri daxil idi. O zaman müstəqil Azərbaycan Cümhuriyyətinin ilk yollar, poçt və teleqraf naziri vəzifəsi də bu sahəni dərindən bilən bir mütəxəssis kimi Xudadat bəy Məlik-Aslanova həvalə edildi. Xudadat bəy rəsmən dəmiryol nəqliyyatı naziri olsa da, həmçinin bütün növ hava, quru və su yolları naziri kimi də fəaliyyət göstərmişdir. Məlik-Aslanov 1919-cu il fevral ayının 18-dək müvəqqəti olaraq ticarət, sənaye və ərzaq nazirinin səlahiyyətlərini də icra etmişdir. Azərbaycan Xalq Cümhuriyyətinin 1-ci hökumət kabinetində (28 may – 17 iyun 1918-ci il) hələ də partiya mənsubiyyəti üzrə tərəfsiz olan Xudadat bəy Məlik-Aslanov ümumi rəy birliyi əsasında əvvəllər bu sahədə çalışmış, peşəkar və təcrübəli bir mütəxəssis kimi dəmiryol nəqliyyatı, poçt və teleqraf naziri seçiləndə də, II hökumət kabineti zamanı (17 iyun – 7 dekabr 1918-ci il) yenə həmin vəzifəni davam etdirəndə də Azərbaycanda dəmir yolu, digər yol sahələrinin, poçt və teleqraf sistemlərinin təşəkkülü və inkişaf etdirilməsi üçün əlindən gələni əsirgəməmişdi. Xudadat

bəy Məlik-Aslanov Azərbaycan Xalq Cümhuriyyətinin yollar, poçt və teleqraf naziri vəzifəsində 1918-ci il oktyabrın 6-a qədər çalışmışdır. Bu tarixlərdə II hökumətin tərkibində mühüm kabinədaxili islahatlar aparıldı. Həmin vaxt ayrıca olaraq Yollar Nazirliyi və müstəqil Poçt və Teleqraf Nazirliyi yaradıldı. Xudadat bəy Məlik-Aslanov müstəqil yollar naziri olaraq fəaliyyət göstərdi. O, bu vəzifədə AXC-nin süqutuna kimi xidmət göstərdi. 1918-ci il dekabrın 7-də Bakıda Azərbaycan Parlamentinin möhtəşəm açılışı baş tutdu. Məlik-Aslanov Milli Şuranın 1918-ci il 19 noyabr tarixli "*Azərbaycan Məclisi-Məbusanın qurulması haqqında qanuna*" əsasən Azərbaycan Parlamentinin tərkibinə qatıldı. Azərbaycan Parlamenti rəsmi olaraq 120 nümayəndədən təşkil olunmuşdu. Parlamentin milli tərkibi əksəriyyət təşkil edən müsəlmanlardan başqa 21 erməni, 10 rus, həmçinin polyak, yəhudi deputatlardan və başqa milli azlıqları təmsil edən deputatlardan ibarət idi. Məlik-Aslanov Azərbaycan Parlamentinin daxilində "*Müstəqillər fraksiyası*"nda təmsil olunurdu. Parlamentdə bu fraksiyanın ümumi olaraq dörd nəfərdən ibarət nümayəndəsi vardı. Onun adı "*Müstəqillər fraksiyası*"nın parlamentə təqdim olunmuş nümayəndələrinin cərgəsində sayca 3-cü (Əlimərdan bəy Topçubaşov və Səməd bəy Mehmandarovdan sonra) çəkilirdi. Xudadat bəy Məlik-Aslanovun istəyi və təşkilatçılığı ilə 1919-cu ildə Bakıda ana dilində dərs keçilən ilk dəmir nəqliyyatı məktəbi istifadəyə verilmişdi. O, Azərbaycan Parlamentində 1919-cu ilin martında yaradılan əlifba islahatı üzrə xüsusi komissiyanın rəhbəri təyin edilmişdi. Onun başçılığı altında latınqrafikalı əlifbaya keçilməsinə dair bir neçə qanun layihəsi hazırlanmışdı. Komissiyanın təşkil etdiyi tədbirlər planını parlament təsdiqləyir, ancaq Azərbaycan Xalq Cümhuriyyəti süquta uğradığından, bu məsələni gerçəkləşdirmək baş tutmur. 1919-cu il 11 iyun tarixində Azərbaycan Xalq Cümhuriyyətinin xüsusi fövqəladə səlahiyyətli ali orqanı – respublika Dövlət Müdafiə Komitəsi (DMK) quruldu. Nazirlər Şurasının rəhbəri Nəsib bəy Yusifbəylinin başçısı olduğu DMK-in birinci müavini vəzifəsinə Xudadat bəy Məlik-Aslanov təyin olundu. O, həmçinin böyük əzmlə Nazirlər Şurasının rəhbəri vəzifəsini də həyata keçirirdi. Buna nümunə olaraq, Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurasının başçısı N. Yusifbəylinin 1919-cu il 23 iyul tarixli 33 nömrəli əmrini göstərə bilərik.

Rəsmi dövlət orqanı "Azərbaycan" qəzetində dərc edilmiş bu elanda qeyd edilirdi ki, həmin tarixdən xidməti ezamiyyətə getməsi səbəbindən Bakını tərk etdiyi üçün Nazirlər Şurasının rəhbəri vəzifəsinin müvəqqəti icra edilməsi yollar naziri Xudadat bəy Məlik-Aslanova tapşırılır. Xudadat bəy Məlik-Aslanov 1920-ci ilin 27–28 aprel işğalından sonra, Azərbaycan Xalq Cümhuriyyətinin ictimai xadimi olmasına baxmayaraq, Azərbaycan SSR-ə gərəkli olan olduqca mühüm bir mütəxəssis kimi öz ixtisası üzrə sədr vəzifələrində fəaliyyət göstərmişdir. Belə ki, o, 1921-ci ilin əvvəllərindən Azərbaycan SSR Dövlət Tikinti Komitəsində öncə şöbə rəisi, daha sonra isə komitə rəhbəri işləmişdi. Sonra o, Azərbaycan Ali Xalq Təsərrüfatı Şurası yanında Dəmir Yol Tikintisi İdarəsinin başçısı, Şuranın məsləhətçisi kimi də işləmişdir. Məlik-Aslanov 1922–1930-cu illərdə Azərbaycan SSR Dövlət Plan Komitəsinin Sənaye-Nəqliyyatı Bölməsinin sədri (1923–1925) və Rəyasət Heyətinin üzvü (1922–1924), Zaqafqaziya Dəmir Yolu İdarəsinin üzvü, Azərbaycan Politexnik İnstitutu İnşaat fakültəsinin Yol, sənaye, nəqliyyat və tikinti bölməsinin başçısı, həmin fakültənin dekanı (1924–1930), Azərbaycan SSR Ali Texnika Komitəsinin rəhbərinin müavini (1928), RSFSR və Azərbaycan SSR-in bir sıra elmi-texniki və mədəni-maarif qurumlarının üzvü (1921–1930), SSRİ Ali Xalq Təsərrüfatı Şurasının Elmi-Texniki Kollegiyasının üzvü, Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinin (MİK) üzvlüyünə namizəd və üzvü (1926–1930), Zaqafqaziya MİK-in üzvlüyünə namizəd olmuşdur. Xudadat bəy Məlik-Aslanovun 1921–1929-cu illərdə Moskvanın jurnallarında bir sıra elmi məqaləsi çap edilmişdir. Azərbaycan Politexnik İnstitutunun nəşriyyatında 1927-ci ildə, Azərbaycan Dövlət Nəşriyyatında isə 1929-cu ildə Xudadat bəyin dəmir yolu texnikasına dair iki kitabı dərc olunaraq ona böyük uğur gətirmişdir. 1929-cu ildə Azərbaycan SSR MİK-in qərarı ilə Məlik-Aslanov Azərbaycan Dövlət Elmi-Tədqiqat İnstitutunun həqiqi üzvlüyünə layiq görülmüşdür. O, 1930-cu ildən Azərbaycan Neft İnstitutunun Nəqliyyat fakültəsində sədr kimi də fəaliyyət göstərmişdir. 1933-cü ilin iyulunda həbsdən çıxan Xudadat bəy sentyabrın 1-dən Azərbaycan Nəqliyyat İnstitutunda Dəmiryolu nəqliyyatı kafedrasına və Azərbaycan İnşaat İnstitutunda İnşaat işinin təşkili kafedrasına başçılıq etmişdir. Texnika elmləri sahəsində ilk azərbaycanlı professorlardan biri olan Xudadat

bəy Məlik-Aslanov həmçinin fərqli ali məktəblərə dəvət alaraq orada tələbələrə silsilə mühazirələr təqdim edirdi. Xudadat bəy Azərbaycan SSR-də dəmiryol şəbəkəsinin təşəkkül planının hazırlanıb həyata keçirilməsi, şəhərdaxili nəqliyyat və s. məsələlərin həll olunması ilə bağlı 70-dən çox elmi məqalə, o cümlədən dəmir yol nəqliyyatına aid 3 monoqrafiyanın müəllifi idi.

**Azərbaycanın görkəmli şairi – Xurşidbanu Natəvan**

Xurşidbanu Natəvan XIX əsrin görkəmli Azərbaycan şairlərindən biri kimi eyni zamanda ictimai fəaliyyəti ilə də tarixdə özünəməxsus bir yer tutmuşdur. Natəvan xanımın bir şəxsiyyət kimi özünü doğrultmasında, yurduna, doğulduğu vətəninə bağlı olmasında həm də mənsub olduğu soyun, kökün, nəslin böyük təsiri olmuşdur. O, xeyriyyəçi, mesenant və fəal ictimai xadim kimi xalqın dərin rəğbətini qazanaraq bir sıra olduqca mühüm xidmətlər göstərmişdir. Xurşidbanu Natəvan gənc bir şair olaraq Şuşada "Məclisi-üns" ədəbi məclisinin təşkilatçısı idi. 1873-cü ildə Şuşaya su kəmərinin çəkilməsini təmin etmişdir: həmin su kəməri indi də "Xan qızı bulağı" adı ilə tanınır (Natəvan Araz çayından Mil düzünə də su kəmərinin çəkilməsini çox istəyərək bu işin reallaşmağı üçün də cəhd etmişdir (K.Məmmədov 1979, 44–48).

**Siyasi xadim – Dadaş Əbdül Hüseyn oğlu Həsənov**

Dadaş Əbdül Hüseyn oğlu Həsənov (Həsənzadə) Vətənimizin tanınmış siyasi xadimlərindən biri olmuşdur. O, dövlət müstəqilliyinin bərpası uğrunda rəşadətlə mübarizə aparan həqiqi bir vətənpərvər idi. Dadaş Həsənov, həmçinin sovet rejiminə qarşı igidliklə vuruşmuş, gizli çalışan “Müsavat” partiyasının, həmçinin 1921-1923-cü illərdə Bakı Komitəsinin (BK) daxilində fəaliyyət göstərən hərbi təşkilatın sədri, 1923-1926-cı illərdə isə “Gizli Müsavat”ın Mərkəzi Komitəsinin rəhbəri olmuşdur. 1923-cü ildə, Azərbaycan Dövlət Siyasi İdarəsi (ADSİ) məxfi fəaliyyət göstərən Müsavat Partiyasını təqib edərək ona güclü zərbə endirmişdir. Partiyanın aktiv iştirakçıları repressiyalara məruz qalmışdır. Həmin vaxtlarda D. Həsənova xaricə mühacirət etməklə bağlı təkliflər

edilsə də o, bu məsələyə müsbət yanaşmamışdır. Bu tarixi hadisəni Hüseyn Baykara "Azərbaycan istiqlal mübarizəsi tarixi" əsərində bir xatirə kimi belə qeyd etmişdir:

> *Bir gün Əhməd Cavadla qeyri-leqal milli-azadlıq komitəsinin başçısı doktor Dadaş Həsənzadə və komitənin rəhbərlərindən biri olan Rəhim bəy Vəkilli ilə görüşdük.Bir xeyli çəkən müzakirələrdən sonra mən (H. Baykara) qeyri-leqal komitənin görkəmli nümayəndələrinin bir hissəsinin müvəqqəti olaraq Azərbaycandan çıxıb getməsini təklif etdim. Onların hər üçü mənim bu fikrimə razılaşmayaraq dedilər: "Mən gedim xarici ölkəyə, sən get, o getsin, çox gözəl, bəs bu günləri millətə kim dəstək olsun?".*

Beləliklə, Dadaş Həsənov, Əhməd Hacınski, Əli Yusifzadə və digər müsavatçılar bu çətin vəziyyətdə Müsavat Partiyasının fəaliyyətini yenidən əvvəlki vəziyyətinə qaytara bilmiş, sovet hökumətinə qarşı şücaət göstərərək qəhrəmanlıqla mübarizə aparmışlar (Əlizadə A.A 2018, 554-560). Dadaş Həsənov belə düşünürdü ki, qarşıya qoyulan hədəflərə milli ruhda tərbiyə edilmiş "ağılı və dünyagörüşlü kadrların yetişdirilməsi ilə çatmaq olar. Onlar dövlət və təhsil strukturlarına əlavə edilməlidir.

## Böyük ictimai-siyasi xadim – Nəriman bəy Nərimanbəyli

Tariximizdə adını fəxarətlə zikr edəcəyimiz böyük ictimai-siyasi xadimlərdən biri də Nəriman bəy Nərimanbəylidir. Şuşalı bu dahi şəxsiyyət Azərbaycan Xalq Cümhuriyyətinin dövlət nəzarəti naziri, AXC parlamentinin üzvü və həmçinin AXC Milli Şurasının, Zaqafqaziya Seyminin müsəlman fraksiyasının, Müsavat Partiyasının da üzvü olmuşdur. Nəriman bəy Xarkovda təhsil alarkən azərbaycanlı Tələbə Həmyerlilər Təşkilatının sədri vəzifəsinə layiq görülmüşdür. Onun təşkilatı və özünün də iştirakı ilə cəmiyyət üzvlərinin həyata keçirdikləri tamaşalardan gələn gəlir Birinci dünya müharibəsindən zərər görmüş müəllimlərin ailələrinə paylanmışdır (Ə.Çingizoğlu 2009,3-7). O, Bakıya gəldikdən sonra Müsəlman Xeyriyyə Cəmiyyətinin başçılarından biri olmuşdur. Nəriman bəy Nərimanbəyli 15-20 aprel 1917 tarixlərində Bakıda təşkil olunmuş

Qafqaz Müsəlmanları Qurultayında iştirak etmişdir. 27 fevral 1918-ci il tarixdə Müsavat üzvü kimi Zaqafqaziya Seyminə üzv seçilmişdir. O, burada müsəlman fraksiyasının, Müsavat və demokratik bitərəflər komandasının üzvü olaraq, təqdirəlayiq xidmətlər etmiş, 27 may 1918-ci ildə isə Azərbaycan Xalq Cümhuriyyəti Milli Şurasının üzvü kimi də fəaliyyətə başlamışdır. O, burada Müsavat və bitərəflər fraksiyasının üzvü kimi çalışmışdır. Nəriman bəy bundan başqa, İrəvan Milli Komitəsinin üzvü də seçilmişdir. Nəriman bəy Nərimanbəyov Azərbaycanın İstiqlaliyyət Bəyannaməsinin lehinə səs verən və onu nizamlayan səkkiz şəxsdən biri olaraq çox cəsarətli, vüqarlı dövlət xadimi olduğunu da sübut etmişdir.

Nəriman bəy 7 dekabr 1918-ci ildə yüksək xidmətləri və fəaliyyətləri sayəsində Azərbaycan Xalq Cümhuriyyəti Milli Şurasının üzvlüyündən birbaşa olaraq Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin üzvlüyünə layiq görülmüşdür. O, parlamentdə 4 fevral 1919-cu il tarixdə qurulmuş torpaq (Pçelin 1931, 22-23), təftiş, maliyyə və büdcə komissiyalarının üzvü seçilmişdir. 14 mart Nəriman bəy Nərimanbəyli 1919-cu ildə həyata keçirilən I Yusifbəyli hökumətində dövlət nəzarəti naziri (dövlət nəzarətçisi) postuna təyin olundu və hökumətin istefasına qədər bu vəzifədə xidmət etməyə davam etdi (Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası 2005, 472). Nəriman bəy 1920-ci ilin mayından 1934-cü ilin iyuluna qədər müxtəlif fasilələrlə 13 fərlqi qurumda çalışmağa məcbur oldu. O,1920-ci ilin mayından 1921-ci ilin mayınadək Azərbaycan SSR Kənd Təsərrüfatı Xalq Komissarlığında xarici şöbənin rəisi vəzifəsində fəaliyyət göstərmişdir. Ən sonda isə 1943-cü ilin iyul ayında Əli Bayramov adına fabrikdə hüquq məsləhətçisi olaraq işləmişdir. Nəriman bəy Nərimanbəyli 1917-ci ildə Bakıya köçərək Müsavat Partiyasının sıralarına qoşulmuşdur (Cümhuriyyət Qurucuları 2018, 352). O, həmçinin 1917-ci ilin oktyabrında Müsavat Partiyasının I Qurultayının iştirakçısı kimi, şərəfli iş həyatında öz sözünü demişdir. Böyük ictimai-siyasi xadim bir sıra dahilərimiz kimi amansız rejimin qurbanı olmuşdur.

## Nəticə

Dahilər beşiyi olan Azərbaycanın digər bölgələrindən olduğu kimi, elm və mədəniyyət mərkəzi hesab edilən Şuşadan da tarixboyu qüdrətli simalar çıxmışdır. Digər nümayəndələr kimi, şuşalı ictimai-siyasi xadimlər də yaşadıqları müddətboyu doğma yurdları olan Azərbaycan üçün çalışan, xalqın milli-mənəvi mənafeyi uğrunda mübarizə aparmış görkəmli şəxsiyyətlər idilər. Bu insanların sadəcə bir amalı vardı – Vətən və millətin azadlığı, rifahı naminə çalışmaq və mübarizə aparmaq. Qarabağ xanı Pənahəli xan Şuşalı ictimai-siyasi xadimlərin ulu babası kimi nümunə götürülə biləcək bir lider idi. Pənahəli xanın örnək alına biləcək şəxsiyyəti, igidliyi, cəsurluğu, mübarizliyi və əzmkarlığı ondan sonra gələcək olan şuşalı ictimai-siyasi xadimlər üçün əsl məktəb idi. Məhz bu məktəb gələcək nəsillərin faydalana biləcəyi, onların aktiv fəaliyyətlərinə olduqca müsbət təsir edə biləcək böyük bir irs olmuşdur. Onlar bu qüdrətli məktəbin layiqli nümayəndələri kimi, Azərbaycanın parlaq gələcəyi naminə əllərindən gələni əsirgəməmişdilər. Bu böyük şəxsiyyətlər Vətənimizin və xalqımızın inkişafı üçün rəşadətlə xidmət göstərərək sübut etmişlər ki, dahilər yurdu olan Azərbaycan hər zaman vətənpərvər, elmli və dünyagörüşlü, mərd insanlar məskəni olmuşdur. Hər biri ayrı-ayrılıqda şanlı tarix yazan şuşalı ictimai-siyasi xadimlər də bu yurdun yetirmələri kimi bu gün bizlər üçün nümunə götürəcəyimiz simalardır. Nəticə etibarilə bu xalqın və ölkənin vətəndaşları kimi bizlər də görkəmli şəxsiyyətlərin misilsiz fəaliyyətlərindən ilhamlanaraq Azərbaycanımızın ictimai-siyasi inkişafı yolunda yorulmadan xidmət eməli və hər zaman onların əziz adlarını və xatirələrini yaşatmalı, qürur hissi ilə gələcək nəsilllərə ötürməliyik.

**ƏDƏBİYYAT**

A.Ə.Paşayev. (2006). Zaqafqaziya Seyminin müsəlman fraksiyası və Azərbaycan Milli Şurası iclaslarının protokolları 1918-ci il. Bakı. (216 s.).

A.Balayev. (2012).Məmməd Əmin Rəsulzadə. Bakı. (147 s.).

A.A.Əlizadə. (2018). Dadaş Həsənovun Azərbaycanın dövlət müstəqilliyi uğrunda mübarizəsi. Bakı. (560 s.).

K.Məmmədov. (1979). Azərbaycan yazıçılarının həyatından dəqiqələr. Bakı. (48 s.).

Vüqar İmanov, Əli Mərdan bəy Topçubaşov. (2003).Lider bir aydın və müstəqil Azərbaycan cümhuriyyətinin təmsili. Bakı. (33 s.).

Ənvər Çingizoğlu. (2012). Nərimanbəyovlar, Azərbaycan Tarixi Şəcərə cəmiyyətinin xəbərləri, 8-cı buraxılış. Bakı. (77 s.).

Yusif Vəzir Çəmənzəminli. (2005).Yusif Vəzir Çəmənzəminli əsərləri. Bakı. (394 s.).

*Рахман Аббасзаде*

## РОЛЬ ШУШИНСКИХ ОБЩЕСТВЕННО-ПОЛИТИЧЕСКИХ ДЕЯТЕЛЕЙ В ИСТОРИИ РАЗВИТИЯ АЗЕРБАЙДЖАНА

### РЕЗЮМЕ

Основная цель статьи – показать огромную роль шушинских общественно-политических деятелей в благополучии и развитии нашей страны. В статье изучены самопожертвования, заслуги выдающихся общественно-политических деятелей перед Родиной и народом. Как и ряд выдающихся общественно-политических деятелей Азербайджана, имена которых не упомянуты в этом контексте,

шушинские общественно-политические деятели также являлись могущественными личностями, которые вели борьбу ради укрепления и прогресса нашего государства и были готовы отдать жизни ради национальных интересов Родины и народа. Весьма целесообразно уделить внимание таким вопросам, как открытие Ахмад беком Агаевым первой библиотеки и читальни в Шуше, создание Ибрагимхалил ханом всех условий для людей, интересующихся чтением и наукой, открытие под покровительством Худадат бека Малика в Баку в 1919 году первой железнодорожной школы, где обучение велось на родном языке. Конечно, можно говорить и о недолгой деятельности других шушинских общественно-политических деятелей, оказавших неоценимые услуги для развития Азербайджана. Наличие концептуально важных научно-теоретических исследований, связанных с заслугами в сфере развития нашей страны в политической, военной, культурной, экономической, социальной и других областях, является одним из основных факторов, позволяющих отдельно рассматривать период шушинских общественно-политических деятелей, как богатый этап нашей истории. В контексте данного вопроса предметом исследования становятся формы и особенности деятельности общественно-политических деятелей. Великие дела и заслуги этих гениальных личностей всегда должны высоко оцениваться, как решающий этап в истории нашей государственности.

***Ключевые слова:*** *шушинские общественно-политические деятели, развитие Азербайджана, история государственности.*

*Rahman Abbaszade*

# THE ROLE OF SOCIAL AND POLITICAL FIGURES FROM SHUSHA IN THE DEVELOPMENT HISTORY OF AZERBAIJAN

## ABSTRACT

The main purpose of the article is to show the huge role of Shusha public and political figures in the well-being and development of our country. Shusha public and political figures were strong personalities who fought for the strengthening and progress of our government, and were also ready to give their lives for the national interests of our country and people in this glorious struggle. It is very expedient to pay attention to such issues as the opening of the first library and reading room in Shusha by Ahmad bey Agayev, the creation by Ibrahimkhalil Khan of all conditions for people interested in reading and science, the opening of the first railway school in Baku in 1919 under the auspices of Khudadat bek Malik. Of course, we can also mention the short-term activities of other Shusha public and political figures who provided invaluable services to the development of Azerbaijan. The presence of conceptually important scientific and theoretical studies related to the merits to the development of our country in the political, military, cultural, economic, social and other fields is one of the main factors that allow us to consider the Shusha period as a rich stage in our history. In the context of this issue, the subject of research is the forms and features of the activities of public and political figures. The great deeds and merits of these genial personalities should always be highly valued as a decisive stage in the history of our statehood.

***Keywords***: *Shusha public and political figures, development of Azerbaijan, history of statehood*

# AZƏRBAYCANIN TARİXİ-MƏDƏNİ MÜHİTİNDƏ ŞUŞA

***Aysu Əlizadə,***
*Azərbaycan İlahiyyat İnstitutu*
*"Dinşünaslıq" ixtisasının bakalavriatı*

## XÜLASƏ

Əminəm ki, əksər dünya ölkələrinin tarixi qədim Daş dövrünə gedib-çatan, geosiyasi əhəmiyyətə malik olan, mədəniyyəti ilə cahana səs salmış şəhərləri vardır. Azərbaycan Respublikası da bu ölkələr silsiləsinə aiddir. Ölkəmizin Bakı, Şuşa, Bərdə, Gəncə və digər zəngin mədəni irsə sahiblik edən şəhərləri vardır. Tarixi araşdırmalardan görünür ki, Pənahəli xan Qarabağda eyniadlı xanlığı yaradarkən xalqa qarşı xüsusi qayğı və mehribanlıq göstərmişdir. Təkcə XIX əsrdə Şuşada 95 şair, 22 musiqişünas, 38 xanəndə, 19 xəttat, 16 nəqqaş, 12 nüsxəbənd, 5 astronom, 18 memar, 16 həkim, 42-yə qədər müəllim və s. olmuşdur. Bu böyük ziyalı təbəqəsi Şuşa şəhərini mədəniyyət mərkəzinə çevirməkdə, burada elmi, təhsili və mədəniyyəti inkişaf etdirməkdə çox böyük rol oynamışdır. Şuşa Qarabağın tacı, Qafqazın sənət məbədi, Şərqin konservatoriyası, Azərbaycanın ictimai-siyasi, mədəni həyatında mühüm xidmətləri olan görkəmli xadimlərin vətəni, doğma şəhər, əziz bir torpaq, hərbi-strateji əhəmiyyətli qala və müqəddəs abidədir. Bu baxımdan, Şuşanın əsl tarixi simasının, ənənələrinin və qədim mədəni abidələrinin bərpası mühüm əhəmiyyət kəsb edir. Bu məqalə giriş, səkkiz yarımbaşlıq, nəticə hissədən ibarət olub, Şuşa şəhərinin etimologiyası, tarixi, musiqisi, ədəbiyyatı, rəssamlığı və mətbəxi haqqında məlumatları ehtiva edir. Qədim və müasir tarixin sintezi ilə işlənən bu elmi-publisistik yazı nümunəsini siz oxuculara qürurla təqdim edirəm.

***Açar sözlər:*** *Qarabağ, Şuşa, mədəniyyət, memarlıq, mətbəx, musiqi, rəssamlıq.*

**Giriş**

Şuşa qalası uzun illər boyu Azərbaycanın Qarabağ xanlığının paytaxtı olmuşdur. Şuşa qalasının salınması 1750-1751-ci illərdən hesab edilir. Tarixi mənbələrə görə, 1750-ci ildə hündür, sıldırım dağ üstündə qalanın inşasına başlanıldı və 1756-1757-ci illərdə tikilib başa çatdırıldı. Qarabağ xanı Pənahəli xan Şuşanı paytaxt elan edib oranı möhkəmləndirmiş, qala-şəhərə çevirmişdir. Şəhər bir müddət Pənahəli xanın şərəfinə "Pənahabad", sonradan isə "Şuşa qalası" və "Şuşa" adlandırılmışdır. Şəhər əhalisi XVIII əsrin ikinci yarısından başlayaraq, sürətlə çoxalmış və Şuşa Azərbaycanın mühüm, strateji əhəmiyyətli şəhərlərindən birinə çevrilmişdir. Hələ Pənahəli xanın dövründə şəhərdə böyük tikinti işləri aparılmış, sonra İbrahimxəlil xanın (1763-1806-cı illər) dövründə isə Qarabağ xanlığı daha da güclənmişdir. Xanlığın ərazisində Əsgəran, Ağoğlan qalaları, Şuşa qalasının divarları və s. diqqətəlayiq, strateji əhəmiyyətli qalalar tikilmişdir. Şəhər qısa müddət ərzində xeyli böyümüş, təbii gözəlliyi, hündür binaları və möhtəşəm qala divarları ilə diqqəti cəlb etmişdir.

Azərbaycanın tarixi, mədəni və strateji əhəmiyyətə malik şəhəri sayılan Şuşa XVIII əsrin ikinci yarısında özünün xalçası, ipəyi, parçası və çini qabları ilə dünya bazarları miqyasına çıxmış və bununla da böyük şöhrət qazanmışdır. Şəhərin dövrəsinə XVIII əsrin 80-ci illərində möhtəşəm qala divarları çəkilib başa çatdırıldı. Bu dövrdə şəhərdə çoxsaylı sənətkar məhəllələri yaranır, ticarət daha sürətlə inkişaf edirdi. Şuşalı tacirlər Təbriz, Tehran, İsfahan, İstanbul, Bağdad, Səmərqənd, Moskva, Marsel və başqa şəhərlərlə ticarət əlaqələri saxlayırdılar. Şəhərdə "Pənahabadi" adlı gümüş sikkələr zərb edilirdi.

Şuşada "Bazarbaşı" deyilən yerdən "Şeytanbazar"a qədər uzanan üstüörtülü ticarət mərkəzi və şəhərin əsas küçəsi "Rastabazar" adlanırdı. "Rastabazar"ın sıra ilə düzülən və daşları bir-birinə qurğuşunla bərkidilən sütunlardan, tağlardan ibarət olan və qalereyanı xatırladan səkiləri başdan-başa örtülü olduğundan, bütün fəsillərdə quru və təmiz qalırdı. Küçənin ortası ilə nəqliyyat vasitələri hərəkət edirdi. Orta əsr Şərq üslubunda zövqlə tikilən bu bazar, həm də şəhərə xüsusi yaraşıq verirdi. Şuşanın ticarət mərkəzinin bənzərsiz görkəmi onun magistralına bitişik iri bazar meydanı ilə tamamlanırdı. Şəhərin "Meydan" deyilən əsas hissə-

si Rastabazar küçəsi boyunca tikilmiş ibadətgah və ticarət təyinatlı tikililərdən, birmərtəbəli dükanlardan, ikimərtəbəli karvansaradan və qoşaminarəli yaraşıqlı Cümə məscidindən ibarət idi. Şəhərdə XX əsrin əvvəllərində 1464 dükan qeydə alınmışdı ki, bunların da bazarlarla birlikdə illik ticarət dövriyyəsi 6 milyon rubla çatmışdı. Şəhərdə 17 məhəllə var idi ki, onların hər birinin məscidi, bulağı və hamamı mövcud idi.

Qeyd etmək vacibdir ki, tarixi mənbələrdə XVIII əsrin sonu – XIX əsrin əvvəllərində, artıq Şuşada çoxlu sayda manufakturaların və 2 mindən çox sənətkarın fəaliyyət göstərdiyi bildirilir. 1809-cu ilin məlumatına görə, həmin dövrdə Şuşada 1 500 toxucu dəzgahı fəaliyyət göstərirdi. Bu da ən azı, 1 500 sənətkar demək idi. Tarixi mənbələrdə XVIII əsrin sonu – XIX əsrin əvvəllərində, artıq Şuşada çoxlu sayda manufakturaların və iki mindən çox sənətkarın fəaliyyət göstərdiyi bildirilir. Şuşada XIX əsrin 1960-cı illərində illik ticarət gücü 78 milyon rubla bərabər olan ipəksarıma fabrikləri fəaliyyət göstərirdi ki, çox keçmədən həmin müəssisələrin illik istehsal gücü 117 milyon rubla çatmışdı.

Vyana şəhərində 1873-cü ildə açılmış beynəlxalq sərgidə Şuşanı təmsil edən nümayəndələr də iştirak etmiş və onların sərgidə nümayiş etdirdikləri eksponatlar xaricilərdə dərin maraq oyatmışdı. Tiflisdə 1903-cü ildə nəşr olunmuş "Vestnik Kavkaza” jurnalının 43-cü səhifəsində göstərilir ki, "Şuşanın görünüşü Orta əsr Avropa şəhərlərini xatırladır. Bu şəhərin tacirləri ipək-barama alverində üstün mövqeyə malik olub, Tiflis, Moskva və Marsel şəhərləri ilə birbaşa ticarət əlaqəsi saxlayırlar”.

Bununla yanaşı, Şuşanın gözəl təbiəti, coğrafi mövqeyi, xüsusilə çox mühüm strateji əhəmiyyətli qala olduğunu bir sıra tədqiqatçılar dəfələrlə bildirmişlər. Məşhur klimatoloqlar dəniz səthindən 1 403 metr hündürlükdə yerləşən mühüm əhəmiyyətli şəhərin iqlim şəraitini, fauna və florasını dəqiq yoxladıqdan sonra mülayimtəbiətli Şuşanın böyük müalicəvi əhəmiyyətli bir şəhər olduğunu söyləmişlər. Şəhərdən cənubda, 18 kilometr aralı “Turşsu” deyilən səfalı guşədə 1854-cü ildə mədən suyunun çıxması alimlərin mülahizəsini doğrultdu. Şuşa havasının təmizliyi, saflığı və müalicə əhəmiyyəti baxımından kurort şəhəri kimi tanınmışdır. Bu baxımdan, nəinki Azərbaycanda, onun hüdudlarından kənarda da Şuşa öz səfalı yerləri, istirahət guşələrinə görə məşhur idi. Şuşa dağların-

da xüsusi gözəlliyi ilə seçilən və dünyanın heç bir yerində bitməyən "Xarıbülbül" çiçəyi bitir. Bu endemik gül həm gözəl, həm də müalicəvidir.

Şəhər əhalisinin sayı, artıq XIX əsrin ikinci yarısında tanınmış alim və sənətkarlar da daxil olmaqla, 25 minə çatmışdı. Azərbaycan Milli Elmlər Akademiyasının məlumatına görə, təkcə XIX əsrdə Şuşada 95 şair, 22 musiqişünas, 38 xanəndə, 19 xəttat, 16 nəqqaş, 12 nüsxəbənd, 5 astronom, 18 memar, 16 həkim, 42-yə qədər müəllim olmuşdur. Bu böyük ziyalı təbəqəsi Şuşa şəhərini mədəniyyət mərkəzinə çevirməkdə,burada elmi və mədəniyyəti inkişaf etdirməkdə çox böyük rol oynamışdır.

Tarixi sənədlər göstərir ki, "Üç müşketyor" və "Qraf Monte Kristo" kimi klassik əsərlərin müəllifi olan məşhur yazıçı Aleksandr Düma 1858-ci ilin ortalarından 1859-cu ilin əvvəllərinədək Rusiya və Qafqazda olmuşdur. Qafqaza səfəri zamanı müəyyən müddət Azərbaycan ərazisinə səyahət etmiş, 1859-cu ilin aprel ayında isə Dümanın 3 cilddən ibarət Qafqaz səyahətinin təəssüratları əsəri (fransızça: "İmpression de Voyage Le Caucase") Parisdə çap olunmuşdur. Bakı məhəllələrinin birinin polismeysteri Piquliyevskinin evində qonaq olan Aleksandr Düma orada

Qarabağ xanının qızı, məşhur şair Xurşidbanu Natəvan və onun həyat yoldaşı knyaz Xasay Usmiyevlə tanış olur, onlar arasında səmimi dostluq münasibətləri yaranır. Fransız yazıçısı Düma Azərbaycan şairi Natəvanla şahmat oynayır. Oyunun nəticəsi isə çox yaddaqalan olur. Belə ki, Natəvan Dümanı mat edir. Natəvan qalib gələrkən Dümadan yaşca xeyli kiçik idi. Natəvanın cəmi 26, Dümanın isə 56 yaşı vardı. Qeyd etmək lazımdır ki, Heydər Əliyev Fondunun dəstəyi ilə 2016-cı il fevralın 18-də Belçika Krallığının Vaterlo şəhərində görkəmli Azərbaycan şairi Xurşidbanu Natəvanın abidəsinin açılışı olmuş və abidənin özülündə Xurşidbanu Natəvanın Qarabağ şahzadəsi olması barədə məlumat vardır.

Ümumiyyətlə, tarixi mənbələr sübut edir ki, Şuşa qalası tarixən Azərbaycanın Qarabağ xanlığının paytaxtı olmuşdur. Qarabağ xanı İbrahim xanla Rusiyanın Qafqaz qoşunlarının baş komandanı general Sisianov arasında XIX əsrin əvvəllərində – 1805-ci il mayın 14-də Kürəkçay müqaviləsi ("Andlı öhdəlik") imzalandı. Bununla da Qarabağ xanlığı Rusiyanın tərkibinə daxil oldu və dərhal Qarabağda çarizmin mövqeyini möhkəmlətmək üçün ermənilərin bura köçürülməsinə başlanıldı. Bu fakt onu

göstərir ki, ermənilərin Qarabağa dair ərazi iddiaları əsassızdır. Çünki əgər ermənilər Qarabağ xanlığında yaşayıb, vəzifə sahibi olsaydılar, general Sisianovla müqavilə Qarabağ xanı İbrahim xanla imzalanmazdı.

Qarabağın dağlıq hissəsində erməni əhalisinin xeyli dərəcədə çoxaldılması isə XIX əsrin 1920-ci illərində, xüsusilə Cənubi Qafqazın Rusiya tərəfindən işğal edilməsindən sonra baş vermişdir. 1804-1813-cü, 1826-1828-ci illər Rusiya-İran və 1828-1829-cu illər Rusiya-Türkiyə müharibələrinin gedişində, həm də sonralar ermənilərin İran və Türkiyədən kütləvi surətdə Cənubi Qafqaza, o cümlədən Qarabağa köçürülmələri nəticəsində burada onların sayı ilbəil artmağa başladı. Bunu Rusiya ilə İran arasında bağlanmış Gülüstan (12 oktyabr 1813-cü il) və Türkmənçay (10 fevral 1828-ci il) müqavilələri kimi sənədlər də təsdiq edir.

Qarabağ bölgəsinin dağlıq hissəsinə İrandan və Türkiyədən 1828-ci ildən sonra rəsmən 124 min (qeyri-rəsmən 200 min) erməni köçürülmüş, bu proses bütün XIX əsr boyunca davam etdirilmiş və bu da demoqrafik vəziyyətə müəyyən təsir göstərmişdir.

Nəticədə Qarabağ bölgəsinin dağlıq hissəsinə köçürülmüş ermənilərə 1923-cü il iyulun 7-də sovet Rusiyasının himayədarlığı və bilavasitə iştirakı ilə Azərbaycan tərkibində "Dağlıq Qarabağ Muxtar Vilayəti" (DQMV) adlı status verilmiş və nəticədə, bu hadisə Ermənistanın Dağlıq Qarabağa dair gələcək ərazi iddiaları üçün vasitə olmuşdur. Qarabağ 1918-1920-ci illərdə Azərbaycan Xalq Cümhuriyyəti dövründə Gəncə quberniyasının tərkibində olmuş, 1921-1991-ci illərdə isə Azərbaycan SSR-in ayrılmaz tərkib hissəsi olmuşdur.

Ermənilər XX əsrin 1980-ci illərinin ikinci yarısında "böyük Ermənistan" ideyasını həyata keçirmək üçün yaranmış vəziyyətdən istifadə edərək, Azərbaycanın Dağlıq Qarabağ bölgəsinə dair yenidən ərazi iddiaları irəli sürdülər. SSRİ rəhbərliyinin ermənilərə himayədarlığı sayəsində XX əsrin 1980-ci illərinin sonu – 1990-cı illərinin əvvəllərində hadisələr getdikcə daha da mürəkkəbləşdi və Ermənistan Respublikası Azərbaycan ərazilərinə hərbi qüvvə göndərərək, açıq təcavüzə başladı. Ermənistan silahlı qüvvələri 1992-ci ilin əvvəllərindən başlayaraq bir-birinin ardınca Dağlıq Qarabağda azərbaycanlılar yaşayan sonuncu yaşayış məntəqələrini də işğal etdi.

Azərbaycanın qədim musiqi və mədəniyyət mərkəzi olan Şuşa şəhərini 1992-ci il mayın 8-də ələ keçirməklə Ermənistan ordusu tərəfindən bütün Yuxarı Qarabağ zəbt olundu. Nəticədə, 289 kvadrat kilometrlik ərazisi, 24 min nəfər əhalisi, 1 şəhər və 30 kənddən ibarət olan Şuşa rayonu Ermənistan silahlı qüvvələri tərəfindən işğal edildi. Şuşa uğrunda döyüşlərdə 195 nəfər şəhid oldu, 165 nəfər yaralandı, 58 nəfər isə itkin düşdü.

Ermənistan silahlı qüvvələrinin təcavüzü nəticəsində Şuşanın 25 məktəbi, 31 kitabxanası, 17 klubu, 8 mədəniyyət evi, 4 texnikumu, 2 institut filialı, 7 uşaq bağçası, 4 kinoteatrı, 5 mədəniyyət və istirahət parkı, 2 sanatoriya turist bazası, 2 mehmanxanası, Azərbaycan Xalçası Dövlət Muzeyinin filialı, Şuşa Dövlət Dram Teatrı, Şuşa Televiziyası, Şərq Musiqi Alətləri Fabriki, Dövlət Rəsm Qalereyası, Uşaq Sağlamlıq Məktəbi talan edilmiş, yandırılmış və dağıdılmışdır. Hazırda Şuşa rayonunun 34 min 300 nəfər əhalisi Azərbaycanın 58 rayonunda müvəqqəti məskunlaşmışdır.

Bununla yanaşı, işğaladək Şuşada memarlıq abidəsi sayılan 170-dən çox yaşayış binası və 160-dək mədəniyyət və tarixi abidə var idi. Bunların içərisində son Tunc və ilk Dəmir dövrü abidəsi sayılan Şuşa və Şuşakənd daş qutusu qəbirləri, Daş dövrü abidəsi olan Şuşa mağara düşərgəsi, XVIII əsrə dair Şuşa qalasının divarları, Gəncə qapısı, Pənah xanın sarayı və kitabxanası, İbrahim xanın bürcü və qəsri, Xan sarayı və karvansara, M.P.Vaqifin mədrəsəsi və türbəsi, yuxarı məscid mədrəsəsi, Hacıqulların malikanəsi, ikimərtəbəli karvansara, Mehmandarovların malikanə kompleksi, Gövhər ağa, Xoca Mərcanlı, Hacı Abbas, Mərdinli, Saatlı, Köçərli məscidləri, Xurşidbanu Natəvanın evi və bulağı, Ə.B.Haqverdiyevin, Q.B.Zakirin, M.M.Nəvvabın, S.S.Axundovun, N.B.Vəzirovun, Y.V.Çəmənzəminlinin evləri, Mamay bəyin evi, məscidi və bulağı, Behbudovların, Fərəməzovların, Zöhrabbəyovun, Bəhmən Mirzənin evləri, Üzeyir bəy Hacıbəylinin, Bülbülün ev-muzeyləri, Xan Şuşinskinin, tarzən Sadıqcanın evləri, Realni məktəbinin binası, Qız məktəbi, Şirin su hamamı, Meydan bulağı, İsa bulağı və digər tarixi mədəniyyət nümunəsi erməni işğalçıları tərəfindən talan edilmiş, dağıdılmış və məhv edilmişdir.

Bir vaxtlar "Kiçik Paris", "Qafqazın sənət məbədi", "Azərbaycan musiqisinin beşiyi" və "Şərqin konservatoriyası" adlandırılan, bir sıra görkəmli xadimlərin vətəni, eləcə də Azərbaycanın tarixi mədəniyyət

mərkəzi və Qarabağın tacı olan Şuşa şəhəri 28 ildir ki, Ermənistan silahlı qüvvələrinin işğalı altından azad olundu. Şuşanın abidələr şəhəri olduğunu söyləyən ümummilli lider Heydər Əliyev onun Azərbaycan üçün müstəsna əhəmiyyətini yüksək qiymətləndirərək bildirmişdir ki, "Şuşasız Qarabağ, Qarabağsız isə Azərbaycan yoxdur".

## Etimologiya

"Şuşa" adının mənşəyi haqqında müxtəlif fikirlər mövcuddur. Eramızın II əsrində yaşamış qədim Roma tarixçisi Tasit Korneli Qafqaz ərazisində dondar türk tayfasına məxsus Sosu (latın dilində "ş" səsi yoxdur) şəhərinin olduğu haqqında məlumat vermişdir.[13] Xalq əfsanəsinə görə, bu yerlərin havası büllur kimi saf və şəfalı olduğu üçün onu "Şuşa" (şüşə) adlandırmışlar. Bəzi mənbələrə görə, "Şuşa" sözünün Azərbaycanda skiflərə məxsus olduğu ehtimal edilir. Sözdə birinci "ş" səsi sonrakı "s" səsini öz məxrəcinə salmışdır (assimilyasiya) və "Şuşa" deyimi alınmışdır.

Bəzi mənbələrdə Şuşa şəhərinin adı türk tayfaları və türk sözləri ilə izah olunur. Bəzən "Şişə" (şiş qayalarla əhatə oluduğuna görə) şəklində də işlədilir. Bəzi tədqiqatçılar "Şuşa" sözünü türk dilində mənası "uc", "yüksək" olan "şiş" komponenti ilə izah edirlər. Bəzi mənbələrdə isə "Şuşa" adının qədim türk sərkərdəsi Şunun (e. ə. 344–334) Makedoniyalı İsgəndərlə vuruşan səxsin tikdirdiyi "Su" qalası ilə eyniliyi, Şumer (şu+er) adı ilə səsləşməsi tədqiq olunur.

## Günəşin doğması – Şuşanın yaranma tarixi

Şuşanın yaranma tarixi və etimologiyası barədə müxtəlif mülahizələr var. Elmi ədəbiyyatda Şuşa ərazisinin 1750-ci illərin əvvəllərində Qarabağ xanı Pənahəli xan Cavanşir tərəfindən qoyulması göstərilsə də, son tədqiqatlar bu faktları təkzib edir (Məmmədov 2016, 40). Pənahabad- Şuşa qala-şəhəri Azərbaycanın ən qədim ərazilərindən biri olan Qarabağ bölgəsində tikilmişdir. Ən qədim insan yaşayış məskənləri də bu ərazidə aşkar edilmişdir. Azərbaycan Respublikasının Qarabağ bölgəsinin cənubşərq yamaclarının ucqar nöqtəsində yerləşən Azıx mağarası buna parlaq

[13] https://web.archive.org/web/20170706202536/http://karabakhinfo.com/12439

misaldır (Hüseynov 2013, 8). Tağlar mağarası da Qarabağın ən qədim insan məskənlərindən biridir. Bütün tarixi dövrlərdə Qarabağ ərazisində türkdilli tayfalar yaşamışlar. Qarabağın Füzuli rayonu ərazisində yerləşən Azıx mağarasında arxeoloji qazıntılar zamanı burada əldə edilmiş maddi və mənəvi abidələr sübut edir ki, mağara sakinləri əmək alətləri düzəltmək və onlardan istifadə etmək vərdişlərinə yiyələnə bilmişlər. Bu barədə şoxlu misal göstərmək olar.

İran şahı Nadir şah Xorasan yaxınlığında yerləşən Xabuşan yaylağında 1747-ci il iyun ayının 20-də öz yaxın adamları tərəfindən qətlə yetirildikdən sonra, onun yaratdığı imperiya dağıldı. Azərbaycan Səfəvilər dövləti (1501-1736) tərəfindən XVI əsrin ortalarında yaradılan Qarabağ bəylərbəyliyinin ərazisində iki – Gəncə və Qarabağ feodal xanlıqları yarandı (Hüseynov 2015, 16).

Qarabağ xanlığı İran hökmranlığı ilə gərgin mübarizə şəraitində yaranmış və siyasi-iqtisadi cəhətdən möhkəmlənmişdir. Mənbələrdə göstərilir ki, 1748-ci ildə Bayat qalası tikildikdən sonra, Pənah xanın siyasi hakimiyyət tarixi heç də bir kənar fərman olmadan 1747-ci ildən başlayır.

Bayat qalası tikildikdən sonra, Pənah xanın şöhrəti hər tərəfə yayılır. Qala möhkəmləndirilir, əhalisi isə artırdı. Bunu hiss edən Şirvan və Şəki hakimləri müqavilə bağlayıb, Pənah xanı aradan götürmək məqsədilə çoxsaylı qoşunla Bayat qalasına hücum etdilər. Pənah xan igid adamları ilə birlikdə düşmən qoşunlarına ağır zərbə vurur, onları qalaya yaxınlaşmağa qoymurdular. Şəki və Şirvan xanları heç bir iş görə bilmədilər və məyus halda geri qayıtdılar. Şəki xanı Hacı Çələbi yolda öz adamlarına demişdir: "Pənah xan bir xan idi. Biz gəldik, onunla dava etdik və bir iş görə bilmədik. Biz indi onu şah edib qayıdırıq". Göründüyü kimi, Hacı Çələbi Pənah xanı xan kimi rəsmi surətdə tanıdığını etiraf edir.

Pənah xan daxili asayişi möhkəmləndirmək məqsədilə 1748-ci il Bayat müharibəsindən sonra, Alban xristian məliklərini özünə tabe etdirməyə başlayır. Bir müddət müqavimət göstərdikdən sonra, Xəmsə Alban xristian məlikləri itaət etməyə məcbur oldular. Müharibə göstərdi ki, Bayat qalası uzun müddət düşmən hücumuna davam gətirə bilməz. Ona görə də Pənah xanın başçılığı ilə çağırılan müşavirədə yeni qala inşa olunması qərara alındı. Beləliklə, "Şahbulağı" adı ilə məşhur olan Tərnəküt qalası-

nın tikintisinə başlanıldı. Şahbulaq qalası tikilib qurtardıqdan sonra (1751-1752-ci illər) hamı eyni qalaya köçürüldü.

İranda baş verən siyasi hadisələr Qarabağ xanlığı üçün təhlükə törədirdi. Mərkəzi hakimiyyyəti ələ keçirmək üçün müxtəlif qüvvələr mübarizə aparırdılar. Bu qüvvələr içərisində Məhəmmədhəsən şah Qacar, Fətəli xan Əfşar və Kərim xan Zənd xüsusilə fərqlənirdilər (Hüseynov 2013, 12).

Göründüyü kimi, bu qüvvələrin hər hansı biri Qarabağ Xanlığına hücum etsəydi, Şahbulağı qalası onların qarşısında davam gətirə bilməzdi. Pənah xanın göstərişi ilə yenidən ruhanilərin və saray məmurlarının geniş müşavirəsi çağırıldı. Müşavirədən sonra Pənah xanın göstərişi ilə bir neçə adam ətraf yerləri xeyli gəzdikdən sonra, üç tərəfi təbii istehkamlarla, hündür qayalarla əhatə olunmuş bir əraziyə gəlib çıxdılar. Bu ərazi qədim türk ellərinin yaşayış məskəni olan Pənahabad qalasının salınacağı ərazi idi. Bələdçilər xana ərazi haqqında ətraflı məlumat verdikdən sonra o, həmin əraziyə gəldi və oranı bəyəndi. Ərazidə iki-üç bulaqdan başqa su mənbəyi yox idi. Xanın göstərişi ilə bir neçə quyu qazıldı, müəyyən edildi ki, ərazidə su quyuları qazmaq olar. Bunu eşidən Pənah xan çox sevindi. Pənahabad qalasının əsası 1170-ci ildə qoyuldu. Qala tikilib başa çatdıqdan bir il sonra, Məhəmmədhəsən şah Qacar İraq və Azərbaycan (Cənubi Azərbaycan nəzərdə tutulur) qoşunu ilə Pənahabad qalasını almaq və Pənah xanı özünə tabe etmək məqsədilə Araz çayını keçib qalanın dördağaclığında çadırlar qurdurdu. Pənah xanın qoçaq döyüşçüləri və əhali Məhəmmədhəsən xanın ordusuna ağır zərbə vuraraq, onu geri qayıtmağa məcbur etdilər.

Yuxarıda qeyd edildiyi kimi, Pənahabad qalasının binası 1170-ci ildə qoyulmuşdur. Bu, tariximizin 1756-1757-ci illərinə müqabildir. Yeni qalanın tikilməsində, eyni zamanda, ərazinin iqlim şəraiti də nəzərə alınmalıdır. Bir il ərzində Pənahabad kimi möhkəm bir qalanın tikilməsi və möhkəmləndirilməsi qeyri-mümkündür. Nəzərə alsaq ki, Məhəmmədhəsən xan Qacar qala üzərinə 1757-ci ildə hücum etmişdirsə, bəs qalanı nə üçün tuta bilməmişdir?

Mənə belə gəlir ki, minilliyin yadigarı olan qədim türk yurduna özündənəvvəlki qala şəhərlərin ən əzəmətlisi, bir sözlə, Allahın əli ilə yaradı-

lan gözəl məkanda ucaldılan Pənahabadın tarixi son zamanlarda dəqiqləşdirilmişdir.

İndi qətiyyətlə deyə bilərik ki, Pənahabadın bünövrəsi 1750-ci il avqust ayının sonu – sentyabr ayının ilk günlərində qoyulmuşdur. Çox ehtimal, ehtiyat üçün Şahbulağı qalasının da tikintisi davam etdirilmişdir. "Qarabağnamə" müəllifləri Pənahabad qalasının inşa olunmasında müxtəlif fikirlər irəli sürürlər.

Mirzə Yusif Qarabaği "Tarixi-Safi" salnaməsində yazırdı: "Soraqlaşdıqdan və axtarış etdikdən sonra... Şuşa qalasının yerini müəyyən etdilər. Bu yeri Pənah xan özü gedib gördü və hər cəhətdən bəyəndi. Ərazinin ortasında su axmadığı üçün bir neçə quyu qazdırdı və bu quyulardan çoxlu su çıxdı. Bundan sonra 1752-ci (1166) ildə Pənah xan xoş bir gündə Şuşa şəhərinin təməlini qoydu" (Hüseynov 2015, 14). Mirzə Adıgözəl bəy, Mirzə Camal bəy Cavanşir Qarabaği Pənahabad qalasının əsasının qoyulmasını 1756-1757-ci illəri göstərirlər. Əhməd bəy Cavanşir isə 1754-cü ili əsas götürür.

Pənahəli xanın ölümündən sonra Qarabağın hakimi İbrahimxəlil xan (1763-1806) öz dövrünün bacarıqlı və siyasətcil dövlət xadimlərindən olmuşdur. Onun dövründə Qarabağ xanlığı daha da güclənir və inkişaf edir. Pənahəli xan və İbrahimxəlil xan Qarabağ xanlığının paytaxtı Şuşa şəhərini qədim və Orta əsrlərin şəhərsalma nümunələri əsasında yüksək səviyyədə bina etmişdilər. Şəhər 17 məhəlləyə, kvartala bölünmüşdü. Bu məhəllələr – Böyük qurdlar, Kiçik qurdlar, Seyidli, Culfalar, Təzə məhəllə, Hamam qabağı, Dəmirçilər, Quyuluq Xoca Əmircan, Mamayı, Saatlı, Köçərli, Merdinli, Çöl qala, Hacı Yusifli, Çuxur məhəllə, Ağa dədəlilərdir. Bu məhəllələr indi də qalmaqdadır.

Şuşanın ancaq bir nəqliyyat yolu var idi – Ağdam-Əsgəran-Xocalı-Xanbağı-Ağa körpüsü-Şuşa. Bu yol şəhərin mərkəzinə qədər uzanır. Şuşanın şərq tərəfində o qədər də hündür olmayan dağ "Dotələb" adlanır. Gündən-günə inkişaf edən, iqtisadi cəhətdən güclənən Qarabağ xanlığı dəfələrlə İranın və qonşu xanlıqların hücumlarına məruz qalmışdır. İranda hakimiyyəti ələ alan Ağa Məhəmməd şah Qacar 1795-ci ilin iyunun sonunda Qarabağa hücum edir. İbrahimxəlil xanın 15 000 nəfər seçmə qoşunu Ağa Məhəmməd şah Qacara qarşı qəhrəmanlıqla mübarizə aparırdı.

Ağa Məhəmməd şah Qacar Şuşa qalasını 33 gün mühasirədə saxlasa da, müfəvvəqiyyət qazana bilməyib, Tiflis üzərinə hücuma keçir və oranı talan edir.

Ağa Məhəmməd şah Qacar 1797-ci ilin yazında ikinci dəfə çoxsaylı ordu ilə Arazı keçib Şuşaya yaxınlaşır. Bəzi şəhər əyanlarının xəyanəti üzündən qısa mühasirədən sonra Şuşa təslim olur. Şəhərə girən Ağa Məhəmməd şah Qacarın hakimiyyəti bir gün davam edir. Qacar yaxın pişxidmətçiləri tərəfindən öldürülür. Şuşaya qayıdan İbrahimxəlil xan İranla münasibətləri düzəltmək məqsədilə Qacarın nəşini təmtəraqla İrana yola salır. Öz qızı Ağabəyim Ağanı İranda hakimiyyəti ələ alan Fətəli xana ərə verir, oğlu Əbülfət ağanı isə girov göndərir.

Rus işğalı dövründə də Şuşa Qarabağın paytaxtı kimi öz aparıcı mövqeyini saxlayırdı. Rusiyaya güclü Qarabağ xanlığı sərf etmirdi və çar məmurları Qarabağ xanlığını zəiflətmək üçün gözəl üsul tapdılar. Onlar Qarabağa, əsasən də Şuşa şəhərinə yerli-yurduz dilənçi halında olan erməniləri köçürməyə başladılar. Ermənilərin iyrənc xislətinə yaxşı bələd olan ruslar bilirdilər ki, bu dilənçi millət bir qədər özünə gələn kimi, Azərbaycan xalqına qənim kəsiləcək, başlarına min oyun açacaqlar (Alışova 2007, 9).

Rusların bu fitnəkar siyasətinin əsası 4 may 1805-ci ildə Kürəkçay müqaviləsi ilə qoyuldu.

Gülüstan (12 oktyabr, 1813-cü il) və Türkmənçay (10 fevral, 1828-ci il) müqavilələri Azərbaycan torpaqlarının İranla Rusiya arasında bölüşdürülməsini davam etdirdi və bu köçürmə siyasəti daha geniş vüsət aldı. Türkmənçay sülh müqaviləsinin XV maddəsində deyilir: "... Məmur və sakinlərə bu gündən başlayaraq öz ailəsi ilə birlikdə İran vilayətindən Rusiyaya sərbəst keçmək, hökumət və yerli rəisliyin heç bir maneəçiliyi olmadan onların satlıq mallarına və ya əmlakına, əşyalarına hər hansı gömrük və vergi qoyulmadan tərpənən mülkiyyətini aparmaq və satmaq üçün bir il vaxt verilir".

İkinci rus-İran müharibəsinin gedişində İrandan Azərbaycana, o cümlədən Qarabağa 18 min erməni ailəsi köçürüldü. Türkmənçay müqaviləsinə görə 2 il ərzində – 1828-ci ildən 1830-cu ilədək, Cənubi Qafqaza 40 mindən çox İran və 84000 türk ermənisi köçürüldü. Onlar Gəncə və

İrəvan quberniyalarının ən yaxşı torpaqlarında yerləşdirildilər və onlara 200 000 desyatindən çox xəzinə torpağı ayrıldı.

Mənbələrə əsasən, 1832-ci ildə Qarabağ əhalisinin 91%-ni azərbaycanlılar, 8,4%-ni isə ermənilər təşkil edirdi. Köçürmə siyasəti nəticəsində azərbaycanlıların sayı 64,8%-ə endi, ermənilərin sayı isə 34,8%-ə qalxdı. Qarabağın incisi olan Şuşa şəhərinin əhalisi 1900-1915-ci illərdə 25,6 min nəfərdən 43,8 min nəfərə çatmış və o, iqtisadi cəhətdən inkişaf edərək, Qafqazda ən böyük xalça istehsalı mərkəzinə çevrilmişdi.

Erməni millətçi təşkilatları XIX əsrin sonlarından başlayaraq, Azərbaycanın əzəli torpaqları olan Qarabağ, Naxçıvan və Zəngəzur bölgələrinə yiyələnmək üçün cəhdlər göstərərək, "Böyük Ermənistan" yatarmaq ideyasını həyata keçirmək üçün geniş fəaliyyətə başladılar. Bu istiqamətdə onların ilk hədəfi Zəngəzur və Qarabağı ələ keçirmək idi.

Rusların səyi nəticəsində 1918-ci ildə Qərbi Azərbaycan torpaqları (İrəvan, Dərələyəz, Zəngibasar, Göyçə və.s mahallar) ərazisində indiki Ermənistan dövləti yaradıldı.

Azərbaycan rəhbərlərinin belə "səxavətli hədiyyəsi"ndən ruhlanan Ermənistan rəhbərliyi rəsmi surətdə Qarabağa dair ərazi iddiaları irəli sürdü.

RK(b)P-nin Zaqafqaziya Ölkə Komitəsinin 1923-cü il iyunun 27-28-də keçirilmiş plenumu Q.Orcenikidzenin təyziqi ilə və erməni "kommunistlər"indən Şaduntsun və Karakozovun təklifi ilə ultimatum formasında biraylıq müddət ərzində Dağlıq Qarabağa vilayət muxtariyyətinin verilməsi haqqında AK(b)P MK-ya göstəriş yolladı. Azərbaycan rəhbərliyi həmin qərarı yerinə yetirməyə məcbur oldu və Azərbaycan MİK Dağlıq Qarabağ Muxtar Vilayətinin yaradılması haqqında dekret imzaladı. Beləliklə, rus şovinistləri və erməni daşnaklarının birgə qurduqları plan əsasında Qarabağda erməni icması üçün "DQMV" yaradıldı.

Çoxsaylı erməni xəyanətinin nəticəsi kimi, Şuşa XX əsrdə 3 dəfə erməni təcavüzünün qurbanı olmuşdur. Şuşa şəhəri 1905-1907-ci illərdə ermənilər tərəfindən hücuma məruz qalmış və yandırılmışdır. Şəhərin xeyli hissəsi 1920-ci ildə ermənilər tərəfindən dağıdılmışdır. Üçüncü dəfə 1992-ci ilin mayında ermənilər bu şəhəri tamamilə işğal etdilər.

Ermənilərin azərbaycanlılarla birinci toqquşması 1904-cü ildə Bakıda baş verdi. Sonradan bu dalğa böyüyüb bütün Azərbaycana yayılaraq

Şuşaya da keçmişdir. Şuşa qəza rəisi Pivovarov Peterburq müşavirəsinin qərarını praktiki surətdə həyata keçirirdi. Belə ki, o, daşnakları və azərbaycanlıları ayrı-ayrılıqda yanına çağıraraq onların arasına nifaq saldı. Bu düşmənçilik 1905- ci ilin iyununda güclü silahlı münaqişəyə səbəb oldu. Birdən-birə şəhərin erməni məhəlləsindən azərbaycanlılar yaşayan hissəsinə tüfənglərdən atəş açıldı. Ermənilər seminariyanın tikintisində işləyən 100 nəfər azərbaycanlının hamısını doğradılar. Bu, 5 gün çəkən davadan sonra Şuşada yaranan dinclik cəmi biril davam etdi.

Ermənilərlə azərbaycanlılar arasında 1906-cı ildə yenidən toqquşma başladı. On bir gün ermənilər şəhərin azərbaycanlılar yaşayan hissəsini fasiləsiz tüfəng və pulemyot atəşinə tutdular. Ölənlərin və yaralananların sayı-hesabı bilinmirdi. Davanın 11-ci günü vəziyyətin gərginləşdiyini görən general Qoloşapov öz adamları və ermənilərin nümayəndələri ilə ağ bayraq qaldıraraq atəşin dayandırılmasını təklif etdi. Bundan sonra atəş dayandı. Qan düşmənlərimiz 1906-cı ildə təkcə Qarabağ ərazisində 750 min soydaşımızı məhv etmiş, 600-dən çox yaşayış məntəqəsini yandıraraq viran qoymuşdular. Azərbaycanlıların Novruz bayramında iştirak edən erməni yepiskopu 1920-ci il martın 22-də arxayınlıq yaratmaq üçün öz çıxışında azərbaycanlılarla ermənilərin dost və qardaş olduqlarını, lənətə gəlmiş şeytanın isə düşmənçilik yaratdığını söyləmişdi. Elə həmin günün gecəsi azərbaycanlılar uzaqdan açılan atəş səslərinə oyandılar. Məlum oldu ki, atəş Xankəndidə ermənilər tərəfindən açılır. Bunun ardınca hər tərəfdən Şuşanın azərbaycanlılar yaşayan hissəsinə atəş açılmağa başlandı. İki yüz nəfər azərbaycanlılardan ibarət hərbi qarnizon da ermənilər tərəfindən mühasirəyə alındı. Bundan sonra hücuma keçən azərbaycanlılar özlərini müdafiə etməyə başladılar. Ermənilər isə artıq iyrənc niyyətlərini yerinə yetirmişdilər. Erməni daşnakları Xankəndinin müsəlman qarnizonunun hospitalına hücum edərək xəstə əsgərləri öldürmüşdü. Bu hücum zamanı Şuşanın yarısı tamamilə yandırılıb, talan edilmişdi.

Erməni hücumları nəticəsində yüzdən çox azərbaycanlı öldürülmüş və yaralanmışdı. Şuşa qəzasının azərbaycanlı əhalisinə 100 milyon manat məbləğində zərər dəymişdi. Azərbaycanın ən varlı vilayətlərindən olan Şuşa qəzası o dərəcədə dağılmışdı ki, özünün iqtisadi vəziyyətini uzun müddət bərpa edə bilməmişdi.

Qarabağın mərkəzi Şuşada erməni zadəganlarının bir qədər çoxluğu və separatçılıq hərəkətlərinə başçılıq edən erməni milli şurası burada yerləşdiyindən, onların ermənilərə təsir etmək imkanları güclü olmuşdur.

Buna görə də Şuşa qəzasında ermənilərin törətdikləri qırğınlar daha kütləvi, mütəşəkkil xarakter almış və bu da Qarabağın Azərbaycan Respublikasından ayrılmaq təhlükəsini yaratmışdır.

Şuşa heç zaman ermənilərə boyun əyməmiş, onların hücumlarına layiqli cavab verməyi bacarmışdır. Amma bununla belə qala alındı. Hər tərəfdən mühasirədə olan Şuşa 1992-ci il may ayının 8-də gecə saat 2 radələrində ermənilərin aramsız, amansız hücumları, güclü atəşlərinə məruz qaldı. Ayaz Mütəllibovun, Rəhim Qazıyevin xəyanətinin nəticəsi olaraq şəhər ermənilərə təslim edildi.

Şuşanın işğalının əsas səbəblərindən biri də özlərini Milli Ordunun komandirləri, döyüçüləri kimi tanıtdıranların xəyanəti olmuşdur. Müharibənin ən çətin, müsibətli günlərində onlardan bir nəfər də olsun Şuşada qalmamışdı. Hamısı əvvəlcədən qaçmış, döyüş mövqeyini boş qoymuşdu. Müharibələr tarixində bunaoxşar nankorluq, nadanlıq olmayıb.

Bu gün şuşalılar ölümündən sonra Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülmüş Ramiz Qənbərin müqəddəs ruhuna daim dualar oxuyur, onun cəsarəti, düşmənə nifrəti unudulmur. Ramizin timsalında 72 nəfər şəhid olanları, 25 nəfər itkin düşənləri də ehtiramla yad edirlər.

Nəhayət, Azərbaycanın 28 illik həsrətinə son qoyuldu və xalqımızın tarixi-mədəni irsində xüsusi yeri olan Şuşa geri qaytarıldı. Beləliklə, Azərbaycanın qədim şəhərinin işğaldan azad edilməsi ilə həlledici üstünlüyə nail olundu. Bu, Vətən müharibəsində qələbə deməkdir. Şuşanın azad edilməsi son əsrdə Azərbaycan tarixinin ən şanlı qələbəsidir.

"Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin "İyirmi səkkiz il yarım işğal altında olan Şuşa azad edildi! Şuşa indi azaddır! Biz Şuşaya qayıtmışıq! Biz bu tarixi Qələbəni döyüş meydanında qazandıq" cümlələri Azərbaycanın son yüzillik tarixinin ən möhtəşəm müjdəsidir. Qələbə xəbərinin elan edilməsindən öncə dövlət başçısının ümummilli lider Heydər Əliyevin ruhu önündə nümayiş etdirdiyi ehtiram, məhz ulu öndərin vəsiyyətini yerinə yetirdiyini deməsi Azərbaycanın həm də dövlətçilik prinsiplərinə sahib olduğunu göstərdi. Strateji əhə-

miyyətli məsələlərlə bağlı vəsiyyətlərin mövcudluğu və yerinə yetirilməsi yalnız oturuşmuş dövlətçilik ənənəsinə malik olan dövlətlərdə müşahidə edilə bilər. 1992-ci il 8 mayda itirdiyimiz Şuşa 28 il sonra 2020-ci il 8 noyabrda Ali Baş Komandanımızın rəhbərliyi ilə geri qaytarıldı, Azərbaycanın 28 illik ŞUŞA yarası sağaldı! Bu, Dövlət Bayrağı Günü ərəfəsində Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev xalqımızın səbirsizliklə gözlədiyi müjdəni tarixi gündə verdi. Bu gün Azərbaycan bayrağı Şuşada dalğalanır.

Azərbaycan bəlkə də son bir əsrdə bu qədər sevinc, qürur yaşamamışdı, bayrağa bu qədər sevgi görməmişdik. Bu tarixi müjdəyə sevinən xalqımız Azərbaycanın bütün şəhər və bölgələrində üçrəngli bayraqlarımızı dalğalandıraraq bir daha Bayrağımıza, qələbəmizə olan sevgilərini böük coşqu ilə nümayiş etdirdilər. Şuşaya bayrağımızın sancıldığı 2020-ci ilin 8 noyabr günü Azərbaycan tarixinə əbədi həkk olundu. Nəinki hərbi ekspertlərin, elə ermənilərin özlərinin də dediyi kimi, "kim Şuşaya nəzarət edirsə, Qarabağa da o nəzarət edir". Ermənistanın öz acı məğlubiyyəti öz dillərindən hələ çoxdan eşidilirmiş. Bəli, Şuşaya nəzarət edən Azərbaycan Ordusu tarix yazdı. Arzumuz reallıq oldu. Şuşa öz sahibinin oldu. Lakin bu bəs deyildi. Biz hər bir qarış torpağımızı, hər bir daşımızı, ağacımızı, yurdumuzu-yuvamızı sonuna qədər istəyirdik. Şuşa azad edildikdən dərhal sonra noyabrın 9-u bayraq günündə Prezident İlham Əliyev 71 kəndin, bir qəsəbənin və 8 strateji yüksəkliyin işğaldan azad edildiyi barədə ölkə ictimaiyyətini yenidən sevindirdi. Beləliklə də, Şuşanın alınması Ermənistanı tam tərk-silah etdi, onun bütün manevr imkanları puç oldu, ölkə və dünya ictimaiyyətini aldatmaq taktikası bütün anlamını itirdi. Düşmənin ağ bayraq qaldırmaq və kapitulyasiya etməkdən başqa çıxış yolu qalmadı.

1993-cü ildən ötən dövr ərzində böyük əziyyətlər hesabına əldə edilən nailiyyətlər, qazanılan uğurlar zərrə-zərrə bizi möhtəşəm qələbəyə yaxınlaşdırdı. 2003-cü ildən sonrakı mərhələdə İlham Əliyev diplomatiyasının apardığı fəal iş Azərbaycanın haqlı mövqeyinin beynəlxalq hüquqi əsaslarını daha da möhkəmləndirdi. Azərbaycan nəinki Qafqaz regionu üçün, ümumilikdə bütün dünyanın gələcək taleyi üçün təhlükə törədə biləcək terror yuvasını təmizləyir. Azərbaycan həm də Ermənistanın Gürcüstanın

Samtsxe-Cavaxeti diyarına, Qara dəniz sahili bölgələrinə, Rusiyanın Krasnodar, Soçi kimi strateji əhəmiyyətli ərazilərinə, İran İslam Respublikasının şimal-qərb bölgələrinə sərsəm iddialar irəli sürməsinin qarşısını alır.

**Şuşa mədəniyyəti**

***"...Şuşa Azərbaycanın ən əziz və böyük tarixi olan bir guşəsidir. Şuşanı yaradanlar, Şuşa şəhərini quranlar, Şuşa qalasını tikənlər Azərbaycan torpağının sahibləri olublar və Qarabağda Azərbaycan torpağının daim qorunması, saxlanması üçün Şuşa şəhərini, qalasını yaradıblar. Bu, Azərbaycan xalqının, əcdadlarımızın yaratdığı böyük abidədir, təkcə şəhər deyil, böyük bir tarixi abidədir".***

**Heydər Əliyev**

Qarabağ xanı Pənahəli xan tərəfindən XVIII əsrin ortalarında əsası qoyulan Şuşa Azərbaycanın ən mühüm şəhərlərindən birinə çevrilib. İlk vaxtlarda bu yaşayış məskəni Pənahəli xanın şərəfinə "Pənahabad", bir müddət sonra isə "Şuşa qalası" və "Şuşa şəhəri" adlandırılıb.

Pənahəli xanın dövründə şəhərdə böyük tikinti işləri aparılıb. İbrahimxəlil xanın dövründə isə Şuşa qalasının divarları və strateji əhəmiyyətli qalalar tikilib. Şəhər qısa zamanda xeyli böyüyüb, təbii gözəlliyi, hündür binaları və möhtəşəm qala divarları ilə diqqəti cəlb edib. Şuşa təkcə tikililəri ilə deyil, eyni zamanda, havasının təmizliyi, saflığı və müalicəvi əhəmiyyəti baxımından da vacib hesab olunub. Qafqazın musiqi mərkəzinə çevrilən Şuşada XIX əsrin sonu – XX əsrin əvvəllərində dünyanın heç bir yerində bitməyən "Xarıbülbül" yetişir. Qarabağ xanlığının paytaxtı olan Şuşanı "Kiçik Paris", "Qafqazın sənət məbədi", "Azərbaycan musiqisinin beşiyi" və "Şərqin konservatoriyası" adlandırırdılar. Şuşada dahi bəstəkar Üzeyir bəy Hacıbəylinin böyük əməyi sayəsində Azərbaycanda ilk dəfə peşəkar musiqi təhsilinin bünövrəsi qoyulub.

Şuşanın tarixini yaxşı bilən Ümummilli Lider şəhərə çox böyük qayğı göstərərək onun inkişafına çalışırdı. Dahi lider Şuşaya adi bir şəhər deyil, zəngin tarixi abidə, Azərbaycan xalqının qəhrəmanlıq rəmzi kimi baxırdı. Ulu öndər Heydər Əliyev Şuşanın abidələr şəhəri olduğunu, diyarın

zəngin tarixi ilə bağlı olan hər şeyi qorumağın, qədim tikililəri bərpa etməyin vacibliyini qeyd edib və bundan sonra bu şəhərin simasının gözəlləşdirilməsi, tarixi abidələrin bərpası məqsədilə mühüm işlər həyata keçirilib.

Ermənistan silahlı qüvvələri xarici havadarlarının dəstəyi ilə 1990-cı ilin əvvəllərində Azərbaycanda baş verən xaos və anarxiyadan istifadə edərək ölkəmizə qarşı hücumlar təşkil edirdilər. Həmin dövrdə Azərbaycanda vahid ordunun olmaması və hakimiyyətdə olanların səriştəsizliyi nəticəsində torpaqlarımızın 20 faizi işğal edildi. 1992-ci il mayın 8-də Şuşa şəhəri də düşmən işğalına məruz qaldı. Ermənilər Şuşada Azərbaycanın tarixi mədəni irsinə aid abidələri yerlə-yeksan edib, şəhəri tanınmaz hala saldılar.

Molla Pənah Vaqif, Xurşidbanu Natəvan, Üzeyir bəy Hacıbəyli, Bülbül və başqa sənətkarların yaşayıb-yaratdığı Şuşa erməni işğalı nəticəsində dağıdıldı, mədəni irsinə böyük zərbələr vuruldu.

Erməni birləşmələri tərəfindən 1992-ci il mayın 8-də işğal edilən Şuşada 195 nəfər Azərbaycan vətəndaşı xüsusi amansızlıqla qətlə yetirilib, 165 nəfər yaralanıb, onlardan 150 nəfəri əlil olub, 552 körpə valideynlərini itirib, 20 mindən artıq insan doğma yuvasını tərk edərək məcburi köçkün vəziyyətinə düşüb. Əsir və girov götürülən 58 azərbaycanlının taleyi barədə hələ də xəbər yoxdur; 600-ə yaxın tarixi memarlıq abidəsi və müxtəlif təyinatlı binalar yerlə-yeksan edilib.

Ermənistan silahlı qüvvələri tərəfindən təmas xəttində yerləşən mövqelərimizə və mülki yaşayış məntəqələrimizə 2020-ci il sentyabrın 27-də edilən hücumlara, açılan artilleriya atəşinə cavab olaraq rəşadətli Azərbaycan Ordusu Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi altında uğurlu əks-hücum əməliyyatı keçirərək, 1992-ci il mayın 8-də erməni silahlı birləşmələri tərəfindən işğal edilən Şuşa şəhərini 2020-ci il noyabrın 8-də düşməndən azad etdi. Ordumuzun cəsur və peşəkar hərbi qulluqçuları şəhərə sıldırım qayalardan qalxaraq, əlbəyaxa döyüşlə Şuşanı düşməndən təmizlədi. Şəhərin işğaldan azad olunmasından sonra düşmən artıq Azərbaycan Ordusunun qarşısındakı acizliyini etiraf edərək noyabrın 10-da üçtərəfli bəyanatı imzalamağa məcbur oldu. Bununla da Azərbaycanın ayrılmaz bir hissəsi olan Qarabağ tamamilə işğaldan azad edildi.

Şuşa indi azad nəfəs alır. Şuşa keçmiş şöhrətinə qovuşur. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin göstərişi ilə artıq şəhərdə tarixi abidələrin, yolların, kommunikasiya xətlərinin, ümumiyyətlə bütün infrastrukturun bərpası və yenilənməsi ilə bağlı mühüm işlər görülməkdədir. Şuşa yenidən mədəniyyət beşiyi olaraq dünya mədəni irsinə öz töhfəsini verməyə davam edəcək.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 7 may 2021-ci il tarixli sərəncamına əsasən, Şuşa şəhərinin tarixi görkəminin bərpası, əvvəlki şöhrətinin özünə qaytarılması və ənənəvi dolğun mədəni həyatına qovuşması, eləcə də Azərbaycanın çoxəsrlik zəngin mədəniyyətinin, memarlıq və şəhərsalma sənətinin parlaq incisi kimi beynəlxalq aləmdə təbliği məqsədilə Şuşa şəhəri Azərbaycanın mədəniyyət paytaxtı elan edilib.

**Daşdan doğan əzəmət- Şuşa memarlığı**

Azərbaycan bütöv bir bədəndirsə, Şuşa onun ürəyidir. Azərbaycan xalqının qürur və fəxarət mənbəyi olan qədim Şuşa yağı tapdağından azad olundu. "Qafqazın Parisi", Qarabağın incisi olan Şuşa həm də qədim yaşayış məskənidir. Şanlı tarixi keçmişi ilə öyünür qədim Şuşa. Alınmaz qalanın təməlinin dəqiq tarixi məlumdur - 1750. Pənahəli xanın əmri ilə Təbrizdən, Ərdəbildən və digər şəhərlərdən xan üçün yeni binalar və saray tikən məşhur ustalar dəvət edildi. Qalanın "İrəvan" və "Gəncə" adlanan iki qapısı var idi.

Şuşa 1755-ci ildə Qarabağ xanlığının paytaxtı oldu. Burada 1795-ci ilə qədər 10 mindən çox insan yaşayırdı. Şuşa memarlığı üzrə aparıcı mütəxəssis, rəssam və memar Elturan Avalov birinci mərhələdə qala divarları və sarayları ucaldarkən, şərq hissəsinin - aşağı məhəllələrin meydana gəlməsi Şuşanın əsasının qoyulduğu zamana aid edilir. İkinci mərhələnin şərq hissəsinin yuxarı hissəsinin inşa edildiyi - yuxarı məhəllələrin meydana gəldiyi dövr İbrahimxəlil xanın (1762-1806) hakimiyyəti dövrüdür. Nəhayət, 1805-ci ildən bəri şəhərin üçüncü mərhələsi onun qərb hissəsinin inkişafına səbəb oldu. Tarixçi və vəzir Mirzə Vəli Baharlı (1725-1795) əsərlərində Şuşanın məskunlaşmasının şərq aşağı hissəsində yerləşən Çuxur məhəllədən yazır. Şəhərin kütləvi inkişafı Pənahəli xanın oğlu –

İbrahimxəlil xanın (1732-1806) dövründə başladı. Bu zaman Qarabağ xanlığı ən güclü Azərbaycan xanlıqlarından biri oldu. Ölçülərinə görə fərqli və ərazi ilə əlaqəli konfiqurasiyasında bir başqa yeni mərhələ, Qarabağ xanlığının çiçəklənmə və güc zirvəsi XVII-XVIII əsrlərə təsadüf edir. O zaman şəhərin ən yaxşı memarlıq binaları tikildi. Həmin anda Şuşanın 17 məhəlləsi 4 yerə bölündü. Bunlardan doqquzu aşağı – Qurdlar, Seyidli, Quyuluq, Çuxur, Dördlər yurdu, Hacı Yusifli, Dörd çinar, Çöl qala və Culfalar; səkkizi yuxarı – Mərdinli, Saatlı, Köçərli, Mərcanlı, Dəmirçilər, Mamayı, Hamamqabağı və Təzə məhəllə idi.

Hər məhəllənin məscidlərinin yerləşdiyi ərazi (Aşağı Gövhər ağa, Yuxarı Gövhər ağa, Malıbəyli ağa, Qaybala, Şirlan və s.) ilə yanaşı, bir məktəb və ya bir mədrəsə ilə öz icma mərkəzi var idi. Hamam, ticarət mərkəzi və bulaqlar (Meydan, İsa, Saxsi, Şor, Ovdan, Xan qızı Natəvan və s.) da şəhərə bir gözəllik verirdi. Sakinlər qürurla özlərini "qalalı" adlandırırdılar.

Köhnə Şuşadakı evlər əsasən malikanə tipli idi. Hamısının meyvə bağları vardı və ətrafı daş hasarlarla əhatə olunmuşdu. Küçələrin kəsişməsində, piyadaların və nəqliyyatın rahatlığı üçün hasarların və ya evlərin küncləri kəsilmiş daşla hörülmüşdü. Səkilər böyük düzbucaqlı daş lövhələrlə örtülmüşdü. Küçələr parket daşları ilə döşənmiş, mənzərəli bir şəkildə dolaylı, dik qalxışlar və enişlər var idi. Şuşanın küçələri yağ lampaları ilə işıqlanırdı. Şəhərdə XIX əsrin sonlarında, təxminən, 30 belə lampa var idi.

Təbiəti dillərə dastandır Şuşanın. Səfalı yaylaqları, füsunkar Cıdır düzü, soyuq, xeyirli, dumduru İsa bulağı, Turşsuyu Şuşanı bütün dünyaya tanıtdırıb. Cıdır düzü Şuşanın daha yüksək hissəsindədir. Cıdır düzü Daşaltı çayının 200 metr aşağısından axan Daşaltı dərəsinə baxır. Cıdır düzünün kənarındakı cığır Xan mağarasına doğru gedir. Xan mağarası erməni vandalizminin qurbanı olan arxeoloji abidələrimiz sırasındadır. İsa bulağı Azərbaycan təbiətinin nadir incilərindən biridir. Yerli əhalinin məlumatına görə, bulaq XVIII əsrdə ilk dəfə onu qalın meşəlikdə üzə çıxarmış İsa adlı əkinçinin adını daşıyır.

**Bülbülün ev-muzeyi**

SSRİ Xalq artisti Bülbülün 1992-ci ilə qədər Şuşada yerləşən ev-muzeyi onun Bakı şəhərindəki memorial muzeyinin filialı idi. Ev-muzey kiçik həyət, iki otaq və eyvandan ibarətdir. Bülbülün yaradıcılıq, elmi-tədqiqat, pedaqoji, ictimai fəaliyyəti haqqında nadir, çox qiymətli sənədlər burada nümayiş olunurdu. Muzeyin fasadında Bülbülün heykəltəraş Xanlar Əhmədov tərəfindən bürüncdən hazırlanmış, uşaqlıq illərinin portretini əks etdirən memorial lövhə vurulmuşdur. Ermənistan Silahlı Qüvvələrinin Şuşa şəhərini işğal etməsi nəticəsində muzeyin 6 mindən artıq eksponatı məhv edilmiş və aparılması mümkün olanlar isə Ermənistana daşınmışdır. Bülbülün erməni vəhşiləri tərəfindən güllələnmiş heykəli hazırda Azərbaycan Milli İncəsənət Muzeyinin həyətində yerləşdirilib.

**Xurşidbanu Natəvanın evi**

Görkəmli Azərbaycan şairi Xurşidbanu Natəvana məxsus ikimərtəbəli ev Şuşa şəhərində yerləşən XVIII-XIX əsrlərə aid tarixi yaşayış binalarından biri hesab olunurdu. Hazırda bu ev yarıuçuq vəziyyətdədir.

**Molla Pənah Vaqifin muzey-məqbərə kompleksi**

Görkəmli Azərbaycan şairi Molla Pənah Vaqifin muzey-məqbərə kompleksinin inşasına memar A.V.Salamzadə və E.İ.Kanukovun layihəsi əsasında 1977-ci ildə başlanılmışdır. Kompleksin açılışı 1982-ci ilin yanvar ayında olmuşdur. Kompleks Şuşa şəhərinin görkəmli yeri olan Cıdır düzünə yaxın bir ərazidə dahi şairin məzarı üstündə inşa edilmişdir. Burada M.P. Vaqifin Şuşa həyatını əks etdirən dövrə aid olan 80-ə yaxın eksponat da sərgilənirdi. Kompleksin açılışında ümummilli lider (Azərbaycan KP MK-nın birinci katibi) Heydər Əliyev, tanınmış ədəbiyyat və mədəniyyət xadimləri iştirak etmişdilər. 1992-ci ilin may ayında Ermənistan Silahlı Qüvvələri tərəfindən Şuşa şəhərinin işğal edilməsi nəticəsində kompleksin binası və burada sərgilənən onlarca eksponat məhv edilmiş, aparılması mümkün olan eksponatlar isə Ermənistana daşınmışdır.

**Aşağı Gövhər ağa məscidi**

Qarabağın sonuncu xanı İbrahim xanın qızı Gövhər ağa (əsl adı Gövhərnisə) həm də öz dövrünün məşhur xeyriyyəçilərindən olmuşdur. Onun vəsaiti hesabına tikilən Aşağı Gövhər ağa məscidi Şuşa şəhərində 1874-1875-ci illərdə memar Kərbəlayı Səfixan Qarabaği tərəfindən inşa edilmişdir. Məscid Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 2 avqust tarixli 132 nömrəli qərarı ilə "Ölkə əhəmiyyətli daşınmaz tarix və mədəniyyət abidələrinin siyahısı"na daxil edilib. 1992-ci ilin mayında Şuşanın işğalı zamanı Aşağı Gövhər ağa məscidinin binası və minarələri zirehli texnikanın atəşlərinə məruz qalaraq ciddi zədələnibdir.

**Yuxarı Gövhər ağa məscidi**

Yuxarı Gövhər ağa məscidini 1883-1884-cü illərdə, yəni Aşağı Gövhər ağa məscidindən, təxminən, səkkiz il sonra Gövhər ağanın vəsaiti hesabına memar Kərbəlayı Səfixan Qarabaği tikib. Planı, təqribən, kvadrat formada olan (21,30 x 26,20 m) bu məscid ümumən Ağdam Cümə və Aşağı Gövhər ağa məscidlərinin konstruksiya ideyasını saxlayır. Zalın yan divarları boyu quraşdırılmış ikinci mərtəbədəki qadınlar üçün eyvan və mehrabla üzbəüz tərəfdəki şüşəbənd də memarın əsas tikinti meyarlarındandır. Yuxarı Gövhər ağa məscidinin minarə kürsülüyü əvvəlki məscidlərdə olduğu kimi təbii əhəng daşı ilə olsa da, onun gövdəsində işlədilmiş həndəsi ornamentlər heç də Aşağı Gövhər ağa məscidinin minarə bəzəklərinə uyğun deyil. Onlar əsasən Ağdam Cümə məscidinin minarələrindəki həndəsi ornamentlərin bədii ideyasını davam etdirir. Minarələrin çardaq örtüyü ağac materiallarından quraşdırılıb. Onun son ucluğunu ayparaşəkilli fiqur bəzəyir. 1969-cu ildən tarix muzeyi kimi istifadə edilən bu məscid 1992-ci ilin mayında Şuşa şəhərinin işğalından sonra erməni vandalları tərəfindən dağıdılmışdır.

**Mamayı məscidi**

Şuşanın Mamayı məhəlləsində XIX əsrdə tikilmiş eyniadlı məscidin memarı Kərbalayı Səfixan Qarabaği olmuşdur. Şuşanın dördbucaqlı adi yaşayış binalarının dam örtüyünü xatırladan Mamayı məscidinin dam

örtüyündə azançı üçün "güldəstə" quraşdırılmışdır. Mamayı məscidi sovet hakimiyyəti illərində Poeziya evi kimi fəaliyyət göstərmişdir. Məscid ikimərtəbəlidir.

**Saatlı məscidi**

Məscid memar Kərbəlayı Səfixan Qarabaği tərəfindən 1883-cü ildə inşa olunub. Pənahəli xanın 1759-cu ildə Şuşada tikdirdiyi məscid və mədrəsənin yerində tikilib. Tikildiyi məhəllənin adı ilə "Saatlı məscidi" adlandırılıb. Məscidin minarələrinin ümumi quruluşu Yuxarı Gövhər ağa və Ağdam Cümə məscidinin minarələrinə bənzəyir. Şuşanın məhəllə məscidləri sırasında kompozisiya həllinə və xüsusilə minarəsinin olması ilə seçilən Saatlı məscidi Kərbəlayı Səfixanın Qarabağda tikdiyi minarəli məscidlərin sonuncusu hesab olunur. Şuşanın 1992-ci ilin mayında Ermənistan silahlı qüvvələri tərəfindən işğalı zamanı məscidin minarəsi top atəşləri nəticəsində dağıdılmışdır.

**Şuşa Musiqi Məktəbi**

Şuşa Musiqi Məktəbi 10 oktyabr 1932-ci ildə yaradılan görkəmli Azərbaycan şairi Xan qızı Natəvanın evində yerləşmişdir. Bu məktəb həm də Azərbaycanda yaradılan ilk uşaq musiqi məktəbi idi. Musiqi məktəbinin açılması təşəbbüsü məşhur şuşalı xanəndə Bülbülə məxsus olub. Şuşa şəhəri Ermənistan silahlı qüvvələri tərəfindən 1992-ci ilin may ayında işğal edildikdən sonra, Şuşa Musiqi Məktəbi dağıdılmışdır.

**Şuşa Realni məktəbi**

Şuşada ilk orta məktəbin - altısinifli Realni məktəbinin əsası 1881-ci il sentyabrın 20-də qoyulmuşdur. Hazırlıq və üç əsas sinifdən ibarət təşkil edilən bu məktəbə ilk dəfə 159 şagird qəbul edilmişdi. Şuşa Realni məktəbi dövrünün nümunəvi maarif ocağı sayılırdı. Bu məktəbdə dinin qoyduğu qadağalara baxmayaraq, başqa xalqların dilləri öyrədilir, digər xalqların ədəbiyyatının tədrisinə xüsusi diqqət yetirilirdi. Məşhur Azərbaycan yazıçıları Əbdürrəhim bəy Haqverdiyev və Yusif Vəzir Çəmənzəminli bu məktəbin məzunu olmuşlar.1992-ci ilin may ayında Şuşa şəhəri

işğal edildikdən sonra erməni vandalları Realni məktəbi yandıraraq xarabazara çevirmişlər.

**Şuşa Şəhər Tarix Muzeyi**

Şuşa Şəhər Tarix Muzeyi tarix-diyarşünaslıq profilli idi. Muzeydə Şuşa şəhərinin tarixini əks etdirən nadir fotoşəkillər, XIX-XX əsrin əvvəllərinə aid sənədlər, Şuşada XVIII-XIX əsrlərdə inşa edilmiş, tarixi əhəmiyyət daşıyan yaşayış evlərinin sxemləri, maketləri və fotoşəkilləri nümayiş etdirilirdi. Burada Şuşa şəhərindən olan tanınmış Azərbaycan ziyalıları, maarifçilər xanəndələr, musiqişünaslar və yazıçılar haqqında maraqlı stendlər, eksponatlar var idi. Dekorativ-tətbiqi sənət bölməsində qiymətli incəsənət əşyaları, dolçalar, qazan dəstləri, dulusçuluq məmulatları, Şuşada və ətraf kəndlərdə toxunmuş xalçalar, gəbələr, bədii toxuculuq nümunələri saxlanılırdı. Muzey 1992-ci ilin may ayına qədər fəaliyyətini davam etdirmiş, Şuşa şəhəri işğalçı Ermənistan ordusu tərəfindən zəbt olunduqdan sonra dağıdılmışdır. Eksponatların xeyli hissəsini xilas etmək mümkün olmamışdır. Hacı Quluların mülkü - Hacı Qulunun Xocamərcanlı məhəlləsindəki imarəti 1851-ci ildə tikilmişdir. Milli üslubda tikilmiş üçmərtəbəli sarayda 46 otaq və 2 böyük zal var idi. Şuşada 1865-ci ildə olmuş rus rəssamı V.V.Vereşşaginin əsərində bu zallardan biri təsvir olunub. Şuşa şəhərinin ermənilər tərəfindən 1992-ci ildə işğalı zamanı Hacı Quluların mülkü top atəşinə tutularaq divarları dağıdılmışdır.

**Ədəbiyyat beşiyi – Şuşa**

Azərbaycanımızın qədim mədəniyyət məkanlarından biri kimi tanınan Qarabağda xanlıqlar dövründən sonra ədəbiyyat və sənət daha da çiçəklənib inkişaf etdi. Molla Pənah Vaqifin Qarabağ sarayında yaşayıb fəaliyyət göstərməsi xanlığın söz, sənət adamlarına verdiyi dəyərin göstəricisidir. Hakim dairələrin sözü, sənəti yüksək qiymətləndirməsi ilə bərabər Qarabağın möcüzəvi təbiətinin insana aşıladığı yaradıcı ruh Şuşada qeyri-adi yaradıcılıq mühiti formalaşdırmışdı. Təsadüfi deyil ki, Qasım bəy Zakir, Baba bəy Şakir, Məhəmməd bəy Aşiq, Natəvan, Nəvvab, Fatma xanım Kəminə, Əbdürrəhim bəy Haqverdiyev, Nəcəf bəy Vəzirov,

Yusif Vəzir Çəmənzəminli, Üzeyir Hacıbəyli, Əhməd Ağaoğlu kimi yazıçı və mütəfəkkirlərimiz Şuşada yetişib yaradıcılığa başlayıblar.

Şuşanın necə bir mədəniyyət mərkəzi olmasını, mədəniyyətimizin inkişafına verdiyi töhfələri elə Qarabağ ədəbi məclislərinin fəaliyyəti nümunəsində görə bilərik.

Acınacaqlı haldır ki, təkcə Şuşanın ərazisini deyil, həm də mədəniyyətini mənimsəmək iddiasında olan mənfur qonşularımız heç bir əsas və fakt olmadan XIX əsrdə Şuşada mədəniyyətin inkişafının belə onlara aid olması təsəvvürünü formalaşdırmağa çalışırlar. Xarici dövlətlərdən yardım istəyib yalvaran erməni liderləri XIX sərdə Şuşanın mədəniyyət mərkəzi olduğunu qeyd edərkən dünya ictimaiyyətində yanlış rəy formalaşdırmağa çalışırlar. Şuşanın onlara heç bir dəxli olmamasına tutarlı cavablardan biri də orada yaranan ədəbiyyat, sənət inciləri, XIX əsrin ədəbi məclisləridir.

Dünya, eləcə də Şərq mədəniyyətində ədəbi məclislər xüsusi mədəni təsisat, institut kimi qədim dövrlərdən mövcud olmuşdur. Şərqdə, eləcə də Azərbaycanda onlar, əsasən saraylarda yaradılıb və üzvləri hökmdarların himayəsində olub.

Azərbaycanda ədəbi məclislərin müstəqil fəaliyyəti xanlıqların süqutundan sonra inkişaf etməyə başlayıb. Xanlıq mərkəzlərinin yerləşdiyi və ya onlara yaxın şəhərlərdə ədəbi məclislər yaranıb. Ədəbi məclislər siyasi hakimiyyət əldən getdikdən sonra mədəni hakimiyyəti ələ alan, mədəniyyətin, maarifin, milli ideologiyanın inkişafına təkan verən mərkəzlər funksiyasını yerinə yetirib. Təəssüf ki, onların mədəniyyət və fikir tariximizdə icra etdiyi rol lazımi səviyyədə araşdırılıb dəyərləndirilməyib. Mərhum ədəbiyyatşünas Nəsrəddin Qarayevin hələ sovet dövründə ədəbi məclislər, onların təmsilçiləri haqqında apardığı tədqiqatlar son dərəcə əhəmiyyətlidir. Müstəqillik dövründə ayrı-ayrı ədəbi məclisləri araşdıran alimlərimiz ədəbiyyat tarixini məclis üzvlərinin bədii və pedaqoji fəaliyyətləri haqda yeni məlumatlarla zənginləşdiriblər. Məclislərin stasus və funksiyası, strateji əhəmiyyəti məsələlərinə aydınlıq gətirmək üçün yeni tədqiqatlara və elmi dəyərləndirmələrə tələbat var.

XIX əsr Şuşa ədəbi məclisləri özünün çoxyönlü funksiyası, ədəbiyyata, mədəniyyətə, maarifə verdiyi töhfələri ilə fərqlənir. Mənbələrdə ən

çox adı çəkilən Şuşa məclisləri "Məclisi-üns" və "Məclisi-fəramuşan"dır. Bunlardan başqa, Cəfərqulu xan Nəvanın sarayında fəaliyyət göstərən, azsaylı şair və sənət adamlarını bir araya gətirən üçüncü bir ədəbi məclisin də varlığı qeyd olunur. Bir şəhərdə öz ətrafına yaradıcı şəxsləri yığan üç ədəbi məclisin mövcudluğu həmin məkanın mədəniyyət tarixində tutduğu möhtəşəm mövqedən xəbər verir.

"Məclisi-üns" və "Məclisi-fəramuşan" ədəbi məclislərini mədəni təsisat kimi nəzərdən keçirdikdə Qarabağ ədəbi-mədəni mühiti haqda müəyyən təsəvvür formalaşır.

Ədəbi məclislər, ilk növbədə, şeir-sənət məktəbi idi. Burada şeirlər, məsnəvilər yazılır, ədəbi müzakirələr aparılır, şeir normaları öyrədilir, nəzirələrlə ənənələr möhkəmlədilir və gələcək nəsillərə ötürülürdü.

Hər iki ədəbi məclisdə təzkirələr yazılıb. "Məclisi-üns"də Müctəhidzadənin "Riyazül-aşiqin", "Məclisi-fərmuşan"da Nəvvabın "Təzkireyi-Nəvvab" və Həsən xan Qaradağinin təzkirələri. Bundan əlavə, Qarabağ şairlərinin tərtib etdiyi cünglər də var. Təzkirə və cünglər ədəbiyyat tarixi elmimizin mühüm qaynaqları və sənədləri olduğu üçün Şuşa ədəbi məclislərinin elmimizə mühüm töhfələri kimi dəyərləndirilə bilər.

Məclis yığıncaqlarında yazılan şeirlərin müzakirəsi, forma-məzmun xüsusiyyətlərinin dəyərləndirilməsi ədəbi tənqid və ədəbi prosesin inkişafına öz təsirini göstərməkdə idi. Şeir, sənət məktəbi kimi şeirşünaslıq elminin qayda və normalarının öyrədilməsi, qorunması ədəbi məclislərin bəlağət və poetika məktəbi kimi də əhəmiyyətini müəyyənləşdirir.

Ədəbi məclislər həm də musiqi məclisləri idi. Tarzən Sadıq (Mirzə Əsəd oğlu Sadıq - Sadıqcan), Hacı Hüsü, Məşədi kişi, Kaştazlı Haşım, Molla Abbasqulu, Molla Vəli, Məmməd Qaryağdı, Məşədi Dadaş və başqa xanəndələr ədəbi məclislərdə fəal iştirak edirdilər. Musiqi məclisləri bəzən şeir məclisləri ilə birlikdə olsa da, onlara xüsusi günlər də ayrılırdı. Həmin vaxtlar "Məclisi-üns"də musiqi məclislərinə Növrəs başçılıq edirdi. Nəvvab özü həm də musiqişünas olduğundan, "Məclisi-fəramuşan"ın musiqi yığıncaqlarını həm özü, həm də Hacı Hüsü aparırdı. Hacı Hüsü "Məclisi-fəramuşan"ın içərisində "Xanəndələr məclisi" də qurmuşdu. Nəsrəddin Qarayev yazır ki, Məşədi İsi, Kaştazlı Haşım, Hacı Hüsü, İslam Abdullayev, Mirzə Muxtar, Malıbəyli Həmid və qeyri xanəndələr həmin

məclisin üzvü olmuşlar. Qarabağda muğam, ifaçılıq o qədər inlişaf etmişdi ki, o dövrdə Şuşada "Bülbül" təxəllüsü daşıyan üç müğənni vardı. Müğənnilərin birinə yox, bir neçəsinə ifasına və səsinə görə "Bülbül" təxəllüsü verilməsi artıq bülbüllüyü təxəllüsdən çıxarıb sənətdə dərəcə mövqeyinə gətirir. Daha sonra Azərbaycanı dünya səviyyəsində tanıdan və əslən Şuşadan olan opera müğənnimiz, vokalist Murtuza Məmmədovun da Bülbül adını qazanması Qarabağda mövcud olan həmin ənənənin davamıdır.

Məclislərdə musiqiyə elmi münasibət bəslənirdi, muğam normalarına əməl etmək tələb olunurdu. Nəvvab ədəbi məclisdə fəaliyyəti dövründə musiqiyə həsr etdiyi "Vüzuül-ərqam" əsərini yazmışdı.

İncəsənətin fərqli növlərini əlaqədə təqdim edən Şuşa ədəbi məclisləri həm də rəssamlıq, xəttatlıq fəaliyyətini də mərkəzləşdirən mədəniyyət ocaqları idi.

Qərb nəzəriyyələrində XIX əsrdən ədəbiyyat incəsənətin bir növü kimi dəyərləndirilməyə başlandı. XX əsrin ilk onilliklərində bu baxış bizdə yazılan nəzəriyyəyə aid məqalə və dərsliklərdə öz əksini tapdı. Şuşa ədəbi məclislərində isə bu problem praktiki şəkildə öz həllini tapmışdı; incəsənət və ədəbiyyat vəhdətdə təqdim olunur, söz və musiqinin əlaqəsi haqda nəzəri müddəalar irəli sürülürdü.

Natəvan gül rəsmləri çəkir, həm də gülə-çiçəyə şeir yazırdı. Hətta onun çəkdiyi rəsmlərə məclis üzvləri də şeir həsr edirdi; Mirzə Həsən kimi.

"Məclisi-fəramuşan" üzvü Mirzə Məhəmməd Katib xəttatlığı ilə seçilir, Həsən xan Qaradaği yaxşı xətti olduğu üçün sifarişlə mühüm əsərlərin üzünü köçürürdü.

Azərbaycanın bütün bölgələrində, o cümlədən Şuşada ədəbi məclislər dövrün ziyalılarını bir araya gətirən, mühüm hadisələrin müzakirə olunmasına xidmət edən mərkəz funksiyasını da yerinə yetirirdi.

Şuşa ədəbi məclislərində elmin inkişafına yüksək dəyər verilir, şəhərin elm xadimləri ədəbi məclislərlə sıx əlaqə saxlayırdı. "Məclisi-üns" ün təməlləri Şuşanın elm və təhsil mərkəzi kimi tanınan Əbülqasım mədrəsəsində atılmışdı. Şairliyi ilə bərabər alim kimi də tanınan Nəvvab "Təzkireyi-Nəvvab"da Şuşada yaşayan alimlərə və müəllimlərə də yer ayırmışdı (Molla Abbas Cavanşir, Mirzə Heydərqulu Təbib, Mirzə Əli Təbib, Mirzə Əli Aşiq və b.).

Yeni tipli, üsuli-cədid məktəblərinin əməli fəaliyyəti, dərsliklərin yazılması həm Şuşada, həm də bütövlükdə Azərbaycanın bütün bölgələrində ədəbi məclislərin qabaqcıl təmsilçilərinin iştirakı ilə gerçəkləşirdi. Qarabağda Nəvvab, Qaradaği dərsliklərin tərtibi və yazılmasında fəallıq göstərirdilər. Qaradaği Çerniyayevskiyə "Vətən dili" dərsliyinin yazılmasında yaxından kömək etmişdir.

Milli bayramlarımızın, xüsusən Novruzun təşkili və keçirilməsi işlərinə də mədəni mərkəz kimi ədəbi məclislər başçılıq edib. "Məclisi-üns" üzvü Mirzə Ələsgər Növrəs Novruz bayramlarında "padşah" seçilirdi. Bu mənada, ədəbi məclislər həm də xalqın adət-ənənəsini, etnoqrafiyasını yaşadan bir təsisat idi.

Ədəbi məclis üzvlərinin Azərbaycan tarixinin yazılıb-yaşamasında da xidmətləri var. Təsadüfi deyil ki, Azərbaycan tarixinə aid ilk sistemli elmi əsər ("Gülüstani-İrəm") müəllifi "Gülüstan" ədəbi məclisinin rəhbəri Abbasqulu ağa Bakıxanovdur. Şuşa ədəbi məclisləri də tariximizə qiymətli məxəzlər bəxş etmişdir. Nəvvabın uzun illər elmi ictimaiyyətdən gizli saxlanan "1905-1906-cı illərdə erməni-müsəlman davası" əsəri xalqımızın keşməkeşli tarixini faktlar əsasında dəyərləndirmək baxımından qiymətli tarixi qaynaqdır. "Məclisi-ün"s üzvü Mirzə Həsənin "Rəsmi-vilayəti-Qarabağ və şəhri-Şişə" ("Qarabağ vilayəti və Şuşa şəhərinin adətləri") məsnəvisi də bədii olmaqla bərabər, tarix, etnoqrafiya baxımından da araşdırılası qiymətli məxəzdir. Bundan əlavə, məclis üzvlərinin ictimai-real motivli şeirlərində çarizmin o dövrdə Qarabağda apardığı işğalçı siyasətə, erməniləşdirmə probleminə aid bədii nümunələr var. Məmo bəy Məmainin aşağıdakı şeir parçasında olduğu kimi:

*Ey fələk, nə fəsad bərpa eylədün,*
*Aləmi fitnəvü-qovğa eylədün.*
*Bu cənnət Şuşanı xərabə qoydun,*
*Onu atəşə mübtəla eylədün.*

Şairlərimiz təkcə Qarabağda, Azərbaycanda şahidi olduqları hadisələrə deyil, qlobal proseslərə də şeirlər həsr edirdilər – Məmo bəy Məmainin ingilislərin Şərqdə müstəmləkəçilik siyasətinin əleyhinə yazdığı şeir kimi.

Bölgələrdəki məclis üzvlərinin məktublaşmaları, görüşüb fikir bölüşmələri Azərbaycan ziyalıları arasında mövqe yaxınlığının inkişafına yardım edirdi. Qarabağ ədəbi məclisləri Şamaxı, Naxçıvan ədəbi məclisləri, Qaradağ, Ərdəbil şairləri ilə sıx əlaqə saxlayırdılar.

Klassik şeir ənənəsinin aparıcı yer tutması ilə bərabər, Şuşa şairləri heca vəznində də şeirlər yazırdılar. Qarabağda Vaqif ənənələri ədəbi məclislərdən kənarda olduğu kimi, məclislərdə də davam etdirilirdi. Ədəbi məclis təmsilçilərinin xalq şeiri tərzində yazmasına əhəmiyyət verən Həsən bəy Zərdabi onlara bu tip şeirləri aşıqlara verməyi, xalq şənliklərində oxutmağı, xalqı maarifləndirməyi tövsiyyə etmişdi. Bu isə xalq və ziyalı ünsiyyətini artırır, cəmiyyətdə maariflənmənin təşkilinə yol açırdı.

Ədəbi məclislərin özünəxas ədəb-ərkan, nizam-intizam, davranış normaları var idi, burada nalayiq hərəkətə, sözə yol vermək olmazdı. Belə hərəkət edənlər məclis üzvləri tərəfindən tənqidə məruz qalır, qınanır, onlar haqqında tənqidi şeirlər yazılırdı. Ədəb-ərkan gözlənilməsi ilə onlar sufi məclislərini də xatırladır. Şairlərin bir-birinə yazdıqları məktub və şeirlərdə son dərəcə yüksək, kübar müraciət formalarından istifadə olunur.

Ədəbi məclislərdə sayılıb-seçilən şairlərə təxəllüslər verilirdi. Təxəllüsü məclis üzvləri və ya mühitin məşhur söz sahibləri verirdi – Fənanın Natəvana, Mehdiquluya təxəllüs verməsi, Nəvvabın Həsən Qarabağiyə təxəllüs seçməsi kimi.

Digər məclislərdə olduğu kimi, Şuşa məclislərində də qəzəl ən çox müraciət edilən janr olmaqla şairlər məsnəvi, təmsil, satira yazırdılar. Satirikruhlu şeir yazanlar arasında Mirzə Həsən, Məmo bəy, Nəvvab fərqlənirdi. Dinimövzulu əsərlər – məqtəl, mərsiyyə, növhə də Şuşa məclislərində az yazılmamışdı. Qarabağda şəbih tamaşalarının xüsusi yeri olması, insanların dini inancı, işğalçı güclərin törətdikləri qətl və qırğınlar diniməzmunlu ədəbiyyatın yaranmasını aktuallaşdırmışdı.

Şuşa ədəbi məclislərində ənənəvi didaktik janr olan nəsihətnamə ənənəsi də davam etdirilirdi. "Məclisi-üns"də Növrəs, Mirzə Həsən, "Məclisi-fərmuşan"da Nəvvab nəsihətnamə yazmışdı.

Qadınların kişilərlə bir məclisdə fəaliyyət göstərmələri Qarabağ ədəbi məclislərinin əsas özünəməxsusluqlarından biri idi. Qeyd etmək lazımdır

ki, o vaxt Qarabağ qadınları öz fəallıqları ilə seçilirdilər - həm yaradıcılıqda, həm də xeyriyyəçilikdə. Şairlər Natəvan, Fatma xanım Kəminə, Aşıq Pəri ədəbiyyat tarixində fərqli yerə sahibdirlər. Natəvan, Gövhər ağa, Qara Pirimli Nigar, Fatma xanım Kəminə xeriyyəçi kimi tanınmışdılar. Qadınların xeyriyyəçilik fəaliyyətləri özü də müəyyən ənənəyə bağlıdır. Qədim türklərdə qadına yüksək dəyər verilir, Orta əsrlərin dünyagörüşü kimi yayılan əxilik hərəkatında qadının bir çox sosial fəaliyyətdə, eləcə də hakimiyyətdə iştirakını təmin edən statusu var idi. Xeyriyyəçilik qadınların əsas fəaliyyət sahələrindən biri sayılırdı. Qarabağ xanımları həm birgə fəaliyyət, həm idarəçilik işləri ilə həmin ənənəyə bağlı idilər. Xurşidbanu bəyim kimi tanınan Natəvana həsr olunmuş şeirlərdən bir neçəsində (Həsən Qarabaği və Nəvvabın şeirində) ona hətta ağa deyilməsi ilə də rastlaşırıq.

Şuşa ədəbi məclisləri XIX əsrdə Azərbaycanda mədəni ideologiyaların inkişafında mühüm rol oynamışdır. İslamçılıq, türkçülük, azərbaycançılıq, müasirləşmə ideologiyalarının mədəni təzahürlərinə aid sənətkarların yaradıcılığından çoxsaylı misallar gətirmək olar.

Bəzən belə fikirlərə rast gəlirik ki, ədəbi məclis üzvlərinin çoxu zəif şairlər olub. Bu, onların yaradıcılığının bütövlükdə üzə çıxarılıb, çap olunub araşdırılmaması ilə bağlıdır. Məclislərdə aparılan müzakirələr, şeir, sənət tələbləri orada zəif nümunələrin yazılma ehtimalını azaldır. Burada yaşanan ciddi yarışma və rəqabət, şeir, sənət dəyərləndirməsi, ustadların məclisə rəhbərlik etməsi zəiflərin və dözümsüzlərin sona qədər getməsinə imkan verməzdi.

Qarabağ ədəbi mühiti onun təbiəti qədər zəngin və rəngarəngdir. Öyrənilib-araşdırılması, təbliği humanitar fikrimizin inkişafına xidmət etməklə bərabər, həm də onu sahiblənmək istəyən yadları, düşmənləri susdurar.

### Şərqin konservatoriyası – Şuşa

Dünyada bir neçə şəhər var ki, musiqi onun hər daşına, qalasına, abhavasına hopub. Belə şəhərlərdən Avstriyanın Vyana, İtaliyanın Neapol, Azərbaycanın da Qarabağının Şuşa şəhəridir. Hətta xalq arasında məşhur kəlam vardır ki, "Şuşada körpələr bələkdə belə muğam üstündə ağlarlar".

Musiqimizin məbədi və beşiyi olan füsunkar Şuşa şəhərinin əsası 1750-ci ildə Qarabağın ilk xanı Pənah xan tərəfindən qoyulub. Pənah xanın qala üçün seçdiyi yer əvvəllər tamamilə meşə ilə örtülü bir sahə idi və üç tərəfdən sıldırım qayalarla əhatə olunduğundan, gələcək şəhər üçün əlverişli təbii səngər rolunu oynayırdı. Pənah xan tərəfindən qısa müddət ərzində salınan bu şəhər əvvəllər öz banisinin adı ilə "Pənahabad" adlanırdı. Lakin sonralar şəhərin yaxınlığında yerləşən Şuşakəndin adı ilə "Şuşa qalası" adlanmağa başlandı. «Musiqi dünyası» saytında yerləşdirilən «Şuşa Azərbaycan musiqisinin məbədidir» başlıqlı məqalədə qeyd edilir ki, tarixboyu bu qala düşmən basqınlarına, hücumlarına məruz qalmışdırsa da, heç vaxt əyilməmiş, həmişə alınmaz olmuşdur. Ona görə bu gün işğal altında olan Şuşa qalasının, Şuşa şəhərinin 250 illiyi münasibətilə danışmaq və yazmaq çox çətindir. Əfsuslar ki, biz bu mədəniyyət, musiqi məbədimizi qoruya bilmədik. Təsəllimiz odur ki, bu məbəd statik, qoruq kimi qalmamışdır, əsrlərboyu zəngin musiqi ənənələri, musiqi məktəbi ilə Şuşadan çox-çox uzaqlarda məşhur olub. Şuşa – Zaqafqaziyanın konservatoriyasıdır, təbirini və təyinini haqlı olaraq qazanıb. Şuşa konservatoriyasının parlaq nümayəndələri dünyanın bütün qitələrində Azərbaycan musiqisini ləyaqətlə təmsil edərək ona şöhrət gətirmişlər[14].

Şuşa – Mir Möhsün Nəvvabın, Xarrat Qulunun, Hacı Hüsünün, Sadıxcanın, Məşədi İrsinin, Əbdülbağı Zülalovun, Cabbar Qaryağdıoğlunun, Keçəçi oğlu Məmmədin, Məşədi Məmməd Fərzəliyevin, İslam Abdullayevin, Seyid Şuşinskinin, Bülbülün, Zülfi Adıgözəlovun, Xan Şuşinskinin, Məşədi Cəmil Əmirovun, Qurban Primovun, bəstəkarlardan Üzeyir Hacıbəyovun, Zülfüqar Hacıbəyovun, Fikrət Əmirovun, Niyazinin, Əfrasiyab Bədəlbəylinin, Soltan Hacıbəyovun, Əşrəf Abbasovun, Süleyman Ələsgərovun, müğənni Rəşid Behbudovun vətənidir. Bu, əlbəttə Şuşa musiqiçilərinin tam siyahısı deyil. Şübhəsiz ki, bu mövzu bir məruzənin, hətta bir məqalənin deyil, böyük tədqiqat əsərinin mövzusudur. Şərq musiqisinin məşhur tədqiqatçısı V.Vinoqradov hələ 1938-ci ildə Üzeyir bəy haqqında kitabında yazırdı: "Şuşada musiqi çoxdur Azərbaycanın hər hansı rayonundan daha çox xalq mahnılarını, rəqslərini,

---

[14] http://www.anl.az/down/meqale/xalqcebhesi/2012/aprel/243879.htm

xanəndə və sazəndələrini burada eşitmək olar. Şuşa qədim zamanlardan musiqinin beşiyi kimi məşhurdur və bütün Zaqafqaziyada xalq musiqi istedadlarının tükənməz bulağı kimi şöhrət qazanmışdır. "Şuşa musiqiçiləri" Azərbaycan musiqisinin tarixini yaradırdılar və onu yalnız vətənlərində deyil, digər Şərq ölkələrində təqdim edirdilər".

XIX əsrin ikinci yarısında Azərbaycanın bir sıra şəhərlərində musiqi məclisləri, cəmiyyətləri, dərnəkləri təşkil olunurdu. Belə ki, Bakıda Məşədi Məlik Mənsurovun məclisi, Şamaxıda Mahmud Ağanın, Şuşada isə Xarrat Qulu Məhəmməd oğlunun və Mir Möhsün Nəvvabın musiqi məclislərinin Azərbaycan musiqisinin inkişafında önəmli rolu olub.

Şuşada birinci musiqi məclisi Şərq musiqisinin bilicisi Xarrat Qulu (1823-1883) tərəfindən təşkil edilmişdi. Bu məclis dini məqsədlə yaranmışdır, lakin burada həm də muğam sənəti öyrənilirdi. Məhərrəmlik qurtarandan sonra (onun keçirilməsinə bir neçə ay hazırlaşırdılar) xanəndələr bu muğamları artıq toylarda və başqa yerlərdə ifa edirdilər. Xarrat Quludan sonra 1980-ci illərdə Şuşada "Məclisi-Fərəmuşan" (Unudulmuşların məclisi) və "Musiqiçilərin məclisi" yaranır ki, onların rəhbəri, Azərbaycanın XIX əsrinin mütərəqqi xadimi, alimi, şairi, musiqişünası, rəssamı Mir Möhsün Nəvvab idi. Nəvvab Şuşada doğulmuş, yaşamış, yaratmış və orada da vəfat etmişdi (1833-1918). Ensiklopedik biliyə və nadir istedada malik olan M.M.Nəvvab Azərbaycan elmini, musiqi sənətini, ədəbiyyatını xeyli zənginləşdirmişdir. Onun çoxşaxəli fəaliyyəti, elmi müddəaları və tədqiqatları, müəllifin iyirmidən artıq əsərində öz əksini tapmışdır. Bizim üçün M.M.Nəvvabın musiqi ifaçılığı və musiqi elmi sahəsindəki fəaliyyəti xüsusilə maraqlıdır. Keçən əsrin 1980-ci illərində məşhur xanəndə Hacı Hüsü ilə birlikdə yaratdığı "musiqiçilər cəmiyyəti"ndə musiqi sənətinin estetik problemləri, xanəndələrin ifaçılığı, klassik müğamları müşayiət edən şeirlər müzakirə olunurdu. Cəmiyyətə öz vaxtının məşhur xanəndə və sazəndələri Hacı Hüsü, Məşədi Cəmil Əmirov, İslam Abdullayev, Seyid Şuşinski və b. daxil idi. Bir çox musiqiçilər özlərinin ilk təhsilini məhz bu cəmiyyətdə almışlar. Burada müzakirə olunan problemlərdən bəziləri öz əksini və sonrakı inkişafını M.M.Nəvvabın "Vüzuhül-ərqam" risaləsində tapmışdır. Mir Möhsün Nəvvab musiqi sənəti haqqında "Vüzuhül-ərqam" risaləsini (Rəqəmlərin izahı) 1884-cü ildə Şuşada yazıb.

Böyük tarzən Mirzə Sadıq Əsəd (1846-1902) də burada böyüyüb başa çatıb. Xalq arasında o, "Sadıqcan" kimi məşhur idi. Mirzə Sadıq Azərbaycanda və Zaqafqaziya xalqları arasında böyük şöhrət və məhəbbət qazanmış ustad sənətkar idi. Onun "Sadıqcan" adlanması da görünür, bu məhəbbətin ifadəsi idi. Mirzə Sadıq İran şahının oğlunun toyunda böyük bacarıq və ustalıq göstərdiyinə görə, şah onu "Şiri-Xurşid" qızıl medalı ilə təltif etmişdi. Mirzə Sadıqın musiqimizin tarixində xidmətləri böyük idi. O, çoxəsrlik tarı rekonstruksiya edərək təkmilləşdirmiş, beşsimli zəif səslənən tara altı simi də əlavə edərək simlərin sayını on birə qədər artırmışdır. Tarın qolunda olan pərdələrin sayını isə azaldaraq 17 pərdəyə endirmişdir. Mirzə Sadıq yeni Azərbaycan tarının yaradıcısı idi. Onu "tarın atası" adlandırırdılar. Mirzə Sadıq tarla bərabər muğamları da təkmilləşdirmiş, tarın qoluna "Zabul" pərdəsini, "Mirzə Hüseyn Segah"ına isə "Müxalif"i əlavə etmişdir. Sadıqcan iri əllərə, uzun və güclü barmaqlara sahib idi, deyilənə görə, onun tarda işlətdiyi barmaqları, vurduğu mizrabları heç kəs təkrar edə bilməmişdir. Ona baxmayaraq qeyd etməliyik ki, Məşədi Zeynal, Məşədi Cəmil Əmirov, Şirin Axundov, Qurban Pirimov kimi mahir tarzənlər məhz Sadıqcan məktəbinin gözəl davamçılarıdır.

Şuşada yazıçı Əbdürrəhimbəy Haqverdiyevin rəhbərliyi ilə 1897-ci ildə həvəskar aktyorların ifasında dahi Azərbaycan şairi Füzulinin poeması əsasında "Leyli Məcnunun məzarı üstündə" musiqili səhnəcik göstərildi. Məcnun rolunu məşhur xanəndə Cabbar Qaryağdıoğlu (1861-1944) oynayırdı. "Fərhad və Şirin" mövzusunda ikinci belə musiqili səhnə 1902-ci ildə qoyulmuşdur. Fərhad rolunu yenə də Cabbar Qaryağdıoğlu ifa edirdi. O, xalq xanəndəsi və bəstəkarı kimi məşhur idi. Cabbar Qaryağdıoğlu öz sözlərinə çoxlu mahnı, təsniflər üçün şeirlər yazmışdır. "Bakı", "Bəsti", "Tiflisin yolları" və bir çox mahnıların müəllifi idi. Cabbar Qaryağdıoğlunun yüksək tessitura və genişdiapazonlu gözəl tenoru var idi. Onun kimi "Mənsuriyyə", "Heyratı", "Kürd-Şahnaz" oxuyan yox idi. Onun səsini məşhur italyan tenoru Karuzo ilə müqayisə edirdilər. Yesenin onu "Şərq musiqisinin peyğəmbəri" adlandırmışdır. Hələ 1906-1912-ci illərdə onun səsi Kiyev, Moskva, Varşavada bir sıra səhmdar cəmiyyətlər tərəfindən fonovalikə yazılmışdır. Cabbar Qaryağdıoğlu Azərbaycan vokal sənətinin tarixində yeni səhifə açmışdır. O, musiqili-ədəbi və Şərq

konsertlərində çıxış edərək, milli operanın yaranmasında önəmli rol oynadı, onun üçün münbit zəmin yaratdı. Cabbar Qaryağdıoğludan sonra Şuşa xanəndəlik məktəbinin ən parlaq nümayəndəsi Seyid Şuşinski idi (1889-1965). Cabbar Qaryağdıoğlu onu "Şərq musiqisinin incisi" adlandırmışdı. Seyid Şuşinskinin 1908-ci ildə Şuşanın "Yay klub"unda keçən ilk uğurlu çıxışından sonra Cabbar səhnəyə çıxıb Seyidi bağrına basaraq gözləri yaşarmış halda demişdi: "İndi mən ölsəm də, daha qəmim yoxdur, çünki məndən sonra Seyid vardı". Sonrakı çıxışlarının birində isə Cabbar Seyidin oxumasından riqqətlənərək öz qavalını ona bağışlamışdı. Şərqdə ilk opera olan "Leyli və Məcnun"u digər dahi şuşalı Üzeyir Hacıbəyov 1907-ci ildə yazmağa başlayır. Amma bu operanın mövzusu bir qədər əvvəl – 1897-1998-ci illərdə hələ bəstəkar Şuşada yaşayarkən qəlbində həkk olmuşdur. Şuşada göstərilən "Məcnun Leylinin məzarı üstündə" mövzusunda səhnəcikdə balaca Üzeyir özü də xorda oxuyurdu.

**Dahi Üzeyiri yetişdirən torpaq**

Azərbaycan musiqisinin klassiki, opera sənətinin banisi, görkəmli alim-musiqişünas, alovlu publisist, istedadlı dramaturq, pedaqoq və ictimai xadim Üzeyir Hacıbəyovun yaradıcılıq yolu Azərbaycan musiqi mədəniyyətinin yaranması və inkişafı tarixinin mühüm dövrünü əks etdirir. Məhz elə buna görə Üzeyir Hacıbəyovun (1885-1948) anadan olduğu günü – 18 sentyabrı respublikanın ictimaiyyəti musiqi bayramı kimi qeyd edir. Hacıbəyov musiqisi 90 ildən artıqdır ki, Azərbaycan xalqının canına, qanına sirayət edərək, bədii mədəniyyətimizin ayrılmaz hissəsini təşkil edir. Onun yaradıcılığı tək doğma Qarabağın deyil, Azərbaycanın da hüdudlarını aşaraq, artıq müasir musiqi mədəniyyətinin bədii hadisəsinə çevrilmişdir.

Üzeyir bəy dəfələrlə etiraf etmişdir ki, özünün şedevri olan "Koroğlu" operasını yaradarkən ən əvvəl Bülbülün səsini nəzərdə tutmuşdu. Bülbül (1897-1961) Hacıbəyovun ölməz operasında Koroğlu rolunun klassik ifaçısı oldu. Hələ 12 yaşından bu oğlan Qarabağ toylarında və bayramlarında iştirak edib oxuyurdu. Çox tezliklə o, Bülbül adı ilə məşhurlaşdı, populyar oldu. Bülbül inqilabdan əvvəl xanəndə kimi, muğamların ifaçısı kimi çıxış edirdi. İnqilabdan sonra yeni Azərbaycan vokal sənətinin banisi

olmuşdur. Bakı konservatoriyasındakı illər, İtaliyada ən yaxşı belkanto ustalarından aldığı dərslər, rus, sovet və dünya ustalarının sənətindən öyrənməsi Bülbülü tamamilə yeni tipli Azərbaycan müğənnisi etmişdir. O, öz sənətində milli məxsusluğu dünyəvi texnika ilə məharətlə birləşdirə bilmişdir. Biz inanırıq, əminik ki, gün gələcək, Qarabağda, Şuşada, onun "Cıdır düzü"ndə, "İsa bulağı"nda yenə "Qarabağ şikəstəsi" səslənəcək, yenə xalq mahnısı "Qarabağda bir dənəsən" oxunacaq və yenidən yeni "Qarabağ bülbülləri" cəh-cəh vuracaq!

**Şuşanın nəqqaşları**

Çoxəsrlik tarixə və zəngin bədii ənənələrə malik olan Azərbaycan təsviri sənətinin ümumi inkişafında ayrı-ayrı bölgələrdə yaşayıb-yaradan sənətkarların önəmli rol oynamaları danılmaz həqiqətdir. Sultan Məhəmməd, Mir Seyid Əli və Sadiq bəy Əfşar ənənələrini uğurla davam etdirən Allahverdi Avşar və Mehralının, Usta Qənbər Qarabaği, Mir Möhsün Nəvvab, Xurşidbanu Natəvan, İbrahim Səfi, Əkbər Kazım Muğan, Əli Qulu, Qurban Əli və başqa sənətkarların milli təsviri sənətimizin yüksək bədii-estetik dəyərlərə malik nümunələrinin yaradıcıları kimi tanınmaları da bunu təsdiqləyir. Əgər bu sənətkarların təsviri sənət sahəsindəki fəaliyyətlərini xronoloji ardıcıllıqla izləməli olsaq, onda Orta əsrlərdən başlayaraq ta XVIII əsrə qədər əvvəlcə Təbriz, XIX əsrin son qərinəsində Şuşa, XIX əsrin sonu – XX əsrin əvvəllərində isə Şamaxı və Naxçıvanda yaşayan yaradıcıların dünyamıza rənglərin işığında bənzərsiz göz qoymaqda ad çıxardıqlarını vurğulamalıyıq.

XIX əsrdə bölünmüş Azərbaycanımızın şimalında Şuşanın mədəni mərkəzə çevrilməsində bir qanunauyğunluq vardır desək, yanılmarıq. Bədxahlarımız tariximizə heç vaxt unudulmayacaq "Gülüstan" və "Türkmənçay" kimi yaralar vursalar da, xalqımız bu ölçüyəgəlməz mənəvi-psixoloji ağrılara öz mənəvi yüksəlişi ilə cavab verdi. Yaramızın hələ də qaysaqlanmadığı elə həmin əsrin ortalarında Şuşada teatr tamaşalarının göstərilməsi, Qarabağ xanəndələrinin Şərqin musiqi məkanında özünəməxsus nüfuz qazanmaları, Kərbəlayi Səfinin ucaltdığı memarlıq inciləri, Usta Qənbər, Mir Möhsün Nəvvab və Xurşidbanu Natəvanın yaratdıqları rəssamlıq əsərləri də bunun təsdiqidir...

Qarabağda yaşayıb-yaratmış yaradıcıların bizim dövrə gəlib-çatan, onların gözəllik duyumunu və sənətkarlığını ifadə edən bədii nümunələrin arxeoloji qazıntılar nəticəsində üzə çıxarılmış paralanmış nümunələrinin belə bizim mənəvi qidamıza və qürur qaynağına çevrilənləri də var, bütövlüyü ilə həm də ilkin təravətini və gözəlliyini bu gün də qoruyub saxlayanları da... Kimlərinsə obrazlı deyimində duyğulandırıcılığına görə "donmuş musiqi"yə bənzədilən Qarabağın memarlıq abidələrinin oxşar duyğuları aşılamaq gücü elə uzaqdan da görünəndir.

Qarabağlı yaradıcıların əhatə olunduqları əsrarəngiz yerli təbiətin onlar üçün ilk və fərdi gözəllik qaynağı olduğuna rəğmən deməliyik ki, bu sənətkarların ruhunda əsl yaradıcı olmaq missiyası daşıyanların əksəriyyəti rənglərə olan özünəməxsus münasibətini sona qədər qoruyub saxlaya bilmişdir. Düşüncələrini rənglərin məna-məzmun tutumu ilə qovşaqda gerçəkləşdirən sənətkarlar çox vaxt bu rəngarəngliyi duyulası tutumda ram etməklə onların ümumi kompozisiyanın ruhuna uyğunlaşdırmağa, onun bütövlüyünü əldə etməyə nail olmuşlar.

Etiraf edək ki, sənətin müxtəlif növlərində təsvirin incəliyinə və xırdalıqlara nail olmaq nə qədər çətindirsə, görünənlərin duyulası şərtilik və geniş bədii ümumiləşdirmələrlə ifadəsi ondan da çətindir. Ümumiyyətlə, fikrin yığcam-bayatı tutumunda ifadə edilməsi həmişə çətin olub və bu, yüksək sənətkarlığın göstəricisi sayılıb. Bu mənada, Qarabağ ünvanlı xalça-palazların və divar rəsmlərinin, metalişləmə və ağacoyma nümunələrinin naxış örtüyündəki yüksək icra sənətkarlığının məhz belə yığcamlığa və qeyri-adi ümumiləşdirməyə kökləndiyini söyləmək mümkündür.

Lap qədimlərdən Qarabağ torpağında təşəkkül tapan təsviri və tətbiqi sənətin zaman-zaman təkmilləşən və bir qədər də zənginləşən bədii ənənələri XIX əsrdə duyulası dərəcədə yeniləşdi desək, yanılmarıq. Belə ki, məhz bu yüzillikdə mədəniyyətimizin başqa sahələri kimi təsviri sənət də özünün daha fərqli inkişaf mərhələsinə qədəm qoymuşdur. Xalqımıza Orta əsrlərdən başlayaraq dünya miqyasında başucalığı gətirən rəssamlıq sənətimiz Sultan Məhəmməd kimi sarbanı itirəndən sonra çox tez bir zamanda zirvəsinə qar yağıbmış kimi göründü və Təbriz məktəbində yaşanan qaynar yaradıcı həyat və burada yaradılan əsərlərin daşıdığı çoxqatlı bədii-estetik tutum müxtəlif səbəblər üzündən zəiflədi və tədricən

gəlmə meyillərinin əlamətləri ilə qovşaqda inkişafını davam etdirməyə başladı. Az sonra sənət tariximizə "Qacar üslubu" kimi daxil olacaq sənət yönümü belə yarandı. Təsviri sənətimizin çoxəsrlik inkişaf mərhələsində çox önəmli sayıla biləcək həmin dövrdə yaradılmış sənət əsərlərinin bədii şərhində həm klassik miniatür üslublu əsərlərdən gəlmə şərti-dekorativ forma-biçimə, həm də Qərbi Avropa rəssamlığına xas olan realist-gerçəksiz xüsusiyyətlər qoşalaşmışdı.

Bu üslubun Arazdan aşağıda – ölkənin güneyində yüksək dairələrdə təqdir olunması demək olar ki, miniatür üslubunun illərlə formalaşmış zəngin bədii ənənələrinin sonrakı inkişaf taleyini sual altına qoymuş oldu. Bütün bu baş verənlər təbii olaraq şimalda yaradıcılıqla məşğul olanların, o cümlədən də qarabağlı rəssamların da fəaliyyətinə təsir göstərdi. Şuşada yaşayan Qarabağ sənətkarlarının yaradıcılığının təsviri sənət tariximizdə qədim və ənənəvi miniatür sənəti bədii ənənələrinin bir qədər zəifləyib yeniləşməsi, özündə Şərq və Qərb rəssamlığının qovşağını yaşadan bədii prinsiplərlə əvəzlənməsi dövrünə təsadüf etdiyindən onların üzərinə böyük məsuliyyət düşürdü desək, həqiqəti söyləmiş olarıq. Bu mənəvi məsuliyyət, heç şübhəsiz, ilk növbədə, uzun əsrlərboyu təkamül yolu ilə formalaşan Azərbaycan təsviri sənəti ənənələrinin qorunması ilə bağlı idi. Bu gün duyulası zaman distansiyasından qətiyyətlə demək olar ki, Qarabağda – onun iqtisadi-siyasi və mənəvi mərkəzi sayılan Şuşada çalışan fırça ustaları sələflərinin onlara miras qoyub getdikləri əvəzsiz bədii irsə xas olan bədii ənənələri yaşatmaqla yanaşı, onları yeri gəldikcə özünəməxsus bədii məziyyətlərlə zənginləşdirməyə nail olmuşlar.

Buna XIX əsrin ikinci yarısında yaşayıb-yaratmış Usta Qənbər Qarabaği və onun qardaşı Səfərin, oğlu Şükürün, Mir Möhsün Nəvvabın və Xurşidbanu Natəvanın bizə ərməğan qoyduqları sənət nümunələrinin timsalında əmin olmaq mümkündür. Onların zəngin təxəyyülünün nəticəsi olan sənət nümunələri mülki və ictimai tikililərin divarlarını, nəfis xətlə yazılmış əlyazmalarını, ayrı-ayrı vərəqləri bəzəməkdədir. Bu sənətkarların hər birinin yaradıcılıq yoluna ətraflı nəzər salmaqla onların əsərlərində hifz olunan dünyaya azərbaycanlı-qarabağlı baxışının bədii-estetik məziyyətlərini duymaq mümkündür. Bir azdan biz sizi xəyalən geriyə - təzadlı hadisələrlə dolu XIX əsrə qaytaracaq, həmin dövrün bədii

hadisələrinə əyanilik gətirməyə və dəyərləndirməyə çalışacağıq. Amma bu yerdə deyək ki, Azərbaycan incəsənətinə qarabağlı duyumu və görümü ilə rəngarənglik bəxş edənlərin siyahısı XIX əsrdə Şuşada yaşayan rəssamların fəaliyyəti ilə məhdudlaşmır. Elə Qarabağ ünvanlı bu qədim ənənənin sonrakı dövrlərdə də davam etdirilməsinin nəticəsidir ki, bu gün biz Qarabağ rəssamlıq məktəbi haqqında danışa bilirik.

XX əsrin ilk qərinəsində baş verən ciddi ictimai-siyasi hadisələrin axarı Bakını ölkədəki bədii hadisələrin mərkəzinə çevirdi. Burada təsviri və tətbiqi sənətin inkişafına və təbliğinə xidmət edən rəssamlıq məktəbi və muzey açıldı. Bütün bunlar, heç şübhəsiz, yeni siyasi sistemlə baş-başa qalan respublikada sənət həvəsli insanların yaradıcılıq axtarışlarının imkanlarını bir qədər də genişləndirdi. Əvvəllər öz istedadını yalnız yaşadığı bölgədə nümayiş etdirən yaradıcıların, artıq həm də sosialist tutum alan ölkə paytaxtının mədəni həyatında iştirakları onların ruhlarında gəzdirdikləri mənəvi dəyərləri Avropa-rus bədii ənənələri ilə qovuşaqda ifadə etməyə imkan verdi. Həmin yaradıcılar arasında Qarabağın müxtəlif guşələrindən içində gəzdirdikləri yaratmaq arzusunu daha da alovlandırmaq niyyətində olanlar da az deyildi. Azərbaycan təsviri sənət tarixinin XX-XXI əsri əhatə edən xronologiyası milli incəsənətimizdə dərin iz salmış neçə-neçə sənətkarın adını yaşadır. Onların arasında artıq dünyasını dəyişmiş Əmir Hacıyev, Lətif Kərimov, Toğrul Nərimanbəyov, Cahid Camal, Kərim Cəlal və Cəlal Qaryağdı ilə yanaşı, bu gün də yaradıcılığını davam etdirən Altay Hacıyev, Xanlar Əhmədov, Zakir Əhmədov, Fəxrəddin Məmmədvəliyev, Məzahir Avşar, İlham Ənvəroğlu, Kamal Əhməd, Asif Azərelli, Rövşən Bayramov, Firdovsi Atayev, Elşən Hacızadə və Səyyar Əliyev kimi sənətkarların adlarını çəkmək olar. Azərbaycan incəsənətinin müasir mərhələsi haqqında məlumatı olan hər kəsə bu adlar yaxşı tanışdır. Əslən qarabağlı olan bu yaradıcıların hər birinin sənətdə öz yolu, fərdi və fərqli dəst-xətti vardır desək, həqiqəti söyləmiş olarıq. Toğrul Nərimanbəyovun rəngkarlıqda yaratdığı "Azərbaycan nağılı", Lətif Kərimovun sirr qatına bələnmiş xalçaları, Cəlal Qaryağdı və Xanlar Əhmədovun axıcı və oynaq daş-tunc tutumdan "boylanan" gözəllik duyumu, Əmir və Altay Hacıyevlərin ənənə və müasirliyə tapınan "cizgi möcüzəsi", Məzahir Avşarın türk mənəvi dəyərlərinə verdiyi düşündürü-

cü plastik görüntü, İlham Ənvəroğlunun görünənlərin fəlsəfi tutumuna işıq salmaq istedadı, Səyyar Əliyevin Qarabağ dərdlərinə tutduğu bədii-fəlsəfi "güzgü" özündə ilk növbədə onların yaradıcılığının sənətkar "mən"ini yaşadır. Hər bir gözəllik yaradıcısının arzuladığı bu uğurlu nəticənin əldə olunmasındadır ki, adlarını vurğuladığımız təsviri və tətbiqi sənət ustaları Azərbaycan incəsənətinə özünəməxsus töhfə verməklə, onun rəngarəngliyinin təminatçısına çevrilmişlər.

**Ləziz təam diyarı – Şuşa**

Azərbaycan mətbəxinin sorağı bütün dünya ölkələrinə yayılıb. Ölkəmizə gələn əcnəbi turistlər mütləq Azərbaycan mətbəxini dadmadan geri qayıtmaq istəmirlər. Xüsusən də zəngin Qarabağ mətbəxinin növbənöv təamlarını. Qarabağ mətbəxinin zənginliyini peşəkar ekspertlərdən tutmuş bütün qarabağlılar da təsdiqləyir.

Qarabağın hər bir bölgəsinin özünəməxsus təamları var. Biz bu gün Qarabağ mətbəxinin tərkib hissəsi olan Şuşa mətbəxindən söhbət açacağıq. Şuşa mətbəxi zənginliyi və özünəməxsusluğu ilə seçilir. Bu, şuşalılarla etdiyim söhbət zamanı daha da aydın oldu.

Azərbaycan Milli Kulinariya Assosiasiyasının prezidenti Tahir Əmiraslanov bizimlə söhbətində qeyd etdi ki, Qarabağ mətbəxi Azərbaycanın ənənəvi milli mətbəx mədəniyyətinin tərkib hissəsidir. Tarixən başqa regionların mətbəxi ilə qarşılıqlı təmasda zənginləşərək həmin regionları da zənginləşdirib: "Qarabağ dənizdən uzaqda yerləşdiyinə görə, burada dəniz balığı deyil, çay balığından istifadə olunur. Ümumiyyətlə, Qarabağ mətbəxində balıq ön sırada yer tutmur".

T.Əmiraslanovun sözlərinə görə, Şuşa mətbəxi olduqca zəngin mətbəxdir: "Bunun səbəbi Orta əsrlərə gedib çıxır. Xanlıq dövründə Şuşaya o dövrün sayılıb-seçilən qonaqlar gəlirdi. Gələn qonaqları razı salmaq üçün xüsusi və qabiliyyətli aşpazlar Şuşaya toplaşırdılar. Necə ki, gözəl səs sahibləri Şuşada idilər. Eləcə də aşpazlar".

Şuşanın məşhur xörəklərinə gəlincə T.Əmiraslanov bildirdi ki, o bölgənin kabab və plovlarının dadı tək Azərbaycana deyil, əcnəbi ölkələrə də səs salıb: "İlk olaraq şuşalıların sevdiyi "Qiyməli plov" haqqında danışım.

**Pənahəli xanın dövründə hazırlanan plov**

Bu plov Pənahəli xanın dövründə hazırlanırdı. Hazırlanma qaydası belədir:

Bir kiloqram qoyun əti maşından keçirilib yağda qovrulur. İçərisinə 20 qram zoğal axtası, 20 qram kişmiş vurulur. 500 qram düyü süzülərək qiymə ilə qat-qat qazana yığılıb dəmə qoyulur. Qazanın dibinə qazmaq hazırlamaq üçün lazım olanlar məhsullar isə bunlardır: 500 qram un, 1 yumurta, 100 qram yağ yoğrulub yuxa halına salınır və qazanın dibinə qoyulur.

Digər plov növü isə "Qırxbuğumlu aş"dır. Bu plovun hazırlanması üçün 1 kiloqram düyü ılıq duzlu suda 3 saat saxlanılır. Sonra düyü qaynadılan zaman 150 qram qırxbuğum əlavə edilir. Qazanın dibinə 500 qram qoyun əti düzülür. Ət olmadıqda düyünün üzərinə yumurta vurulur. Ət yığılıb üzərinə qırxbuğumlu düyü tökülür, yağ əlavə edilib dəmə qoyulur".

Əslən Şuşadan olan Pərvanə xanım Qaraxani sevə-sevə hazırladığı Şuşa mətbəxi haqqında danışdı: "Şuşa mətbəxi digər mətbəxlərdən seçilir. Çünki burada olan ədviyyat və göyərtilər digər bölgələrdə yoxdur. Həmin ədviyyat və göyərtilər sayəsində xörəyin dadı başqa bir aləm olur. Şuşalıların ən sevimli plovlarından biri "Şeşdrengili aş"dır. Bu plovun hazırlanması 1kq düyü 3 saat ılıq suda saxlanılaraq qaynadılır, sonra süzülür. 150 qram yağ vurulub dəmə qoyulur. Böyük tavada 200 qram soğan qovrulur. Üzərinə zoğal axtası, kişmiş əlavə edilir, yuvalar açılır və həmin yuvalara yumurtalar vurulur. Sonra üzərinə duz, istiot, darçın tökülür. Süfrəyə ayrı-ayrılıqda verilir.

Qədim Şuşa yeməklərindən biri də "Canına çəkmə"dir. Bu xörək əsasən soyuq aylarda bişirilir. Bunun üçün 500 qram qoyun əti 200 qram noxudla birlikdə qaynadılır. Bişdikdən sonra içərisinə 300 qram yumru düyü tökülür. Suyu çəkilib yağa düşənə qədər bişirilir. Bişənə yaxın içərisinə 30 qram zoğal və ya zoğal axtası tökülür.

Digər xörək isə "Qəlya" adlanır. Bu yemək əsasən quzu ətindən hazırlanır. 500 qram quzu əti bişirilir. Yağa düşəndə içərisinə bişmiş şabalıd, gavalı turşusu, heyva doğranıb tökülür. Zəfəran, darçın, duz, istiot əlavə edilir".

P.Qaraxani söhbətin sonunda onu da əlavə etdi ki, şuşalılar öz diyarlarından didərgin düşsələr də mətbəxlərini unutmayıblar.

**Nəticə**

Göründüyü kimi, zəngin mədəni irsə malik olan Şuşa haqqında yaza-yaza bitirə bilməyəcəyimiz bir səltənətə sahibik. Bir azərbaycanlı vətəndaş olaraq bu məqaləni yazdığım zaman gəldiyim qənaətlər qürurvericidir. Şuşanın bizim tariximizdə tutduğu müqəddəs yeri, həmçinin ədəbiyyatı, memarlığı, musiqisi, rəssamlığı, məişəti əvəzolunmayacaq bir sərvətdir. Onun qədimliyi, haqqında yazılan əski mənbələr, mənfur düşməni susdura bilmək və dünya dövlətlərinə görk ola bilmək adına xalqımızın, milli-mənəvi dəyərlərimizin sarsılmazlığını nümayiş etdirmək üçün ən gözəl vasitədir.

Tarixdə mənbələr iki hissədə tədqiq olunur: maddi və şifahi. Maddi mənbələri şifahi mənbələrə nəzərən tədqiq etmək, eləcə də sübut etmək daha rahatdır. Məsələlərə materialist baxımdan yanaşmaq, onu gözlə görmək və ona toxunmaq, beynin məlumatı daha tez qavrayıb mənimsəməsinə, həmçinin təsdiqlənməsinə səbəb olur. Bir xalqın mədəniyyəti, dünyagörüşü və ən əsası, qədimliyi sübut oluna biləcək resurslar baxımından təhlil olunur. Qəbirüstü abidələri, müdafiə qala divarları, məscidləri, muzeyləri buna misal göstərmək mümkündür. Bu cəhətdən Şuşa memarlığı olduqca zəngindir.

Mirzə Fətəli Axundov adına Azərbaycan Milli Kitabxanasının çox böyük və müxtəlif ədəbiyyatları ehtiva edən fonda malikdir. Bu kitabların müəlliflərinin əksəriyyəti, ana vətəni Şuşa olan ədiblərdir. Söz sənətinin və yazarlığın güclü olduğu bu region təkrarolunmaz və əzəmətli – Ə. Haqverdiyev, N. Vəzirov, Y.V.Çəmənzəminli, Ə.Ağaoğlu kimi yazıçı və şairlərin diyarıdır.

Azərbaycanı dünyaya tanıdan digər amil Şərqdə ilk operanın Üzeyir Hacıbəyova aid olmasıdır. "Leyli və Məcnun" əsərinə bəstələdiyi musiqi ilə bizi məşhurlaşdıran dahi bəstəkarın doğum günü, yəni 18 sentyabr, hər il Milli Musiqi Günü kimi qeyd olunur. Şərq konservatoriyasının nümayəndələri musiqiyə böyük töhfələr vermiş, beynəlxalq səviyyədə səslənən musiqilərin və nəğmələrin yaradıcıları olaraq tarixə adlarını qızıl hərflə yazmışlar.

Şuşa rəsssamlarından X.Natəvan, M.Nəvvab kimi dəyərli nəqqaşların yaradıcılıq nümunələri muzeylərdə qorunub saxlanılır. Təsviri sənətimi-

zin çoxəsrlik inkişaf mərhələsində çox önəmli sayıla biləcək həmin dövrdə yaradılmış sənət əsərlərinin bədii şərhində həm klassik miniatür üslublu əsərlərdən gəlmə şərti-dekorativ forma-biçimə, həm də Qərbi Avropa rəssamlığına xas olan realist-gerçəksiz xüsusiyyətlər qoşalaşmışdı.

Milli mətbəximizin sorağı dünyanın dörd bir yanına çatmışdır. Qarabağ mətbəxi də bu mövzuda, xüsusilə seçilənlər arasındadır. Məşhur plovları, ədviyyatlı və göyərtili ləziz təamları ilə milli mətbəx mədəniyyətimizi zənginləşdirib inkişaf etdirərək, beynəlxalq festivallarda və tədbirlərdə digər dünya ölkələrinin mətbəxləri ilə yarışacaq səviyyədədir.

Hələ ən qədim dövrdə, elm və texnikanın inkişaf etmədiyi bir zamanda həm siyasi, həm coğrafi, həm də iqtisadi nailiyyətlərə qədəm qoyub, elə o zamanlardan bəri, pis niyyətdə olan dövlətlərin qorxulu röyasına çevrilmişik. Tarixboyu zülmlərə məruz qalsaq belə, məğrurluğumuz, vətənpərvərliyimiz və alnıaçıqlığımız sayəsində qələbəni biz qazandıq. Xarıbülbülün ətrini, Cıdır çəməninin rəngini, Qələbə gününün axşamı yağan yağışda Xan qızı Natəvanın sevinc göz yaşlarını, təpəyə bayraq sancan əsgərimizin səsində Xudayarın avazını eşitdik. Düşünürəm ki, bu qələbə sevincindən və qürurumuzdan silinən o “qara ləkə”dən sonra ölməz ədiblərimiz məzarlarında rahat uyuyurlar. Əminəm ki, ulu öndər Heydər Əliyevin də ruhu rahatlıq tapdı. Şükürlər olsun. Bir vətəndaş öz yurdu üçün başqa nə istəyə bilər ki?

Atasının siyasətini uğurla davam etdirən cənab Prezidentimiz İlham Əliyevin Şuşa ilə bağlı hərbi əməliyyatlar zamanı səsləndirdiyi devizlərlə, göstərdiyi cömərdlik və şücaətlərlə bizə öz kimliyimizi tanıtdırmağa yardımçı oldu. Bizə mədəniyyətimizə, irsimizə geri dönməyi və bərk-bərk sarılmağı təlqin etdi. Şanslıyıq. Bizləri yaradan Rəbbimiz hər xalqa əqli ədalətlə, qəlbi mərhəmətlə yoğrulmuş rəhbər nəsib etmir.

## ƏDƏBİYYAT


Şuşinski Firidun. (1962). Şuşa. Bakı: Uşaqgəncnəşr, (s. 54).

Axundov Nazim. (1989). Qarabağ salnamələri. Bakı: Yazıçı, (s. 232).

Abbasov Həmid. (1993). Şuşa həsrəti, türk həqiqəti: (İl və yol qeydləri). Bakı: Azərbaycan, (s. 64).

Kərimli Kərim. (1993). Ürəyimin şüşəsi Şuşa. Bakı: Azərbaycan. (s. 80).

Çingizoğlu Ənvər. (2009). Şuşa şəhəri (1750-1850). Bakı: Şuşa, (s. 247).

Hüseynov Yunis. (2015). Şuşa salnaməsi. Bakı: Şuşa. (s. 150).

Hüseynov Yunis. (2013). Şuşa şəhərinin tarixi. Bakı: Şuşa, (s.155).

Şuşa şəhərinə həsr olunmuş elmi konfransın materialları: 22 dekabr 2000-ci il /Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi. - Bakı: [s. n.], 2000. (83 s.).

http://www.anl.az/down/meqale/azerbaycan/2015/oktyabr/458394.htm

http://www.anl.az/down/meqale/xalqqazeti/2012/may/251210.htm

http://www.anl.az/down/meqale/yeni_az/2020/may/708326.htm

http://www.anl.az/down/meqale/iqtisadiyyat/2021/noyabr/765425(meqale).pdf

http://www.anl.az/down/meqale/xalqqazeti/2022/yanvar/775422(meqale).pdf

http://www.anl.az/down/meqale/azerbaycan/2021/fevral/734451.htm

http://www.anl.az/down/meqale/xalqqazeti/2021/yanvar/731043(meqale).pdf

http://www.anl.az/down/meqale/xalqqazeti/2021/may/744292(meqale).pdf

http://www.anl.az/down/meqale/ses/2022/yanvar/775774(meqale).pdf

http://www.anl.az/down/meqale/adalet/2015/avqust/451517.htm

https://ok.ru/qarabagdir/topic/65386179704258

*Айсу Ализада*

# ШУША В ИСТОРИКО-КУЛЬТУРНОЙ СРЕДЕ АЗЕРБАЙДЖАНА

## РЕЗЮМЕ

В большинстве стран мира есть города, история которых уходит корнями в каменный век, имеющие геополитическое значение и культуру мирового уровня. Азербайджанская Республика также входит в ряд таких стран. В нашей стране есть города с богатым культурным наследием, такие как Баку, Шуша, Барда, Гянджа и другие. Исторические исследования показывают, что Панахали хан проявлял особую заботу и доброту к народу при создании одноименного ханства в Карабахе. Только в XIX веке в Шуше проживало 95 поэтов, 22 музыковеда, 38 певцов, 19 каллиграфов, 16 живописцев, 12 переписчиков, 5 астрономов, 18 архитекторов, 16 врачей, до 42 учителей и др.. Эта великая интеллигенция сыграла большую роль в превращении Шуши в культурный центр и развитии здесь науки, образования и культуры. Шуша – венец Карабаха, храм искусства Кавказа, консерватория Востока, родина выдающихся деятелей, внесших значительный вклад в общественно-политическую и культурную жизнь Азербайджана, родной город, дорогая земля, крепость военного и стратегического значения и священный памятник. В связи с этим важным является восстановление подлинного исторического облика, традиций и древних культурных памятников Шуши. Эта статья состоит из введения, восьми подзаголовков и заключения, в котором содержится информация об этимологии, истории, музыке, литературе, искусстве и кухне Шуши. С гордостью представляю читателю этот образец научно-публицистического письма, представляющего собой синтез древней и новейшей истории.

***Ключевые слова:*** *Карабах, Шуша, культура, архитектура, кухня, музыка, живопись.*

*Aysu Alizada*

# SHUSHA IN THE HISTORICAL AND CULTURAL ENVIRONMENT OF AZERBAIJAN

## ABSTRACT

I am sure that most countries of the world have cities that date back to the Stone Age, have geo-political significance, and have world-class culture. The Republic of Azerbaijan also belongs to this chain of countries. Baku, Shusha, Barda, Ganja, and other cities in our country have a rich cultural heritage. According to historical evidence, when establishing the khanate of the same name in Karabakh, Panah Ali Khan showed special concern and kindness to the people. Shusha was home to 95 poets, 22 musicologists, 38 singers, 19 calligraphers, 16 painters, 12 copyists, 5 astronomers, 18 architects, 16 doctors, up to 42 teachers, and others during the nineteenth century. This great intelligentsia has played a great role in turning Shusha into a cultural center, developing science, education and culture here. Shusha is the crown of Karabakh, the temple of art of the Caucasus, the Conservatory of the East, the homeland of prominent figures who have made significant contributions to the socio-political and cultural life of Azerbaijan, the native city, a dear land, a fortress of military and strategic importance and a sacred monument. In this regard, the restoration of the true historical image, traditions and ancient cultural monuments of Shusha is important. This article consists of an introduction, eight subheadings, and a conclusion, which contains information about the etymology, history, music, literature, art, and cuisine of Shusha. I am proud to present to the reader this example of scientific-publicist writing, which is a synthesis of ancient and modern history.

***Keywords:*** *Karabakh, Shusha, culture, architecture, cuisine, music, painting*

# ŞUŞA – AZƏRBAYCANIN MƏDƏNİYYƏT VƏ İNCƏSƏNƏT BEŞİYİ

***Mehriban Məmmədli***
*Bakı Slavyan Universitetinin tələbəsi*
mehribanmmmdli01@gmail.com

## XÜLASƏ

Məqalədə Şuşanın mədəniyyət və incəsənət tarixindən, özünəməxsus quruluşu ilə seçilən memarlıq nümunələrindən bəhs olunur. Yazıda, həmçinin Azərbaycanın musiqili qalası olan Şuşanın tarixi zəngin musiqisindən, onun inkişaf tarixindən, bu yurdun yetişdirdiyi dünyaşöhrətli musiqiçi və bəstəkarlarından söhbət açılır. Eyni zamanda, incəsənətin bir çox sahələri haqqında maraqlı məlumatlar və faktlar məqalədə öz əksini tapır. Şuşa incəsənətinin, ümumilikdə, Azərbaycan incəsənətinin inkişaf etməsi və formalaşmasında misilsiz rolu olub. Şuşada ilk muğamın yaranması, bu muğamların nəinki Azərbaycanın, hətta Azərbaycanın hüdudlarından kənarda da tanınması məsələsinə toxunulur, Şuşada teatr sənəti, ilk tamaşalar haqqında məlumat verilir. Bundan əlavə, incəsənətin digər növlərinə (xalçaçılıq, boyaqçılıq, rəqs, zərgərlik və s.) dair geniş məlumatlar öz əksini tapır. Qarabağ xalçaları içərisində hər zaman öz sözünü demiş Şuşa xalçaları, onların hazırlanması, nəinki Azərbaycan, hətta Avropanın bir sıra ölkələrində bu xalçalara verilən dəyər məqalədə qeyd olunur. Şuşa əhalisinin incəsənətə göstərdiyi maraq bütün sətirlərdə özünü doğruldur. Məqalədə Şuşanın memarlıq sahəsində öz sözünü demiş və qədim tarixə malik abidələrindən geniş şəkildə bəhs olunur. Hələ qədim zamanlardan inşa olunmuş Şuşa memarlıq nümunələri, müdafiə məqsədli qala divarları, bulaqları, məscidləri, hamamları, karvansaraları haqqında məlumatlar məqalədə qeyd olunub.

Şuşa incəsənətinin XVIII-XX əsrlərdə inkişafı məqalədə daha geniş əksini tapıb. Belə ki, Şuşanın bir-birindən gözəl memarlıq nümunələrinin

ermәni qәsbkarları tәrәfindәn mәhv edilmәsi mәsәlәsinә toxunulur. Bu barәdә bir çox mәnbәlәrdә qeyd olunan faktlar mәqalәdә xüsusi vurğulanır.

***Açar sözlәr:*** *incәsәnәt, musiqi, xalçaçılıq, boyaqçılıq, zәrgәrlik, rәqs, Şuşa teatrı, muğam, Qarabağ mәdәniyyәti, memarlıq, qala divarları, İsa bulağı, Әsgәran qalaları, şeir sәnәti, incәsәnәt mәclislәri, muzeylәr, saray, imarәt.*

**Giriş**

Çox zәngin tarixә malik olan "Odlar yurdu" ölkәsi adlanan Azәrbaycanın gözәlliyi, füsunkar tәbiәti, incәsәnәti, zәngin tarixi mәdәniyyәti ilә bütün dünyada şöhrәt tapmış Qarabağ torpağı hәr kәsә mәlumdur. Qarabağın bir-birindәn gözәl guşәlәri arasında Şuşa xüsusi yer tutur. "Şuşa" adına bәzi mәnbәlәrdә "Şüşә" kimi tәsadüf edilir. Bunu Ağamәhәmmәd xan Qacarın Qarabağ xanı İbrahim xana göndәrdiyi bir namә sübut edir: "Sәrsәm! Göydәn daş yağışı tökülür, sәn isә Şüşә sarayda möcüzә gözlәyirsәn"(Qarabağ әsrlәrin salnamәsi 2016, 152).

Möhtәşәmliyi ilә onu görәn hәr kәsi valeh edәn Şuşa torpağında bitәn xarıbülbül bu şәhәrin simvolu hesab edilir. Xarıbülbül, yaxud "Ophrys Mammosa" öz formasına görә budağa qonmuş gülü xatırladır. Bu nadir bitki Azәrbaycanın "Qırmızı kitabı"na daxil edilmişdir. "Xarıbülbül Şuşanın rәmzi olmaqla yanaşı, Azәrbaycan xalçalarının ornamentlәrindә, elәcә dә milli valyutamız olan manatın üzәrindә tәsvir olunub (Qarabağ әsrlәrin salnamәsi 2016, 29).

**Şuşanın mәdәniyyәt vә incәsәnәt nümunәlәri**

Şuşa incәsәnәtindәn danışarkәn ağla ilk gәlәn bu torpağın musiqisidir. Heç tәsadüfi deyil ki, Azәrbaycanda vә dünyada şöhrәt tapmış musiqiçilәrimizin әksәriyyәti Şuşa torpağının yetirmәlәri, övladlarıdır. Burada yaşayan ailәlәrin hәr biri müәyyәn musiqi qabiliyyәtinә malik olmuşdur. Balacadan-böyüyә hәr kәs musiqiyә böyük maraq göstәrmiş, hәtta әkinçiliklә, maldarlıqla mәşğul olan insanların günü musiqisiz, zümzümәsiz keçmәzmiş. Az-çox әhәmiyyәti olan hәr bir hadisә musiqi ilә müşayiәt olunurdu. Hәlә Orta әsrlәrdә burada 100-dәn çox musiqi alәti mәlum idi.

“Burada musiqiyə aid ilk əsər XIII yüzillikdə yazılıb. Nəhayət, 2008-ci ildə UNESCO tərəfindən bəşəriyyətin şifahi və qeyri-maddi-mədəni irs siyahısına daxil edilən muğam burada yaranıb və inkişaf edib” (Qarabağ əsrlərin salnaməsi 2016, 181).

Şuşanı “Qafqazın konservatoriyası” adlandırmışlar. Bu konservatoriyanın yetirmələri Azərbaycan musiqisini bütün dünyada tanıtmış və ona şöhrət gətirmişlər. Səməd Vurğunun belə bir deyimi var: “Azərbaycanın bütün məşhur oxuyanları Şuşada doğulmuşlar” (Qarabağ – əsrlərin salnaməsi, 162). Təkcə Azərbaycan şair və yazıçıları deyil, eyni zamanda, Avropa və rus şairləri də bu torpağın musiqisini yüksək qiymətləndirmişlər. “Görkəmli rus şairi Sergey Yesenin isə yazırdı: “Kim oxuya bilmirsə, deməli o Şuşalı deyil” (Səfərova 2021, 3). Şuşalı məşhur musiqiçilərimizin adı olan bir siyahı tərtib etsək belə, bu sənətkarların hər birini səhifələrə sığdıra bilmərik. Mir Möhsün Nəvvab, Sadıqcan, Cabbar Qaryağdıoğlu, Seyid Şuşinski, Bülbül, Xan Şuşinski, Qurban Pirimov kimi musiqiçilərimiz, Üzeyir Hacıbəyli, Zülfüqar Hacıbəyov, Fikrət Əmirov, Niyazi, Süleyman Ələsgərov, Vasif Adıgözəlov kimi bəstəkarlarımız, Rəşid Behbudov kimi müğənnilərimiz bu siyahıya daxil ediləcək şəxslərimizdəndir.

Zemfira Səfərovanın “Şuşa – Azərbaycanın musiqili qalasıdır” kitabında verdiyi məlumata əsasən, Nizami Gəncəvi “Xəmsə”sində o dövrün peşəkar musiqiçilərinin sintetik xasiyyətini göstərir. Onlar həm bəstəkar, həm şair, həm də oxuyan-ifaçı idilər.

Məşhur musiqiçi Sadıqcan Azərbaycan muğamatının inkişafında böyük rol oynamışdır. Onun muğamata gətirdiyi novatorluğu Əfrasiyab Bədəlbəyli tərəfindən yüksək qiymətləndirilib. O belə yazırdı: “Əgər muğamatın ifası sahəsində tarın musiqi alətləri içərisində birinci yeri tutduğunu nəzərə alsaq, Mirzə Sadığın kəşf etdiyi yeniliklərin, nəticə etibarilə Azərbaycan musiqisi tarixində böyük bir dönüş yaratdığını tədqiq etmiş olarıq. Demək olar ki, Şuşa torpağının övladı Mirzə Sadıqcandan başlayaraq, Azərbaycan muğamatının mahiyyəti, onun ifadə vasitələri, təsvir qüvvəsi və muğamatı ifa etmək üslubu yeni bir pilləyə qalxmış oldu” (Səfərova 2021, 24). Həmçinin məşhur türk musiqişünası Rauf Yektabəy də Sadığın sənətkarlığını yüksək qiymətləndirərək yazırdı:

“Tarzənlikdə dahi olan Sadıq beşsimli tara 6 sim əlavə edib onu zənginləşdirmişdir” (Səfərova 2021, 24).

Şuşanın musiqi sənətinə töhfə verən sənətkarlarımız arasında Mir Möhsün Nəvvabın da adını xüsusi qeyd etməliyik. Onun yazdığı “Vüzuhül-ərqam” (“Rəqəmlərin izahı”) risaləsi Şuşa yaradıcılığının ən kamil dövrünə – 1884-cü ilə aiddir. Şərqdə risalələrin az yazılan bir dövründə Azərbaycan dilində ərəb əlifbası ilə qələmə alınmış və çap edilmiş bu əsər Şuşada böyük maraq doğurmuşdur. “M.M. Nəvvabın “Vüzuhul-ərqam” risaləsində Şuşada Orta əsr musiqi nəzəriyyəsinin ənənələri öz əksini tapmışdır. Risalədə musiqinin əmələ gəlməsi, şeirlə muğamın bağlılığı, onun təbabətlə əlaqəsi, səsin akustikası, muğamlarda rəqəmlərin izahı kimi məsələlər, o cümlədən ayrı-ayrı muğamların adları, musiqi alətləri haqqında məlumat verilmişdir”(Səfərova 2021, 44).

Şuşada bir çox həvəskar tərəfindən musiqili səhnəciklər göstərilir, bir-birindən maraqlı tamaşalar səhnəyə qoyulurdu. Çingiz Qacar özünün “Köhnə Şuşa” kitabında yazır: “Şuşada ənənəvi Orta əsr və musiqli məclislər böyük uğurla fəaliyyət göstərir, eyni zamanda, Avropa tipli tamaşalar qoyulur, musiqi gecələri təşkil edilirdi. Üzeyir Hacıbəylinin yazdığı “Leyli və Məcnun” operasının tarixi də elə məhz bu tamaşalardan biri ilə bağlı olmuşdur.

Zemfira Səfərovanın “Şuşa – Azərbaycanın musiqili qalasıdır” kitabında Üzeyir Hacıbəylinin bu barədə xatirəsi qeyd olunub: “Görkəmli ədib Əbdürrəhim bəy Haqverdiyevin təşəbbüsü ilə 1897-ci ildə Şuşada həvəskarlar tərəfindən böyük şair Füzulinin “Leyli və Məcnun” poemasından “Məcnun Leylinin məzarı üstündə” musiqili səhnəciyi göstərildi. Həmin tamaşada 13 yaşlı Üzeyir də tamaşaçıların arasında idi. Məcnun rolunu Cabbar Qaryağdıoğlu oynayırdı. Şuşada göstərilən bu ilk tamaşa çox bəsit idi. Lakin emosional cəhətdən tamaşaçılara təsir gücü böyük idi. Tamaşaya baxan Üzeyir elə həyəcanlanmışdı ki, bir neçə ildən sonra həmin mövzuda opera yazmaq qərarına gəldi. Beləcə, Şərqdə opera sənətinin əsasını qoyan “Leyli və Məcnun” operası yaranıb” (Səfərova 2021, 137).

Şuşada məşhur “Şuşa teatrı” fəaliyyət göstərirdi. Şuşa Dövlət Musiqili Dram Teatrının bir çox sənət ocaqları arasında özünəməxsus yaradıcılıq

rolu var. Teatrşünas Yaqub Əlioğlu Şuşa şəhəri teatr mühitindən bəhs edən, elmi araşdırmalara söykənən bir kitab yazıb.

XIX əsrdən başlayaraq Şuşada teatr tamaşaları artıq yeni ictimai məzmun və forma kəsb etməkdə idi. Yeni fikirlər, yeni ideyalar meydana gəlirdi. İlk vaxtlarda yerli və başqa millətlərin nümayəndələri ilə birlikdə Şuşada teatr və sirk tamaşaları göstərilməyə başlanır.

İnqilab Kərimov XIX əsrin 40-cı illərində şuşalıların mədəni həyatını maraqlı faktlarla açıqlayıb göstərmişdir. O, bir kitabında yazır: "Məlum olur ki, yerli əhali yalnız xalq teatrlarının tamaşaları, xanəndə və aşıqların çıxışları ilə kifayətlənməyib, müasir teatr tamaşalarına da baxırmışlar. Şuşada yerli kəndirbazların və səyyar sirk artistlərinin də çıxışları olurdu (Kərimov 1975, 8).

Şuşa ədəbiyyat-incəsənət beşiyi olmuşdur. Musiqişünas, tədqiqatçı Firidun bəy Şuşinski bu barədə yazır: "XIX əsrin 90-cı illərində Şuşada bir sıra ədəbi, musiqi və incəsənət məclisləri olmuşdur. Bu məclislərdən musiqişünaslar məclisi (rəhbəri Nəvvab), xəttatlar məclisi (rəhbəri Kərbəlayi Səfixan), xanəndələr məclisi (rəhbəri Hacı Hüsü), memarlar məclisi (rəhbəri Kərbəlayi Səfixan) və sair məclislər olmuşdur" (Şuşinski 1998, 128). Bu məclislərin Şuşanın incəsənətinin inkişafında mühüm rol oynadığını qeyd etmək olar.

Şuşa sinəsi sözlə dolu sənətkarların, şairlərin məskənidir. Şuşadan danışarkən buranın şeir dünyasından danışmamaq qeyri-mümkündür. Azərbaycan ədəbiyyatında yetişən görkəmli lirik-satirik şair Qasım bəy Zakir, Azərbaycanın tanınmış şair və rəssamı, Qarabağ xanı Mehdiqulu xanın qızı Xurşidbanu Natəvan, 21 kitabın müəllifi Mir Möhsün Nəvvab, Azərbaycan ədəbiyyatına 500-ə yaxın şeir bəxş edən Fatma xanım Kəminə, məşhur yazıçı Yusif Vəzir Çəmənzəminli kimi böyük şəxsiyyətlər Şuşada doğulmuş, orada yaradıcılığa başlamışlar.

Azərbaycan şairi M.P. Vaqif Şuşaya dərin məhəbbət bəsləmiş, ona heyran olmuşdur. O, yazdığı bir şeirində Şuşanı özünə məskən seçdiyi vurğulayır.

*Məkan tutdisə Vaqif, yox əcəb, bu Şişə dağında,*
*Məqami ləli gülrəngin miyani- səngixaradır.*

Şuşa şeir sənətindən danışarkən Xurşidbanu Natəvan adına rast gəlməmək mümkün deyil. Yazdığı şeirləri ilə öz sözünü deyən, sədası Avropa ölkələrinə qədər gedib-çatmış şair haqqında belə bir məlumat qeyd olunur: "Xurşidbanu Natəvan 1872-ci ildə "Məclisi-üns" adlı ədəbi musiqili birliyin əsasını qoymuşdur. Natəvan özü çox gözəl şeirlər yazır və bu beytlər bütün Azərbaycana yayılırdı. Fransız yazıçısı Aleksandr Düma 1859-cu ildə onunla görüşmüş, gözəlliyinə, ağlına, cazibəsinə heyran qalmışdı" (Qarabağ əsrlərin salnaməsi 2016, 204).

Maarifə Hacıyeva "Şuşa Azərbaycan ədəbi salnaməsində" adlı məqaləsində qeyd edir ki, Xalq şairi Rəsul Rzanın "Şuşa" (1947), "Şuşam mənim" (1980), Nəbi Xəzrinin "Şuşanın yolları" (1954), Mirvari Dilbazinin "Şuşa", Arif Abdullazadənin "Şuşada" şeirlərində Azərbaycanın gözəl, füsunkar şəhəri Şuşa şəhərindən heyranlıqla söhbət açılır, yüz rəngi olan bu əsrarəngiz torpaqda insanın nə qocalacağı, nə də öləcəyi ehtimalı dilə gətirilir. Rəsul Rzanın "Şuşam mənim" şeirində Şuşanın tarixdə heç bir fatehə, müxənnətə baş əyməməsindən, Cıdır düzündən söhbət açılır.

Şuşa mədəniyyəti, onun mədəni mühiti musiqi, bir sözlə, incəsənətlə nəfəs alıb. Şəhəri başqa digər şəhərlərdən fərqləndirən əsas cəhət burada elmə-maarifə, sənətkarlığa böyük önəm veril. Ona görə də şuşalı gənclər təhsil almaq üçün Rusiyanın, Avropanın şəhərlərinə üz tuturdular. Bunun sayəsində onlar Şuşanın mədəni həyatını bu yeni ənənələrlə zənginləşdirirdilər.

**Şuşanın sənətkarlıq və memarlıq nümunələri**

Yaxın Şərqə, Türküstana və Avropaya gedən karvan yolları ayrıcında yerləşən Şuşa XVIII əsrin ikinci yarısında Azərbaycanın tarixi, mədəni və strateji əhəmiyyətə malik şəhərindən sayılırdı. Şuşa özünün yunus xalçası, ipəyi, dərisi, parçası və çini qabları ilə dünya bazarları miqyasına çıxa bilmiş, istehsal etdiyi sənaye və kənd təsərrüfatı məhsullarını Tehran, Təbriz, İstanbul, Bağdad, Səmərqənd, Moskva, Həştərxan kimi böyük şəhərlərdə sata bilmişdi (Əhmədov 2021, 16).

Qarabağın əzəmətli qalası olan Şuşa Xocalı – Gədəbəy mədəniyyətinin (e.ə.XII-IX əsrlər) əhatə dairəsinə daxil olan ən qədim yaşayış

yerlərindən birində yaranıb və daimi insan məskəninə çevrilib. Azərbaycanda xalçaçılıq sənətinin inkişaf tarixindən danışsaq, ilk olaraq Şuşadan başlamağımız daha doğru olar.

Qarabağda mövcud olan sənət növləri arasında ən yüksək zirvəni xalça sənəti tuturdu. Qarabağda olan məşhur xalçalar isə məhz Şuşa torpağına məxsus idi. Şuşada xalçaçılığın inkişafı XIX əsrin sonlarında dünya bazarlarında Azərbaycan xalçalarına tələbatın artmasına səbəb oldu.

"Şuşa xalçaları haqqında rus tədqiqatçısı Y. Zedqenidzenin yazılarında maraqlı məlumatlar var. O, Şuşa xalçalarını araşdırmış və tədqiqatlar aparmışdır (Azərbaycan xalçası və xalq tətbiqi sənəti 2016, 9). Tədqiqatda göstərilir ki, Şuşa xalça və palazların istehsalında kəmiyyəti və keyfiyyətinə görə bütün Qafqazda birinci yeri tutur.

Şuşa xalçaları həyat eşqi və parlaq koloriti ilə digər xalçalardan seçilirdi. Qarabağ xalça məktəbi –"Ləmpə", "Çələbi", "Qoca", "Malıbəyli", "Buynuz", "Şabalıd-buta", "Balıq" və b. xalçaları ilə məşhurdur.

Şimali Azərbaycanın ən böyük xalçası Şuşada toxunurdu. Bu xalça haqqında yazılır: "Bu xalılar qonaq zalı üçün komplekt şəkildə hazırlanır və "dəst xalı-gəbə" adlanırdı. Dəst xalı-gəbə 3-4, bəzən 5 hissədən ibarət olurdu. Ən böyük mərkəzi hissə "xalı" adlanırdı. Onun sol və sağ tərəflərində ensiz "yanlıq" xalçalar sərilirdi. Bu dəstin tacı "başlıq" xalça idi. Bütün bu dəstin uzunluğu, təxminən, 40 metrə çatırdı" (Azərbaycan xalçası və xalq tətbiqi sənəti 2016, 15).

Xalça sənətinin tarixi, onun üzərindəki ornamentlər, həm də zəngin tariximizdən xəbər verir. "XIX əsrə aid arxiv materiallarında Şuşada toxunan xovlu və xovsuz xalçaların bütün Qafqazda yüksək keyfiyyətə malik olması haqqında məlumatlar vardır. Qarabağ xalçaları xovların hündürlüyü, zərif və sıx toxunuşu, rənglərin şuxluğu, nəbati, zoomorf və süjetli təsvirləri ilə seçilmiş, bənzərsiz naxışları ilə mükəmməl dekorativ tətbiqi sənət əsərləri səviyyəsinə çatmışdır" (Azərbaycan xalçası və xalq tətbiqi sənəti 2016, 15).

Şuşa torpağının yetişdirdiyi maarif və elm xadimləri Azərbaycan incəsənət tarixində silinməz iz qoymuşlar. Onların yaratdığı yeni sənət inciləri nəsildən-nəslə ötürülmüşdür. "1967-ci ildə Azərbaycanın paytaxtı Bakıda yaradılan, dünyada ilk xalça muzeyinin təşəbbüskarı və banisi də

görkəmli xalça ustası ornamentalist rəssam, əslən şuşalı olan Lətif Kərimovdur" (Azərbaycan xalçası və xalq tətbiqi sənəti 2016, 22).

Şuşa xalçaçıları XX əsrin əvvəllərində baş vermiş siyasi hadisələrlə bağlı süjetli xalçalar da toxumuşlar. Xalçaçı Humay Həsənzadə tərəfindən toxunub, hazırda Azərbaycan Dövlət İncəsənət Muzeyində saxlanılan xalça 1905-1911-ci illər İran inqilabının qəhrəmanı Səttərxana həsr olunmuşdur.

Şuşa xalçaları təkcə Azərbaycanda deyil, Avropa ölkələrində də yüksək qiymətləndirilmişdir. Bu xalçalar medallara və diplomlara layiq görülmüşdür. "1872-ci ildə Moskvada keçirilən Politexnik Sərgisində də Şuşa xalçaları xüsusi nişanlarla yenidən təltif olunmuşdur. Boston İncəsənət Muzeyində XVIII əsrə məxsus xalça, Amerikanın məşhur Tekstil Muzeyində tənəkyarpaqlı naxışlarla haşiyələnən bir neçə nafir xalça, o cümlədən "Metropoliten" muzeyində XVIII əsrə aid Qarabağ kompozisiyaları ilə işlənmiş məşhur "əjdahalı xalça"lar bu gün də dünya sənətsevərlərini valeh edir" (Azərbaycan xalçası və xalq tətbiqi sənəti 2016, 22).

Xalçaçılıq sahəsi ilə sıx bağlı olan sənət növlərindən biri də boyaqçılıqdır. Şuşa xalçalarına gözəllik verən məhz bu xalçaların rənglərinin əlvanlığı və gözəlliyidir. Şuşanın füsunkar təbiəti boyaqçılıq sənətinə öz təsirini göstərmişdir. Aparılan tədqiqatlar sübut edir ki, hələ qədim zamanlardan ulu əcdadlarımız boyaqçılıqla məşğul olmuşlar. Qədim yunan tarixçisi Herodotun (e.ə.484-425) əsərlərinin birində belə məlumata rast gəlinir: "Bu ölkələrdə deyildiyinə görə, qəribə yarpaqlı ağaclar var. Bu yarpaqlar toz halına salınaraq su ilə qarışdırıldıqdan sonra yerli əhali öz paltarlarına bununla naxışlar çəkirlər" (Azərbaycan xalçası və xalq tətbiqi sənəti 2016, 16). Şuşalı boyaqçılar müxtəlif növ bitkilərdən istifadə edərək 50-yə qədər rəng və onların çalarlarını almağı bacarırlar.

Şuşanın geniş yayılmış sənət sahələrindən biri də bədii tikmə olmuşdur. Xalqımız ətraf mühitdə gördüklərini naxışa, bəzəyə çevirərək incəsənət nümunələri yaradır. Bədii tikmə sənətinin gözəlliyi özünü geyimlərdə, pərdələrdə, divar və çarpayı örtüklərində göstərirdi. "Şuşa şəhəri üçün güləbətin tikmə texnikası səciyyəvi xüsusiyyət daşıyırdı. Güləbətin tikmələr hamar (zəminduz) və qabarıq (məliədüz) texniki üsullarla hazırlanırdı. Qızılı və gümüşü saplarla tikilən güləbətin tikmələrin parlaqlığını

daha qabarıq çatdırmaq üçün tündrəngli məxmər və mahud parçalardan istifadə edilirdi" (Azərbaycan xalq tətbiqi sənəti 2016, 18).

Qarabağ zərgərliyi qədim tarixə malikdir. Bunu aparılan bir sıra arxeoloji qazıntı da sübut edir. Zinət əşyalarının bəzədilməsində inci, mirvari, kəhrəba, almaz, yaqut, zümrüd kimi qiymətli daşlar mühüm yer tuturdu. Qarabağın zinət istehsalı, əsasən, Şuşada cəmləşirdi. Şuşanın incəsənət mədəniyyətindən bəhs edən bir kitabda zərgərlik sənəti haqqında yazılır: "1849-cu ildə burada 31, 1860-cı ildə 81, 1879-cu ildə 31 gümüşbənd ustası fəaliyyət göstərirdi. Şuşada zərgər dükanlarının sayı 20-yə çatmış, orada 56 nəfər sənətkar işləmişdir. 1900-cu ildə Şuşa şəhərində 12 zərgər dükanı var idi" (Azərbaycan xalq tətbiqi sənəti 2016, 20).

Şuşa incəsənəti özünü xalqın məişət həyatında da göstərirdi. Evlərdə istifadə edilən qab-qacaqlar, qədim dövrlərdə istifadə olunan pul vahidlərinin üstündə təsvir olunan rəsmlər, naxışlar buradakı mükəmməl sənətkarlıqdan xəbər verir.

"Qarabağ evlərində, həmçinin Şuşada metal qab-qacaq üç qrupa bölünürdü. Ən ucuzu qalaylanmış qırmızı misdən hazırlanırdı. Çoxsaylı ornament və rəsmlərlə örtülmüş bu qablar zahirən gümüş qab-qacağı xatırladırdı. Qızıl qab-qacağa bənzəyən latın və bürünc qablar isə xeyli baha idi. Ona yalnız ən varlı ailələrdə rast gəlmək mümkün idi. Metal qab-qacaq olduqca müxtəlif idi: plov bişirmək üçün iri qazanlar, dini ayinlər üçün bardaq və ləyənçələr, gülab və zəfəran üçün kasalar, su üçün çalovlar, nahar nimçələri, dəm çaydanları, qəhvə dəstləri, zinət əşyaları, çıraq və şamdan, paltar qoyulan hamam sandıqçaları və s." (Azərbaycan xalçası və xalq tətbiqi sənəti 2016, 32).

Azərbaycan ərazisində aparılan arxeoloji qazıntılar zəngin tariximizi öyrənməkdə mühüm rol oynayır. Belə arxeoloji qazıntılardan biri də qazıntılar zamanı tapılmış Tunc dövrünün əvvəllərinə aid tuncdan hazırlanmış iynə və biz qalıqlarıdır. Bu tapıntı onu deməyə əsas verir ki, Azərbaycan sakinləri hələ qədim zamanlardan özlərinə geyim tikməyi bacarırdılar.

Şuşada gözəl geyinib-kecinməyi çox xoşlayırdılar. Bayram günlərində hər şuşalı qadın Xan qızına bənzəyirmiş. "XVIII-XIX əsrlərdə Fransa və İngiltərədən Qarabağa gələn xanımlar Qarabağ qadınlarının geyiminə və

istifadə etdikləri aksessuarlara heyran olurdular" (Azərbaycan xalçası və xalq tətbiqi sənəti 2016, 18).

Burada geyimlərin tikmə hissələrindəki naxışlar Şuşanın buz bulaqlarını xatırladır, bu naxışlar, sanki su kimi qıvrılıb, parça üzərində axıb-gedir. "Onu da qeyd etmək lazımdır ki, Qarabağ qadınları Azərbaycanın digər bölgələrindən fərqli olaraq, daha çox azadlığa malik idilər və küçəyə çıxarkən pərəncə, çadra örtmək burada vacib sayılmırdı. Qadın paltarları əsas etibarilə ipək parça və məxmərdən tikildiyi halda, kişi geyimləri əksər halda mahuddan hazırlanırdı" (Azərbaycan xalçası və xalq tətbiqi sənəti 2016, 19).

Azərbaycan XX əsrə qədəm qoyarkən bir sıra sahəsində yenilənmə, müasirləşmə müşahidə olunurdu. Avropa ilə əlaqələrin artması həm mədəniyyətə, həm də xalqın gündəlik həyatına öz təsirini göstərirdi. "XX əsrin gəlişi ilə Qarabağda, xüsusən Şuşada Avropa geyimi dəbə düşdü" (Qarabağ əsrlərin salnaməsi 2016, 204).

Şuşada incəsənətdən danışarkən memarlıqdan danışmamaq mümkün deyil. Boş yerə deyil ki, Şuşaya Azərbaycanın "alınmaz qalası" deyirdilər. Burada inşa edilən qalalar, bütün memarlıq nümunələri nəinki Azərbaycanda, həmçinin dünyada da məşhur idi. Özünəməxsus memarlıq üslubuna malik bu abidələri görən hər kəs valeh olur.

Şuşanın memarlıq abidələri arasında onun bulaqları xüsusi yer tutur. Bunlardan biri də "Xan qızı bulağı"dır. "Bu bulaq 12 gözdən və səkkizguşəli çar-hovuzdan ibarət olub, Xurşidbanu Natəvanın evi qarşısında tikilmişdi. "Şor bulaq" adlanan ikinci bulaq şəhərin Gəncə qapısı yaxınlığında tikilmiş və orijinal kompozisiyaya məxsus milli naxışlarla bəzədilmişdi" (Mahmudov 2012, 115).

Şuşanın ən məşhur bulağı "İsa bulağı"dır. "İsa adlı kişinin Sarıbaba dağının ətəyindən Şuşanın ən səfalı guşəsinə – meşənin içinə çəkdirdiyi çeşmədir. Bu yerlərdə qaynayan bulaq XIX əsrin birinci yarısından onu çəkdirənin adı ilə məşhurlaşıb. Əsrlərdir ki, öz adını yaşadan bulağın başı həmişə qonaq-qaralı olub. Belə bir rəvayət də danışırlar ki, Şuşaya gələn qonaqları həmişə İsa bulağına gətirmək, orada onlara yaxşı məclis qurmaq bir ənənəyə çevrilib" (Xəlilzadə 2013, 11).

Şuşa şəhəri qalaları ilə məşhurdur. Şuşa ərazisində salınmış ilk qala XVIII əsrə (1748-ci il) aid Bayat qalasıdır. Bayat qalası, ilk növbədə,

müdafiə məqsədilə tikilib. Bunu onun ətrafında bişmiş kərpicdən qalın qala divarlarının çəkilməsi sübut edir. Bayat qalasının tikilməsi Qarabağ xanlığının getdikcə güclənməsinə səbəb olmuşdur.

Şuşanın ikinci məşhur qalası Şahbulaqdır. Şahbulaq qalası strateji cəhətdən çox əlverişli mövqedə yerləşirdi. Onun tikintisi sürətlə aparılırdı. Qala tikilib hazır olduqdan sonra, Qarabağ xanlığının paytaxtı Şahbulaq qalası oldu. Şahbulaq qalası hazır olduqdan sonra Pənahəli xanın əmri ilə Bayat qalası uçurduldu.

Şuşanın daha yaxşı müdafiə olunması üçün şəhərin ətrafında qala divarlarının tikilməsi vacib sayılırdı. Uzunluğu 2,5 km olan bu divarların tikintisi, Mirzə Camalın məlumatına görə, 1783-1784-cü illərdə başlamış və üç il ərzində başa çatdırılmışdı.

Şuşanın müdafiə qurğuları haqqında məlumata təkcə Azərbaycan kitablarında, əsərlərində deyil, eyni zamanda, Avropa yazıçılarının əsərlərində də rast gəlmək mümkündür. Fransız müəllifi Jan Gevrin Ağaməhəmməd şah Qacarın həyat və fəaliyyətinə həsr olunmuş "Xacə şah" adlı tarixi romanında Şuşanın müdafiə qurğuları haqqında çox maraqlı məlumatlar verilir. Müəllif yazır: "Ağaməhəmməd xan Qacarın dövründə Şuşa kiçik, gözəl şəhər idi, möhkəm hasarının hündürlüyü şəhərin bütün cəhətlərində bərabərdir. Hasarın elə yerləri var idi ki, oradan mühacimlərin (hücum edənlərin) başına daş, qaynar su və ya ərimiş qurğuşun tökmək olurdu" (Jevr 1994, 130).

Şuşada olan məhəllələrin inkişafı və formalaşması haqqında məlumatlar XVIII əsrin ikinci yarısı və XIX əsrin əvvəllərində daha aydın görünür. Şuşanın ən qədim məhəlləsi "Aşağı məhəllə" adlanır. Bu məhəllə Pənahəli xanın hakimiyyəti dövründə salınıb. Sonralar bu məhəllə "Təbrizli" adlandırılmışdır.

"Şuşanın yuxarıda göstərilən bu ilk böyük məhəlləsi, yəni Aşağı məhəllə və ya Təbrizli məhəlləsi adları çəkilən bu kiçik məhəllələrdən ibarət idi: Çuxur, Qurdlar, Culfalar, Seyidli, Quyular, Hacı Yusifli, Merdinli, Qazançalı və Çöl qala. 1823-cü ilin məlumatına görə bu məhəllələrdə 162 ailə yaşayırdı"(Mahmudov 2012, 35).

Orta əsrlərdə Şuşanın memarlıq nümunələri arasında Qaraçayın hər iki sahilindəki Əsgəran qalaları, ilk növbədə, Şuşanın təhlükəsizliyini

təmin etmək məqsədilə tikilmişdi. Qarabağ tarixçilərinin bu qalanın dəqiq tikintisi ilə bağlı məlumatları müxtəlifdir. "Qarabağ tarixçilərindən Baharlı Əsgəran qalalarının tikintisini Pənahəli xanın, Əhməd bəy Cavanşir Mehrəli bəyin, Mirzə Camal Qarabaği və Mir Mehdi Xəzani isə İbrahimxəlil xanın adı ilə bağlayırlar. Adıçəkilən müəlliflərdən, ancaq Mirzə Camal Əsgəran qalalarının tarixini dəqiq göstərir və bu hadisəni 1788-1789-cu illərə aid edir" (Mahmudov 2012, 39).

Aparılan araşdırmalar, tarixdən bizə məlum olan məlumatlara əsasən, Qarabağ xanları Şuşada saray və imarətlərin tikintisinə böyük önəm verirdilər. Qarabağ tarixçilərinin məlumatlarından aydın olur ki, həm Pənahəli xan, həm də İbrahimxəlil xan Şuşada özləri və övladları üçün altı saray və imarət tikdirmişdi. Bu saraylardan ikisi – Pənahəli xana və Qaraböyük xanıma məxsus saraylar müasir dövrədək qalmışdır. Sonuncu sarayın giriş qapısı üzərindəki yazıdan aydın olur ki, həmin saray 1768-ci ildə, İbrahimxəlil xanın hakimiyyəti dövründə tikilmişdir.

Şuşanın memarlıq abidələri arasında karvansaraların özünəməxsus yeri var. Baharlının verdiyi məlumatlara görə, burada ilk karvansaraların tikintisi ilk yaşayış məhəlləsinin – Təbrizli məhəlləsinin meydana gəlməsi ilə eyni vaxta təsadüf edir. "Bu dövrdə Şuşanın imkanlı adamlarından olmuş Uğurlu bəy, Hacı Əmiraslan bəy, Hacı Hüseyn bəy Aşağı bazar və Meydan deyilən yerlərdə karvansaralar tikdirib istifadəyə vermişlər" (Mahmudov 2012, 116). Məlumdur ki, XIX əsrin sonlarında Şuşada 10 karvansara fəaliyyət göstərirdi. Bu karvansaralara misal olaraq, Hacı Abbas, Qatırçı Murad, Şeytan bazar, Xanlıq Muxtar, Xan qızı karvansaralarını göstərmək mümkündür.

Azərbaycan xalqı hələ qədim zamanlardan dinə, inanclara qiymət verən bir xalq olmuşdur. Elə bu səbəbdən, Azərbaycan ərazisində qədim dövrlərə məxsus məscidlərə rast gəlmək mümkündür. Digər şəhərlərdə olduğu kimi, Şuşada da məscid tikintisinə böyük diqqət göstərilirdi. Burada ilk məscid Pənahəli xanın hakimiyyəti dövründə qamışdan tikilmişdi. "Şuşada XIX əsrdə daha üç Cümə məscidi inşa edilmişdi. Şuşanın sonuncu – dördüncü Cümə məscidi 1883-cü ildə Gövhər ağanın vəsaiti hesabına Kərbəlayi Səfixan Qarabaği tərəfindən tikilmişdir" (Mahmudov 2012, 117)

Digər məscid – İbrahimxəlil xanın hakimiyyəti dövründə tikildiyi güman edilən Yuxarı Gövhər ağa məscidi kimi tanınan məsciddir. Bu məscid 1992-ci il erməni işğalına qədər çox yaxşı vəziyyətdə idi. İki böyük ibadət salonu, minarələri və ikinci mərtəbədə bir neçə otağı olan məscidin bəzək işlərinin görülməsində görkəmli rəssam Mir Möhsün Nəvvab da iştirak etmişdir.

Məscidlər arasında memar Kərbəlayi Səfi xan Qarabaği tərəfindən 1874-1875-ci illərdə yenidən qurulmuş Aşağı Gövhər ağa məscidinin özünəməxsus yeri var. "XIX əsrin ikinci yarısında Şuşada fəaliyyət göstərən məscidlərin ümumi sayı 16-ya çatırdı. Bunlardan üçü Cümə məscidi, qalanları isə məhəllə məscidi funksiyasını yerinə yetirirdi" (Mahmudov 2012, 118).

Şuşanın digər memarlıq nümunələrinə nəzər salsaq, burada hamamların adlarını çəkməmək olmaz. Şuşada inşa edilən bu hamamlar quruluşuna görə digər memarlıq nümunələrindən fərqlənir. Şuşanın məşhur "Malıbəyli" və "Abdal-Gülablı" hamamlarının adlarını çəkmək yerinə düşər.

"Malıbəyli hamamı" kəndin aşağı hissəsində yerləşir. Onun belə yerdə tikilməsi bura gələn suyun yüksək təzyiqə malik olması üçün idi. Aparılan araşdırmalar sübut edir ki, nəinki Qarabağda, hətta bütün Şərqdə hamamlar çökək yerlərdə inşa edilib (Şuşa qəzeti, 2019).

Abdal-Gülablı hamamı öz quruluşuna görə fərqlənən memarlıq nümunələrindəndir. Burada həm soyunub-geyinmə, həm də yuyunma otağı çoxsaylı hücrələrə bölünmüş və soyunub-geyinmə otağında altıbucaqlı hovuzda yerləşib (Şuşa qəzeti 2019).

Qarabağın XX əsrin sonunda mənfur, xain ermənilər tərəfindən işğalı nəticəsində bütün bölgələrində olduğu kimi, Şuşanın da bir-birindən gözəl memarlıq abidələri dağıdılmış, talan edilmişdir. Bunu aparılan bütün araşdırmalar, öz həllini, dəqiqliyini tapmış faktlar sübut edir.

Ermənilərin məhv etdikləri memarlıq nümunələri arasında Şuşadakı muzeylərimiz də var. Bu muzeylərdən biri də Bülbülün ev-muzeyidir. Muzeydə Azərbaycan sovet professional vokal sənətinin banisi, SSRİ xalq artisti, Stalin mükafatı laureatı, professor Bülbülün uşaqlıq illərindən qalan şəkilləri qorunurdu.

Rəsmi məlumatlara görə, şəhərin bütün gözəl abidələri, Üzeyir Hacıbəylinin, Bülbülün, Natəvanın və Xan Şuşinskinin heykəlləri dağıdılıb. Beş minə yaxın eksponatı olan Şuşa Tarix Muzeyi, Dövlət Xalça Muzeyinin filialı və xalq tətbiqi sənəti muzeyi, Qarabağ Dövlət Tarix Muzeyi məhv edilib. Bundan başqa, şəhərdəki 7 məktəbəqədər uşaq müəssisəsi, 22 ümumtəhsil məktəbi, mədəni-maarif, kənd təsərrüfatı texnikumları, 8 mədəniyyət evi, 14 klub, 20 kitabxana, 2 kinoteatr, 3 muzey, Şərq musiqi alətləri fabriki də yerlə-yeksan edilib (Şuşanın talan edilən abidələri 2013).

Flora Xəlilzadə "Abidələr şəhərinin ağır taleyi" adlı məqaləsində erməni faşistləri tərəfindən dağıdılmış, məhv olunmuş memarlıq nümunələri haqqında çoxsaylı məlumatlar, faktlar var. Məqalədə olan həm ürəkağrısı, həm də qürur hissi ilə yazılan bu sətirlər diqqəti cəlb edir: "Yalnız qartalların qalxa biləcəyi bir ucalıqda qərar tutan Şuşanı erməni faşistlərinin işğal etməsi bizi çox ağrıdır. İyirmi ildən artıqdır ki, bu dərd bizi öldürür, amma əvvəl-axır qələbə bizimdir".

**Nəticə**

Qarabağın parlayan günəşi Şuşa hələ qədim zamanlardan incəsənətin beşiyi olmuşdur. XIX əsrin əvvəlində Şuşa əsl incəsənət mərkəzinə çevrildi. Tanınmış alim Firidun Şuşinski yazır: "Şuşada 95 şair, 22 musiqişünas, 38 peşəkar xanəndə, 16 rəssam, 18 memar yaşayırdı. Burada xeyli sayda ədəbi cəmiyyət fəaliyyət göstərirdi, lakin musiqi birliklərinin sayı xüsusilə çox idi. Qafqazın özünəməxsus konservatoriyasına çevrilən Şuşada gələcəkdə Azərbaycanın görkəmli bəstəkar, xanəndə və musiqiçiləri arasında öz yerini tutan şəxslər təhsil alır, öz ustalıqlarını artırırlar.

Otuz il Azərbaycan xalqının ağır dərdi olan, hər dəfə xatırlananda ürəyi milyon dəfə parçalayan Qarabağ acısı artıq dindi. Bu ağrını ölməz qəhrəmanlarımız, bənzəri olmayan igidlərimiz dindirdilər. Biz qayıtmışıq, Şuşa! Artıq övladların tək ruhən deyil, cismən də yanındadır. Biz səni dirçəldəcəyik!..

# ƏDƏBİYYAT

Ağamirov Mirkamil. (2013). "Nəğmə dolu Şuşam mənim". Bakı, (264 s).

"Azadlıq" qəzeti (25 iyul 2013). "Şuşanın talan edilən abidələri".

Azərbaycan milli kitabxanası. (2016). "Qarabağ əsrlərin salnaməsi". (253 s).

Azərbaycan xalça muzeyi. (2016). "Azərbaycan xalçası və xalq tətbiqi sənəti"

Cəfərov Ə. (24 aprel 2001). "Şuşa qədim sivilisasiya mərkəzidir". "Xalq" qəzeti.

Əhmədov E.İ. (2021). "Şuşa-Azərbaycanın tarixi və strateji əhəmiyyətli mədəniyyət paytaxtı". Bakı. (180 s.).

Əlioğlu Y. (2001). "Şuşa teatrı". Bakı. (138 s.).

Xəlilzadə F. (25 iyul 2013). "Abidələr şəhərinin ağır taleyi". "Kaspi" qəzeti.

Jan J. (1994). "Xacə şah", II kitab. Bakı. (648 s).

Kərimov İ. (1975). "Ə. Haqverdiyev və teatr". Bakı. (115 s.).

Kərimov İ. (2001). "Şuşa-Ağdam teatrı". Bakı. (140 s.).

Mahmudov Y., Mustafayev C. (2012)."Şuşa- Pənahabad". Bakı. (152 s.).

Rasim Əfəndi. (2004). "Qarabağ mədəniyyəti". Bakı. (175 s.).

Səfərova Z. (2021). "Şuşa-Azərbaycanın musiqi qalasıdır". Bakı. (220 s.).

"Şuşa" qəzeti, may 2007-ci il, №5 (29)

"Şuşa" qəzeti, 31 iyul 2019-cu il

Şuşinski F. (1998). "Şuşa". Bakı. (128 s).

*Мехрибан Мамедли*

# ШУША-КОЛЫБЕЛЬ КУЛЬТУРЫ И ИСКУССТВА АЗЕРБАЙДЖАНА

## РЕЗЮМЕ

В статье «Шуша – колыбель культуры и искусства Азербайджана» рассказывается об истории культуры и искусства Шуши, архитектурных образцах, отличающихся своеобразной структурой. Здесь также описывается исторически богатая музыка Шуши-музыкальной крепости Азербайджана, история ее развития, всемирно известные музыканты и композиторы, воспитанные здесь. В то же время статья содержит интересные сведения и факты о многих направлениях искусства. Шушинское искусство сыграло неоценимую роль в развитии и становлении азербайджанского искусства в целом. В статье упомянуто возникновение первого мугама в Шуше и признание этих мугамов не только в Азербайджане, но и за пределами его пределами. Дана информация о театральном искусстве и первых спектаклях в Шуше. Кроме того, имеется обширная информация о других видах искусства (ковроткачество, живопись, танцы, ювелирное дело и др.). В статье упоминаются шушинские ковры, которые всегда выделялись среди карабахских ковров, и их изготовление, значение, придаваемое этим коврам не только в Азербайджане, но и в ряде европейских стран. Интерес шушинцев к искусству оправдан во всех отношениях. Также в статье подробно рассматриваются памятники Шуши, известные в области архитектуры и имеющие древнюю историю. В статье содержится интересная информация об архитектурных образцах Шуши, древних крепостных стенах, родниках, мечетях, банях, караван-сараях, построенных с древних времен.

В статье предоставлена обширная информация о развитии шушинского искусства в XVIII-XX веках. Так, затрагивается вопрос уничтожения армянскими захватчиками прекрасных архитектурных

образцов Шуши. В статье выделены факты, упомянутые во многих источниках.

**_Ключевые слова:_** *искусство, музыка, ковроткачество, живопись, ювелирные изделия, танцы, шушинский театр, мугам, карабахская культура, архитектура, крепостные стены, родник Иса, Аскеранские крепости, поэзия, художественные встречи, музеи, дворец, строительство.*

***Mehriban Mammadli***

## SHUSHA – THE CRADLE OF CULTURE AND ART OF AZERBAIJAN

### ABSTRACT

In this article "Shusha - the cradle of culture and art of Azerbaijan" discusses the history of culture and art in Shusha, as well as architectural examples distinguished by their unique structure.The history of Shusha, the musical fortress of Azerbaijan, is rich in music, the history of its development, the world-famous musicians and composers brought up by this country. At the same time, the article contains interesting information and facts about many areas of art. Shusha art has played an unprecedented role in the development and formation of Azerbaijani art in general. The creation of the first mugam in Shusha, the recognition of these mughams not only in Azerbaijan, but also in the outskirts of Azerbaijan. The article art in Shusha, information about the first performances are given. In addition, there is extensive information on other types of art ( carpet weaving, dyeing, dance, jewellery, etc.). The Shusha carpets, which have always had their say in the Karabakh carpet and their production, are mentioned in valuable article given to these carpets not only in Azerbaijan, but also in a number of European countries. The interest of the people of Shusha in art is justified in all lines. The article also discusses the monuments of Shusha, which have a say in the field of architecture and have an ancient history. The article

contains information about Shusha architectural samples, ancient fortress walls,

The development of Shusha art in the XVIII-XX centuries is reflected in the article. Thus, the issue of the destruction of Shusha by the Armenian invaders is touched upon. The facts mentioned in many sources are emphasized in the article.

***Keywords:*** *Art, Music, Carpet weaving, Painting, Jewellery, Rogs, Shusha team, Mugam, Win Karabakh culture, Architecture, Castle walls, Isa fountain, Askaran castle, Poetry, Incasanat assemblies, Museum, Palace, Building*

# ŞUŞANIN MİLLİ-MƏNƏVİ İRSİMİZİN TƏŞƏKKÜL VƏ İNKİŞAFINDA ROLU

***Ləman Allahverdiyeva,***
*Bakı Slavyan Universitetinin tələbəsi*
leman.allahverdiyeva.02@mail.ru

## XÜLASƏ

Qarabağın baştacı olan Şuşa Azərbaycan incəsənətinin beşiyi olaraq milli musiqimizin yaranma və inkişafında müstəsna rol oynamışdır. Bir çox xanəndələr, bəstəkarlar məhz Şuşanın yetirmələri olmuşlar. Xarrat Qulu, Mir Möhsün Nəvvab, Sadıqcan, Cabbar Qaryağdıoğlu, Üzeyir Hacıbəyov, Seyid Şuşinski, Bülbül, Xan Şuşinski, Süleyman Ələsgərov kimi musiqi sənətkarlarımız xüsusilə diqqəti cəlb edir. Şuşa XIX əsrin ikinci yarısından etibarən "Qafqazın konservatoriyası"na çevrilmişdir. Bu zaman şuşalıların gözəl, məlahətli səsə malik olduqlarını vurğulamaq lazımdır. Şuşada Xarrat Qulunun əsasını qoyduğu musiqi məktəbinin fəaliyyəti də bir sıra xüsusiyyətlərinə görə fərqlənmişdir. Mir Möhsün Nəvvabın Şuşada qurduğu məclis görkəmli xanəndələr yetişdirmişdir ki, bunlara nümunə olaraq Sadıqcanı, Cabbar Qaryağdıoğlunu göstərmək olar. Nəvvabın məclisi "Xanəndələr ittifaqı" rolunu oynamışdır. Sadıqcan məşhur tarzən olmuş və tarda etdiyi yeniliklər mühüm rol oynamışdır. Belə ki, Sadığı "tarın atası" adlandırırlar. Görkəmli şuşalı xanəndə Cabbar Qaryağdıoğlu klassik və ritmik muğamları mükəmməl ifa etməsi ilə məşhurlaşmışdır. Azərbaycan operasının və musiqili komediyasının banisi olan, ömrünün qırx ilini milli musiqimizin inkişafına həsr edən Üzeyir Hacıbəyov da şuşalı olmuşdur və onun çoxcəhətli fəaliyyəti diqqətəlayiqdir. Seyid Şuşinski muğama yeni guşələr əlavə etməsi, Bülbül məlahətli səsi və vokal musiqi məktəbinin yaradıcısı, Xan Şuşinski "Segah" muğamını zənginləşdirməsi, Süleyman Ələsgərov da musiqi janrlarından məharətlə istifadə etməsilə diqqəti cəlb etmişdir. Qətiyyətli mübarizə nəti-

cəsində işğaldan azad olunmuş Şuşada milli-mədəni irsimizin inkişafı sahəsində layihələr hazırlanır və Şuşanın Azərbaycanın mədəniyyət paytaxtı olması barədə sərəncamın verilməsi də xüsusi əhəmiyyət daşıyır.

***Açar sözlər:*** *Şuşa, musiqi, Sadıqcan, Cabbar Qaryağdıoğlu, Üzeyir Hacıbəyov.*

**Giriş**

Azərbaycan incəsənətinin beşiyi olan Şuşa şəhərinin əsası 1750-ci ilin əvvəllərində Pənahəli xan Cavanşir tərəfindən qoyulmuşdur. Şuşa uzun illər boyu milli-mənəvi dəyərlərimizin inkişafında mühüm rol oynamış, Azərbaycan mədəniyyət və incəsənətinə böyük töhfə vermiş və Xarrat Qulu, Mir Möhsün Nəvvab, Sadıqcan, Cabbar Qaryağdıoğlu, Üzeyir Hacıbəyov, Seyid Şuşinski, Xan Şuşinski kimi musiqi sənətkarlarımızın yetişməsinə misilsiz töhfələr vermişdir. Şuşadakı muğam məktəbləri, musiqi məclisləri, birpərdəli musiqili tamaşalar, "Şərq konsertləri" musiqi mədəniyyətimizin tərəqqisində önəmli yer tutur. Bu məqalədə Şuşanın milli musiqimizə verdiyi töhfələri nəzərdən keçirəcəyik.

**Şuşa musiqi məktəbi**

Azərbaycanda XIX əsrin sonlarında açılan ən məşhur musiqi məktəbi Şuşa musiqi məktəbi olmuşdur. V.D.Karqanov "Qafqaz musiqisi" əsərində qeyd eləmişdir: "Zaqafqaziya musiqi xadimlərini - çalğıçı və xanəndələri, şeir, musiqi və mahnıların füsunkar vətəni olan Şuşa verirdi. Bütün Zaqafqaziya üçün bir konservatoriya rolunu oynayan bu şəhərdən hər mövsümdə, hətta hər ay Zaqafqaziyaya yeni mahnılar, yeni motivlər gəlirdi" (Karqanov 1908, 18).

Rus şairi olan Sergey Yesenin şuşalıların möhtəşəm səsə sahib olduqlarını məktublarının birində belə işarə etmişdir: "Əgər biri oxumağı bacarmırsa, deməli, şuşalı deyil" (Yesenin 1962, 205).

Şuşada musiqi məktəbinin əsasını görkəmli musiqişünas Xarrat Qulu qoymuşdur. Bu məktəb milli vokal kadrlarının yetişdirilməsində, klassik muğam musiqisinin öyrənilməsində böyük fəaliyyət göstərmişdir. Burada gənclərə mərsiyəxanlıq, sinəzənlik və növhəxanlıqla yanaşı, muğamatın

sirləri, Azərbaycan xalq nəğmələri və qoşmaları da öyrədilirdi. Bu məclisdə xanəndələrin oxumaq üslublarında ümumiləşmiş qayda var idi. Belə ki, xanəndələr dizüstə oturaraq oxuyardı və bu zaman tərpənməzdilər.

Mir Möhsün Nəvvab XIX əsrin 80-ci illərində Şuşada yeni musiqi məclisi yaratdı. Bu məclisin əsas məqsədlərindən biri klassik Azərbaycan muğamlarını təkmilləşdirmək idi. Məclis üzvləri sırasında Sadıqcan, Şahnaz Abbas, Məşədi İsi, Cabbar Qaryağdıoğlu və başqaları var idi. Nəvvabın məclisi "Xanəndələr ittifaqı" rolunu oynayırdı. Məclisin yaranmasında Nəvvaba kömək edən xanəndələrdən biri də Hacı Hüsü idi. Hacı Hüsü Azərbaycan və klassik Şərq təsnif və muğamlarına yaxından bələd olan musiqişünas idi. O, "Rast", "Şur", "Mahur", "Segah" və digər muğamlara yeni versiyalar artırmış və onların əsasında mahnılar, təsniflər yaratmışdır. Hacı Hüsü "Kürdü" muğamına "Şahnaz" artıraraq birlikdə "Kürdü-Şahnaz" ifa etmişdir. Mir Möhsün Nəvvab muğamat haqqında "Vüzuhul-ərqam" əsərini yazmışdı. O, bu kitabda muğamatı şöbə və guşələrə ayıraraq xüsusi cədvəl tərtib etmişdir.

**"Tarın atası" – Sadıqcan**

Musiqi mədəniyyətimizin inkişafında misilsiz xidmətləri olan, Şuşa məclisinin görkəmli üzvlərindən biri Sadıqcan böyük tarzən idi. Xarrat Qulunun musiqi məktəbi Sadığın musiqiçi olaraq yetişməsində xüsusi rol oynamışdır. Sadığın səsi on səkkiz yaşında olanda batmış olsa da, həvəsdən düşməmişdir. İlk olaraq ney və tütəyi, sonra isə kamança çalmağı öyrənmişdir. Bir müddət sonra Sadıqcan tara meyil etmiş və tar çalmağı öyrənmişdir. Şuşalı tarzən Əli Əsgər Sadıqcanın tar müəllimi olmuşdur.

Güclü və uzun barmaqları olan Sadığın istedadı tez bir zamanda üzə çıxır. Sadıq tar çalanda ustadı Ələsgər həsədlə deyərmiş: "Kaş, mənim var-dövlətim Sadığın, onun barmaqları isə mənim olaydı" (Şuşinski 2015, 275).

Sadıqcan virtuoz tarzən olaraq İranda, Zaqafqaziyada məşhurlaşmışdı. O, Şuşada 1901-ci ildə təşkil olunan birinci Şərq konsertində çıxış etmiş və ilk dəfə olaraq tarda solo "Mahur" ifa etmişdir.

Sadıqcan 1870-1875-ci illərdə İran tarında yenilik etmişdir. "Tarın qolunda olan bir çox artıq pərdələri atıb, 17 pərdə saxlamış, tarın səsini gücləndirmək üçün birinci qoşa ağ simin və qoşa sarı simin hərəsindən

bir oktava yuxarı zil səslənən iki cüt cingənə sim əlavə etmişdir. Tarın rezonansını artırmaq, həm də lazım gəldikdə səsləndirmək üçün sarı simdən bir oktava aşağı, yəni bəm səslənən bir qalın sarı boş sim də artırdı. Bundan əlavə, tarın qolunun yuxarısında, yəni kəlləyə yaxın yerdə əlavə pərdə bağlamaq ilə "lal barmaq" üsulunu icad etdi" (Şuşinski 2015, 281).

Qeyd etmək lazımdır ki, Sadıqcan tarın gərilməsinə mane olmaq üçün tarın çanağının içərisinə ağac dayaq əlavə etmişdir. Həmçinin o, tara altı sim artıraraq sayını 11-lə tamamlamışdır. "Sadıq tara 8 sim əlavə etmişdir. Bunlar "re" və "sol" səslənir" (Şuşinski 2015, 282).

Sadıqcanın etdiyi yeniliklərdən biri də bu idi ki, əvvəllər tar dizüstə əyilərək çalınırdı, lakin Sadıqcan bunu ləğv etmiş və tarı ilk dəfə sinədə çalmışdır. "Xalq onun tarını "sehrli tar", Sadığı isə "tarın atası" hesab etmişdir" (Şuşinski 2015, 282).

Sadıq 1890-cı illərdə ansambl yaratmışdır. O, həmin dövrün ən görkəmli oxuyub-çalanlarını ansamblda birləşdirmişdir. Bu ansamblda, hətta iki qız da Azərbaycan və gürcü rəqslərini ifa edirdi. Sadıq bu ansamblla Tehranda, İstanbulda, Aşqabadda, həmçinin Azərbaycanın bir sıra şəhərlərində konsertlər təşkil etmişdir. O, 1897-ci ildə Şuşadakı birpərdəli "Məcnun Leylinin məzarı üstündə" tamaşasının musiqisinin tərtibatçısı kimi fəaliyyət göstərmişdir.

Sadıqcanın "Mahur" və "Segah" muğamlarına yeni şöbələr artırdığını vurğulamaq lazımdır. Şirin Axundov, Məşədi Cəmil, Qurban Pirimov onun məktəbinin yetirmələri olmuşlar.

**Şuşalı xanəndə və bəstəkarlar**

Azərbaycan musiqisinə öz töhfəsini vermiş xanəndələrdən biri də XIX əsrin yetirmələrindən olan Cabbar Qaryağdıoğludur. Rus şairi S.Yesenin Cabbarı "Şərq musiqisinin peyğəmbəri", yazıçı M.S.Ordubadi isə onu "Şərq musiqisinin böyük mütəxəssisi" adlandırmışdır. Qeyd etmək lazımdır ki, Cabbarın xanəndə olan qardaşı Məşədi Məhəmməd onun musiqi təhsili almasında xüsusi rol oynamışdır. Belə ki, Məşədi Məhəmməd getdiyi məclislərə Cabbarı da aparırdı və bu məclisdəki şuşalı xanəndələrin ifası ona müsbət təsir edərdi.

On yaşında olanda Cabbar şəhərdəki məktəbə daxil olmuşdur və Mirzə Əli onun ilk müəllimi olmuşdur. Bu məktəbi bitirdikdən sonra Cabbar xanəndə Yusif Şahsənəmoğlunun tələbəsi olmuş və ondan bir sıra muğam dəstgahı öyrənmişdir. Cabbar "Rahab", "Heyratı", "Bayatı-Qacar" kimi Azərbaycan təsniflərini, el mahnılarını mənimsəmişdir. Xalq məclislərində şöhrəti parlayan Cabbar Qaryağdıoğlu ustad sənətkar Sadıqcan tərəfindən ansambla üzv qəbul edilmişdir. "Xandəmirovun teatr salonu"ndakı xeyriyyə gecəsində Cabbar Qaryağdıoğlu Sadıqcanla birlikdə çıxış etmiş və "Heyratı" oxumuşdur. Cabbar get-gedə daha da məşhurluq qazanaraq İranda, Gürcüstanda, Orta Asiyada görkəmli sənətkar olmuşdur.

Əbdürrəhim bəy Haqverdiyevin rəhbərliyi ilə 1897-ci ildə tamaşaya qoyulan "Məcnun Leylinin məzarı üstündə" musiqili səhnəciyində Cabbar Məcnunun ifaçısı olmuşdur.

Şuşada 1901-ci ilin yayında təşkil edilən ilk "Şərq konserti"ndə Cabbar Qaryağdıoğlu da öz məharətini göstərərək, Xurşidbanu Natəvanın, Füzulinin, Qasım bəy Zakirin qəzəllərini oxumuşdur. Onun məhz doğma Ana dilimizdə oxuduğu qəzəlləri muğamın xalq kütləsi arasında geniş yayılmasına təkan vermişdir.

Bakının musiqi mədəniyyətinin inkişafı sahəsində 1902-ci ildə baş verən hadisə barədə "Kaspi" qəzeti yazmışdı: "Yanvarın 11-də cümə günü Hacı Zeynalabdin Tağıyevin teatrında məşhur Qarabağ aşığı Nəcəfqulunun və xanəndələrdən Qaryağdıoğlu Cabbarın, bakılı Seyidin, şəkili Ələsgərin və Keçəçioğlu Məhəmmədin iştirakı ilə Bakıda birinci "Şərq konserti" olacaq" ("Kaspi" qəzeti, 1902). Konsertin birinci hissəsində Cabbar Qaryağdıoğlu "Mahur" səsləndirmişdir.

Tamaşaçıların istəyi üzrə 1902-ci ilin yanvarın 23-ndə Bakıda Əbdürrəhim bəy Haqverdiyevin rəhbərliyi ilə ikinci "Şərq konserti" keçirilmiş və Cabbar Qaryağdıoğlu bu konsertdə "Heyratı" səsləndirmişdir.

Şuşada Cabbar Mirzə Sadığın sazəndələr dəstəsi ilə, 1900-1905-ci illərdə Bakıda kamançaçı Məşədi Qulu və tarzən Mirzə Fərəc ilə çıxış etmiş, 1905-ci ildə kamançaçalan Saşa Oqanezaşvili və tarzən Qurban Pirimovdan ibarət trio təşkil etmişdir.

Bir sıra aksioner cəmiyyətlər gəlir əldə etmək üçün XX əsrin əvvəllərində xanəndələrin səslərini qrammofon vallarına yazdırıb, kütlə içəri-

sində yayırdı. Cabbar Qaryağdıoğlunun da səsi 1906-1912-ci illərdə "Qrammofon" , "Sport-rekord" , "Ekstrafon" cəmiyyətləri tərəfindən Varşava, Kiyev, Moskva şəhərlərində qrammofon valına yazılmışdı. Bu zaman Cabbar Qaryağdıoğlu klassik Şərq və Azərbaycan muğamlarını, təsniflərini ustalıqla səsləndirmişdir. Məhz "Mənsuriyyə", "Kürdü-Şahnaz", "Mahur", "Heyratı"nı Cabbar Qaryağdıoğlu möhtəşəm ifa edən xanəndə kimi iz qoymuşdur.

"Mənsuriyyə"ni ifa etmək xanəndədən böyük ustalıq tələb edir. "Mənsuriyyə"dən sonra isə "Mənsuriyyə" nin zərbi – "Üzzal" hissəsi gəlir. Bu hissələr çox yüksək zil səslə oxunmalıdır. Belə səsə malik olmayan xanəndə bu muğamı oxuya bilməz. Cabbar Qaryağdıoğlu "Mənsuriyyə"ni oxuyarkən xanəndələrin təbirincə desək, elə gözəl yollar, elə üsullar tapıb seçərmiş ki, tarçalanlar çaşıb özlərini itirərmişlər" (Şuşinski 2015, 351).

Cabbar ritmik muğamlardan "Mani", "Qarabağ şikəstəsi", "Simayi-Şəms", "Arazbarı", "Əfşarı", klassik muğamlardan "Çahargah", "Rast", "Bayatı-Şiraz", "Mirzə Hüseyn Segahı" , "Orta Mahur"u böyük məharətlə ifa edərdi. O cümlədən, Cabbarın lirik tonda oxuduğu Azərbaycan mahnılarından "Damınızdan damcı düşər", "Gəlin gedək Daşaltına gəzməyə", "Gözüm yaşına tab etməz", "Qalalıyam, qalalı"nı nümunə göstərmək olar.

Cabbar, həmçinin, gürcü, türkmən, özbək, ləzgi dillərində də mahnılar ifa edərdi. Bunlara nümunə kimi, "Mənə nə oldu", "Gülə-gülə" mahnılarını göstərə bilərik.

Cabbar Qaryağdıoğlu opera və operetta yazanlara qarşı da öz dəstəyini əsirgəməmişdir.

"Məşhur sovet bəstəkarı R.M.Qliyer "Şahsənəm" operasını bəstələmək üçün 1923-cü ildə Bakıya gəlir. Qliyer hələ operanı yazmazdan əvvəl Azərbaycan xalqının zəngin musiqisinin xüsusiyyətlərini dərindən öyrənir. Bu işdə Cabbar Qaryağdıoğlunun və onun sənət yoldaşı görkəmli tarzən Qurban Pirimovun bəstəkara böyük köməyi olmuşdur" ("Pravda" qəzeti, 1938).

Tiflisdə 1934-cü ildə Zaqafqaziya xalqlarının incəsənət olimpiadası açılmışdı. Burada 17 milləti təmsil edən 1900 nəfər yer almışdı. Olimpiadaya Zaqafqaziyada tanınmış xanəndələri, rəqs ustalarını, çalğıçıları

dəvət etmişdilər. Bu olimpiadada 74 yaşı olan Cabbar Qaryağdıoğlu birinci mükafatı qazanmışdı.

Şuşanın yetişdirdiyi digər görkəmli sənətkar Üzeyir Hacıbəyovdur. Belə ki, Üzeyir Hacıbəyov həyatının 40 ilini Azərbaycan musiqisinin inkişafına həsr etmiş, Azərbaycan opera musiqisinin və Şərqdə ilk bəstəkarlıq məktəbinin banisi olmuşdur.

Üzeyir Hacıbəyov 1885-ci ildə Şuşada dünyaya göz açmışdır. Musiqi incəsənətinin beşiyi olan Şuşa XIX əsrin ikinci yarısında Üzeyir bəyin inkişafında xüsusi rol oynamışdır. Üzeyir hələ kiçik yaşlarında Şuşadakı Xandəmirovun teatrında göstərilən musiqili səhnəciklərdə uşaq xorunda çıxış etmişdir.

Füzulinin "Leyli və Məcnun" poemasından "Məcnun Leylinin qəbri üstündə" birpərdəli musiqili səhnəciyi 1897-1898-ci illərdə Əbdürrəhim bəy Haqverdiyevin rəhbərliyi ilə tamaşaya qoyulan zaman Üzeyir Hacıbəyov "Şəbi-hicran" mahnısını xorla oxumuşdur.

Şuşanın musiqi mühitində böyüyüb inkişaf edən Üzeyir Hacıbəyov Azərbaycanın ilk milli operasını yaratmışdır. "Leyli və Məcnun" operası 1908-ci il yanvarın 12-də tamaşaya qoyulmuş və Üzeyir Hacıbəyovun bəstəkarlıq fəaliyyəti başlamışdır. O, bir sıra muğam operası yazmışdır: 1909-cu ildə "Şeyx Sənan", 1910-cu ildə "Rüstəm və Söhrab", 1912-ci ildə "Şah Abbas və Xurşidbanu", 1912-ci ildə "Əsli və Kərəm", 1915-ci ildə "Harun və Leyla"nı

Azərbaycan musiqili komediyasının da yaradıcısı Üzeyir Hacıbəyov olmuşdur. O, 1910-cu ildə "Ər və arvad", 1911-ci ildə " O olmasın, bu olsun", 1913-cü ildə "Arşın mal alan" operettalarını yazmışdır.

Milli operamızın klassik nümunəsi olan, Azərbaycan xalqının azadlıq uğrunda mübarizəsini tərənnüm edən "Koroğlu" operasını Üzeyir Hacıbəyov yaratmışdır. Bu opera 1937-ci ildə ilk dəfə tamaşaya qoyulmuşdur. "Koroğlu" operası 1940-cı ildə SSRİ Dövlət mükafatı ilə təltif olunmuşdur.

Üzeyir Hacıbəyov Azərbaycan simfonik və kamera musiqisinin yaranmasında misilsiz rol oynanmışdır. Xanəndələrimiz tərəfindən ifa olunan qəzəl janrının Üzeyir Hacıbəyov vokal musiqimizin təzə bənzərsiz nümunəsini yaratmışdır. Nizami Gəncəvinin qəzəllərinə əsasən 1940-cı illərdə "Sevgili canan", "Sənsiz" qəzəl-romanslarını bəstələmişdir.

Milli musiqi mədəniyyətimizin təşəkkülündə mühüm rol oynayan, Qarabağın xanəndəlik məktəbinin görkəmli simalarından biri də Seyid Şuşinskidir. Onun peşəkar xanəndə kimi məşhurlaşmasında musiqi beşiyimiz olan Şuşa mühitinin xüsusi rolu olmuşdur.

Seyid Şuşinski 1911-1919-cu illərdə Tiflisdə yaşayaraq xanəndəlik sənətini inkişaf etdirmişdir. Onun tanınmış xanəndə Əbülhəsən xan İqbal Sontanla tanışlığı Seyidin ifaçılığında dərin iz qoymuşdur. "Ekstrafon" Səhmdar Cəmiyyəti 1913-1914-cü illərdə Seyidi Kiyevə dəvət etmiş və səsini vala yazdırmışdır. Seyid Şuşinski "Nəva", "Bayatı-İsfahan", "Çahargah", "Rast", "Hümayun", "Mahur", "Şahnaz", "Mirzə Hüseyn segahı" muğamlarını, "Arazbarı", "Mani", "Mənsuriyyə" zərbi muğamlarını böyük ustalıqla səsləndirmişdir. Onun səsləndirdiyi "Çahargah" muğamı isə xüsusi təsir bağışlayırdı. S.Şuşinski "Çahargah" muğam dəstgahını yüksək zirvədən – zil şöbə olan "Mənsuriyyə"dən başlayırdı ki, bu da muğama döyüş ruhu aşılayırdı ("Muğam ensiklopediyası" 2008, 188).

Yeniliyə can atan xanəndə muğamlara təzə guşələr artırmış, bir sıra muğamları isə birləşdirərək ifa etmişdir. Bunlara "Qatar-Bayatı", "Rast-Hümayun", "Şur-Şahnaz" dəstgahlarını nümunə göstərmək olar.

Şuşa musiqiçiləri sırasında Bülbülün adını çəkmək olduqca vacibdir. Belə ki, onun adı Murtuza Məmmədov olsa da, məhz Bülbül adı ilə məşhurlaşmışdır. Onun səsi çox məlahətli olduğu üçün xalq ona Bülbül adını qoymuşdur. Zahid Abbasov və Mustafa Çəmənlinin tərtib etdiyi "Şuşa Azərbaycanın tarix və mədəniyyət incisidir" kitabında da qeyd edilmişdir: "Ü.Hacıbəyli dəfələrlə etiraf etmişdir ki, özünün şedevri olan "Koroğlu" operasını yaradarkən ən əvvəl Koroğlu musiqi partiyasını məhz Bülbülün səsini nəzərdə tutaraq yazmışdır" (Abbasov, Çəmənli 2012, 5-6).

Bülbül fəaliyyətinə xanəndəlikdən başlamış və öz üzərində işləyərək vokal müğənnisinədək gəlib çıxmışdır. Bülbülün Şuşada doğulması və böyüməsi onun xanəndə kimi yetişməsində mühüm rol oynamışdır. O, İtaliyada vokal təhsil aldıqdan sonra Azərbaycan Dövlət Konservatoriyasında öz vokal məktəbini qurmağa nail olmuşdur.

Bülbül bir sıra operalarda baş rol olaraq çıxış etmişdir. Muğam Ensiklopediyasında yazılan məlumatda da bunu müşahidə etmiş oluruq: "Bülbül ADOBT-da Avropa və rus klassik operalarında (C.Verdi –

"Riqoletto", J.Massne – "Verter", S.Raxmaninov – "Aleko" və s.), həmçinin Azərbaycan bəstəkarlarının klassik operalarında baş rollarda (Ə.Bədəlbəyli – "Nizami", Niyazi – "Fərhad və Şirin" və s.) çıxış etmiş, yaddaqalan obrazlar yaratmışdır" ("Muğam ensiklopediyası" 2008, 45).

Şuşanın musiqi mədəniyyətimizə bəxş etdiyi incilərdən biri Xan Şuşinskidir. O, 16 yaşında olarkən ustadı İslam Abdullayevlə birgə iştirak etdiyi məclisdə təbrizli xanəndə Əbülhəsən xanın yolu ilə "Kürd-Şahnaz" muğamını heyrətamiz tərzdə ifa etdiyinə görə, müəllimi ona "Xan Şuşinski" adını vermişdir ("Muğam ensiklopediyası" 2008, 188).

Xanın ifasında "Qatar", "Mahur-Hindi", "Bayatı-Qacar" muğamları, "Heyratı", "Arazbarı","Qarabağ şikəstəsi" zərbi muğamları xüsusi yer tuturdu.

Hərbi hissələrdə konsertlər verən Xan Şuşinski 1935-ci ildə Qarabağda olan hərbi hissəni hamiliyə götürmüş və dörd il konsert vermişdir.

Tiflisdə 1944-cü ildə Zaqafqaziya respublikasının musiqi dekadası həyata keçirilmişdir. Bu dekadada Xan Şuşinski də çıxış etmiş və "Qatar", "Yeri dam üstə, yeri" mahnısını oxumuşdur. Onun ifa etdiyi "Simayi-şəms" muğamı çox uğurlu olmuşdur.

Moskvada 1959-cu ildə keçirilən Azərbaycan ədəbiyyatı və incəsənəti günlərində Xan Şuşinski Füzulinin, Vaqifin, Səməd Vurğunun şeirlərini "Heyratı" və "Kürd-Şahnaz" üstündə ifa etmişdir. Xanın oxuduğu "Qarabağ şikəstəsi" hər kəsi valeh etmişdi.

Xan Şuşinskinin yaradıcılığında "Segah" muğamı xüsusi yer tutur. Xanın repertuarında "Mirzə Hüseyn Segahı"nı vurğulamaq lazımdır. Bu muğamın banisi XVIII əsrdə yaşamış Mirzə Hüseyn olmuşdur. "O, ilk dəfə olaraq "Segah" dəstgahına "Manəndi-Müxalif" şöbəsini əlavə edib, "Segah"a keçməzdən əvvəl "Müyaye" ilə "Segah" arasında oxuyub. Lakin Mirzə Hüseyndən sonra gələn xanəndələr, nədənsə, muğamın "Manəndi-müxalif" şöbəsini oxumayıblar. Bu isə muğamın təsir gücünü azaltmaqla xronoloji quruluşunu pozmuşdur" (Şuşinski 2015, 620-621).

Qeyd etmək lazımdır ki, "Mirzə Hüseyn Segahı"na "Manəndi-müxalif" şöbəsinin qaytarılması Xan Şuşinskiyə aiddir. O, bu şöbəni bir növ müqəddimə kimi oxumuşdur.

Xan Şuşinski ritmik muğamlardan "Heyratı" nı böyük məharətlə oxuyardı.

Qeyd etmək lazımdır ki, qaval vurmağı bacaran və səsi yüksək registrlərə qalxan xanəndə ritmik muğamlar oxuya bilər. Buna görə də Xan Şuşinski həm qaval çalmağı, həm də məlahətli səsi ilə ritmik muğamları böyük ustalıqla ifa edərdi.

Xan mahir sənətkar olaraq milli musiqimizi mahnılarla zənginləşdirmişdir. O, "Qəmərim", "Şuşanın dağları" mahnılarını yazmışdır.

Azərbaycanın musiqi ictimaiyyəti 1971-ci ildə Xan Şuşinskinin 70 illik yubileyini qeyd etmişdir. Sənətkar "Şərəf Ordeni" ilə təltif edilmişdir.

Şuşadan olan dəyərli bəstəkarlarımızdan biri Süleyman Ələsgərovdur. Süleyman Ələsgərov musiqinin bir çox janrlarına toxunmuşdur. "Şuşa Azərbaycanın tarix və mədəniyyət incisidir" kitabındakı nümunədə qeyd edilmişdir: "Bəstəkar 2 operanın ("Bahadır və Sona", "Solğun çiçəklər"), 12 musiqili komediyanın, 2 simfoniyanın, 6 kantatanın, bir sıra kamera-instrumental əsərlərin, tar ilə Azərbaycan Xalq Çalğı Alətləri Orkestri üçün 3 konsertin, 200-dən artıq mahnı və romansların müəllifidir" (Abbasov, Çəmənli 2012, 6)

## Nəticə

Beləliklə, biz əsaslandırdıq ki, Şuşa Şərqin Konservatoriyası, Azərbaycanın musiqi beşiyi olmuşdur.

Şəhər 1992-ci il may ayının 8-də erməni hərbi birləşmələri tərəfindən işğal edilsə də, 2020-ci il noyabrın 8-də igid oğullarımızın qətiyyətli mübarizəsi nəticəsində Şuşa işğaldan azad olunmuşdur. Şuşanın inkişafı istiqamətində bir sıra tədbirlər görülməyə başlanmışdır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamına əsasən, Şuşa Azərbaycanın mədəniyyət paytaxtı elan olunmuşdur: "Tarixi-mədəni əhəmiyyəti və Azərbaycan xalqı üçün müstəsna mənəvi dəyərə malik olması Şuşaya xüsusi qayğı və həssaslıqla yanaşılmasını zəruri edir. Bu baxımdan, Şuşada dövlət idarəetməsinin və hüquqi tənzimləmənin daha da təkmilləşdirilməsi şəhərdə tarixi-mədəni irsin bərpasına və qorunub

saxlanmasına xidmək etməklə yanaşı, onun daim inkişafına şərait yaradacaqdır. Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Şuşa şəhərinin tarixi görkəminin bərpası, əvvəlki şöhrətinin özünə qaytarılması, eləcə də Azərbaycanın çoxəsrlik zəngin mədəniyyətinin, memarlıq və şəhərsalma sənətinin parlaq incisi kimi beynəlxalq aləmdə təbliği məqsədilə qərara alıram:

1. Şuşa şəhəri Azərbaycanın mədəniyyət paytaxtı elan edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin".

Ölkəmizin mədəniyyət mərkəzi olan Şuşada – Cıdır düzündə 2021-ci ilin may ayının 13-də "Xarıbülbül" musiqi festivalı keçirilmişdir.

## ƏDƏBİYYAT

APA.AZ, "Şuşa şəhəri Azərbaycanın mədəniyyət paytaxtı elan edilib" https://www.google.com/url?sa=t&rct=j&q=&esrc=s&source=web&cd=&ved=2ahUKEwj_pKKitr32AhXOwKQKHU7lAywQFnoECAgQAQ&url=https%3A%2F%2Fapa.az%2Faz%2Fofficial-news%2Fsusa-seheri-azerbaycanin-medeniyyet-paytaxti-elan-edilib-641963&usg=AOvVaw1p3D5bOdZZ3B1uZvMMC_zV

Firidun Şuşinski. (2015). "Azərbaycanın musiqi xəzinəsi". Bakı: "Vətənoğlu" NP MMC, (səh. 275).

"Kaspi" qəzeti, 2 yanvar 1902-ci il, N-9

"Muğam ensiklopediyası". (2008). Bakı, Heydər Əliyev Fondu, (səh. 45).

"Pravda" qəzeti, 8 aprel 1938-ci il, N-97

Sergey Yesenin seçilmiş əsərləri. (1962). Moskva, V cild, (səh. 205).

V.D.Karqanov. (1908). "Qafqazskaya muzıka". Tiflis, (səh. 28).

Zahid Abbasov, Mustafa Çəmənli. (2012). "Şuşa Azərbaycanın tarix və mədəniyyət incisidir". Bakı: Təhsil, (səh. 5-6).

Zahid Abbasov, Mustafa Çəmənli. (2012). "Şuşa Azərbaycanın tarix və mədəniyyət incisidir". Bakı: Təhsil, (səh. 6).

*Ляман Аллахвердиева*

# РОЛЬ ШУШИ В ФОРМИРОВАНИИ И РАЗВИТИИ НАЦИОНАЛЬНО-ДУХОВНОГО НАСЛЕДИЯ

## РЕЗЮМЕ

Шуша-венец Карабаха, как колыбель азербайджанского искусства, сыграла исключительную роль в создании и развитии национальной музыки. Многие певцы и композиторы являются выходцами из Шуши. Особое внимание привлекают такие наши музыканты, как Харрат Гулу, Мир Мохсун Навваб, Садыхджан, Джаббар Гарьягдыоглу, Узеир Гаджибеков, Сеид Шушинский, Бюльбюль, Хан Шушинский, Сулейман Алескеров. Со второй половины XIX века Шуша стала «Консерваторией Кавказа». В то же время следует подчеркнуть, что у шушинцев красивый, приятный голос. Деятельность музыкальной школы, основанной Харратом Гулу в Шуше, также отличалась рядом особенностей. Собрание, организованное Мир Мохсун Наввабом в Шуше, воспитало таких известных певцов, как Садыхджан и Джаббар Гарьягдыоглу. Собрание навваба играло роль Союза певцов. Садыхджан был известным таристом, и его новшества в таре сыграли важную роль. Так, Садыха называют «отцом тара». Знаменитый шушинский певец Джаббар Гарьягдыоглу известен своим безупречным исполнением классических и ритмичных мугамов. Узеир Гаджибеков, основоположник азербайджанской оперы и музыкальной комедии, посвятивший сорок лет своей жизни развитию национальной музыки, также был родом из Шуши, и его многогранная деятельность заслуживает внимания. Сеид Шушинский стал известен, добавлением в мугам новых граней, Бюльбюль- очаровательным голосом и созданием школы вокальной музыки, Хан Шушинский - обогащением мугама "Сегях", Сулейман Алескеров - умелым использованием музыкальных жанров. Разрабатываются проекты в сфере развития национально-культурного наследия в Шуше, освобожденной от оккупации в результате решительной борьбы. Распоряжение об объявлении Шуши культурной столицей Азербайдджана также имеет особое значение.

***Ключевые слова:*** *Шуша, музыка, Садыхджан, Джаббар Гарьягдыоглу, Узеир Гаджибеков.*

*Laman Allahverdiyeva*

# THE ROLE OF SHUSHA IN THE FORMATION AND DEVELOPMENT OF OUR NATIONAL AND SPIRITUAL HERITAGE

## ABSTRACT

Shusha, the main crown of Karabakh, as the cradle of Azerbaijani art, played an exceptional role in the creation and development of our national music. Many singers and composers were students of Shusha. Our musicians such as Harrat Gulu, Mir Mohsun Navvab, Sadigjan, Jabbar Qaryagdioglu, Uzeyir Hajibeyov, Seyid Shushinsky, Bulbul, Khan Shushinsky, Suleyman Alasgarov attract special attention. From the second half of the 19th century, Shusha became the "Conservatory of the Caucasus". At the same time, it should be emphasized that the people of Shusha have a beautiful, pleasant voice. The activity of the music school founded by Harrat Gulu in Shusha also differed due to a number of features. The assembly organized by Mir Mohsun Navvab in Shusha also produced prominent singers, such as Sadigja and Jabbar Qaryagdioglu. The Nawwab's assembly played the role of the Singers' Union. Sadigjan was a famous tar player and his reconstruction played an important role in the tar. Thus, Sadiq is called the "father of tar". Famous Shusha singer Jabbar Qaryagdioglu is famous for his perfect performance of classical and rhythmic mugams. Uzeyir Hajibeyov, the founder of Azerbaijani opera and musical comedy, who devoted forty years of his life to the development of national music, was also from Shusha, and his multifaceted activity is noteworthy. Seyid Shushinsky added new corners to mugam, the founder of Bulbul's pleasant voice and vocal music school, Khan Shushinsky enriched "Segah" mugam, Suleyman Alasgarov also skillfully used music genres. Projects are being prepared and the order to make Shusha the cultural capital of Azerbaijan is of special importance.

***Keywords:*** *Shusha, music, Sadigjan, Jabbar Qaryagdioglu, Uzeyir Hajibeyov*

# “Milli-mənəvi və mədəni irsimizin təşəkkülündə Şuşa”

**mövzusunda**

**RESPUBLİKA ELMİ KONFRANSININ MATERİALLARI**

Texniki redaktor:
HÜSEYN KƏRİMOV

Səhifələyici:
SƏDAQƏT KƏRİMOVA

Çapa imzalanmışdır: 28.12.2022.
Ölçü: 70x 100 1/16. Çap vərəqi: 15,5. Sifariş: 84/22. Say: 500 ədəd.
Müqavilə qiyməti ilə.

AVE PRINT

Bakı, Az1122, H.Zərdabi 78c
Tel: +994 (12/70) 497 70 21
E-poçtu: info@ave.az